**Azərbaycan SSR Yeni iqtisadi siyasət illərində.Azərbaycanda sovet milli siyasəti.DQMV və Naxçıvan MSSR-in yaradılması.**

**Plan:** 1.Yeni iqtisadi siyasətə keçid ərəfəsində iqtisadi və siyasi vəziyyət.
2. Yeni iqtisadi siyasətə keçidin zəruriliyi və mahiyyəti.
3. Azərbaycanda Yeni iqtisadi siyasətin xüsusiyyətləri
4. Yeni iqtisadi siyasətin nəticələri.
5. Azərbaycanda sovet milli siyasəti.DQMV və Naxçıvan MSSR-in Yaradılması.

Sovet respublikalarında vətəndaş müharibəsi əsasən 1922-ci ilin payızında başa çatdı. Dinc quruculuq mürəkkəb beynəlxalq vəziyyətdə, sovet ölkəsinin iqtisadi mühasirəyə alınmasını təşkil edən Qərb imperialist qüvvələrinin müqaviməti şəraitində başlandı. Sovet Azərbaycanında dinc quruculuğa keçid müharibə, xarici müdaxilə və vətəndaş müharibəsi nəticəsində yaranmış ən ağır təsərrüfat dağıntısı Şəraitində baŞ verirdi. İqtisadi təcridolunma, Ermənistanla sərhəddə tez-tez baŞ verən hərbi münaqişələr, Qarabağda daÇnakların təxribatları, daxili çəkiÇmələr respublikanı var-yoxdan çıxarırdı. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra "daşnak hökuməti" İrana qaçaraq Təbrizdə yerləşdi. 1922-ci il oktyabrın 22-də RSFSR hökuməti nota ilə Irana müraciət edərək, onu öz ərazisindən çıxarmasını tələb etdi. Maraqlısı budur ki, o hökumətin üzvü, notada adı çəkilən Xondakaryan sonralar mühacirətdə olan Kerenskinin müavini olmuÇdu. 1921 -1922-ci illərdə RSFSR və Ermənistan SSR-in Iranda olan səfirləri öz notalarında İran hökumətinin nəzərinə çatdırırdılar ki, iranda "daşnaksutyun" toşkilatının olması qonşuluq əlaqələrinin yaradılması və inkiÇafı üçün təhlükədir. "DaÇnaksutyun" Rusiyadan qaçmış əksinqilabçıları və ağqvardiyaçıları pulla ələ alıb öz ətrafında cəmləŞdirərək sovet respublikalarına basqınlar təÇkil edirdi. Onların 1922-ci ilin aprelində İranın xarici iŞlər naziri Hakim əl-Mülkə göndərdikləri notada deyilirdi: "Təbrizdə daŞnaklar əvvəllərdə olduğu kimi, qayduk dəstəsini təÇkil etmək və silahlandırmaqla məÇğuldurlar, həm də onlar eyni zamanda, Mujdubər anbarından silahları Zəngəzura daÇıyır, orada üsyan qaldıracaqlarına ümid edirlər"1. Notada eyni zamanda qeyd olunurdu ki, Rə.tdə daÇnak komitəsinin sədri dr Terteryan sovet respublikalarına garşı ən cinayətkar fəaliyyət göstərir. "Daşnaksutyunun"

Şərq bürosunun sədri Ruben pa.a öz mauzerçiləri ilə birlikdə İranın müxtəlif şəhərlərini sərbəst surətdə gəzir və hər yerdə sovetlər əleyhinə qruplar yaradırdı2.
Ərdəbil dairəsi, 1922-ci ilin ilk aylarında sovet Azərbaycanına böyük basqınlar təǴkil olunan meydana çevrilmiǴdi. Dairənin ərazisində Azərbaycan SSR-ə qarǴı silahlı basqınçıların və qarətçilərin mərkəzləri var idi. RSFSR-in Ġranda olan səlahiyyətli nümayəndəsinin 1922-ci il avqustun 9-da Ġranın xarici iǴlər naziri Qavam-əs-Səltənəyə göndərdiyi notada qeyd olunurdu ki, Astara və baǴqa rayonlarda quldur ġahverən bəyin 150 nəfərlik dəstəsi, əksinqilabçılar Əhməd Rəsulov və Xalıq bəyin hər birində 50-dən 150-yə qədər adam olan quldur dəstələri fəaliyyət göstərirlər. Onlar müntəzəm olaraq sovet Azərbaycanının ərazisinə silahlı basqınlar edir, sərhədyanı kəndləri qarət edir, sərhədçiləri və kəndliləri qətlə yetirirlər.
Azərbaycanın iqtisadi həyatının bütün sahələri - sənayesi, kənd təsərrüfatı və nəqliyyatı dərin böhran içində idi. 1921-ci ildə respublikanın sənaye istehsalı 1913-cü ilin istehsal səviyyəsinin 43 faizini təǴkil edirdi3. Bakı neft sənayesi xüsusilə ağır vəziyyətdə idi. Neft istehsalı üç dəfə azalmıǴdı, 1913-cü ildə istehsal edilmiǴ 7,3 milyon tondan 1920/21-ci təsərrüfat ilində 2,4 milyon tona enmiǴdi ki, bu da müharibədən əvvəlki səviyyənin 33,4 faizini təǴkil edirdi4. Yeni neft quyularının qazılması demək olar ki, tamamilə dayanmıǴdı. 1920/21-ci ildə qazılan quyuların sayı 1913-cü ildə qazılmıǴ quyuların cəmisi 2 faizini təǴkil edirdi5. Qazma iǴində Bakı neft sənayesi 1878-ci ilin səviyyəsinə enmiǴdi6.
40 neft emalı zavodundan yalnız 18-i fəaliyyətdə idi, onlar da lazımi avadanlıq və xammal çatıǴmazlığı üzündən fasilə ilə iǴləyirdi 7. Neft emalı 3,5 dəfəyə qədər azalmıǴdı.
Bakıda H. Z. Tağıyevin toxuculuq fabrikində (ona Leninin adı verilmiǴdi) 1921-ci ildə dəzgahların yalnız üçdə biri iǴləyirdi. Gədəbəy misəritmə zavodu, Tovuz və KeǴlə sement zavodları, kərpic zavodlarının 98 faizi dayanmıǴdı. ġəkidə olan 69 baramaaçan fabrikdən yalnız üçü, 1914-cü ildən Ordubadda fəaliyyət göstərən on iki baramaaçan fabrikdən yeddisi, Azərbaycan qəzalarında olan pambıqtəmizləmə zavodlarının yalnız ikisi iǴləyirdi.

Azərbaycanın balıq sənayesi tam tənəzzülə uğramıĢdı. 1920-ci ildə balıq ovu 1913-cü ilə nisbətən on yeddi dəfə azalmıĢdı. Naxçıvan qəzasında duz istehsalı 1913-cü il səviyyəsinin 52 faizini təĢkil edirdi.

Azərbaycan dəmir yolu çox zərər çəkmiĢdi, parovoz və vaqonlar çatıĢmırdı. 1920-ci ilin sonuna yaxın 54 paravozun əsaslı təmirə ehtiyacı var idi. Bakıda əsas dəmir yol emalatxanalarının yalnız iyirmi faizi əvvəlki istehsal gücü ilə iĢləyirdi. ZəhmətkeĢ xalq, əsasən Ģəhərlərdə fəhlələr çox ağır maddi ehtiyac içərisində yaĢayırdı, paltar, ayaqqabı, ərzaq çatıĢmırdı. Bakıda əhalini təmin etmək üçün kartoçka sistemi tətbiq olunmuĢdu9. Çörəklə təchizatın çətinləĢməsi bütün neft sənayesinin iĢi üçün təhlükə doğururdu. Fəhlələrin mənzillə təminatı da olduqca pis idi. Müəssisələrdə əmək intizamı pozulmuĢdu. Çətinliklərlə üzləĢən fəhlələr tez-tez iĢə çıxmamaq məcburiyyətində qalırdılar, onların arasında tətil etmək meyli artırdı. Əmək məhsuldarlığı 1921 -ci ildə 1913-cü ilə nisbətən buruq qazma iĢində 6,5, neft istehsalında 1,2 dəfə azalmıĢdı. İxtisaslı fəhlələrin çoxu əmək haqqı yüksək olan kustar emalatxanalara, yaxud da kəndlərə gedirdilər. 1918-ci ildən 1921-ci ilə qədər Bakıda neftçi fəhlələrin sayı azalaraq 52 mindən 23 minə enmiĢdi. Neft sənayesi təhlükə qarĢısında idi. Respublikanın kənd təsərrüfatı da ağır böhran keçirirdi. Suvarma sisteminin dağılması nəticəsində Azərbaycanda iki yüz min desyatinə qədər suvarılan torpaq istifadəsiz qalmıĢdı. Kənd təsərrüfatı üçün yararlı olan torpaqların sahəsi 1921-ci ildə, 1914-cü ilə nisbətən 42 faiz azalmıĢdı. Azərbaycanda pambıq becərilməsi, demək olar ki, tamamilə dayandırılmıĢdı: 1921-ci ildə pambıq əkini sahəsi müharibədən əvvəlki səviyyənin 2,3 faizini təĢkil edirdi. Bütün əkin sahələrinin 1914-cü ildə on iki faizi, 1921-ci ildə isə 0,7 faizi pambıqçılığa aid idi12. Bu, qismən də onunla izah olunurdu ki, aclıq pambıqçı kəndlilərin çoxunu taxıl məhsulları əkməyə məcbur edirdi.

Ġpəkçilik də tənəzzülə uğramıĢdı. Azərbaycanda tut bağlarının sahəsi yarıya qədər azalmıĢdı. 1921-ci ildə barama istehsalı cəmisi altı min puda çatırdı, halbuki 1913-ci ildə bu rəqəm 180 min pud idi13. Bağçılıq və üzümçülük güclü zərər çəkmiĢ, bağ və üzümlüklərin sahəsi 1921-ci ildə 1913-cü ilə nisbətən 9 min desyatin azalmıĢdı.

Azərbaycanda əkinçilik çəyirtkə basqınından da tez-tez zərər çəkirdi. Təkcə 1920-ci ildə respublikada iki yüz min desyatinə bərabər kənd təsərrüfatı sahələrinin məhsulları çəyirtkə basqını nəticəsində məhv olmuĢdu. Maldarlığa da ciddi ziyan dəymiĢdi. Azərbaycanda 1921-ci ildə mal-qaranın sayı, 1913-cü ilə nisbətən qırx faiz azalmıĢdı. Kəndli təsərrüfatlarının məhsuldarlığı xeyli aĢağı düĢmüĢdü. Kəndlilərin 26 faizi iflasa uğrayaraq əkin sahəsindən məhrum olmuĢ16, 25 faizi isə əkin sahəsi 1 desyatindən çox olmayan kasıb təsərrüfat sahibinə çevrilmiĢdi17. Kəndlilərin iĢ heyvanı və kənd təsərrüfatı alətləri çatıĢmırdı. Onlar öz torpaqlarını primitiv alətlərlə, əsasən ağac xıĢla becərirdilər. 1921-ci ildə Azərbaycanda hər yüz kəndli təsərrüfatına cəmisi 9 dəmir kotan düĢürdü. Azərbaycan kəndliləri təkcə öz təsərrüfatlarının dağılmasına görə deyil, eyni zamanda sənaye istehsalının fəlakətli dərəcədə tənəzzülə uğramasına görə də ağır maddi vəziyyətə düĢmüĢdülər. Kəndlilər, əhalinin digər zəhmətkeĢ hissəsi kimi, ən vacib olan Ģeylərdən korluq çəkirdilər. Sənaye malları fonduna malik olmayan dövlət o zaman kənd təsərrüfatı məhsullarını sənaye mallarına dəyiĢmək yolu ilə onların istehsal marağını artıra bilmirdi. Məsələn, 1921-ci ilin fevralında ġamaxı qəzasının vəziyyəti barədə belə məlumat verilirdi: "Hazırda kəndlilərin ağ nefti, kibriti, ayaqqabısı, arĢınmalı, sabunu və kənd təsərrüfatı alətləri yoxdur. Kotanları təmir etmək üçün dəmir də yoxdur. Bir girvənkə ağ neft burada min manat, bir qutu kibrit 400 manatdır". Respublikanın iqtisadi vəziyyətini maliyyə böhranı da mürəkkəbləĢdirirdi.

**Yeni iqtisadi siyasətə keçid.** 1921-ci il ərəfəsində kəndlilərin fəhlələrin bir hissəsini əhatə etmiĢ narazılıq göstərirdi ki, "hər kormmunizm" siyasəti əsasında xalq təsərrüfatını bərpa etmək mükün deyil. Ərzaq sapalağı siyasəti, sosializmin quruculuğunun kommunist üsulu sistemi bütün kəndlilərin mənafeləri ilə toqquĢmağa baĢlamıĢdı. Belə bir Ģərait fəhlə sinfi ilə kəndlilərin ittifaqını, sosialist quruculuğunun taleyini təhlükə altına alırdı. Yeni iqtisadi siyasətə keçmək zəruriyyəti meydana çıxdı. Onun əsas məqsədi iqtisadi və sosial böhranın qarĢısını almaq, sovet hakimiyyətinin sosial bazası sayılan fəhlə və kəndli ittifaqını möhkəmləndirmək idi.

1921-ci ilin martında RK(b)P X qurultayı ərzaq sapalağını ləğv etmək, natural ərzaq vergisinə keçmək barəsində qərar qəbul etdi. Ərzaq vergisinin miqdarı ərzaq sapalağından az idi. Ərzaq vergisi ödənildikdən sonra qalan məhsul kəndlinin ixtiyarında qalırdı və o, bu məhsulu azad surətdə sata da bilərdi. ġəhərlə kəndin, sənaye ilə kənd təsərrüfatının iqtisadi əlaqələrini qoruyub saxlamaq üçün, bir müddət əmtəə istehsalını (alğı-satqı vasitəsi ilə mübadiləni) saxlamaq nəzərdə tutulurdu, müəssisələr öz məhsulunun bir hissəsindən istədiyi kimi istifadə edə bilirdi ki, bu da fəhlələri maddi cəhətdən həvəsləndirirdi. Kiçik və kustar sənaye, xüsusi ticarət Çəbəkəsi geniÇləndi, YĠS-in tətbiqi ilə torpağı icarəyə götürməyə, muzdlu əmək tətbiq etməyə icazə verildi, sənaye müəssisələri təsərrüfat hesabına keçirildi, onların bir çoxu kooperativlərə, Çirkətlərə, yaxud xüsusi Çəxslərə icarəyə verildi. O vaxt V.Ġ.Lenin etiraf etmiÇdi: "Biz müəyyən dərəcədə yenidən kapitalizm yaratdıq". YĠS hər Çeydən əvvəl ölkəni iqtisadi və siyasi böhrandan çıxarmaq, fəhlə sinfi ilə kəndlilərin ittifaqını möhkəmləndirmək məqsədini daÇısa da, onu "ciddi və uzun müddətə", "lakin... həmiÇəlik yox", həyata keçirmək fikrində idi. Ġqtisadiyyatın hakim mövqeləri "bolÇevik" dövlətinin əlində qalırdı ki, bu, qüvvələri yenidən qruplaÇdırmaq, proletariat diktaturasının" iqtisadi hakimiyyətini gücləndirmək məkanı yaradırdı. Beləliklə, V.Ġ.Lenin və onun həmfikirləri təsərrüfatın sosialist formasının inkiÇaf etdiriləcəyinə, "kim-kimi" məsələsinin "sosializmin" xeyrinə həll olunacağına ümid edirdilər.

1921-ci ilin yazından baÇlayaraq, baÇqa sovet respublikalarında olduğu kimi, Azərbaycan SSR-də də "hərbi kommunizm" siyasətindən YİS-ə keçid əməli olaraq həyata keçirilirdi. Bu istiqamətdə atılan ilk addımlardan biri Azərbaycan Ġnqilab Komitəsinin 192l-ci il mayın 17-də "Ərzaq inhisarlarının bütün formalarının ləğv edilməsi barədə" dekreti oldu. Bu dekretlə ərzaq sapalağının qalıqları ləğv edildi, müəyyən çərçivədə, ticarətdə müstəqilliyə icazə verildi.

YĠS həyata keçirilərkən Azərbaycanda və digər milli respublikalarda iqtisadi vəziyyəti, tarixi keçmiÇi, məiÇət və mədəniyyət xüsusiyyətlərini nəzərə almaq tələb olunurdu. Bu xüsusiyyətlər sırasına iqtisadi gerilik, milli proletariatın

azsaylılığı, yerli kadrların çatıÇmaması daxil idi. Bunlardan baÇqa, demək olar ki, milli rayonlar üçün eyni olan xüsusiyyətlərlə bərabər, Azərbaycanda çoxmillətli fəhlə sinfinin xeyli hissəsi Azərbaycan kəndi ilə bilavasitə bağlı olmadığından vəziyyət mürəkkəbləÇirdi. Bu, Bakı fəhlələri ilə Azərbaycan kəndlilərinin əlaqəsini çətinləÇdirirdi. Millətlərarası münasibətlər də mürəkkəb idi. Millətlər arasında düÇmənçiliyin təzahürünü, hakim Çovinist-millətçiliyi, mərkəzin diktatorluğunu ləğv etmək lazım idi. Yeni iqtisadi siyasət 30-cu illərin ortalarına qədər davam etdi, kapitalizmin canlamasi demək olsa da amma o dövr üçün yeganə doğru siyasət idi.

Azərbaycan neft Bakısı kimi çox böyük sənaye mərkəzi, bir çox Çəhərlərdə və qəzalarda da kiçik sənaye ocaqları olmasına baxmayaraq, əsasən aqrar ölkə olaraq qalırdı. 1921-ci ildə respublika əhalisinin 77,6 faizini kənd əhalisi təşil edirdi32. Fəhlə və qulluqçular əsasən Bakı rayonunda cəmləşmişdi, qəzalarda əhalinin əksəriyyətini kəndlilər, az bir hissəsini fəhlələr təÇkil edirdi.

SSRİ-nin yaranması ilə Azərbaycan formal müstəqilliyini belə itirdi.İmperiyanın müstəmləkəsinə çevrildi. Digər regionlarda olduğu kimi Azərbaycanda da covet milli siyasəti qabarıq şəkildə özünü göstərirdi.Bu siyasətin mühüm istiqamətlərindən biri ruslaşdırma siyasəti idi. Kadr çatışmazlığı bəhanə edilərək ruslar, ermənilər mühüm vəzifələrə təyin edilirdi.Rus və ermənilərin köçürülməsi ilə əhalinin sosial tərkibində qeyri millətlərin xüsusi çəkisi artırılr, sovet rejimi üçün sosial dayaq yaradılırdı.Bakıda əhalinin yarıdan çoxunu erməni və ruslar təşkil edirdi. Qarışıq nikahların qurulması da bu prosesi sürətləndirirdi. Mirzoyanların himayəsi altında Bakı şəhərinin mərkəzində erməni məhəlləsi deyilən yaşayış məhəlləsi yaradılmışdı. Xalqın dilinə, dininə, adər ənənəsinə biganəlik hökm sürürdü. Dövlət dili rus dili hesab edilirdi.N.Nərimanovun etirazına baxmayaraq mətbuat, informasiya vasitələrinə əsas yeri rus dili tuturdu. Sovet milli syasətinin mühüm istiqamətlərindən biri Azərbaycan ərazilərinin ermənilərə verilməsi idi

Azərbaycan sovet hökumətinin təkidi ilə 1921-ci il iyunun 3-də RK(b)P MK Qafqaz bürosunun plenumu daÇnakların Zəngəzurdakı qruplaÇmasının tezliklə

ləğv olunması haqqında qərar qəbul etdi və "taktiki mülahizələri" əsas tutaraq, erməni hökumətinə bir vəzifə olaraq tapĢırdı ki, öz bəyannaməsində Dağlıq Qarabağın Ermənistana guya məxsus olduğunu göstərsin. 1921-ci il iyunun 19-da Ermənistan SSR hökuməti XKS sədri A. Myasnikovun və XKS-nin bütün üzvlərinin imzaladıqları bəyannamə ilə mətbuatda çıxıĢ edərək, Dağlıq Qarabağı "Ermənistanın ayrılmaz hissəsi" elan etdilər"159. Ġyunun 30-da Ġrəvanda "Qərbi Ermənistandan" olan ermənilərin geniĢ mitinqində "YaĢasın sovet Zəngəzuru və Qarabağı! YaĢasın bütün zəhmətkeĢ ermənilərin sosialist respublikası!" Ģüarı ilə qətnamə qəbul olundu.

1921-ci il iyulun 4-də RK(b)P MK Qafqaz bürosu plenumunun iclasında büronun səkkiz üzvünün (Orconikidze, Maxaradze, Nərimanov, Myasnikov, Nazaretyan, Kirov, OraxelaĢvili, Fiqatner) və RK(b)P MK üzvü Stalinin, komsomolun Qafqaz bürosunun katibi Breytmanın və Gürcüstan KP MK-nın üç üzvünün iĢtirakı ilə Qarabağ məsələsi müzakirə olunarkən iki fikir aĢkar oldu. Bunların hər ikisi səsə qoyuldu (yalnız Qafqaz bürosunun üzvləri səs verirdilər). Qarabağ haqqında məsələyə dair səsvermədə səkkiz üzvdən yeddisi iĢtirak edirdi (OraxelaĢvili yox idi). Qarabağın Azərbaycanın tərkibində saxlanmasının lehinə Nərimanov, Maxaradze, Nazaretyan, əleyhinə Orconikidze, Myasnikov, Kirov, Fiqatner səs verdilər; erməni və müsəlman əhalisinin iĢtirakı ilə bütün Qarabağda rəy sorğusu keçirilməsinin lehinə Nərimanov, Maxaradze, Qarabağın dağlıq hissəsinin Ermənistanın tərkibinə daxil edilməsinin lehinə Orconikidze, Myasnikov, Fiqatner, Kirov, Qarabağın təkcə dağlıq hissəsində, yəni ermənilər arasında rəy sorğusu keçirilməsinin lehinə Orconikidze, Myasnikov, Fiqatner, Kirov, Nazaretyan səs verdilər. Beləliklə, plenum qərara aldı: "Dağlıq Qarabağ Ermənistan SSR-in tərkibinə daxil edilsin, rəy sorğusu yalnız Dağlıq Qarabağda keçirilsin". Belə olan halda N.N.Nərimanov bəyanatla çıxıĢ etdi: "Qarabağ məsələsi Azərbaycan üçün mühüm məsələ olduğuna görə, onun qəti həllinin RKP MK-ya çıxarılmasını zəruri sayıram"N.N.Nərimanovun qətiyyəti sayəsində Qafqaz bürosu məsələnin mahiyyətinə ciddi nüruz edərək və onun həllinin yüksək məsuliyyət tələb etdiyini nəzərə alaraq, Orconikidzenin və Nazaretyanın təklifi ilə ertəsi gün öz qərarına

yenidən baxdı. 1921-ci il iyulun 5-də RK(b)P MK Qafqaz bürosu RK(b)P MK üzvü Stalinin və Azərbaycan SSR-in Xalq Xarici İşlər komissarı M.D.Hüseynovun iĢtirakı ilə tam tərkibdə toplaĢaraq, üç nəfər bitərəf qalmaqla qərara aldı: "Müsəlmanlarla ermənilər arasında milli sülhün zəruriliyini, Yuxarı və AĢağı Qarabağın iqtisadi əlaqələrini, onun Azərbaycanla daimi əlaqəsini əsas tutaraq, Dağlıq Qarabağ Azərbaycan SSR-in hüdudlarında saxlansın, onun tərkibinə daxil olan ġuĢa Ģəhəri inzibati mərkəzi olmaqla geniĢ vilayət muxtariyyəti verilsin".Ertəsi gün AK(b)P MK-nın Siyasi və TəĢkilat bürosu Qarabağ haqqında Ə.H.Qarayevin məlumatmı dinləyərək, Qarabağın Konstitusiyasını hazırlamaq üçün komissiya yaratmağı qərara aldı. 1921-ci il avqustun 1-də keçirən fövqəladə qurultayında L.Ġ.Mirzoyan Qarabağ məsələsinə dai məruzə edərək demiĢdi ki, iqtisadi, mənəvi, siyasi və milli baxımdan Qarabağ Azərbaycanın mərkəzi ilə sıx bağlıdır. "Bu amillərin özü məsələni irəlicədən həll edir ki, biz Qarabağı hansı siyasi quruma aid etməliyik"172. Daha sonra L.Ġ.Mirzoyan Azərbaycan SSR tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılması haqqında RK(b)P MK Qafqaz bürosu qərarının düzgün və məqsədəuyğun olduğunu bildirmiĢdi. 173 Lakin Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında qərar Azərbaycanın hcç də hər yerində və ictimaiyyətin nümayəndələrinin hamısı tərəfindən razılıqla birmənalı qarĢılanmadı. Ona görə Qarabağ məsələsinə dair yeni materialları cəlb etməklə məsələni bundan sonra da öyrənmək üçün Ə.H.Qarayev, S.M.Əfəndiyev və D.X.Bünyadzadədən ibarət xüsusi komissiya yaratmaq qərara alındı. Komissiyaya dərhal Qarabağa yola düĢmək və orada olduğu müddətdə partiya vo sovet iĢinə rəhbərlik etmək tapĢırıldı1. Dağlıq Qarabağın muxtariyyəti haqqında məsələ 1922-ci ilin noyabrında AK(b)P MK-nın və Bakı Komitəsinin plenumunda məsul iĢçilərin iĢtirakı ilə müzakirə olundu. Plenum AK(b)P Rəyasət Heyətinə tapĢırdı ki, Dağlıq Qarabağın müzakirəsi haqqında məsələnin iĢlənib hazırlanmasına dair komissiyanın müvəqqəti tərkibini təsdiq etsin1.

Qarabağ haqqında məsələ 1922-ci il dekabrın əvvəlində RK(b)P Zaqafqaziya Ölkə Komitəsində müzakirə edildi. ZÖK sədrdən, yeddi üzvdən və ġuĢa, Cəbrayıl və

CavanĢir qəzaları icraiyyə komitələrinin hərəsindən bir nümayəndədən ibarət tərkibdə Dağlıq Qarabağın iĢləri üzrə Mərkəzi komissiyanı təsdiq etməyi qərara aldı. Komissiyaya ali orqanlar və AK(b)P MK ilə müstəqil əlaqə saxlamaq hüququ verilirdi182. Bu qərara uyğun olaraq, 1922-ci il dekabrın 15-də AK(b)P MK-nın Rəyasət Heyəti S.M.Kirov baĢda olmaqla Azərbaycan SSR XKS yanında Dağlıq Qarabağın iĢləri üzrə Mərkəzi komissiyanın və A.N.Karakozovun sədrliyi ilə Dağlıq Qarabağın iĢləri üzrə komitənin tərkibini təsdiq etdi183. 1923-cü il iyunun 1-də AK(b)P MK-nın Rəyasət Heyəti Qarabağın muxtariyyəti barədə dekret verməyi qərara aldı186. 1923-cü il iyunun 20-də Rəyasət Heyəti komissiyasının təqdim etdiyi layihəni nəzərdən keçirib "istər dağlıq, istərsə də düzən Qarabağı bir inzibati vahid saymağı zəruri bildi" və Ə.H.Qarayevin sədrliyi ilə komissiyaya tapĢırdı ki, bu məsələni ətraflı iĢləyib hazırlasın və AK(b)P MK Rəyasət Heyətinin təsdiqinə versin. Lakin AK(b)P MK-nın Rəyasət Heyətində baĢqa rəy də söylənildi: Qarabağ məsələsinin qəti həlli üçün Dağlıq Qarabağın Muxtar vilayətə çevrilməsi haqqında Azərbaycan Xalq Komissarları Sovetinin dekreti lazımdır187. 1923-cü il iyunun 27-də Qarabağ komitəsinin məruzəsini müzakirə edən RK(b)P-nin Zaqafqaziya Ölkə Komitəsinin plenumu həmin rəyi təsdiq etdi1.
Nəhayət, 1923-cü il iyulun 1-də AK(b)P MK-nın Royasət Heyəti S.M.Kirovun sədrliyi və üzvlərin - Ə.H.Qarayevin, L.Ġ MirzoyanınQ.M.Musabəyovun, R.Ə.Axundovun iĢtirakı ilə Qarabağ haqqında məsələni müzakirə edərək qərara aldı: "Azərbaycan MĠK-ə (Rəyasət Heyətinin adından) Dağlıq Qarabağın muxtariyyəti barədə dekret verib mərkəzi Xankəndi olmaqla Ġcraiyyə Komitəsinin baĢçılıq etdiyi Qarabağ muxtar vilayəti yaradılsın". Ġcraiyyə Komitəsi təĢkil edilənə qədər Qarabağı idarə etmək üçün beĢ nəfərdən ibarət Ġnqilab Komitəsi və yenə beĢ nəfərdən ibarət vilayət partiya komitəsi yaratmaq təklif olunurdu. Ġnqilab komitəsı iki ay ərzində sovetlər qurultayı çağırmalı idi.
Ə.H.Qarayev (sədr), A.N.Karakozov, Ç.Ġ.Ġldırım, D.X.Bünyadzadə və Sviridovdan ibarət xüsusi komissiyaya tapĢırıldıBu vəzifəni yerinə yetirmək üçün Azərbaycan Sovetlərinin Mərkəzi Ġcraiyyə Komitəsi qərara aldı:

1. Dağlıq Qarabağın ermənilər yaĢayan hissəsində Xankəndi mərkəz olmaqla, Azərbaycan SSR-in tərkib hissəsi kimi, muxtar vilayət təĢkil edilsin.

2. Muxtar vilayətin idarəetmə orqanları Vilayət Ġcraiyyə Komitəsi və yerli sovetlərdir. 176 Beləliklə, 1923-cü il iyulun 7-də Azərbaycan MĠK-in dekreti və Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) yaradıldığı elan edildi.

Azərbaycanda sovet hakimiyyətinin qələbəsindən sonra da, daĢnak silahlı qüvvələrinin təcavüzkar hərəkətləri nəticəsində Naxçıvan diyarında gərginlik hələ də davam edirdi. RSFSR hökumətinin daĢnak hökuməti ilə danıĢıqlar vasitəsilə münaqiĢəni həll etmək cəhdi baĢ tutmadı. 1920-ci *ilin* iyulunda Naxçıvan, Culfa və Ordubad əhalisi N.N.Nərimanova və Q.K.Orconikidzeyə məktubla müraciət etdi. Məktubda deyilirdi; "Yerli əhali öz qüvvəsi ilə daĢnaklardan müdafiə olunur, Qızıl ordunun köməyi ilə bizim diyarı azad etməyi və Azərbaycanla birləĢdirməyi təmin etməyi təvəqqə edirik"115. 1920-ci il iyulun 28-də AK(b)P MK Siyasi Bürosu Naxçıvandakı vəziyyəti müzakirə edərək, Azərbaycan Ġnqilab Komitəsinə tapĢırdı ki, Naxçıvan məsələsini prinsipial Ģəkildə aydınlaĢdırsın. Ermənistan ilə Azərbaycan arasında sərhədləri müəyyənləĢdirsin və Naxçıvan diyarında sovet hakimiyyəti qurulmasına kömək göstərilməsi haqqında XI Qızıl ordunun Hərbi inqilab ġurası ilə danıĢıqlar aparsın". XI Qızıl ordu hissələrinə Naxçıvan ərazisini erməni-daşnak işğalçılarından təmizləmək əmri verildi. XI Qızıl ordunun 1-ci Qafqaz polku Gorus, ġahbuz və Cəhridən keçərək, 1920-ci il iyulun 28-də axĢamüstü Naxçıvan Ģəhərinə daxil oldu. Beləliklə, Naxçıvan diyarında da sovet hakimiyyəti quruldu. Naxçıvan Sovet Sosialist Respublikası elan edildi və1921-ci il yanvarın 12-də AK(b)P MK-nın Siyasi və TəĢkilat bürosıı B.A.ġahtaxtınskini HĠġ-in mandatı ilə Naxçıvana komissarı göndərməyi qərara aldı. 1921-ci ilin əvvəlində Naxçıvan respublikasında onun Azərbaycan SSR tərkibinə daxil olması barədə rəy sorğusu keçirildi. Rəy sorğusu nəticəsində respublika əhalisinin 90 faizi Naxçıvan diyarının Azərbaycan SSR tərkibində qalmasına tərəfdar çıxdım.

Naxçıvan diyarı o zaman böyük çətinliklər içində, daĢnak hissələrinin və Ġranın Ģimal əyalətində fəaliyyət göstərən əksinqilabi qüvvələrin əhatəsində qalmıĢdı.

Bu qüvvələr Naxçıvanda sovet hakimiyyətini devirməyə dəfələrlə cəhd göstərdilər. Lakin 1921-ci il martın 16-da RSFSR ilə Türkiyə arasında imzalanmıĢ dostluq müqaviləsi sayəsində, imperialistlər tərəfindən dəstəklənən erməni daĢnaklarının fitnələrinə son qoyuldu. 1922-ci il mayın 22-də AK(b)P MK-nın Rəyasət Heyəti Naxçıvan diyarı haqqında Əsasnamənin və Naxçıvan SSR Konstitusiyasının Azərbaycan MĠK tərəfindən təqdim olunmuĢ layihələrini müzakirə etdi. Naxçıvan diyarı haqqında Əsasnamədə deyilirdi: "Naxçıvan diyarı ASSR-in qəyyumluğu altında muxtar respublika elan edilərək Naxçıvan Sovet Sosialist Respublikası adlandırılsın"127. Əsasnamədə göstərilirdi ki, Naxçıvan diyarının dövlət hakimiyyəti Azərbaycan SSR Konstitusiyasına uyğun olaraq təĢkil edilir.

Naxçıvan SSR Konstitusiyasının layihəsində deyilirdi: "NSSR, dinindən, irqindən və milli mənsubiyyətindən asılı olmayaraq vətəndaĢların bərabər hüquqlara malik olmalarını təsdiq edərək, bu zəmində hər hansı imtiyazların və ya üstünlüklərin müəyyən olunmasının, yaxud bunlara yol verilməsinin, eləcə də milli azlıqlara qarĢı hər cür zülmun və va onların hüquqbərabərliyinin məhdudlaĢdırılmasının respublikanın əsas qanununa zidd olduğunu elan edir. 1923-cü il yanvarın 21-də AK(b)P Mərkəzi Komitəsi həmin qərarı müzakirə edərək Naxçıvan MĠK və XKS-nin ləğv olunması və Naxçıvan diyarı Ġcraiyyə Komitəsinin yaradılmasını qərarlaĢdırdı. Naxçıvan Diyar Komitəsi AK(b)P Naxçıvan Diyar Komitəsi adlandırıldı132. Ertəsi gün AK(b)P MK-nın Rəyasət Heyəti bu məsələ ilə əlaqədar Diyar partiya konfransı çağırmağı və məsələni Naxçıvan diyarı sovetlər qurultayında müzakirə edib bəyannamə hazırlamağı tapĢırdı.

Naxçıvan SSR-in Naxçıvan diyarına çevrilməsi və onun muxtar vahid hüququnda Azərbaycan SSR tərkibinə daxil olması bölgənin əhalisi tərəfindən bəyənildi. 1923-cü il fevralın 27-də III Ümumnaxçıvan Sovetlər qurultayı bəyannamə verdi: "Hesab edərik ki, hizim möhkəmlənməyimiz - fəhlə və kəndlilərin hakimiyyətinin möhkəmlənməsi yalnız ümumi birgə iĢimizlə, Sovet Azərbaycanı ilə çiyin-çiyinə iĢləməklə mümkündür, Sovet Azərbaycanının ayrılmaz muxtar hissəsi kimi onun tərkibinə daxil olmağımızı zəruri sayırıq". Qurultay qərara aldı: "Bütün Naxçıvan diyarı özünün bütün aparatları ilə muxtar diyar hüququnda Azərbaycan SSR-in

tərkibinə daxil olsun. "Naxçıvanın Azərbaycanın himayəsi altında muxtar ərazi" statusu RSFSR-in iĢtirakı ilə, Azərbaycan, Gürcüstan, Ermənistan və Türkiyə arasında 1921-ci ilin 13 oktyabrında Qarsda bağlanmıĢ 20 maddədən ibarət dostluq müqaviləsində təsbit edildi.

Naxçıvan diyarının çox mürəkkəb və gərgin siyasi ziddiyyətlər şəraitində muxtar dövlət statusunun 1921-ci ildə beynəlxalq müqavilələrdə "əks olunması həmin dövrdə, həm də Azərbaycanın indiki dövründə böyük siyasi əhəmiyyət kəsb edən bir fakt kimi qiymətləndirilməlidir". ("Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti H.Ə.Əliyevin Fərmanı. "Respublika" qəz., № 24, 5 fevral 1999-cu il).

## ədəbiyyat


1. İbrahimov Z. Lenin və Azərbaycanda sosialist inqilabının qələbəsi. Bakı: 1970
2. Yenə onun. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi. Bakı: 1957
3. Əhmədov X. Azərbaycanda Sovetlərin yaranması və möhkəmləndirilməsi (1920-1925). Bakı: 1961
4. Bünyadov Z. Qırmızı terror. Bakı: 1993
5. Quliyev C. K istorii obrazovaniə Vtoroy respubliki Azerbaydjana. Bakı: 1997
6. Əliyev X., Əlimirzəyev X. Azərbaycanda kənd təsərrüfatının kollektivləşdirilməsi tarixindən. Bakı: 1957
7. Əziz B. Azərbaycanda sovet işğal rejiminə qarşı mübarizə (1920-1991). Magistr hazırlığı üçün proqram. Bakı: 2008
8. Vəkilov M. Böyük Oktyabr inqilabı və Azərbaycanda sosialist mədəniyyətinin çiçəklənməsi. Bakı: 1955
9. Məmmədov E. Kənd təsərrüfatının elliklə kollektivləşməsi ərəfəsində Azərbaycan kəndində sinfi mübarizə (1927-1929) Bakı: 1961
10. N.Nərimanov. Ucqarlarda inqilabımızın tarixinə dair. Bakı: 1992
11. İbrahimli F. Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-1930). Bakı: 1996
12. Yenə onun: 20-ci illərin əvvəllərində Azərbaycan kəndində ictimai-siyasi vəziyyət. Bakı: 1995
13. Yenə onun: Azərbaycan kəndində sovetləşmə siyasəti. Mütərcim, 1996
14. Yenə onun: Sovet hakimiyyəti, yoxsa hakimiyyətsiz Sovetlər. Bakı: 1997
15. Yenə onun: Sovetləşmə siyasəti, yoxsa yandırma əməliyyatı. (Tariximizin qaranlıq səhifələrindən) Tarix və onun problemləri jurn. Bakı: 2000, №1
16. Yenə onun: Millətçi pasportu kimlərə verilirdi. Tarix və onun probl. Bakı: №1, 1999
17. Yenə onun: Tarixi şəxsiyyətlərə ədalətli münasibət lazımdır. «Mütərcim» jurn. №1, 1999.
18. «Bakinskiy raboçiy» qəzeti, 6 noyabr, 2 dekabr, 25 dekabr 1921-ci il

19. Azərbaycan Respublikası EA elmi arxivi, f. I, siy. 9, iş 4798, v. 230, v.231, v.235
20. Azərbaycan Respublikası SPİH MDA, f. I, siy. 74, iş 7, v 31
21. Azərbaycan Respublikası SPİH MDA N.Nərimanov fondu. F.609, siy. I, iş 71, v. 1-7
22. XX əsr Azərbaycan tarixi. II c, Bakı: 2004
23. Qaffarov T. Azərbaycan tarixi (1920-1991), Bakı: 1999
24. Məmmədzadə M.B. Köylü hərəkatı. Lenin milli siyasəti. Bakı: 2007
25. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı: 1992.
26. İbrahimli X. Azərbaycan siyasi mühacirəti. Bakı: 1998.
27. Həsənov C. Ağ «ləkə»lərin qara kölgəsi. Bakı: 1991.
28. Qafqazda sovet totalitarizmi (20-30-cu illər). Bakı: 1998
29. Rəsulzadə M.Ə. Bolşeviklərin şərq siyasəti. Bakı: 1994.
30. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: 1990.

**Azərbaycan SSR birtərəfli sosialist sənayeləşdirilməsi, zoraki kollektivləşmə illərində.Kütləvi repressiyalar.**

**Plan:** 1.Birtəfli sosialist sənayeləşməsi/
2.Sənayeləşmənin nəticələri.
3. Azərbaycan SSR Zorakı kollektivləşmə illərində
4 Azərbaycan SSR-də inzibati-amirlik sisteminin acı nəticələri və kütləvi-siyasi repressiyalar.

SSRİ-də sənayeləşdirmə xətti 1925-ci ilin dekabrında ÜİK(b)P XIV qurultayı tərəfindən müəyyən edilmişdi. Azərbaycanda sənayeləşdirmə xəttini həyata keçirmək üçün 1926-cı il fevralın 3-də Q.Musabəyovun sədrliyi ilə respublikanın sənayeləşdirilməsi komissiyası yaradıldı. Azərbaycanda sənayeləşdirmənin özünəməxsus xüsusiyyəti ondan ibarət olmuşdur ki, onun əsas aparıcı sahəsini neft sənayesi təşkil etmişdir. Azərbaycanda bütün sənaye sahələriniinkişaf etdirmək üçün kifayət qədər maliyyə vəsaiti yox idi. Mərkəz isə yalnız neft sənayesini inkişaf etdirmək üçün vəsait ayırırdı. Ona görə də Azərbaycan qəzalarının sənayeləşdirilməsi məhdud xarakter daşıyır və ləng gedirdi. Sənayenin inkişafında Bakı ilə respublikanın digər bölgələri arasında ənənəvi uyğunsuzluq yenə də qaldı. Azərbaycanda sənayeləşdirmə xəttinin həyata keçirilməsində birinci beşillik planın yerinə yetirilməsi mühüm rol oynadı. Birinci beşillikdə yeni neft yataqları istifadəyə verildi, neftayırma, neftmaşınqayırma və neftkimya sənayesi inkişaf etdi. Təkcə Stalin adına neftayırma zavodunda 23 yeni neftayırma qurğusu tikilib istifadəyə verildi. Azərbaycanda birinci beşillik plan 3 il 4 ayda, neft sənayesində isə 2 il yarıma yerinə yetirildi. Sənayeləşdirmə xətti kəndin ictimai-iqtisadi həyatında da köklü dəyişikliklər olunmasını tələb edirdi. Kənd təsərrüfatında xırda kəndli təsərrüfatları üstünlük təşkil edirdilər. 1927-ci ilin dekabrında ÜİK(b)P XV qurultayı xırda kəndli təsərrüfatlarını birləşdirməyi və iri kollektiv təsərrüfatlara çevirməyi kənddə əsas vəzifə kimi qarşıya qoydu. Qurultay kənd təsərrüfatında kooperasiyanın bütün formalarının inkişaf etdirilməsi və yeni texnikanın tətbiqi əsasında elliklə kollektivləşməyə keçilməsini nəzərdə tuturdu. Azərbaycanda kollektiv təsərrüfatlar yaradılmasına hələ sovet hakimiyyətinin ilk illərində

başlanmışdı. 1921-ci ilin may ayında respublikada 137 kənd təsərrüfatı arteli və 17 kommuna vardı. Həmin kollektiv təsərrüfatların çoxu iqtisadi-texniki amillərin kifayətləndirici səviyyədə olmaması nəticəsində və kəndli kütlələrinin şüurunda fərdiyyətçiliyin güclü olması səbəbindən qısa müddətdə dağıldı. 1926-1928-ci illərdə kollektiv təsərrüfatlar yenidən təşkil olunmağa başladı. 1928-ci ildə Azərbaycanda 289 kolxoz vardı. Bu dəfə kolxozlar kənd yoxsullarının nisbətən şüurlu hissəsindən və əsasən könüllülük prinsipi ilə yaradılırdı. Təsadüfi deyil ki, yeni kollektiv təsərrüfatlarda kommunistlərin sayı əvvəlkilərdən iki dəfə, komsomolçuların sayı isə beş dəfə çox idi. Həm də yeni kolxozların 88 faizi kənd təsərrüfatı maliyyə kooperasiyası ilə əhatə olunmuşdu. Bu da kollektiv təsərrüfatlara kənd təsərrüfatı texnikası almaqda kömək edirdi. Lakin texnika ilə təchizat İttifaq mərkəzindən asılı idi. Mərkəz isə ucqar rayonlara çox az maşın ayırırdı. Belə ki, 1929-cu ildə Azərbaycanda kolxozların yalnız 59 faizində, cəmi 560 traktor var idi, kotanların sayı çox az idi, kolxozlar hələ də 100 min
xışdan istifadə edirdilər. Azərbaycanda 1928-ci ilin ortalarına qədər kollektivləşmə kəskin sinfi mübarizəsiz, dinc şəraitdə həyata keçirilir və müsbət nəticə verirdi. Kollektiv təsərrüfatların 40 faizindən çoxu vergidən azad edilmişdi. Vergidən azad olunmuş yoxsul, zəif kəndli kollektiv təsərrüfatları hesabına məsul istehsalı çoxalırdı. Ona görə də Azərbaycanda kollektivləşmə faizi Cənubi Qafqazın digər respublikalarından yüksək idi. Lakin 1928-ci ilin ortalarından başlayaraq bütün İttifaqda olduğu kimi Azərbaycanda da kolxozların təşkili süni sürətdə sürətləndirildi, hətta zorakılığa da əl atıldı. Azərbaycanda 1929-1930-cü illərdə
fərdi təsərrüfatların kollektivləşdirilməsi çox ləng getmişdir. Çünki kolxozlara əsasən yoxsul kəndlilər daxil olur, ortabablar isə hələ tərəddüd edirdilər. Azərbaycanda kəndli təsərrüfatlarının elliklə kollektivləşdirilməsi ikinci beşillikdə nəzərdə tutulmuşdu. Lakin ÜİK(b)P MK 1929-cu il noyabr plenumu Azərbaycanda elliklə kollektivləşdirməyə 1930-cu ilin əkin kampaniyası dövründə keçilməsi haqqında qərar verdi. 1930-cu ildə Azərbaycanda 1839 kolxoz olduğu halda, 1931-ci ildə kolxozların sayı 3330-a çatdı, yəni bir ildə 1491 kolxoz təşkil edildi. Bu kollektivləşmədə inzibati-amirlik siyasəti vasitəsilə aparılır və nəticədə kənddə

sinfi münasibətləri kəskinləşdirirdi. Kənddə sinfi münasibətlərin gərginləşməsi şəraitində SSRİ MJK və XKS 1930-cu il fevralın 1-də qolçomaqlara qarşımübarizə tədbirləri haqqında qərar qəbul etdi. həmin qərara əsasən Azərbaycanda qolçomaqlara qarşı mübarizə gücləndi. Qolçomaq ailə başçısı antisovet və əksinqilabçı ünsür adı ilə həbs edilib güllələnir, ailə üzvləri isə Sibirə, Qazaxıstana və Orta Asiyaya sürgün edilirdi. Kolxoz hərəkatına qarşı çıxış edən varlı kəndlilər də ailələri ilə birlikdə sürgün cəzasına məhkum edilir, yük vaqonlarına doldurularaq Sibirə və Qazaxıstana gedən dəmir yollarında həftələrlə saxlanmaqla min bir əzab-əziyyətlərə düçar olurdular. Sovet İttifaqının hər yerində olduğu kimi Azərbaycanda da qolçomaqlar Sovet hakimiyyətinə qarşı müxtəlif mübarizə formalarından istifadə edirdilər. Gəncənin Nərimanov dairəsində, Şirvanın Ucar dairəsində, Şəkinin Zaqatala dairəsində, Şəmkir dairəsinin Bitdili kəndində, Naxçıvan Muxtar Respublikasında Sovet hakimiyyətinə qarşı qiyamlar olmuşdur. Həmin qiyamlarda qolçomaqlarla birlikdə varlı və hətta ortabab kəndlilər də iştirak edirdilər. Həmin qiyamlar yatırıldı və iştirakçılarına divan tutuldu. Ümumiyyətlə, kollektivləşmə prosesində güclənən sinfi mübarizə pərdəsi altında Sovet Azərbaycanın kəndlərində soyqırıma bərabər dəhşətli cinayətlər törədildi. Azərbaycan Sovet hakimiyyəti dövründə sosializm quruculuğunun üç əsas vəzifələrindən biri, socialist sənayeləşdirilməsi və kənd təsərrüfatının kollektivləşdirilməsi ilə bərabər, mədəni inqilab olmuşdur. Sosializm quruculuğu dövründə ölkənin mədəni həyatında köklü dəyişikliklər baş verdiyi üçün mədəni quruculuq tədbirləri mədəni inqilab adlanırdı. Mədəni inqilabın mahiyyəti zəhmətkeş xalqın əməyi ilə yaradılmış mədəni sərvətləri xalqın malı etmək və geniş xalq kütlələrinin bu sərvətlərdən istifadə edə bilmələri üçün şərait yaratmaqdan ibarətdi.

**Azərbaycan SSR-də inzibati-amirlik sisteminin acı nəticələri və kütləvi-siyasi repressiyalar.** XX əsrin 20-30- cu illərində Sovet İttifaqında milli və dini mənsubiyyət məsələsi xüsusi əhəmiyyət kəsb edirdi. Azərbaycanda bir sıra partiya, dövlət və təsərrüfat orqanlarında rus dilini mükəmməl bilməmək bəhanəsilə, milli və dini mənsubiyyət amili azərbaycanlı

kadrların sıxışdırılması üçün əsas götürülürdü. Azərbaycanlıların, müsəlmanların simasında antisovet, əksinqilabçı ünsür obrazı yaradılmışdı. Rəhbər orqanlarda, xüsusilə partiya orqanlarında və güc "nazirliklərində", əsasən ruslar və ermənilər, qismən də gürcülər, yəhudilər və digər millətlərin nümayəndələrindən olan "gəlmələr" üstünlük təşkil edirdilər. 1934-cü ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin və Bakı Komitəsinin birinci katibi vəzifəsinə M.C.Bağırov seçilənədək Azərbaycan KP MK və BK-da, demək olar ki, azərbaycanlı işləmirdi. Mərkəzi Komitənin Bürosunun üzvlərindən cəmi iki nəfəri (milli respublikada tutduqları vəzifələrinə görə Azərbaycan SSR XKS və MİK-ın sədrləri) azərbaycanlı, qalanları isə rus və ermənilərdən olurdu. Bakı Komitəsi isə əsasən qeyri-müsəlman xalqların nümayəndələrindən təşkil edilirdi. M.C.Bağırov Azərbaycan SSR-də partiya rəhbərliyinə gəlmiş, Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibiseçilmiş ilk azərbaycanlı idi. O, 1921-ci ildən, hələ Azərbaycanın "müstəqilliyi" dövründən başlayaraq Azərbaycanın dövlət təhlükəsizlik orqanlarına başçılıq etmişdir. M.C.Bağırov Azərbaycana rəhbərlik etdiyi 20 il ərzində partiyanın rəhbər orqanlarını - Mərkəzi Komitə və Bakı Komitəsini azərbaycanlılaşdırma siyasəti yeritmişdir. M.C.Bağırov 1954-cü ildə həbs olunan zaman Azərbaycan KP MK Bürosunun üzvləri arasında yalnız bir erməni qalmışdı, qalanların hamısı azərbaycanlılar idi. XX əsrin 20-30-cu illərində inzibati-amirlik sisteminin hökm sürdüyü şəraitdə Azərbaycanda bir çox məsələlər mərkəzləşmiş qaydada Moskva tərəfindən idarə olunurdu. Böyük dövlətçilik diktatının totalitar rejimi təşəkkül tapdığı bir şəraitdə rus dilinin "birinciliyi" ictimai-siyasi və mədəni həyatın bütün sahələrində həlledici amilə çevrilir, Azərbaycan xalqının öz ana dili köklərindən uzaqlaşdırılmasına, öz tarixi keçmişinə və ədəbiyyatına biganə qalmasına, milli mədəni ənənələrini unutmasına səbəb olurdu. Azərbaycanda milli özünüdərkin hər cür təzahürü millətçilik damğası vurulmaqla kökündən kəsilirdi, milli özünüdərki az-çox özündə əks etdirən elmi və ədəbi əsərlər partiya iclaslarında, ictimai təşkilatların yığıncanqlarında və mətbuat səhifələrində təhqirlə dolu amansız tənqid atəşinə tutulurdu. Stalinin şəxsiyyətinə pərəstiş və inzibati-amirlik sistemi, bütün SSRİ-də

olduğu kimi, Azərbaycanda da başqa cür düşünən ictimai-siyasi xadimlərin və millətin ən yaxşı nümayəndələrinin güllələnməsi ilə müşayiət olunan siyasi represiyaların güclənməsinə səbəb oldu. Azərbaycan xalqı millətin zehni sərvətini təşkil edən çox parlaq simalarının bir, bəlkə də, iki nəslini itirdi. Azərbaycan milləti yüksələn inkişaf dövründə müəyyən müddət öz intellektual imkanlarından faktiki olaraq məhrum edildi. Mərkəz Azərbaycanın güc orqanlarında yerləşdirdiyi nökərləri Sumbatov - Topuridze, Markaryan, Qriqoryan, Yemelyanov, Borşov, Atakişiyev və b. vasitəsilə Azərbaycanın milli demokratik hərəkatının fəal iştirakçıları olan partiya və dövlət xadimlərinə, ziyalıların görkəmli nümayəndələrinə və zəhmətkeşlərin əməkdar nümayəndələrinə qarşı qəddarlıq göstərməklə cəza tədbirləri gördülər. Azərbaycanın görkəmli partyia və dövlət xadimlərindən Q.Musabəyov, B.Axundov, M.Hacıyev, D.Bünyadzadə, M.D.Hüseynov, Ç.İldırım, M.Qədirli, Ə.Qarayev, H.Bəhmanov, H.Sultanov, A.Sultanova, M.Nərimanov, S.M.Əfəndiyev, görkəmli mədəniyyət və elm xadimlərindən Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Yusif Vəzir Çəmənzəminli, B.Talıblı, T.Şahbazi, M.Cuvarlinski, B.Çobanzadə, hərbi xadimlərdən Səmədağa Mehmandarov, Əlağa Şıxlinski, Qamboy Vəzirov və b. məhv edildilər. Təkcə 1937-ci ildə Azərbaycanda "xalq düşməni" adı ilə 29 min nəfər güllələnmiş və Sibirə sürgün edilmişdi. 1937- ci ildə yalnız Xəzər Gəmiçiliyi İdarəsindən 200 rəhbər işçi, o cümlədən 19 gəmi kapitanı repressiya qurbanı olmuşdur. 1939-cu ildə ÜİK(b)P Mərkəzi Komitəsinin 1937-ci ildə repressiya olunmuşların işlərinə yenidən baxılmasına dair xüsusi Plenumu olmuşdur. Plenum kütləvi represiyalar zamanı heç bir günahı olmayanların da cəzalandığını qeyd edərək, belələrinə dərhal bəraət verilməsini dövlət orqanlarından tələb etmişdir. İttifaqın digər respublikalarında repressiyanın günahsız qurbanlarından bir çoxuna bəraət verilsə də Azərbaycanda heç kəsin işinə yenidən baxılmadı. Çünki Azərbaycanda kütləvi siyasi repressiya əslində Azərbaycan millətinin qatı düşmənlərinin, birinci növbədə ermənilərin siyasi qərəzçiliklə pərdələnmiş etnik düşmənçilik məqsədlərinin nəticəsi idi. Belə bir faktı qeyd etmək kifayətdir ki, Azərbaycanın 51 rayonundan 31-də milisin rəisi erməni idi. Bakı şəhərinin mərkəzi

hissəsində azərbaycanlılar "antisovet, əksinqilabçı ünsürlər" olduqlarına görə öz evlərindən çıxarılmış, onların mənzillərinə ruslar, ermənilər, yəhudilər və gürcülər yerləşdirilmişdilər.

ədəbiyyat


1. İbrahimov Z. Lenin və Azərbaycanda sosialist inqilabının qələbəsi. Bakı: 1970
2. Yenə onun. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi. Bakı: 1957
3. Əhmədov X. Azərbaycanda Sovetlərin yaranması və möhkəmləndirilməsi (1920-1925). Bakı: 1961
4. Bünyadov Z. Qırmızı terror. Bakı: 1993
5. Quliyev C. K istorii obrazovaniə Vtoroy respubliki Azerbaydjana. Bakı: 1997
6. Əliyev X., Əlimirzəyev X. Azərbaycanda kənd təsərrüfatının kollektivləşdirilməsi tarixindən. Bakı: 1957
7. Əziz B. Azərbaycanda sovet işğal rejiminə qarşı mübarizə (1920-1991). Magistr hazırlığı üçün proqram. Bakı: 2008
8. Vəkilov M. Böyük Oktyabr inqilabı və Azərbaycanda sosialist mədəniyyətinin çiçəklənməsi. Bakı: 1955
9. Məmmədov E. Kənd təsərrüfatının elliklə kollektivləşməsi ərəfəsində Azərbaycan kəndində sinfi mübarizə (1927-1929) Bakı: 1961
10. N.Nərimanov. Ucqarlarda inqilabımızın tarixinə dair. Bakı: 1992
11. İbrahimli F. Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-1930). Bakı: 1996
12. Yenə onun: 20-ci illərin əvvəllərində Azərbaycan kəndində ictimai-siyasi vəziyyət. Bakı: 1995
13. Yenə onun: Azərbaycan kəndində sovetləşmə siyasəti. Mütərcim, 1996
14. Yenə onun: Sovet hakimiyyəti, yoxsa hakimiyyətsiz Sovetlər. Bakı: 1997
15. Yenə onun: Sovetləşmə siyasəti, yoxsa yandırma əməliyyatı. (Tariximizin qaranlıq səhifələrindən) Tarix və onun problemləri jurn. Bakı: 2000, №1
16. Yenə onun: Millətçi pasportu kimlərə verilirdi. Tarix və onun probl. Bakı: №1, 1999
17. Yenə onun: Tarixi şəxsiyyətlərə ədalətli münasibət lazımdır. «Mütərcim» jurn. №1, 1999.
18. «Bakinskiy raboçiy» qəzeti, 6 noyabr, 2 dekabr, 25 dekabr 1921-ci il
19. Azərbaycan Respublikası EA elmi arxivi, f. I, siy. 9, iş 4798, v. 230, v.231, v.235
20. Azərbaycan Respublikası SPİH MDA, f. I, siy. 74, iş 7, v 31
21. Azərbaycan Respublikası SPİH MDA N.Nərimanov fondu. F.609, siy. I, iş 71, v. 1-7
22. XX əsr Azərbaycan tarixi. II c, Bakı: 2004
23. Qaffarov T. Azərbaycan tarixi (1920-1991), Bakı: 1999
24. Məmmədzadə M.B. Köylü hərəkatı. Lenin milli siyasəti. Bakı: 2007
25. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı: 1992.
26. İbrahimli X. Azərbaycan siyasi mühacirəti. Bakı: 1998.
27. Həsənov C. Ağ «ləkə»lərin qara kölgəsi. Bakı: 1991.
28. Qafqazda sovet totalitarizmi (20-30-cu illər). Bakı: 1998
29. Rəsulzadə M.Ə. Bolşeviklərin şərq siyasəti. Bakı: 1994.

# 1920-1930-cu illərdə mədəni quruculuq

**Plan:** **1. Savadsızlığın ləğvi uğrunda mübarizə**
**2. Yeni təhsil sisteminin formalaşması.**
**3. Əlifba problemləri.**
**4. Mədəni-maarif müəssisələrinin yaranması.**
**5. Nəşriyyat işinin inkişafı.**
**6. Qadın hərəkatı**
**7. Texniki peÇə təhsili.**
**8. Ali təhsilin inkiÇafı**
**9.Elm**
**10.Ədəbiyyat**
**11.Teatr**
**12.Musiqi**
**13. Kino**
**14.Təsviri ingəsənət**

**Savadsızlığın ləğvi uğrunda mübarizə.** Azərbaycanda xalq maarifınin ən mühüm, birinci dərəcəli vəzifəsi əhalinin savadsızlığını ləğv etmək hesab olunurdu. 1917-ci ildə Azərbaycanda bütün əhalinin cəmi 9,3 faizi 32, kənd sakinləri və qadınlarınsa daha az hissəsi savadlı idi.

Savadsızlığın ləğv edilməsi 1920-ci ilin sentyabrında Azərbaycan Xalq Maarif Komissarlığı nəzdində xüsusi olaraq təÇkil edilmiÇ Mərkəzi Komissiyanın rəhbərliyi altında bütün Çəhər, qəza mərkəzləri və kəndlərində vahid plan üzrə həyata keçirilirdi.

1921-ci il iyulun 14-də XKS xüsusi qərarında savadsızlığın ləğv edilməsini ilin əvvəlində təÇkil olunmuÇ Mərkəzi baÇ siyasi-maarif idarəsinin mühüm və təxirəsalınınaz vəzifəsi elan etdi.

Respublikada əhalinin bütün təbəqələrini əhatə edən savadsızlığı ləğvetmə məktəb və kursları açılmasına baÇlandı. Savadsızlığın ləğv edilməsi uğrunda mübarizədə müəllimlərlə yanaÇı, bütün savadlı adamlar da fəal iÇtirak edirdilər. Xalq Maarif Komissarlığının bütün iÇçiləri və kollegiya üzvləri, yerli inqilab komitələri və baÇqa təÇkilatlarda digər vəzifə və tapÇırıqları yerinə yetirməkdən tamamilə azad olunaraq, qəzalarda xalq maarifmin təÇkilinə cəlb edilmiÇdilər35. AK(b)P-nin IV qurultayı (1922-ci ilin fevralı) Azərbaycan əhalisi içərisində savadsızlıqla mübarizəyə ilin ən ümdə vəzifəsi kimi yanaÇmağı vacib bildi36.

1922/23-cü tədris ilində Bakı və onun ətraf mədən rayonlarında 7517 nəfərin oxuduğu 257 savad məktəbi fəaliyyət göstərirdi37, Azərbaycanın bütün qəzalarında isə ancaq 3852 nəfəri əhatə edən 189 məktəb təǪkil etmək mümkün olmuǪdu.

Növbə fəhlələrini savad məktəbinə cəlb etmək məqsədilə Bakı və onun mədən rayonlarında 1922-ci ildə 20 xüsusi səyyar qrup təǪkil edilmiǪdi39. Buna oxǪar səyyar savad məktəbləri qəzalarda da yaradılmıǪdı. Onlar kəndlilərin ən geridə qalmıǪ təbəqələrini savadlanma iǪinə cəlb edirdi. Bütün Azərbaycan üzrə savadsızlığı, ləğvetmə kurs və məktəblərində 1922/23-cü tədris ilində 14336 nəfər məǪğul olurdu40. Onlardan 6954 nəfər azərbaycanlı, o cümlədən 492 nəfər qadın idi41. Növbəti tədris ilində savadsızlığın ləğvi sahəsində könüllü təǪkilat və cəmiyyətlər meydana gəldi. Savadsızlığın ləğvi iǪini vahid orqanda mərkəzləǪdirmək üçün 1923-cü ilin dekabrında XKS-nin sədri Q. Musabəyovun baǪçılığı ilə "Savadsızlıqla mübarizə komitəsi" yaradıldı. Azərbaycan XKS və MĠK-in 1924-cü il 18 mart tarixli "Azərbaycan SSR əhalisi içərisində savadsızlığın ləğvi haqqında" qərarında yazmaq və ya oxumaq bacarmayan 15-25 yaǪda olan bütün əhaliyə savad öyrənmək bir vəzifə olaraq tapǪırıldı42. Bu məqsəd üçün fabrik, zavod və idarələrdə boǪ otaqlardan, klub, xalq evi və məktəblərdən istifadə etmək hüququ verildi. Savad məktəblərində oxuyan fəhlələrin 8 saatlıq iǪ günü əmək haqqı saxlanılmaqla bütün təhsil müddətində 2 saat azaldıldı43. 1924-cü il iyulun 17-də Azərbaycanda "Rədd olsun savadsızlıq" cəmiyyəti təsis edildi. Cəmiyyətin idarə heyətinin sədri Xalq Daxili ĠǪləri komissarı H. Sultanov oldu44. Cəmiyyətin Bakı və qəzalarda Ǫöbələri açıldı. Onların fəaliyyətində rayon partiya komitələrinin xüsusi səlahiyyətli nümayəndələri bilavasitə iǪtirak edirdilər.

Fəhlə və kəndlilərin fəal iǪtirakı ilə "Savadsızlığın ləğv edilməsi" Ǫüarı altında iclaslar, xüsusi kampaniyalar, "həftələr" və "günlər" keçirilirdi. Bu kampaniyalar zamanı yeni savad məntəqələri yaradılır, savadsızlığın ləğv edilməsi fonduna könüllü vəsaitlər köçürülürdü. 1925-ci ildə "Rədd olsun savadsızlıq" cəmiyyətinin Bakı və qəzalarda on min üzvü olan 16 Ǫöbəsi iǪləyirdi.

Partiya, gənclər və peĢəkarlar təĢkilatları xüsusilə öz üzvləri içərisində savadsızlıqla mübarizədə fəal iĢtirak edirdilər. Təkcə 1924/25-ci tədris ilində 1113 partiya üzvü və namizədinin, 3234 komsomolçunun və 11418 həmkarlar üzvünün48 savadsızlığı ləğv olunmuĢdu. Kənd əməkçiləri içərisində savadsızlığı ləğvetmə kurs və məktəblərinin təĢkilinə torpaq və meĢə iĢçiləri həmkarlar Ġttifaqı yardım edirdilər. Təkcə 1925-ci ildə bu Ġttifaq klub və qırmızı guĢələrdə muzdurlar üçün 24 savadsızlığı ləğvetmə məntəqəsi və 22 savad məktəbi təĢkil etmiĢdi49. Xalqın təhsilə marağı ildən-ilə artırdı. Azərbaycan kəndlilərində bu həvəs xüsusilə güclü idi. Bir çox hallarda savad məntəqələri 20-25 əvəzinə 40-45 nəfərə xidmət edirdi. Bəzi qəzalarda - Quba, Qazax və baĢqalarında savadsızlığı ləğvetmə məntəqələrində yer üstündə kəndlilər arasında münaqiĢələr baĢ verirdi50. Cəbrayıl, Tovuz və Quba qəzalarında BaĢ siyasi maarif idarəsinin məntəqələri ilə yanaĢı, kəndlilərin tələbi ilə savadsızlığın ləğv edilməsi üzrə gecə kursları açılmıĢdı.
Savadsızlığı ləğvetmə məntəqələrinə cəlb olunanlar durmadan artırdı. 1924/25-ci tədris ilində 1233 savadsızlığı ləğvetmə məntəqəsində 31755 nəfər təhsil alırdı52.
Maddi bazanın zəifliyinə, kadr çatıĢmazlığına, lazımi binaların yoxluğuna və böyük miqdarda savadsızlar olmasına baxmayaraq respublikada savadsızlığın ləğvi sahəsində ilk uğurlu addımlar atıldı. Belə ki, 1921/22-ci tədris 187 ilindən 1926/27-ci tədris ilinədək 102370 nəfər savadsızlığı ləğvetmə məntəqələrində ancaq əlifba savadı qazanmıĢdı. Onlardan 63607 nəfəri azərbaycanlı, o cümlədən 3466 nəfəri azərbaycanlı qadın idi53. Azərbaycanda mədəni quruculuğun mühüm vəzifələrindən biri-əhalini təhsillə geniĢ əhatə etmək və onu yüksək səviyyəyə qaldırmaq sahəsində hələ də böyük zəhmət tələb olunurdu.

**Yeni təhsil sisteminin formalaĢması.** Sovet hakimiyyəti Azərbaycanda mədəni dəyiĢikliklərə "kommunist ideologiyasını" rəhbər tutaraq, əslində Mərkəzdən inqilabi metodlarla baĢladı. Cəmiyyət həyatının demokratikləĢdirilməsi, xalqın mədəni səviyyəsinin yüksəldilməsi sahəsində onun fəaliyyəti aydın ifadə olunan partiyalı xarakter daĢıyırdı. Heç bir mühüm mədəni məsələ "partiya rəhbərliyi"

olmadan həll edilmirdi. Partiyanın əsas vəzifəsi mədəniyyəti öz "ideologiyası" ruhunda xalqın sərvətinə çevirmək, zəhmətkeĢ kütlələri bu yöndə mədəni-tarixi quruculuğa cəlb etmək idi. Ancaq əslində "böyük məqsəd" bir partiyanın diktaturasını yaratmaqdan, kütlələr içərisində proletariat diktaturası "mübarizləri" formalaĢdırmaqdan ibarət idi. V.Ġ.Lenin etiraf edirdi: "Bəli, bir partiyanın diktaturası. Biz bunun üzərində dayanmıĢıq və bu dayaqdan düĢə bilmərik".

Beləliklə, hər Ģeyə yalnız proletariat sinfinin və onun partiyasının mənafeyi ilə yanaĢmaq meyarı kütlələrə avtoritar Ģüur aĢılayırdı.

Respublika hökuməti və partiya təĢkilatı Azərbaycanda yeni, sosialist mədəniyyətinin bünövrəsini qurarkən, əsasən yuxarıdakı prinsipi rəhbər tuturdu. Azərbaycanın sosial-iqtisadi və ictimai-siyasi həyatında olduğu kimi, yeni tip mədəniyyət quruculuğu da partiya direktivləri, onun qərar və göstəriĢləri ilə istiqamətləndirilirdi.

Sovet hakimiyyətinin ilk illərində bütün mədəni-maarif iĢlərinə rəhbərlik etmək səlahiyyəti respublika Xalq Maarif Komissarlığının əlində cəmləĢdirilmiĢdi. Yeni qurulan cəmiyyətin mənəvi həyatının əsas sahələri - təhsil, elm, ədəbiyyat və incəsənət faktiki olaraq partiya, dövlət rəhbərliyinin nəzarəti altına alınırdı, "mədəni inqilabın" bütün gediĢində "kommunist, ideologiyası" həyata keçirməli və sovet hakimiyyətinin əsas məqsədi olmalı idi.

Sosialist mədəniyyəti quruculuğu keçmiĢ milli ucqarların özünəxsus Ģəraitində böyük çətinliklərlə üzləĢirdi. Yeni xalq təhsili sistemi yaratmaq, mədəni-maarif müəssisələrinin geniĢ Ģəbəkəsini inkiĢaf etdirmək, elmi biliklərin əsaslarını qoymaq, əməkçiləri bədii sərvətlərə alıĢdırmaq, qadınları patriarxal kölәlikdən azad etmək, zərərli adət və mərasimləri aradan qaldırmaq, Ģəxsiyyətin mədəni, mənəvi inkiĢafına yeni yol açmaq lazım idi. Ġlk növbədə xalq təhsilini köhnə, müstəmləkəçi idarə üsulundan azad etmək, imtiyazlı, klerikal məktəblərin dayaqlarının ləğvi əsasında yeni məktəb yaratmaq, təhsil sistemini müasir prinsiplər zəminində köklü dəyiĢmək vəzifəsi qarĢıda dururdu. Tədris müəssisələrində təlim prosesini yeniləĢdirmək, köhnə dövrün ziyalılarını təhsil Ģəbəkəsində sovet hakimiyyəti ilə əməkdaĢlığa geniĢ cəlb etmək üçün cəhdlər

göstərmək, milli müəllim kadrları hazırlamaq, yeni tədris vəsait və proqramları, mütərəqqi dərs metodikası tətbiq etmək tələb olunurdu. Buna görə 1920-ci ildə Azərbaycan sovet hökuməti xalq təhsilinin yeni inkiǪafını istiqamətləndirən bir sıra dekret və sərəncamlar verdi. Maarif nazirliyinin köhnə aparatı ləğv olundu, yeni tərkibdə xalq maarif komissarlığı orqanları fəaliyyətə baǪladı, həmçinin qəza inqilab komitələri nəzdində maarif Ǫöbələri təsis edildi1. Ġlk xalq maarif komissarı DadaǪ Bünyadzadənin imzası ilə 1920-ci il mayın 10-da ana dilində dərs keçilən, pulsuz icbari politexnik məktəblərin təǪkili haqqında dekret nəǪr olundu2. Həmin ilin avqustunda yeni cəmiyyət qurucuları - peǪəkar iǪçi qüvvəsi hazırlamaq üçün N.Nərimanovun imzası ilə Azərbaycan Ġnqilab Komitəsinin dekreti əsasında Texniki PeǪə Təhsili Komitəsi təsis edildi3. Azərbaycanda yeni xalq təhsili sistemi nümunəsində vahid əmək məktəbləri4, tədris müəssisələrinin növlərinin demokratikləǪdirilməsi, respublikada yaǪayan bütün millətlərə, xalqlara öz məktəb və niədəniyyət müəssisələrini yaratmaq hüququ elan edildi. "Azərbaycan SSR-in vahid əmək məktəbi haqqında əsasnamə" (1920-ci il 26 may)5 əsasında məktəb iki pilləyə bölünmüǪdü -I pillə beǪillik, II pillə dördillik təhsil kursu idi. "Əsasnamə"də vahid əmək məktəblərinin özünüidarə prinsipləri müəyyən edilmiǪdi6. Həmçinin "uǪaqların əmək məktəbində birgə təhsili haqqında" xüsusi qərar verilmiǪdi. Ancaq yerli Ǫəraitin xüsusiyyətləri nəzərə alınmıǪ, azərbaycanlı Ǫagirdlərin oxuduğu tədris müəssisələri və qruplarda oğlan və qızların ayrıca dərs keçməsi müvəqqəti saxlanılmıǪdı.

1920-ci ilin mayında Azərbaycan Ġnqilab Komitəsinin vicdan azadlığı haqqında dekretinə görə, Xalq Maarif Komissarlığının tabeliyində olan bütün dövlət məktəblərində dini təlimlərin öyrənilməsi və hər hansı dini mərasim keçirilməsi qadağan olundu. Din nazirliyi ləğv edildi8. Xalq Maarif Komissarlığının xüsusi əmri ilə tədris müəssisələri və məktəb Ǫuralarının sədri vəzifəsini tutan və ya icra edən dini dərəcəli Ǫəxslər vəzifələrindən azad edildilər9. Dövlət və məktəb kilsə və məsciddən tamamilə ayrıldı.

1920-ci il sentyabrın 19-da Bakıda Azərbaycan mədəniyyət və maarif iǪçilərinin birinci qurultayı açıldı. Azərbaycan hökumətinin baǪçısı Nəriman Nərimanov

qurultayda elan etmiǴdi: "Köhnə quruluǴun ləğvi ilə məktəb də yeniləǴməlidir. Tədris və tərbiyə üsullan yeni olmalıdır".

1920-ci ilin dekabrında Azərbaycan Ġnqilab Komitəsinin dekreti ilə Ǵagirdlərin ana dilinin I və II pillə məktəblərdə tədris dili olduğu təsdiq edildi11. Orta təhsil verən II pillə məktəblərdə ali təhsilli azərbaycanlı müəllimlərin çatıǴmaması ilə əlaqədar milli məktəb quruculuğu ciddi çətinliklər keçirirdi. 1920-ci ildə bütün müəllimlərin yalnız üç faizi ali təhsil, qalanları isə orta, aǴağı və evdə təhsil almıǴlar idi12. Respublikada sovet hakimiyyətinin qurulması ərəfəsində cəmi 2000 pedaqoq var idi, ancaq mövcud məktəblərin normal fəaliyyət göstərməsi üçün təqribən 40 min nəfərədək müəllim tələb olunurdu.

Buna görə də 1920-ci ildən Azərbaycanın müxtəlif məntəqələrində müəllimlər hazırlamaq üçün üç aylıq kursların təǴkil edilməsinə baǴlandı. Artıq ilk mərhələdə bu kurslara min nəfərdən artıq adam cəlb edilmiǴdi14. 1920-1922-ci illər ərzində Bakı, Nuxa, ġuǴa, Gəncə, Qazax və Naxçıvanda müəllim seminariyaları açıldı . Kütləvi Ǵəkildə məktəb müəllimlərinin hazırlanmasında pedaqoji texnikumlar mühüm rol oynayırdılar, 1925-1926-cı illərdə Azərbaycanda iki min nəfərədək Ǵagirdin təhsil aldığı 16 belə texnikum fəaliyyət göstərirdi. Bu texnikumların Ǵagirdlərinin əsas hissəsini kəndli uǴaqları təǴkil edirdi. Hökumət kənd müəllimlərinin maddi vəziyyətini yaxǴılaǴdırmaq, məktəbləri yanacaq və digər vəsaitlər-təchiz etmək sahəsində tədbirlər görürdü. Xalq təhsili sistemi ilərinin maddi vəziyyətini yaxǴılaǴdırmaq və uǴaqların yeməklə təmin edilməsini qaydaya salmaq üçün 1922-ci ilin sentyabrında Xalq Komissarları Soveti qəzalarda ərzaq vergisinin 10 faizini Xalq Maarif Komissarlığının yerli büdcələrinin sərəncamına verməyi qərara aldı.

Azərbaycanda, xüsusilə qəzalarda kifayət sayda məktəb binaları kəndlərdə isə məktəb binası üçün yararlı olan tikili yox idi. Respublikanın ağır maliyyə çətinliklərinə baxmayaraq xalq təhsili iǴçilərinin inadlı və fədakar fəaliyyəti sayəsində, hökumətin köməyi ilə partiya və ictimai maarif təǴkilatları Ǵəhər və qəzalarda yeni məktəblərin tikintisini geniǴləndirir, məktəbə yararlı binaları təmir etdirirdi. Artıq 1923-cü ildə Zaqatala qəzasının on kəndində yeni məktəb binaları

tikilmiĢdi18. AğdaĢ qəzasında həmin ildə dörd 19, 1924-cü ildə Gəncə qəzasında iki, Qazax qəzasında isə beĢ yeni məktəb açılmıĢdı 20. 1924/25-ci tədris ilində Azərbaycanda 34 yeni məktəb fəaliyyətə baĢlamıĢ və 13-nün tikintisi isə baĢa çatdırılmıĢdı21. Lakin hələ 1926-cı ilin əvvəllərində məktəblər respublika əhalisi tələbatının yalnız 35 faizini ödəyirdi.

Yerli əhalidən olan qızların məktəblərə cəlb edilməsi qadın müəllim və kadrların az olması ilə çətinləĢirdi. Xalq təhsili orqanları qadınların vəziyyətinin spesifik xüsusiyyətləri ilə bağlı olan çətinlikləri aradan qaldıraraq I pillə məktəblərdə azərbaycanlı qızların sayının 1920/21-ci tədris ilindəki 6148 nəfərdən 1926/27-ci tədris ilində 14189 nəfərədək artırılmasına nail oldular.

Azərbaycanda sovet məktəbi, hər Ģeydən əvvəl, yeni cəmiyyət quruculuğunun, " "proletariat diktaturasının" müdafiəçiləri olan kadrların "kommunist ideologiyası" ruhunda hazırlanması vəzifələrinə xidmət etməli idi. Bu prinsip yeni dərsliklər, tədris planı və Proqramlarının tərtib edilməsinin əsasını təĢkil edirdi. Bu məqsədlə 1920-ci ildə Xalq Maarif Komissarlığında dərsliklərin hazırlanması üzrə xüsusi komissiya yaradıldı ki, o da sonradan dərsliklərin tərtibi və nəĢri üzrə Ģöbəyə çevrildi24. Ana dilində yeni dərsliklərin yaradılmasına təcrübəli pedaqoji kadrlar - Mahmud bəy Mahmudbəyov, Abdulla ġaiq, Fərhad Ağayev və baĢqaları cəlb edilmiĢdilər25. 1923-cü ilin dekabrından Xalq Maarif Komissarlığında bütün vahid əmək məktəblərinin metodik iĢinə Ümumi rəhbərlik edən Elmi-Metodik ġura fəaliyyət göstərirdi. Faktiki olaraq Azərbaycanda dövlət və partiya nəzarəti altında vahid təhsil sistemi yaradıldı. Bu sistemdə tədris plan və proqramlarının əsasını əmək cəmiyyət və təbiət mövzuları təĢkil edirdi.

Azərbaycan SSR Xalq Komissarları Soveti nəzdində xüsusi komissiya respublika məktəbləri üçün ən zəruri tədris vəsaiti və avadanlıqlarının istehsalına rəhbərlik edirdi26. 1921-ci ilin iyunundan baĢlayaraq Xalq Komissarları Soveti yanında fəaliyyət göstərən kustar emalatxanalar əyani tədris vəsaitləri hazırlayırdı27.

Azərbaycandakı milli azlıqlar içərisində maarifin təĢkili məqsədi ilə Xalq Maarif Komissarlığı nəzdində tərkibində fars, erməni gürcü, yəhudi, kürd, ləzgi və tatar bölmələri olan xüsusi Ģöbə iĢləyirdi. 1925/26-cı tədris ilində respublikada 1057 1

dərəcə Azərbaycan, 190 – erməni, 132 - rus, 5 - gürcü, 7 - alman, 2 - yəhudi 2 - yunan, 1 - aysor, 4 - tatar məktəbi və 40 qarıǪıq məktəb var idi. Onlar üçün ana dilində əlifba nəǪrinə cəhdlər edilmiǪ, pedaqoji kurslar açılmıǪdı.

Azərbaycan müəllimləri 1925-ci il yanvarın 12-də Moskvada açılan ÜmumĠttifaq müəllimlər qurultayının iǪində iǪtirak etdilər. Azərbaycan nümayəndə heyətini Məryəm xanım Bayraməlibəyova (Məlik-Yeqanova), Əli Hüseynov, Qıztamam Ġahmalıyeva, Cəmilə Sultanova, Zülfüqar AğakiǪibəyov, Mirzə Məmmədov və baǪqaları təmsil edirdilər. Qurultayda çıxıǪ edən Ə. Hüseynov Azərbaycan müəllimlərinin yeni məktəb quruculuğu sahəsində müvəffəqiyyətlərindən danıǪdı.

Bunun ardınca 1925-ci il mayın 25-də Bakıda Azərbaycan müəllimlərinin birinci qurultayı keçirildi. Qurultayda respublikada yeni məktəb quruculuğu sahəsində qazanılmıǪ ilk nailiyyətlərə yekun vuruldu28a. Yeni məktəb quruculuğunda Azərbaycan pedaqoqları F.Ağayev, A.Əmirov, O.Cəlilbəyova, Ə.Hüseynov, F.Rzabəyli, Ġ.Ġsayev, C.Cuvarlinski fəal iǪtirak edirdilər. Yerlərdə xalq təhsilinin geniǪləndirilməsi sahəsində S.Axundov (Ağdam), Q.Musayev (Quba), A. Eyvazov (Füzuli) və baǪqaları böyük iǪ aparırdılar.

Pedaqoji kadrların hazırlanması və onların maddi vəziyyətinın yaxǪılaǪdırılması sahəsində görülən böyük iǪ sayəsində respublikada müəllimlərin sayı 1920/21-ci tədris ilindəki 2611 nəfərdən 1925/26-ci tədris ilində 5232 nəfərə çatmıǪd 185 Məktəblərin və orada oxuyan uǪaqların sayı getdikcə artırdı. 1920/21-ci tədris ilində olan 937 I pillə məktəblərin sayı 1926/27-ci dərs ilində 1420-yə, onlardakı Ǫagirdlərin sayı isə 74922-dən 150625 nəfərədək artdı30. Respublikanın bütün məktəblərində 1926/27-ci tədris ilində 1918/19-cu tədris ilindəki 48076 nəfərə qarǪı 66528 Ǫagird təhsil alırdı31.

Beləliklə, 20-ci illərdə yeni Azərbaycan məktəblərinin bünövrəsi qoyuldu, zəhmətkeǪlərin təhsilə kütləvi cəlb edilməsi üçün Ǫərait yaradıldı.

**Əlifba problemləri.** Azərbaycanda mədəni quruculuq gediǪində qarǪıya əlifba məsələsi çıxdı. Sovet hakimiyyəti qurulanadək Azərbaycanda ərəb əlifbasından istifadə olunurdu. Azərbaycanın görkəmli maarifçiləri əlifba islahatı məsələsi ilə məǪğul olmuǪdular. XIX yüzilliyin on görkəmli Azərbaycan yazıçı və filosofu,

xalqın maariflənməsinin qızğın mübarizi - Mirzə Fətəli Axundov ərəb əlifbasını dəyiĢdirmək yolu ilə Azərbaycan əlifbası yaratmağın təĢəbbüsçülərindən biri idi54.

Sovet hakimiyyəti qurulmasının ilk günlərindən Azərbaycan dilində çap və nəĢr iĢinin inkiĢafı məsələsi bütün kəskinliyi ilə qarĢıda dururdu. Mədəni quruculuğun bu mühüm probleminin həlli yeni, daha asan əlifbanın qəbul edilməsini qəti tələb edirdi. Onun Azərbaycan fəhlə və kəndli kütlələrinin təhsili üçün vacibliyini respublika ictimaiyyətinin mütərəqqi hissəsi də etiraf edirdi55.

Beləliklə, 1920-ci ilin noyabrında Azərbaycan SSR Xalq Maarif Komissarlığı yanında əlifba islahatı üzrə komissiya yaradıldı56 Xalq Maarif Komissarlığı kollegiyasının 1921-ci il yanvarın 5-də qəbul etdiyi qərarda deyilirdi: "Bir tərəfdən, köhnə müsəlman Ģriftinin çox böyük çatıĢmazlıqlarını, (digər tərəfdən isə) geniĢ kütlələrin öyrənilməsi üçün müsəlman (Azərbaycan - *məsul red.)* dilini asanlaĢdırmaq zəruriyyətini də nəzərə alaraq... a) köhnə müsəlman Ģriftini yenisi ilə əvəz etmək; b) daha mükəmməl latın Ģrifti üzərində dayanmaq... "57. Dövlət, partiya və ictimai xadimlər və baĢqaları mətbuatda çıxıĢ edərək yeni əlifbaya keçilməsinin vacibliyini əsaslandırırdılar. S. Ağamalıoğlu 1921-ci il dekabrın 26-da "Azərbaycan xəbərləri" qəzetində "Proletar maarifi və türk əlifbası" məqaləsində yazırdı: "Maarifin baĢlıca aləti əlifbadır, ancaq geniĢ əməkçi əhali kütləsinə asan olan əlifba ki, sonuncu az vaxt itirməklə daha çox ideya və biliklər mənimsəyə bilsin". 1922-ci il martın 6-da AK(b)P-nin plenumu Azərbaycan əlifbasını latın yazı qrafikasına keçirmək üçün S. Ağamalıoğlunun baĢçılığı ilə xüsusi komissiya yaratdı58. Bu komissiyanın bazasında 1922-ci ilin mayında əlifbanın latınlaĢdırılması iĢini aparan Yeni Türk Əlifbası (YTƏ) Daimi Komitəsi yaradıldı59. Onun tərkibinə Səmədağa Ağamalıoğlu (sədr), Xudadat Məlik-Aslanov, Əhməd Pepinov, Əli Tağızadə, Sultan Məcid Əfəndiyev, Fərhad Ağayev, Vəli Xuluflu, Teymur Hüseynov və digər görkəmli Azərbaycan ziyalıları daxil idilər. Komitə bütün qəzalarda Ģöbələrini açdı, hökumətin köməyi ilə (Ali İqtisadi ġura komitənin ehtiyacları üçün üç milyard manat məbləğində valyuta fondu ayırdı) yeni Ģrift, yeni əlifbada ədəbiyyat, qəzet və jurnallar nəĢr etmək

üçün lazımi texniki avadanlıq alındı, mütəxəssislər hazırlandı, əhali içərisində geniĢ izahat kampaniyasına baĢlandı.

YTƏ Komitəsinin sədri S.Ağamalıoğlu Azərbaycan MĠK-in sədri kimi Türküstan, Tatar, Xivə və Krım respublikalarının Xalq Maarif Komissarlıqlarına yeni əlifbanın layihəsini göndərərək "onlardan həm yeni əlifba layihəsinə, həm də ərəb əlifbasının latınla əvəz edilməsi ideyasına fikir və baxıĢlarını" bildirmələrini xahiĢ etmiĢdi60.

Yeni əlifba birdən-birə deyil, tədricən, ictimaiyyətin prinsipial fikri aĢkar ediləndən, tam bir sıra mühüm tədbirlər, geniĢ müzakirələr keçiriləndən sonra tətbiq edildi.

Ərəb əlifbasının latınla əvəz edilməsi müsəlman dünyası ölkələrində, qonĢu dövlətlərdə böyük əks-səda yaratdı. M. Qorki yeni əlifba uğrunda hərəkatı "Cəsarətlə ön cərgədə dayanınıĢ azərbaycanlıların böyük tarixi xidməti. kimi qiymətləndirmiĢdi.

Hələ 1922-ci ilin avqustunda V.Ġ.Lenin Azərbaycan MĠK-in sədri S. Ağamalıoğlunu qəbul edərkən, o, Leninə respublikada latın əlifbasına keçilməsi iĢinə baĢlanması barədə məlumat verniiĢdi. Sonralar, 1926-cı ilin dekabrında S.Ağamalıoğlu X Ümumbakı partiya konfransında çıxıĢında xüsusilə qeyd edirdi ki, onun yeni əlifba barəsində məruzəsini dinləyən V.Ġ.Lenin demiĢdi: "Bu, Ģərqdə inqilabdır"62. Ağamalıoğlu 1927-ci ildə keçirilən ÜmumĠttifaq Yeni Türk Əlifbası Mərkəzi Komitəsinin birinci plenumunda demiĢdi: "Hələ 1922-ci ildə Ģəxsən mənim təqdim etdiyim bu inqilabi tədbir yoldaĢ Lenin tərəfindən bəyənilmiĢdir". Təsadüfi deyil ki, hətta RK(b)P MK 1922-ci il sentyabrın 25-də latın əlifbasının tətbiq olunması məsələsini müzakirə edərək, Azərbaycan MĠK-in təĢəbbüsünü qəbul etməyi qərara aldı və ÜmumĠttifaq MĠK-ə ona hər cür yardım və kömək göstərməyi təklif etdi. Əlbəttə, bu zaman mərkəzin Sovet Ģərq xalqlarını müsəlman dünyasından ayırmaq məqsədi güdən siyasi marağını da nəzərdən qaçırmaq olmaz.

Latın əlifbasının tətbiq olunmasına din xadimlərindən, bəzi imtiyazlı ictimai xadimlərdən, qatı millətçi əhvali-ruhiyyəli ziyalılardan, mühafızəkar partiya və sovet iÇçilərindən də müqavimət göstərənlər var idi.

GeniÇ kütlələrin içərisində savadsızlığın tezliklə ləğv edilməsi və ana dilində çap və nəÇr iÇlərinin asanlaÇdırılması üçün latın Çriftinin tətbiq edilməsinin əhəmiyyətini nəzərə alaraq, Azərbaycan SSRMĠK 1923-cü ilin əvvəlində fəhlə fakültələri və II pillə məktəblərdə yeni əlifbanın tətbiqini qanuniləÇdirdi63, mayın 19-da isə Xalq Maarif Komissarlığı Bakı xalq təhsili Çöbəsinə növbəti tədrisindən bütün məktəblərdə tədrisi yeni əlifbaya keçirməyi tövsiyə etdi.

1923-cü il oktyabrın 20-də Azərbaycan SSR MĠK-in qəbul etdiyi "Yeni Azərbaycan əlifbasının dövlət əlifbası kimi tanınması haqqında" dekretə uyğun olaraq, bütün idarə və təÇkilatlara kargüzarlığı həm əski, həm də yeni əlifbada aparmaq barədə göstəriÇ verildi64 1925-ci ilin martında IV Ümumazərbaycan Sovetlər qurultay yeni əlifbanı həyata keçirmək üçün bir sıra direktivlər qəbul etdi Qurultay bütün pillə məktəblərdə yeni Azərbaycan əlifbasına keçməyə icazə verdi, səkkiz il müddətində, yəni 1932/33-cü tədris ilinədək bütün I və II pillə məktəblərdə yeni əlifbaya keçilməsinin baÇa çatdırılmasını, yeni əlifbaya keçməyən qruplarda isə tədrisin həmin vaxtda köhnə əlifba ilə aparılmasını qərara aldı.

Əlifbanın zəhmətkeÇlər içərisində yayılması məqsədilə Bakıda - Qara və Ağ Çəhərdə mədənlərdə neftçi fəhlələr, habelə əsgərlər və qulluqçular üçün "savadsızlığı ləğvetmə məntəqələri" açılmıÇdı. Azərbaycan kəndliləri yeni əlifbaya böyük maraq göstərirdilər. Yüzlərlə Azərbaycan kəndlisi savad məntəqələrində, gecə kursları və dərnəklərdə yeni əlifbanı həvəslə öyrənirdilər. Təkcə 1924-cü ildə qəzalarda yeni əlifbanı öyrədən 1320 savadsızlığı ləğvetmə dərnəyi açılmışdı.

1925-ci ildə YTƏ Komitəsi Bakıda, Salyan, ġamaxı və baÇqa qəzalarda yeni əlifba kursları açdı. Bu kurslarda 1539 nəfər oxuyurdu67. Təkcə 1925/26-cı tədris ilində bu kursları 12657 nəfər bitirmiÇdi68. Mətbəə iÇçiləri hazırlayan xüsusi

məktəblərlə yanaĢı, Ə.Bayramov adına klubda və Naxçıvan Ģəhərində qadın klubunda69 Azərbaycanlılar üçün makinaçı kursları təĢkil olunmuĢdu.
Yeni əlifba Ģrifti ilə əlifbalar, Azərbaycan dilində yazı və oxu qaydalarına dair material və digər vəsaitlər böyük tirajla nəĢr edilirdi70. 1925-ci ilin oktyabrınadək 32774 nəfər yeni əlifbanı öyrənib öz savadsızlığını ləğv etmiĢdi.
Yeni əlifbanın tərəfdarları ilə onun əleyhdarları arasında mübahisədə yeni əlifba ilə nəĢr olunan "Yeni yol" qəzeti mühüm rol oynadı. "Yeni yol" qəzeti minlərlə fəhlə və kəndli içərisində yayılır, geniĢ oxucu kütlələrinə yeni əlifbaya keçməyin əhəmiyyətini təbliğ edirdi.
YTƏ Komitəsinin fəaliyyəti və savadsızlığın ləğv edilməsi sahəsində əldə edilən uğurlar Sovet Ġttifaqının ərəb əlifbasından istifadə edən digər xalqları içərisində maraq oyatdı. Müttəfiq respublika və muxtar vilayətlərdən Azərbaycan YTƏ Komitəsinin ünvanına gələn çoxlu məktublarda əlifba haqqında daim məlumat xam§ edirdilər: YTƏ Komitələri Dağıstan, Qaraqalpaq Muxtar Respublikalarında və digər yerlərdə də təĢkil olundu72. Əlifba məsələsini müzakirə etmək üçün türkdilli xalqların qurultayını çağırmaq zəruriyyəti meydana çıxdı. Azərbaycan YTƏ Komitəsi "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" ilə birlikdə türkoloji qurultay çağırmaq qərarına gəldi. Hökumət onun keçirilməsinə 100 min manatadək pul ayırdı73. Qurultay ġərqdə birinci olaraq ərəb əlifbasını latın qrafıkası ilə əvəz etməyə təĢəbbüs göstərmiĢ Azərbaycan paytaxtı Bakıda 1926-cı ilin fevralında açıldı. Türkdilli xalqların mədəni həyatında mühüm rol oynamıĢ Birinci ÜmumĠttifaq türkoloji qurultayı böyük hadisə oldu. Fevralın 26-dan martın 5-dək davam edən qurultayda 131 nümayəndə (93 nəfəri türk dilli idi)74 iĢtirak edirdi. Sovetlər Birliyində yaĢayan türk dilli xalqların əksəriyyəti təmsil olunmuĢdu. Azərbaycan nümayəndələri Səmədağa Ağamalıoğlu, Mustafa Quliyev, Əhməd Pepinov, Bəkir Çobanzadə, Ruhulla Axundov, Pənah Qasımov, Hənəfı Zeynallı, Əli bəy Hüseynzadə, Fərhad Ağayev, Cəlil Məmmədquluzadə, Cabbar Məmmədzadə, müəllim Ayrıa Sultanova və b. idilər.
Moskva və Sankt-Peterburqdan görkəmli ĢərqĢünaslar S.R.Oldenburq, A.N.Samoyloviç, M.P.Pavloviç, P.N.Poppe və b., Berlin və Kildən Radebolt

Valter, Menntsel Teodor Teodoroviç, Türkiyədən Mehmet Fuad Köprülüzadə qurultayın iǤtirakçıları idi.
Qurultay ərəb əlifbasının islahatı və latın əlifbasının qəbul edilməsi, milli terminologiyanın yaradılması və türk dilli xalqlar üçün ədəbi dil, ana dilinin tədris metodikası, diyarǤünaslıq, türk dillərinin orfoqrafiyası haqqında məsələləri müzakirə etdi. ÇıxıǤ edənlərin əksəriyyəti türkdilli xalqlarda savadsızlığı tezliklə ləğv etməyin və onları yeni mədəniyyətə tez alıǤdırmağın mümkün yollarından biri kimi latın əlifbasına keçilməsinin mühüm əhəmiyyətini vurğuladılar. Ancaq nümayəndələr içərisində yeni əlifbanın tətbiq edilməsinin əleyhinə çıxıǤ edənlər də var idi. Əleyhdarlar içərisində Baytursunovun baǤçılığı ilə Qazaxıstan nümayəndələri xüsusilə seçilirdilər. Ancaq qurultay Azərbaycanda, digər respublika və vilayətlərdə yeni əlifbanın tətbiqi ilə görülən iǤlər haqqında bəyanat verdi.
1926-cı il martın 7-də Azərbaycan YTƏ Komitəsi yeni əlifbanı qəbul etmiǤ respublika və vilayətlərin nümayəndələri ilə birlikdə müǤavirə keçirdi. MüǤavirədə İttifaq miqyasında bu iǤi tənzimləmək üçün vahid mərkəzin yaradılması məsləhət olundu. S.Ağamalıoğlu (sədr), F.Xocayev, B.QulbəǤərov, M.A.Aytakov və baǤqalarının daxil olunduğu xüsusi komissiya 1927-ci ilin iyununda Bakıda Yeni Türk Əlifbası Ümumİttifaq Mərkəzi Komitəsinin (YTƏ ÜMK) təsis plenumu keçirilməsini təǤkil etdi. Həmin plenum "Yeni türk əlifbasını həyata keçirmək üzrə Ümumİttifaq Komitəsi haqqında Əsasnamə" qəbul edərək, onun hüquq və səlahiyyətlərini, məqsəd və vəzifələrini müəyyənləǤdirdi. Ümumİttifaq Komitəsinə Azərbaycandan S.Ağamalıoğlu, T.Hüseynov, M.Quliyev, R.Axundov və H.Cəbiyevin namizədlikləri irəli 191 sürülmüǤdü76. Plenumda komitənin hüquq və səlahiyyətlərini, məqsəd və vəzifələrini müəyyən edən "Yeni əlifbanın tətbiq edilməsi üzrə Ümumİttifaq komitəsi haqqında Əsasnamə" qəbul edildi.
S.Ağamalıoğlu YTƏ ÜMK-nın sədri, müavinləri isə B.QulbəǤərov və D.Korkmasov seçildilər. Plenumda Sovet İttifaqının əvvəllər yazısı olmayan və ya

ərəb əlifbasından istifadə edən bütün xalqları üçün məcburi olan vahid, yeni, təkmilləĢdirilmiĢ əlifba qəbul edildi.

Bu illərdə Azərbaycanda yeni əlifbanın tətbiq edilməsi sahəsində həyata keçirilən iĢlər savadsızlığın ləğvi probleminin həllini sürətləndirdi. 1920-1927-ci illər ərzində savadsızlığını ləğv etmiĢ 65607 nəfər azərbaycanlıdan 53957 nəfəri yeni, 11650 nəfəri isə əski əlifbanı öyrənməklə savadlanmıĢdı.

**Mədəni-maarif müəssisələrinin yaranması.** Mədəniyyət və təhsili dövrün tələbi səviyyəsində qurmaq yeni cəmiyyət üçün mühüm əhəmiyyət kəsb edirdi. Kütlələrin ictimai Ģüuru bir hakim partiyalı sovet rejiminin qurulması mənafeyinə uyğun formalaĢdırılmalı, onun kommunist siyasəti və ideologiyasına xidmət etməyə tabe edilməli idi. Bu məqsədlərə nail olmağın kütləvi mexanizmlərindən biri mədəni-maarif müəssisələri hesab olunduğu üçün sovet və partiya orqanları respublikanın bütün Ģəhər və qəzalarında mədəni-maarif müəssisələrinin geniĢ Ģəbəkəsinin təĢkil və inkiĢaf etdirilməsinə böyük diqqət yetirirdi. Bu Ģəbəkə insanların düĢüncə davranıĢlarının dövlət və partiya orqanları tərəfindən idarə edilməsi vəzifələri ilə sıx bağlı olan siyasi təbliğatda, kütlələrin siyasi cəhətdən lazımi istiqamətdə maarifləndirilməsində xüsusi rol oynamalı idi.

AK(b)P-nin II qurultayı (1920-ci ilin oktyabrı) mədəni-maarif ocaqlarının xüsusi əhəmiyyətini qeyd edərək, Azərbaycanda klub, kitabxana və qiraət komalarının geniĢ Ģəbəkəsinin yaradılmasını qərarlaĢdırdı.

Fəhlə klubları xüsusilə Bakı Ģəhəri və onun mədən-zavod rayonlarında - Sabunçu, Suraxanı, QaraĢəhər, Bayü, Zabrat və Binəqədidə geniĢ fəaliyyətə baĢladılar79. Artıq 1924-cü ilin ortalarında 54 fəhlə klubu mühüm siyasi və təsərrüfat kampaniyalarında bilavasitə iĢtirak edirdi80. Qəzalarda da vəsait və avadanlıqların, təcrübə və kadrların olmadığı çətin Ģəraitdə mədəni-maarif ocaqlarının təĢkilinə baĢlanmıĢdı. Azərbaycan kəndində siyasi-maarif fəaliyyətinin mərkəzləri 1923-cü ildən yaradılmasına baĢlanan qiraət komaları idi. Dövlət hesabına maliyyələĢdirilən bütün maarif iĢi onlarda cəmləĢdirilmiĢdi81. Qiraət komalarında kəndlilərin ibtidai siyasi-maarif savadsızlığını ləğvetmə kursları və azsavadlılar üçün məktəblər yaradılırdı. Bundan əlavə, qiraət

komalarında kənd təsərrüfatı, kooperativ, sanitar, kənd müxbirləri, dram dərnəkləri və s. fəaliyyət göstərirdi. Bu illərdə yaylaqlarda "qırmızı çadırlar"ın təĢkili kimi mədəni-maarif iĢi formasından da istifadə edilirdi82. Kənd əhalisi içərisində təbliğat-təĢviqat iĢinin geniĢləndirilməsində rayonlara fəhlə təĢviqatçıların səfərləri də mühüm rol oynayırdı. 1920-ci ilin yayı və payızında Bakı-Ağstafa-Poylu marĢrutu üzrə partiya, sovet iĢçiləri, mədəniyyət və incəsənət xadimlərindən ibarət təĢviqat qatarı təĢkil olunmuĢdu.

Kənd mədəniyyət ocaqlarının inkiĢafı, onların iĢinin yaxĢılaĢdırılmasında fəhlələrin kənd üzərində hamiliyi böyük əhəmiyyət kəsb edirdi. Bu məqsədlə "ġəhərin kəndlə mədəni rabitəsi cəmiyyəti" də səmərəli fəaliyyət göstərirdi84. Təkcə 1923-cü ilin iyulundan 1924-cü ilin aprelinədək Bakıdakı hami təĢkilatların köməyi ilə kəndlərdə 30 qiraət koması açılmıĢdı. 1927-ci ilin sonunda kənd Klublarının sayı 171-ə çatmıĢdı83. Onlar yerli əhali içərisində böyük təĢkilati iĢ apararaq bir çox cəhətdən kənddə mədəni-maarif idarələrinin təməlini qoydular. Bu sahədə Bakı zəhmətkeĢlərinin mədəni hamilik iĢi Ģəhərlə kənd arasında rabitə yaradılması, kəndli kütlələrinin siyasi və mədəni səviyyəsinin yüksəlməsi üçün mühüm əhəmiyyətə malik idi.

Mədəni kütləvi və siyasi-maarif iĢində kitabxanalar da mühüm rol oynayırdı. Bunun üçün "BaĢ siyasi maarif idarəsi" nəzdində kitabxana Ģəbəkəsi yaradılmıĢdı. 1920-ci ilin əvvəlində Azərbaycanda cəmi beĢ kitabxana var idi. 1923-cü ildə Azərbaycan Dövlət Kitabxanasının, 1925-ci ildə isə Kitab palatasının təĢkili respublikanın mədəni həyatında mühüm hadisə oldu. Kəndlərdə kitabxanaların Ģəbəkəsini geniĢləndirmək məqsədilə ÜĠK(b)P MK 1925-ci iün sentyabrında "Kənd kitabxanaları və kitabxanaların təchizi üçün populyar ədəbiyyat haqqında" qərar qəbul etdi. Savadsızlıqla mübarizə Ģəraitində bu qərar geniĢ kəndli kütlələrini populyar ədəbiyyatla tanıĢ etmək, onların savad dərnəklərində əldə etdikləri bilikləri möhkəmləndirmək məqsədi güdürdü. Qəzalarda kitabxanaların sayı 1925-ci ildəki 85 min kitabı olan 25-dən 1927-ci ilin əvvəllərində 1017 min kitab fondu olan 114-ə çatdı.

Beləliklə, sovet hakimiyyətinin ilk illərində Ģəhərlərdə fəhlə klubları, kəndlərdə isə kənd qiraət komaları, klublar, kəndli guĢələri və kitabxanaları əhalinin əsas mədəniyyət, siyasi maarif və tərbiyə ocaqları oldular. Bu zaman əsas məqsəd zəhmətkeĢləri dövlət və partiya təĢkilatlarının irəli sürdüyü siyasi-təsərrüfat vəzifələrinin həllinə səfərbər etmək idi.

**NəĢriyyat iĢinin inkiĢafı.** Mədəni quruculuqda ycni siyasətin və "sosialist ideyaları"nın təbliğ və təĢviqinə üstünlük verən partiya və dövlət orqanları Azərbaycan dilində çap və nəĢriyyat iĢini qaydaya salmaq üçünciddi səy göstərirdilər. 1920-ci il avqustun 18-də Azərbaycan Ġnqilab Komitəsi çap iĢinin təĢkili və mərkəzləĢdirilməsi haqqında dekret verdi87. Dekretdə nəĢriyyat iĢinin, Azərbaycan dilində "inqilabi" ədəbiyyat nəĢrinin təkcə Azərbaycan üçün deyil, habelə qonĢu ġərq ölkələri üçün də rolu qeyd edilmiĢdi. Bu məqam "dünya inqilabının inkiĢaf etdirilməsi"nə inamdan irəlı gəlirdi və dekretdə onunla bağlı konkret tədbirlərin həyata keçirilməsi müəyyənləĢdirildi. A.B.Yusifzadənin sədrliyi ilə Azərbaycan Mərkəzi mətbuat kollegiyası yaradıldı. MəĢhur yazıçı M.S.Ordubadi bu kollegiyanın üzvü idi88. Bundan sonra 1920-ci ilin axırlarında Axundovun redaktorluğu ilə Bakı Partiya Komitəsinin həftəlik ―Kənd füqərası", 1921-ci ilin əvvəlindən isə "Azərbaycan füqərası" "Kommunist" qəzetlərinin nəĢrinə baĢlandı88a. Əsası 1906-cı ildən qoyulmuĢ "Bakinski raboçi" ("Bakı fəhləsi") qəzetinin nəĢri 1922-ci ilin mayından bərpa olundu.

AK(b)P MK 1922-ci ilin fevralında marksizm-leninizm klassiklərinin əsərlərinin, marksist-leninçi ədəbiyyatın nəĢrinə baĢlamaq məqsədilə onların Azərbaycan dilinə tərcüməsinə rəhbərlik üçün komissiya yaratdı. K.Marks və F.Engelsin "Kommunist Partiyasının manifesti" Azərbaycan dilində nəĢr olunan ilk əsərlərdən idi. 1920-1925-ci illərdə V.Ġ.Leninin 26 əsəri 130,5 min nüsxə ümumi tirajla çap olunmuĢdu.

1921-ci ilin mayında bütün mətbəə müəssisələri milliləĢdirildi90. Həmin ilin iyununda Xalq Maarif Komissarlığı nəzdində, sonradan dövlət nəĢriyyatına çevrilən nəĢriyyat Ģöbəsi yaradıldı. Mətbəə bazasını geniĢləndirmək məqsədilə təkcə 1922-ci ilin sonunda partiya 80 min manat (qızıl pulla) ayırmıĢdı. Dövlət və

partiya orqanlarının köməyi sayəsində Azərbaycan dilində 1920-ci ildə 63 min nüsxə tirajla 3, 1925-ci ildə 1 milyon 215 nüsxə tirajla 179, 1927-ci ildə isə 2 milyon 130 min nüsxə tirajla 858 adda nəÇr buraxılmıÇdı91. Siyasi ədəbiyyatla yanaÇı, sovet mətbuatı da kütlələrdə avtoritar Çüurun formalaÇdırılmasına və onların "sosializm" uğrunda mübarizəyə səfərbər edilməsinə xidmət edirdi. Aparıcı partiya mətbuat orqanları "Kommunist" (Azərbaycan dilində), "Bakinski raboçi", "Kommunist" (erməni dilində) idi. 1923-cü ildə "Kommunist" qəzetinin tirajı 2,5 min nüsxəyə çatdırıldı. 111 Azərbaycan Sovetlor qurultayı (1923-cü il) böyük xidmətlərinə görə "Kommunist" və "Bakinski raboçi" qəzetlərini Azərbaycan SSR-in Qırmızı Əmək Bayrağı ordeni ilə təltif etdi.

Qəzalarda da partiya mətbuat orqanlarının nəÇrinə baÇlandı. Bu zaman Gəncədə "Yeni Gəncə", Naxçıvanda "ġərqin qapısı", ġuÇada Qarabağın səsi" və baÇqa qəza qəzetləri çıxırdı. 1922-ci ildə Qubada "Əxbar" qəzetinin nəÇrinə baÇlandı. Maraqlıdır ki, qəzet 1920-ci ilin dekabrında VIII Ümumrusiya Sovetlər qurultayı keçirərkən göndərilmiÇ alma sovqatına görə, Quba zəhmətkeÇlərinə minnətdarlıq əlaməti olaraq, 1921-ci ilin aprelində V.Ġ.Leninin göndərdiyi mətbəə maÇınında çap olunmuÇdu. 1920-1927-ci illərdə "AK(b)P MK və BK-nın Xəbərləri" (Azərbaycan və rus dillərində), "ġura quruluÇu", "Ġqtisadi xəbər" "Azərbaycan Ali Ġqtisad ġurasının əxbarı", "Azərbaycan neft təsərrüfatı", "Maarif və mədəniyyət" jurnalları nəÇr olunurdu.

1922-ci ildə "Molla Nəsrəddin"in nəÇri Bakıda bərpa olundu müsəlman ġərqində ilk qadın jurnalı - "ġərq qadını" 1923-cü ildə nəÇrə baÇladı, hökumət "Əkinçi" qəzetinin 50 illiyini keçirmək barədə 1928-ci ilin oktyabrında qərar qəbul etdi. 1927-ci ilin sonunda Azərbaycanda 194 min nüsxə tirajla 35 jurnal və digər nəÇrlər (onların ilk tirajı 497 min nüsxə idi) çıxırdı.

Dövri mətbuatın əhalinin müxtəlif təbəqələri ilə əlaqələrinin geniÇlənməsi fəhlə-kəndli müxbirlər hərəkatına təkan verdi. 1924-cü ilin oktyabrında Bakıda fəhlə-kəndli müxbirlərdən 235 nümayəndənin iÇtirakı ilə bu hərəkatın əsas məsələlərini müzakirə edən birinci qurultayı oldu94. Bclə bir qurultay 1926-cı ilin iyununda Naxçıvan Respublikasında da keçirildi.

Azərbaycanda geniĢ radio veriliĢi Ģəbəkəsinin yaradılması xalqın ictimai-siyasi və mədəni həyatında çox mühüm hadisə oldu. Birinci radio qurğusu 1924-cü ildə Bakıda, digərləri isə az sonra yerlərdə fəaliyyətə baĢladı. 1926-cı ilin 6 noyabrında ilk dəfə efirdə "DanıĢır Bakı" sözləri səsləndi. Artıq 1927-ci ildə Azərbaycanın qəzalarında 111 radio qurğusu və 36 səyyar radiostansiya fəaliyyət göstərirdi.

**Dinə münasibət.** İslam dini Azərbaycan xalqının ən mühüm mənəvi əsaslarındandır. Məhz buna görə azərbaycanlıların həyat və düĢüncə tərzinin özünəməxsus xüsusiyyətlərinin köklərini onlan bütün müsəlman xalqları dünyası ilə doğmalaĢdıran Ġslamın universallığı və ənənəviliyində axtarmaq lazımdır.
islam dini Azərbaycanda çətin tarixi yol keçmiĢdir. Bu cəhətdən 20-ci illər xüsusi yer tutur. Bu dövr həm Ġslam dininə müsbət münasibətlə, həm də onun inkar və bəzən isə təqib edilməsi ilə nəzəri cəlb edir. Bu illərdə Azərbaycanda 1920-ci ilin aprelində qurulmuĢ rejimin ziddiyyətləri tam Ģəkildə üzə çıxmıĢdı. Odur ki, islama münasibətdə hökumətin fəaliyyətinə birtərəfli, birmənalı yanaĢmaq doğru olmaz.
Sovet hakimiyyətinin dinə münasibətinin baĢlıca prinsipi kilsə və məscidin dövlətdən ayrılması idi. Dini dövlətə münasibətdə xüsusi iş  oca edən sovet hökuməti din əleyhinə baĢladığı ateist fəalivyəti geniĢ kütlələrin mədəni yüksəliĢi və materialistcəsinə maariflənməsi uğrunda mübarizənin tərkib hissəsi hesab edirdi. Azərbaycanda Ġslamın özünəməxsus xüsusiyyətləri olmuĢdur. Azərbaycanda islamla yanaşı, ən qədim dövrlərdən müxtəlif konfessiyalarm – pravoslav, yəhudi, katolik, protestant və qriqoryan, müxtəlif dini icma və sektaların nümayəndələri dinc yanaĢı yaĢamıĢdılar. Azərbaycanda əhali içərisində müxtəlif dini etiqad nümayəndələrinin olması, bu dinlərin, xüsusilə Ġslam dininin özünəməxsusluğu konkret tarixi inkiĢaf Ģəraitinin, dindarların milli xüsusiyyətlərinin nəzərə alınmasını, onların dini hisslərinə ehtiyat və diqqətlə yanaĢmağı tələb edirdi. 1920-ci ildə Azərbaycan Sovet hökumətinin baĢçısı N.Nərimanov Ġslamın müsəlman kütlələrin Ģüurunda tutduğu yeri, onun ġərq xalqlarının mənəviyyatında, məiĢətində, həmçinin həyatın müxtəlif sahələrində də

ciddi təsiredici mühüm rolunu dərk edərək vurğulayırdı: “ġərqdə dinə münasibət məsələsi fövqəladə əhəmiyyətli məsələdir”97.

N.Nərimanov dindarların hüquqlarının pozulmasma qarĢı çıxır, dinə loyal münasibət göstərməyə çağırırdı. N.Nərimanovun dinə aid bu göstəriĢləri Azərbaycan hökumətinin 1920-ci ilin mayında qəbul etdiyi dekretdə öz əksini tapmıĢdı.

1920-ci ilin mayında Azərbaycan SSR Xalq Maarif Komissarlığının məktəbdə dini təlimlərin tədrisinin dayandırılması, Din Nazirliyinin ləğvi haqqında dekreti98 respublikanın hər bir vətəndaĢına istənilən dini etiqadı seçmək və ya heç bir dinə sitayiĢ etməmək hüququ, eyni zamanda dinin lehinə və ya əleyhinə təbliğat aparmaq azadlığı verirdi. Dini etiqadı ayrılıqda hər bir Ģəxsin vicdan iĢi hesab edən dövlət, dinə münasibətdə bitərəf qalaraq, heç bir dini cərəyanın tərəfində durmadı, onlardan heç birini nə maddi, nə də mənəvi cəhətdən müdafıə etmədi. Dövlət böyüməkdə olan nəslin bütün təhsil və tərbiyə iĢini tamamilə Xalq Maarif Komissarlığının sərəncamına  ocal, bütün dövlət və qeyri-dövlət məktəblərində hər hansı dini mərasim keçirilməsi qadağan edildi.

Ancaq, təəssüf ki, dinin xeyrinə olan bütün tələb və prinsiplər yerli orqanlar, ayrı-ayrı partiya məmurları tərəfındən pozulur, xalqın yüzillər boyu formalaĢmıĢ ənənəvi mənəvi dəyərlərinin köklərini dağıdan inzibati, zorakı metodlar tətbiq edilirdi. Bütün bunlar əhali içərisində “dinlərinin əllərindən alınması” barədə Ģayiələr yayılmasına və narazılığa gətirib çıxartdı. Kütlələr içərisində böyük izahat iĢi aparmaq tələb olunurdu.

Azərbaycan MĠK-in sədri Ağamalıoğlu “Sadəlövh adamlara açıq məktubla müraciət edərək, sovet hakimiyyətinin dinə və dindarlara münasibətini aydınlaĢdırdı. GeniĢ kütlələr içərisində dekretin izahı iĢinə Respublikanın mütərəqqi ziyalıları, partiya və dövlət xadimləri cəlb olundular. Mətbuatda N.Nərimanov, B.Talıblı və baĢqaları xüsusi məqalələrlə çıxıĢ edirdilər. N.Nərimanov dindarların dini hisslərinin hər hansı formada təhqir olunmasına qarĢı çıxır, Ģəriətin zərərli tələblərinə, ifrat mövhumatçılıqla mübarizədə özünü doğrultmayan tələsikliyə, məcburiyyətə yol verməməyi təkidlə məsləhət görürdü.

Maraqlıdır ki, 1922-ci ilin martında RK(b)P MK-ya məktubunda G.V.Çiçerin N.Nərimanovun 1918-ci ilin dekabrında HəĢtərxanda kilsənin dövlətdən ayrılması haqqında dekretin nəĢri ilə əlaqədar dindarlara müraciətini dindar müsəlmanlara taktiki yanaĢma nümunəsi kimi səciyyələndirmiĢdi. Çiçerin Leninə məktubunda yazmıĢdı: "Nərimanov… ġərqdə təĢviqatçılara olduqca qiymətli göstəriĢlər vermiĢdi… Onun mollalara nitqi müsəlman camaatına nəzakətlə yanaĢmağın nümunəsidir". Onunla razılaĢan Lenin əlavə etmiĢdi: "… Nərimanovun nitqini bütünlüklə daxil etmək (tərtib ediləcək təlimnaməyə - *məsul red.)* və ya heç olmasa onu tövsiyə etmək olmazmı – bütünlükdə daha yaxĢı olar"99. Sovet hakimiyyətinin ilk illərində respublika hökuməti dindarlara qayğı göstərir, dini bayramlarda – "Qurban bayramı", "Orucluq bayramı", "Uraza", katolik və yəhudi pasxa günlərində, "BlaqoveĢĢeniye" günlərində müxtəlif dinə mənsub adamları iĢdən azad edirdi. "Novruz bayramı" günlərində məktəblərdə tətillər baĢlanır, küçələrdə Ģagirdlərin bayram nümayiĢləri, teatr və klublarda tamaĢa və konsertlər təĢkil edilirdi100. AK(b)P MK 1921-ci il avqustun 30-da məhərrəmlik günlərində fəhlə rayonlarında müsəlmanlara çay və qənd verməyi qərara aldı. Bu dövrdə Azərbaycanda məscid və kilsələr, o cümlədən Bibiheybət və Əmircanda ġəmsi Əsədullayev məscidləri, Bakıda Aleksandr Nevski baĢ kilsəsi və Müqəddəs Mariya katolik kastyolu, sinaqoqlar, müsəlmanların onlarla sitayiĢ yerləri və pirləri fəaliyyət göstərirdi101. Bu illərdə digər Ģəhər və kəndlərdə, o cümlədən ġəki, Ağdam, ġuĢa və digər regionlarda da məscidlər azad fəaliyyətdə idilər.

1920-ci il sentyabrın 28-də Azərbaycan Ġnqilab Komitəsinin dekreti əsasında Bakıda Azərbaycan SSR-ə mənsub olan qızıl, gümüĢ, platin, brilyant və mirvaridən ibarət qiymətli Ģeylərin-varidatın mərkəzləĢmiĢ Ģəkildə saxlanılmasını təmin edən Dövlət Mühafızə Ġdarəsi təsis edildi. Dekretə əsasən, bir ay müddətində bütün sovet idarələri və vəzifəli Ģəxslər sərəncamlarında olan varidatı bu idarəyə təhvil-təslim etməli idilər102. Ancaq dekretdə, xüsusi olaraq qeyd edilmiĢdi ki, qiymətli sərvətlərin təhvil verilməsi dini icmaların ixtiyarında olan sitayiĢ əĢyalarına aid edilmir.

1922-ci ilin noyabrında AK(b)P MK Rəyasət Heyəti Kərbəlaya ziyarətə gedən vətəndaǤlar haqqında məsələni müsbət həll etdi və onlara 300 manatadək qızıl pul aparmağa icazə verdi.

Xalq məhkəmələri ailə və vərəsəlik hüququ sahəsində Ǥəriət hüququnun sovet hökumətinin qərarlarına uyğun müddəalarını da rəhbər tutmaq hüququna malik idilər. Hökumətin islama, onun ənənələrinə yumǤaq münasibəti yeni ictimai-siyasi Ǥəraitdə öz yerini tapmağa can atan dindarlar tərəfindən rəğbətlə qarǤılandı. Bu cəhət özünü 1920-1922-ci illərdə Volqaboyu, Ukrayna, Krım və Qafqazda baǤ verən aclıqla ümumxalq mübarizəsi günlərində parlaq Ǥəkildə göstərdi104

**Qadın hərəkatı.** Azərbaycanda yeni cəmiyyət quruculuğunun mühüm problemlərindən biri Azərbaycan qadınının ictimai-sosial, siyasi, mədəni həyatda tam azadlığının təmin olunması idi. Qadınlar və qızlar respublika əhalisinin yarısını təǤkil etdiyi üçün onların kiǤilərlə bərabər yeni cəmiyyət quruculuğuna cəlb edilməsi mühüm əhəmiyyət kəsb edirdi. Hakimiyyətə gəlmiǤ kommunistlər bu məsələyə xüsusi fikir verirdilər. Partiya qərarlarında qadın məsələsi, onların vəziyyəti, əməyinin hərtərəfli öyrənilməsi, təhsil və mədəni səviyyəsinin yüksəldilməsi daim diqqət mərkəzində dururdu.

Azərbaycanda yeni hökumətin ilk tədbirlərindən biri cəmiyyətin bütün həyat sahələrində qadınların kiǤilərlə bərabərhüquqlu elan edilməsi oldu. Ancaq ilk dövrdə bütün Azərbaycan qadınları sovet hakimiyyətinin verdiyi hüquqları dərindən dərk etmək, yeni quruluǤun mahiyyətini hərtərəfli qavramaq səviyyəsində deyildi. Əhali içərisindəki feodal-patriarxal qalıqlarının çox güclü olması da bu problemin həllini çətinləǤdirirdi. Mədəni quruculuqda qadının ailədə, məiǤətdə maddi cəhətdən asılı olması barədə köhnə anlayıǤ və nıüxtəlif xurafatları aradan qaldırmaq sahəsində ardıcıl fəaliyyət baǤlandı. Qadınlara kiǤilərlə bərabər hüquqlar verilməsinə baxmayaraq, onlar hələ ictimai-siyasi və mədəni həyatdan uzaq dilər, çoxarvadlılıq, erkən evlənmə və digər zərərli adətlər də aradan götürülməmiǤdi.

Azərbaycan qadınının spesifık həyat tərzi onların arasında xüsusi forma və metodlarla iǤ aparılmasını tələb edirdi. AK(b)P-nin n qurultayının (1920-ci ilin

oktyabrı) qətnaməsində göstərilirdi: "Müsəlmanların məiĢət xüsusiyyətlərini nəzərə alaraq, qadınlar arasında iĢ üçün bir sıra xüsusi xarakterli tədbirlər (kustar artelləri, savad məktəbləri, klubların təĢkili, kiĢilər içərisində təĢviqat və s.) qəbul etmək lazımdır"105. ġərq qadınları içərisində iĢintəĢkilatçılarının 1921-ci ilin aprelində Moskvada keçirilən Ümumrusiya müĢavirəsində qeyd olunmuĢdu ki, "ġərqin milli rayonlarında qadınlar içərisində təbliğat-təĢviqat iĢi ġərq xalqlarının mədəni səviyyəsi və çoxcəhətli iqtisadi inkiĢaf formalarına uyğunlaĢdırılmalıdır"106. MüĢavirə qadınlar üçün istehsalat artelləri təĢkilinin zəruriliyini də vurğulamıĢdı.

Azərbaycanda 1920-ci ilin noyabrından yaradılmıĢ qadın Ģöbələri qadın hərəkatında böyük rol oynadılar107. Qadınlar içərisində əvvəllər görünməmiĢ yeni təĢkilati iĢ forması olan qadın Ģöbələri tezliklə məĢhurlaĢaraq, qadın kütlələrinin etibarını qazandı və qabaqcıl müsəlman qadınların əsil döyüĢ qərargahlarına çevrildi. Onların təĢkilinin tək birinci ilində 20 min qadın Ģöbələrə cəlb edilmiĢ, 75 nəfər qadın iĢçi hazırlanmıĢdı108. 1921-ci ilin yanvarında qadın Ģöbələri müdirlərinin Bakıda toplanan birinci müĢavirəsi onların fəaliyyətinə böyük qiymət verdi.

Bitərəf qadınların 1921-ci il fevralın 8-dən 11-dək Bakıda keçirilən birinci qurultayında 1188 nəfər qadın nümayəndə iĢtirak edirdi. Onların 500 nəfəri ucqar kəndlərdən gəlmiĢdilər. Nümayəndələrin milli tərkibi belə idi: Azərbaycanlılar – 41,8, ruslar -16,7, ermənilər – 13,8, baĢqa millətlərdən olanlar – 7,7 faiz.

Qurultayın toplanmasında məqsəd Azərbaycanın zəhmətkeĢ qadın kütlələrini hərəkətə gətirmək və qəza qadın Ģöbələrinin iĢini təmin etmək idi.

Azərbaycan tarixində qadınların ilk xüsusi qurultayı qadınların istək və arzularını müəyyənləĢdirməli, onları ölkənin qarĢısında duran mühüm xalq təsərrüfatı vəzifələrinin həllinə səfərbər etmək idi. N.Nərimanov qadın nümayəndələrini salamlayaraq, onlar müraciətdə demiĢdi: "Gözlərimiz önündə görünməmiĢ iclas, eĢidilməmiĢ xəbər baĢ verir, daha doğrusu indiki qurultay ona görə toplanmıĢdır ki, siz burada bütün acı və ehtiyaclarınızı, arzu və istəklərinizi deyəsiniz və inqilabi hökumət bütün deyilənləri nəzərə alar, bütün arzularınızı yerinə yetirər"110.

Sovet hakimiyyəti, qadınlar arasında iĢ, ərzaq siyasəti və qadınların ərzaq iĢində iĢtirakı, ana və uĢaqların mühafizəsi, Zaqafqaziya qadınlarının vəziyyəti və xalq maarifi haqqında dinləniniĢ məruzələr qadınlar üçün mahiyyətcə tam aydın olmasa da maraqla qarĢılandı. Qurultayın bəyannaməsində deyilirdi: "Biz, qurultayın iĢtirakçıları yalnız hökumətimizin bizə göstərdiyi yolla getməyə bir-birimizə söz veririk".

Qurultay qadınlar içərisində iĢ aparmaq məqsədilə təĢkilatçı-təlimatçılar hazırlayan üçaylıq kurslar təĢkil etməyi qərara aldı. Bu iĢə Mərkəzi türk sovet partiyası məktəbi böyük kömək göstərdi. Ġlk mərhələdə Azərbaycan qadınları içərisində iĢi əsasən qadın klubları və kəndli qadın guĢələri aparırdı. Onlar qadınlar üçün istehsalat və sənət emalatxanaları yaradır, onlara istehsalat vərdiĢləri, savad öyrədir, ali və orta tədris müəssisələrinə daxil olmaq üçün hazırlayır, ekskursiyalar, maraqlı mühazirələr və məsləhətlər təĢkil edirdilər. BaĢ siyasi maarif idarəsi müsəlman qadın klublarının təĢkili üçün 1921-ci ilin noyabrında 10 mln manat ayırdı.

Qadın klubları sovet hakimiyyətinin qanunlarının müsəlman qadınlara izah edilməsində, əhalinin ən çox geridə qalmıĢ qadın təbəqələrinin fəallaĢdırılması və özfəaliyyətinin oyanıĢında, onları Ģüurlu yaradıcı fəaliyyətə cəlb etməkdə mühüm rol oynayırdılar. Sovet Ģərqində birinci qadın klubu 1920-ci ilin mayında Bakıda yaradılan Ə.Bayramov adına klub idi. Onun iĢində respublikanın görkəmli qadın ictimai xadimləri Ayna Sultanova, Ceyran Bayramova, Arifə Musabəyova, Xavər Qarayeva-Ģabanova, Mina Cəfərova, Gülarə Qədirbəyova, Xanımnaz Əzizbəyova, Klavdiya ĠĢkova, Hökumə Məmmədova, Mələk-Nisə Orucova, Əminə Qasımova, Sona Cəfərova, Sara Talıbova, Bəyim Rəcəbova, Gövhər Axundova, Fatma Hacıyeva, Xədicə Babayeva, Zeynəb Rizvanova, Sona Sadıxova fəal iĢtirak etmiĢlər.

Klubda müsəlman qadınlar üçün əməli sənət məktəbi rolunu oynayan nümunəvi emalatxanalar yaradılmıĢdı. 1922-ci ildə klubun emalatxanasında 35, yun-sap emalatxanasında 50, toxuculuq emalatxanasında 20 müsəlman qadın, üzləmə

sexində 20 Ģagird qadın, ayaqqabı təmirində 25, kisə arteli emalatxanasında 70 nəfər qadın iĢçi çalıĢırdı.

Klubun nəzdində kitabxana, oxu zalı, dram dərnəyi, xor və balet qrupları var idi. 1923-cü ildə burada əl iĢi, tətbiqi sənət, toxuculuq, xalçaçılıq zəhmətkeĢ qadınlar I Zaqafqaziya qurultayına toplaĢmıĢdılar118. Qurultayda 262 qadın, o cümlədən Azərbaycandan 133 nümayəndə iĢtirak edirdi. Qurultaya gələnlərin sayı o qədər çox idi ki, onların bir hissəsi birinci sıradan qabaqda sərilmiĢ xalçaların üstündə oturmuĢdular.

Qurultayda Kominternin beynəlxalq qadınlar katibliyinin nümayəndəsi Arborerolli "Sovet Rusiyasında və bütün dünyada qadın hərəkatının inkiĢafı və Beynəlxalq qadın katibliyinin vəzifələri" mövzusunda məruzə ilə çıxıĢ etmiĢdi. Həmin mövzu üzrə əlavə məruzəçilər Həmid Sultanov, Flora Vardanyan, Mariya OraxelaĢvili idi. Elə həmin gün Genuyadan qayıdan Nəriman Nərimanov qurultayda "Genuya konfransının yekunu barədə" məruzə ilə çıxıĢ etmiĢdi.

Qurultay Zaqafqaziyada qadın hərəkatının daha da geniĢlənməsinə, qadınların istehsalata, ölkənin ictimai-siyasi həyatına cəlb edilməsinə, Zaqafqaziya respublikalarının hamısında bu istiqamətdə iĢin inkiĢafına güclü təsir göstərdi.

Azərbaycanlı qadınlarının istehsalat fəaliyyətinə geniĢ cəlb edilməsi məqsədilə qadın klublarında artel və emalatxanalardan baĢqa milli ənənələrə, müsəlman qadınlarının spesifik ailə Ģəraitinə uyğun olan texniki-peĢə məktəbləri açılırdı. Təkcə 1924-cü ilin yazırıda Bakı və onun mədən rayonlarında 500 Azərbaycanlı qadını birləĢdirən 16 əmək arteli, 47 emalatxana var idi. Dövlət onların ehtiyacları üçün xüsusi fond – 1,5 milyard manat ayırmıĢdı. Qəzalarda tikiĢ, yun-sap, xalçatoxuma, kənd təsərrüfatı artelləri təĢkil olunmuĢdu. 1925-ci ilin əvvəllərində qəzalarda artellərin sayı 21-ə çatırdı və onlarda 320 iĢçi qadın çalıĢırdı.

Artel və emalatxanalar öz iĢlərini onları lazımi materiallarla təchiz edən və hazır məhsulu alan təsərrüfat və kooperativ təĢkilatların ehtiyacları ilə sıx uzlaĢdırırdı. Azərbaycanlı qadınlar tədricən sənaye sahəsinə də cəlb olunurdu. 1927-ci ilin əvvəllərində bu cür isçi qadınlarının sayı dörd min nəfərdən artıq idi.

Azərbaycanlı qadınlarda təhsilə marağın artması müĢahidə olunurdu. Ġlk dövrdə Ģəxsi təhsil dərnəkləri, qadın savad məktəbləri yaradılırdı. 1923-cü ildə onların sayı 15-ə çatmıĢ və burada 400 nəfərdən artıq Azərbaycanlı qadın təhsil alırdı122. Bunlar azərbaycanlı qadınlarının savadsızlığını ləğv etməyə, yeni məiĢət uğrunda mübarizəni asanlaĢdırmağa imkan verirdi. Bu cəhətdən çoxarvadlılığı və erkən nikahları qadağan edən yeni nikah hüququnun tətbiqi (mart, 1923-cü il) az əhəmiyyət kəsb etmədi.

Qadınlar arasında geniĢ maarifçilik iĢinin aparılmasında Xədicə Ağayeva, Rəhilə Hacıbababəyova, Həmidə CavanĢir-Məmmədquluzadə, Gövhər Qayıbova, ġəfiqə Əfəndizadə, Mədinə Qayıbova xüsusilə fərqlənirdilər.

Qadın hərəkatında nümayəndə iclasları yeni hadisə idi. Nümayəndə iclasları Bakıda, qəza mərkəzlərində keçirilirdi. Nümayəndə iclaslarının

**Texniki peĢə təhsili.** Azərbaycan sənayesinin bərpası və inkiĢafı ixtisaslı iĢçi qüvvəsinin hazırlanmasını tələb edirdi. Sovet hakimiyyətinin qurulması ərəfəsində Bakıda yalnız 2 texniki-peĢə və dənizçilik məktəbi126, Gəncə və Zaqatalada isə sənət məktəbləri var idi127. Onlarda dərslər yalnız rus dilində aparılırdı, praktiki olaraq bu məktəblər yerli əhalidən ayrı düĢmüĢdü. Neft iĢinə xidmət edən, texniki sahədə çalıĢan ixtisaslı azərbaycanlı fəhlələrin sayı həddindən artıq az idi. Bu cəhətdən kənd təsərrüfatında, habelə iqtisadiyyatın digər sahələrində vəziyyət daha ağır idi.

1920-ci il avqustun 5-də Azərbaycan Ġnqilab Komitəsi respublika xalq təsərrüfatının bərpası üçün ixtisaslı iĢçi kadrları hazırlamaq məqsədilə texniki-peĢə təhsili Komitəsi təsis etdi.

Respublikada gənclər texniki-peĢə təhsilini dörd tip tədris müəssisələrində - fabrik-zavod Ģagirdliyi (FZġ) məktəbləri, peĢə məktəbləri, peĢə kursları və texnikumlarda alırdılar. Onlar müvafiq olaraq texniki-peĢə təhsilinin aĢağı, orta və ali pillələrini təĢkil edirdi. Azərbaycan gəncləri ibtidai peĢə təhsilini peĢə məktəbləri və fabrik-zavod Ģagirdliyi məktəblərində alırdılar. Onların sayı həddindən artıq az idi. Bakıda peĢə məktəbləri, Lənkəran, Salyan və Altıağacda tədris emalatxanaları, ġuĢada isə qadınlar üçün xalçaçılıq emalatxanası var idi129.

Azərbaycanda fabrik-zavod Ģagirdliyi məktəbləri daha geniĢ yayılmıĢdı. Onlar 1921 –ci ildən130 təhsil və istehsalat əməyini, ümunu və xüsusi təhsil elementlərini birləĢdirərək gənc nəsli texnikum və ali texniki məktəblərə hazırlamaq məqsədilə yaradılırdı.

Fabrik-zavod Ģagirdliyi məktəblərində təhsil üç-dörd il davam edirdi, onlar əsasən Bakıda və onun mədən-zavod rayonlarında fəaliyyət göstərirdi. 1922-ci ildə keçmiĢ Levenson zavodunda çilingərlik, xarratlıq və dəmirçilik Ģöbələri olan "Qızıl gənclik" fabrik-avod Ģagirdliyi məktəbi açıldı. 1923-cü ilin martında Suraxanıda, 1924-cü ildə isə Zabratda Azərbaycan dilində fabrik-zavod Ģagirdliyi məktəbi fəaliyyətə baĢladı132. Fabrik-zavod məktəblərində azərbaycanlı Ģagirdlərin sayını artırmaq məqsədilə belə məktəblərin qəzalarda təĢkilinə xüsusi diqqət yetirilirdi. Yerlərdə mütəxəssis müəllimlərin çatıĢmadığı (o zaman respublikada cəmi iki azərbaycanlı aqronom var idi) 1923-1924-cü illərdə Gəncə, Zaqatala, Nuxa və Qubada fabrik-zavod Ģagirdliyi məktəbləri açıldı133. Artıq 1925-ci ildə 14 belə məktəb var idi ki, onlardan da altısı Bakı və onun mədən-zavod rayonlarında yerləĢirdi. Bu məktəblərdə cəmi 1759 nəfər təhsil alırdı134. FZġ məktəbləri Ģagirdlərinin 92,8 faizi fəhlə və kəndli uĢaqları idi.

Azərbaycanda FZġ məktəbləri ilə eyni vaxtda texniki-sənaye, dəmir yol, su nəqliyyatı və s. Müxtəlif peĢə kursları geniĢ yayılmıĢdı. 1924/25-ci tədris ilində respublikada 35 peĢə kursunda 2447 nəfər oxuyurdu136. PeĢə kurslarmda oxuyanların 48,3 faizini fəhlələr, 29,2 faizini qulluqçular, 8 faizini isə kəndlilər təĢkil edirdi. Onların içərisində azərbaycanlılar 20,4, ruslar isə 54 faiz idi137. ġagirdlərin ümumi tərkibində qadınlar 28,2 faiz idi.

Orta ixtisas təhsili sistemində texnikumlar mühüm yer tuturdu. Onların təĢkilində, hər Ģeydən əvvəl, fəhlə və kəndli uĢaqların qəbulu, habelə azərbaycanlı Ģagirdlərin cəlb edilməsi yolu ilə ocal tərkibin yaxĢılaĢdırılması nəzərdə tutulurdu. Birinci növbədə göstərilən tədris müəssisələrinə fəhlə və kəndlilər qəbul edilirdilər. Texnikumun sərəncamına torpaq, bağ və meĢə sahələri ayırmaq, onların yerli aqronom məktəblərinin tədris vasitələrindən, xalq torpaq komissarlığının meteoroloji, ipəkçilik stansiyaları və digər elmi idarələrindən

istifadə etmələrinə icazə vermək vəzifəsi bütün qəza təĢkilatlarına həvalə edilmiĢdi.

Beləliklə, bir neçə ildə texnikumlar Ģəbəkəsi xeyli geniĢləndi, onlarda azərbaycanlıların sayı üstünlük təĢkil etməyə baĢladı. 1926/27-ci tədris ilində 39 texnikumda təhsil alan 7137 nəfərdən 67, 7 faizi azərbaycanlı, 60,1 faizi fəhlə-kəndli uĢaqları idi. Azərbaycandakı texnikumlar pedaqoji, sənaye-iqtisadi, nəqliyyat sənaye-texniki, kustar sənətkarlıq, kənd təsərrüfatı, tibb, ocal musiqi və teatr ixtisasları üzrə qruplaĢdırıldı.

**Ali təhsilin inkiĢafı.** Azərbaycanda yeni cəmiyyət qurulmasında ən mühüm vəzifələrdən biri sovet mütəxəssisləri, ələlxüsus fəhlə və kəndlilərdən ziyalı kadrlar hazırlamaq idi. Lakin bu sahədə Azərbaycanın konkret spesifik Ģəraitini nəzərə almadan, RSFSR-in ali məktəb təcrübəsindən istifadə edildi, orada isə təhsil xüsusi dekretlə təlimin "proletariatlaĢdırılmasına" istiqamətləndirilmiĢdi. Həmin dekretdə göstərilirdi: "Birinci yerdə sözsüz, proletariat və yoxsul kəndlilər mühitindən Ģəxslər qəbul edilməlidir, onlara geniĢ həcmdə təqaüdlər veriləcəkdir". Fəhlə və kəndli hakimiyyəti yeni sosialist cəmiyyətinin öz qurucu kadrlarını hazırlamalı idi. Ali təhsil probleminin bu qaydada həlli onun əsil humanist, sərbəstlik tələb edən zəminini məhdudlaĢdırırdı. Azərbaycanda ali məktəb quruculuğu iĢinə ana dilində dərs deməyi bacaran kifayət qədər yüksək ixtisaslı mütəxəssis kadrların olmaması, bina və zəruri avadanlıqların çatıĢmaması, təsərrüfat dağınıqlığı ilə əlaqədar maddi çətinliklər Ģəraitində baĢlandı.

Azərbaycanda yalnız 1919-cu ilin noyabrında açılmıĢ yeganə ali təhsil müəssisəsi olan Bakı Universiteti fəaliyyət göstərirdi. Sovet hökuməti respublikada ali təhsilin inkiĢafında Bakı Universitetinin rolunu artırmaq üçün ciddi səy göstərirdi. Bakı ġəhər Soveti, Xalq Təsərrüfatı ġurası, Azərbaycan Həmkarlar Ġttifaqları ġurası, Azərneft və digər sovet-təsərrüfat idarələri Universitetin maddi bazasının möhkəmlənməsinə yardım göstərməyə səfərbər edilmiĢdi.

Fəaliyyətə baĢladığı vaxt Universitetin tərkibində yalnmız iki fakültə (tibb və tarix-filologiya) var idi138. 1921 -1922-ci ildə isə tarix-filologiya fakültəsi ictimai elmlər fakültəsinə çevrildi, ictimai elmlər və fizika-riyaziyyat fakültələri əsasında pedaqoji fakültə yaradıldı. Azərbaycan Ġnqilab Komitəsinin sədri N.Nərimanov respublika üçün birinci növbədə texniki ali məktəb yaradılmasının vacibliyin nəzərə alaraq, 1920-ci ilin dekabrında keçmiĢ Bakı Texniki Məktəbinin ali məktəbə çevrilməsi haqqında dekret verdi. 1921-ci ilin yanvarında isə bu məktəbin, habelə RSFSR Xalq Maarif Komissarlığının qərarı ilə Petroqraddan Bakıya köçürülmüĢ politexnik texnkumun bazasında Azərbaycan Politexnik Ġnstitutu (APĠ) açıldı.

1921-ci ilin yanvarında Ġnstitutda dorslor baĢlandı, N.Nərimanov professor-müəllim və tələbə heyətini Azərbaycan SSR XKS və MĠK. Adından salamlayaraq, Ġnstitutun milli kadrların hazırlanması iĢində böyük əhəmiyyətini qeyd etdi141. Politexnik institutunun formalaĢması və inkiĢafında Azərneftin rəhbərləri, uzun müddət Ġnstitut direktoru olmuĢ A.A.Nikitin, habelə müəllimlər – Ġ.Q.Yesman, Y.N.Dunin, Z.B.YelyaĢeviç, M.V.Abramoviç, H.B.ġahtaxtinski, A N.Amosov və b. Fəal iĢtirak etdilər. Respublikada müəllim kadrların hazırlanması mərkəzi olan Azərbaycan Pedaqoji Ġnstitutu N.Nərimanovun böyük səyi sayəsində 1921-ci ilin payızında Bakıda fəaliyyətə baĢladı. Ġnstitutun təsisi barədə dekretdə deyilirdi: "Vahid əmək məktəbi ideyalarını həyata keçirə bilən yüksək ixtisaslı maarif iĢçiləri ilə respublikanı təmin etmək məqsədilə Xalq Komissarları Soveti qərara alır: Bakı Ģəhərində bu ilin (1921-ci il) 1 sentyabrından xüsusi olaraq ikipilləli məktəblər üçün dövlət türk dilində müəllimlər hazırlayan birinci Azərbaycan Dövlət KiĢi Ġnstitutu təsis etmək". İnstitutun tərkibində fizika-riyaziyyat, təbiət-kimya və ədəbiyyat Ģöbələri var idi144. Burada tədris Azərbaycan dilində aparılırdı. R.B.Rzabəyli, M.O.Əfəndiyev, K.D.Cəfərov, M.Q.Əliyev, T.A.ġahbazi, A.Məmmədov, B.T.Talıblı, Ə.Haqverdiyev, V.Xuluflu və b. Ġnstitutun ilk fədakar təĢkilatçıları, müəllimləri idilər.

1921 –ci ildə qadın Məktəbəqədər Tərbiyə Ġnstitutu yaradıldı. 1921-ci ilin noyabrında isə o, Ali Qadın Pedaqoji Ġnstitutuna çevrildi. 1921-ci ildə

Respublikada Ali Bədii Məktəb və Konservatoriya yaradıldı145.1926-1927-ci tədris ilində Azərbaycanda 5351 tələbənin təhsil aldığı yeddi ali təhsil müəssisəsi var idi. Tələbələrin ancaq 27,5 faizini azərbaycanlılar təǴkil edirdi146.

Ali məktəblərə köhnə ziyalı nümayəndələrinin cəlb edilməsi, ali məktəblərin müəllim heyətinin sosial və milli tərkibinin yaxǴılaǴdırılması, onun fəhlə-kəndli mühitindən çıxmıǴ kadrlarla geniǴləndirilməsi sayəsində onlarda Azərbaycanlı müəllimlərin və müdavimlərin sayının artması sürətləndi.

Müəllim heyətinin vəziyyətini yaxǴılaǴdırmaq məqsədilə 1925-ci ildə Azərbaycan SSR XKS və MĠK "Ali tədris müəssisələrinin akademik heyəti üzvlərinin pensiya təminatı haqqında" qərar qəbul edildi.

Azərbaycanın ali tədris müəssisələrinin iǴçilərinə elmi-tədqiqat iǴləri və ixtisaslarını artırmaq üçün geniǴ imkanlar açdı. Milli ziyalı kadrların hazırlanması və səmərəli müəllimlik fəaliyyəti üçün lazımi Ǵərait yaradıldı. Azərbaycan Ġnqilab Komitəsinin 1920-ci il 16 iyul tarixli dekreti ilə Bakı Universitetinin professor və müəllimləri hərbi səfərbərlikdən azad edildilər148. Ali tədris müəssisələri qapısının fəhlə və kəndli üzünə geniǴ açılmasını təmin edən bir sıra dekretlər verildi. Onlar üçün pulsuz təhsil prinsipi həyata keçirildi149, dövlət təqaüdləri müəyyən edildi, ehtiyacı olan tələbələr üçün xüsusi fond ayrıldı. Beləliklə də gənclər ali təhsil almağa qeyri-adi həvəs göstərirdilər: təkcə fəaliyyətə baǴladığı birinci ildə Politexnik Ġnstitutuna 1135 tələbə daxil olmuǴdusa, 1924-25-ci tədris ilində onların sayı 2483-ə çatdı. Bu mənzərə Bakı Universitetində və baǴqa ali təhsil müəssisələrində də müǴahidə olunurdu Eyni zamanda çoxlu azərbaycanlı tələbə Moskva və Leninqradın (Sankt-Peterburq) ali tədris müəssisələrinə göndərilirdi. 1925-ci ildə RSFSR və baǴqa sovet respublikalarının ali məktəblərinə 120 azərbaycanlı tələbə göndərilmiǴdi. Həmçinin ən istedadlı tələbələrin bir hissəsinin təhsilini baǴa çatdırmaq üçün xarici ölkələrin ali məktəblərinə göndərilməsinə baǴlanmıǴdı. AK(b)P MK 1922-ci ilin noyabrında xarici ali məktəblərdə təhsil alan tələbələrə dövlət tərəfindən maddi yardım göstərilməsi haqqında qərar qəbul etdi150. 1922/23 və 1925/26-cı tədris illərində

Almaniya, Fransa, Ġtaliya və Ġstanbulda Azərbaycan Sovet Respublikasının təqaüdçüsü olan 129 tələbə təhsil alırdı.

Fəhlə-kəndli gənclərin ali məktəblərə geniĢ axını üçün lazımi Ģərait yaradılmasına baxmayaraq, ali məktəb tələbələrinin sosial mənĢəcə "proletariatlaĢdırılması" prosesi respublikada zəif gedirdi. 1924/1925-ci tədris ilində bütün ali tədris müəssisələrində fəhlə və kəndlilər cəmi 26,3 faiz, qulluqçu və digərləri isə 73,7 faiz təĢkil edirdi. Bunu nəzərə alaraq, Azərbaycanda əməkçi kəndlilərin yenı təhsil forması olan fəhlə fakültələrinin təĢkil edilməsi tətbiq edildi. Hökumət fəhlə-kəndli gənclər üçün ali məktəblərin qapılarını geniĢ açdı. Fəhlə və kəndlilər üçün ali məktəbə qəbul imtahansız və diplomsuz həyata keçirilirdi. Fəhlə fakültələri fəhlə-kəndli gəncləri ali məktəbə daxil olmaq üçün öyrətmək və hazırlamaq məqsədı güdürdü. Maarifçilik Assosiasiyası 1920-ci ilin dekabrında Bakı Univerteti nəzdində respublikada birinci mərkəzi fəhlə fakültəsi açdı, ilk dövrdə burada təhsil rus dilində aparılırdı152. 1921-ci ilin payızında həmin fakültənin nəzdində 80 nəfər dinləyicisi olan Azərbaycan Ģöbəsi də açıldı. Azərbaycan fəhlə fakültəsinin dinləyiciləri hər növ mülki və hərbi səfərbərlikdən azad edilirdilər.

1923/24-cü tədris ilində Azərbaycan dilində fəhlə fakültələri Gəncə və Nuxada da açıldı. Onlarda 470 dinləyici təhsil alırdı155. 1924/25-ci tədris ilində Bakı Ģəhər fəhlə fakültəsi nəzdində isə 85 nəfərlik erməni Ģöbəsi təĢkil olundu156.

Fəhlə fakültələrinə dövlət xüsusi qayğı göstərirdi. Təkcə 1920-ci ilin dekabrında Xalq Maarif Komissarlığı Bakı Universiteti nəzdindəki fəhlə fakültələri üçün iki milyon manat ayırmıĢdı.

III Ümumazərbaycan Sovetlər qurultayı (1923-cü ilin noyabr-dekabrı) fəhlə fakültələrinin mühüm əhəmiyyətini qeyd edərək, fabrik-zavod fəhlələri və yoxsul kəndlilərdən "mütəxəssislər, yeni sosialist həyat qurucuları hazırlamaq üçün respublikanın bütün ictimai təĢkilatlarına "Azərbaycan fəhlə fakültələrinin daha da yüksəliĢi, onların maddi rifahının möhkəmlənməsi üçün maksimum səy və vasitələr sərf etmək" çağırıĢı ilə müraciət etdi.

Müraciət təsərrüfat və sovet təǪkilatlarının fəhlə fakültələri, quruculuğunda fəal iǪtirakına səbəb oldu. Azərneft, Bakı ġəhər Soveti, Xalq Maarif Komissarlığı və digər təǪkilatlardan alınmıǪ vəsaitlə elmi kabinet və laboratoriyaları təchiz etmək, QaraǪəhərdə fəhlə fakültəsi üçün bina tikintisinə baǪlamaq mümkün oldu159. Nikolayevski küçəsindəki (indiki Ġstiqlaliyyət küçəsi) realnı məktəbin köhnə binası 1923-cü ildən fəhlə fakültəsinə verildi160. Fəhlə fakültəsinin iqtisadi vəziyyətini yaxǪılaǪdırmaq üçün konkret tədbirlər görülürdü. 1921-ci ilin aprelində Maarifçilik Assosiasiyası AHĠġ-in Rəyasət Heyətinə fəhlə fakültəsi dinləyicilərinin iǪ gününü qısaltmaq və maddi təminatının zəruriliyi barədə təkliflə müraciət etdi161. Həmin ilin sentyabrında AHĠġ fəhlə fakültəsi dinləyiciləri üçün güzəǪtlər haqqında qərar verdi: dinləyicilər təhsil müddətində hər gün iki saat iǪdən azad olunur, Ġkinci kurs dinləyiciləri isə əmək haqqı saxlanmaqla xidmətdən azad edilirdilər. Fəhlə fakültəsi tələbələri içərisində azərbaycanlıların sayı eyni artdı. Fəhlə fakültəsinin Azərbaycan Ǫöbəsi açılan zaman 80 dinləyici var idisə, 1925/26-cı tədris ilində onların sayı artmıǪ 1477 nəfərə çatdı163. Bütövlükdə həmin tədris ilində respublika fəhlə fakültələrində müdavimlərin sayı birinci fəhlə fakültəsi açılan zaman olan 209-a qarǪı 3046 nəfər təǪkil edirdi164. 1922-23 ildən 1927-ci ilədək fəhlə fakültələri respublikanın ali tədris müəssisələri üçün 907 nəfər, o cümlədən 227 azərbaycanlı müdavim hazırlamıǪdı.

Beləliklə, 20-ci illərdə respublikada ali məktəblərin inkiǪafı üçün əsas qoyuldu, fəhlə-kəndli gənclərin ali məktəblərə axını yeni “sovet ziyalı” kadrları hazırlanmasına Ǫərait yaratdı.

**Elm.** Azərbaycanda ilk dəfə olaraq dövlət səviyyəsində elmi-tədqiqat özəkləri və institutları Ǫəbəkəsinin yaradılması iǪinə baǪlandı. 1921-ci ilin fevralında Xalq Maarif Komissarlığı nəzdində “elm və təhsil sahəsində bütün iǪə “Ümumi ideya rəhbərliyi üçün akademik Ǫöbə yaradıldı166. Onun tərkibinə Azərbaycan Dövlət Universiteti, Azərbaycan Politexnik Ġnstitutu, Dövlət Muzeyi, Dövlət Arxivi, Dövlət Kitabxanası və bütün digər “elmi xarakterə malik məktəblər, idarələr” daxil edildi.

1920-ci ilədək respublikada formalaŞmıŞ təbii-texniki profili elmi-tədqiqat müəssisəsi yox idi. Elmi fəaliyyətlə məŞğul olan kadrların sayı çox az idi. Azərbaycanda təbiət və texnika elmlərinin inkiŞafına RSFSR və digər sovet respublikalarının elmi idarələri kömək göstərdilər. Bu respublikalardan Bakıya görkəmli alimlər yüksək ixtisaslı mütəxəssislər göndərilirdi. Mərkəz birinci növbədə bütün sovet ölkəsinin iqtisadiyyatı üçün vacib olan elm sahələrinə diqqət yetirərək, ən ümdə ÜmumĠttifaq mənafelərindən çıxıŞ edirdi. Sovet Ġttifaqının baŞlıca neft bazası olan Azərbaycanda elmi dairələrin qarŞısında qazıma texnikası, neft kimyası, energetika, geoloji elmlərin inkiŞafı sahəsində tədqiqatlar əsas vəzifə kimi qoyulmuŞdu. 1920-ci ildə Bakıda Azərneftin geoloji kəŞfiyyat bürosu, 1923-cü ildə isə "Geoloji kəŞfiyyat komitəsi" yaradıldı. Kimyaçı alim A.Q.Qurviçin rəhbərliyi altında Bakıda Azərneftin nəzdində Mərkəzi kimya laboratoriyası təŞkil edildi. Akademik Ġ.M.Qubkin, professor D.V.Qolubyatnikov və M.V.Abramoviç Bakı neft rayonunun geoloji xəritəsini tərtib etdilər. Onlar Azərbaycan SSR neft sənayesinin bərpası və texniki cəhətdən yenidən qurulmasının elmi əsaslandırılmıŞ planını hazırladılar.
Neft mədənlərinin təkmilləŞdirilməsini həyata keçirmək və bərpa iŞlərinə texniki rəhbərliyi təmin etmək üçün istedadlı mühəndis F.B.Rüstəmbəyovun baŞçılığı ilə Azərneftin "Texniki büro"su yaradıldı168. Onun iŞində akademik L.S.Leybenzon, bakılı mühəndislər M.A.KapelyuŞnikov, E.Ġ.Tağıyev (sonralar professor, Moskvada ÜmumĠttifaq Neft Ġnstitutunun kafedra müdiri), Azərneftin rəisi A.P.Serebrovski (sonralar Moskva Mədən Akademiyasının qazıma kafedrasının müdiri) və baŞqaları fəal iŞtirak etmiŞlər. 1924-cü ildə M.A.KapelyuŞnikov qazıma texnikasının inkiŞafında mühüm addım hesab edilən dünyada birinci turboboru quraŞdırıldı. Böyük elmi qüvvələrin cəmləŞdiyi Azərbaycan Politexnik Ġnstitutu texniki elmlərin mərkəzlərindən biri oldu. Neft geologiyası (M.V.Abramoviç), hidroneft (L.S.Leybenzon), hidravlika və hidravlik mühərriklər (Ġ.Q.Yesman), buxar mühərrikləri və istilik dmamikası (K.V.Pokrovski), fizika (K.B.Lopuxin), neft kimyası (K.A.Krassuski) kafedra və laboratoriyalarında mühüm elmi tədqiqatlar aparılırdı.

M.Əzizbəyov adına Azərbaycan Politexnik Ġnstitutunun elektrik fizikası laboratoriyasında professor S.N.Usatının rəhbərliyi altında elektrik fizikasının ayrı-ayrı məsələləri iĢlənmiĢdi. Azərbaycan Politexnik Ġnstitutunun "Xəbərləri" jurnalında onun ilk məqaləsi çap edilmiĢdi169. Laboratoriyada sonralar sovet atom elminin əsasını qoyanlardan biri olan N.V.Kurçatov bir müddət elmi fəaliyyət göstərmiĢdi. Beləliklə, RSFSR və digər respublikaların alimlərinin yerli qüvvələrlə birgə fəaliyyəti sayəsində Azərbaycanda çoxsahəli elmin inkiĢafı zəmini yaranırdı. Üzrə ixtisaslı azərbaycanlı qadın ustalar hazırlamaq üçün respublikada birinci sənət məktəbi açıldı. Artıq 1922-ci ilin aprelində 11 qəza və 6 rayon qadın klubu var idi və qadınlar üçün 17 istehsalat arteli təĢkil edilmiĢdi .

ZəhmətkeĢ qadınlar, xüsusilə Bakı Ģəhərinin fəhlə rayonlarının qadınları hökumətə Məktubla müraciət edərək, onlar üçün klublar açmağı tələb edirdilər. Balaxanı-Sabunçu rayon maarif Ģöbəsinin Respublika Xalq Maarif Komissarlığına göndərdiyi məktubda deyilirdi: "Rayonumuzun ən ucqar guĢəsində klubun təĢkilini çox mühüm fakt hesab edərək, bu təĢəbbüsü hərtərəfli müdafiə etmək və dərinləĢdiımək lazımdır, belə ki, biliklərə coĢqun həvəs və qadınların tam müəyyən inqilabi əhvali-ruhiyyəsi vardır".

Qadın klubları bütün Azərbaycan üzrə geniĢ yayıldı. Artıq 1926-cı ilin əvvəllərində 42 qadın klubu var idi. Onlardan səkkizi Bakı rayonlarında, on səkkizi qəza Ģəhərlərində, on altısı isə kəndlərdə yerləĢirdi115. Klub üzvlərinin sayı orta hesabla 50-dən 300 nəfərədək olurdu.

Beynəlxalq inqilabi fəhlə hərəkatının görkəmli xadimi Klara Setkin qadın klublarının fəaliyyəti ilə 1924-cü ilin sonunda Bakıda tanıĢ olaraq, onları yüksək qiymətləndirmiĢ, "ģərqin inqilabçı qadın qüvvələrinin toplanıĢ məntəqələri" adlandırmıĢdı".

Qadın klubları ilə eyni zamanda yerli sakinlərin təĢəbbüsü ilə kəndli qadın guĢələri yaradılmıĢdı. Birinci belə guĢə 1924-cü ildə Zaqatala qəzasının Qax kəndində açılmıĢdı. 1926-cı ilin əvvəlində isə onların sayı 16-ya çatmıĢdı. 117

Azərbaycan və eləcə də bütün Zaqafqaziya qadın hərəkatında, qadınların həmrəyliyində 1922-ci ilin mayında RK(b)P Zaqafqaziya ölkə Komitəsinin qərarı

ilə Bakıda keçirilən Zaqafqaziya qadınlarının I qurultayı mühüm rol oynamıĢdı. Qurultay Zaqafqaziyanın bütün regionlarında qadınlar arasında iĢə yekun vurmalı id. Qurultayın keçirilməsi yerinin seçilməsi təsadüfi deyildi. Qurultaya qədər artıq Azərbaycanda ġərq qadınlarını arasında iĢ aparma sahəsində müəyyən təcrübə toplanmıĢdı: nümayəndə yığıncaqları aparıcı fəaliyyət göstərirdi, xüsusi qadın klubları təĢkil edilmiĢdi. Azərbaycan qadın Ģöbələri ətrafında 20 mindən artıq qadın birləĢmiĢdi. Bütün bunlar Zaqafqaziya qadınları arasında iĢin quruluĢuna köklü təsir göstərirdi. Təsadüfi deyil ki, qurultayın çağırılmasının təĢəbbüsçüsü AK(b)P MK-nın qadın Ģöbəsi idi.

Qurultayın çağırılması üzrə geniĢ təĢkilati iĢ aparılmıĢdı. Onun hazırlanmasında Ayna Sultanova, Klavdiya ĠĢkova, Viktoriya Tseytlin, Xavər Qarayeva-ġabanova fəal iĢtirak etmiĢdilər. 1922-ci il mayın 26-da Gürcüstan, Azərbaycan, Ermənistan, Dağıstan respublikalarının ucqarlarından

**Ədəbiyyat.** Sovet hakimiyyəti, kommunist partiyası kütlələrin bədii sərvətlərə yiyələnməsini özlərinin ideoloji fəaliyyətlərində məqsədyönlü baĢlıca vəzifə kimi elan etmiĢdilər. "Ġncəsənət xalqa" Ģüarı nəzərdə tuturdu ki, incəsənət xalqa məxsus olmalı, "sosialist ideologiyası" qanadı altında onun mənəvi cəhətdən maariflənməsini, tərbiyələndirilməsini təmin etməlidir.

Azərbaycanda yeni bədii mədəniyyət quruculuğu yollarının axtarıĢı zamanı zəngin milli ənənə və yeniliklərin münasibətindən meydana çıxan ciddi problemlər kəskin mübahisə və müzakirələr törədirdi. Ancaq müzakirələr azad, demokratik Ģəraitdə getmirdi, partiya təzyiqi altında hakim ideologiyaya tabe ruhunda həll edilirdi. Bununla belə, qədim humanist köklərə söykənən Azərbaycan ədəbiyyat və incəsənətinin mütərəqqi cəhətləri özünə yol açır, xalq da onlara yiyələnməyə cəhd göstərirdi. Azərbaycan mədəniyyətinin görkəmli, dəyanətli xadimləri mürəkkəb ictimai-siyasi Ģəraitdə milli irsi qoruyub saxlamağa çalıĢırdılar. Demokratik mövqelərdə dayanmıĢ bir çox yazıçılar ictimai-mədəni, ədəbi tədbirlərdə iĢtirak edərək, respublikada qərarlaĢan yeni həyata qoĢulurdular. S.S.Axundov, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, A.ġaiq, Y.V.Çəmənzəminli, N.Vəzirov, C.Cabbarlı, M.S.Ordubadi, Ə.Nəzmi, T.ġahbazi, B.A.Talıblı və baĢqaları

maarifçilik, humanizm, tərəqqi ideyalarını təbliğ edərək, gerilik və mövhumatçılığa qarǪı mübarizə aparır, qəzet və jurnallarda, maarif və mədəniyyət orqanlarında çalıǪırdılar. Bu illərdə S.S.Axundovun fəaliyyəti xüsusilə fərqlənirdi. 1920-ci ildə Qarabağda vilayət xalq təhsili Ǫöbəsinə baǪçılıq edən ədib 1921-ci ildə "Tənqid-təbliğ teatrı"nın səhnəsi üçün müsabiqəyə təqdim olunmuǪ 32 əsər içərisində birinci yeri tutmuǪ "Laçın yuvası" pyesini yazmıǪdı182. Pyesdə Yeni həyat uğrunda mübarizə təqdir edilirdi. 1921-1923-cü illərdə S.S.Axundov "Taleyin təkəri", "Əməkdə xoǪbəxtlik", "Qaranlıqdan iǪığa", "Ġki yol", "Məhəbbətin nəticələri", "ġərq diplomları", "Yeni məiǪət" səhnə əsərlərini qələmə almıǪdı183.

1921-ci ildə C.Məmmədquluzadə Təbrizdən Bakıya qayıtdı. Artıq 1922-ci ildə "Molla Nəsrəddin" jurnalının nəǪri bərpa edildi. C.Məmmədquluzadə 1921-ci ildə "DanabaǪ kəndinin məktəbi" 1927-ci ildə isə "Dəli yığıncağı" komediyasını yazdı.

Azərbaycan sovet ədəbiyyatı klassik rus və sovet ədəbiyyatının ideya-bədii təsirini azaltmağa cəhd göstərənlərə qarǪı kəskin mübarizə Ǫəraitində inkiǪaf edirdi. Eyni zamanda Azərbaycan ədəbiyyatının qədim və zəngin irsini inkar etmək meyilləri də mövcud idi. Yeni hakimiyyətin qanunlarını, sovet həyatını qəbul etməyərək kənarda dayananlar, bəzən isə ona qarǪı düǪmən əhvali-ruhiyyədə olanlar da az deyildi.

Azərbaycanda sovet ədəbiyyatının inkiǪafında bütün mədəni irsin rolunu inkar eden "proletkultçuluq" mənfi rol oynadı184. ĠǪ o yerə çatmıǪdı ki, Nizami və Sabirə abidə ucaldılmasını onlar "fəhlə iǪinə" xəyanət kimi qiymətləndirirdilər.

Azərbaycanda "proletar mədəniyyəti" ziyanlı ideyalarının yayılmasına qarǪı daim çıxıǪ edən N.Nərimanov Azərbaycan ədəbiyyatının formalaǪması və inkiǪafını böyük dövlətçilik fəaliyyətinin diqqət mərkəzində saxlayırdı. O, bəǪəriyyətin yaratdığı mədəniyyət abidələrini, sivilizasiyanın nailiyyətlərini yüksək qiymətləndirir və zəhmətkeǪ kütlələri yorulmadan ona yiyələnməyə çağırırdı.

1922-ci il iyunun 15-də "Bakinski raboçi" qəzetində dərc olunan "Bir neçə yoldaǪlara cavab" məqaləsində o, "proletar mədəniyyəti" ideoloqlarını ifǪa edərək göstərirdi ki, əsil proletar Ǫairi Sabirin, xalq Ǫairləri Vaqif və Zakirin bədii

irsi öyrənilməli və geniĢ xalqın malı olmalıdır. N.Nərimanov həmin məqaləsində yazırdı: "Türk uĢaqları təkcə PuĢkinin deyil, habelə ġekspir və ġillerin də Ģeirlərini bilməlidirlər. Ancaq hər halda yalnız ondan sonra, o zaman ki, onlar hər Ģeydən əvvəl əsil proletar, xalq Ģairi Sabir, Vaqif, Zakir, Vidadinin bütün zəhmli döyüĢkən Ģeirlərini bilərlər".

Bu məqalə yüksək rəhbər dairələrdə bərk çaxnaĢma törədir. N.Nərimanova qarĢı böhtan və təqiblərə baĢçılıq edən, onu millətçilikdə ittiham etməyə çalıĢan, AK(b)P BK-nın katibi Levon Mirzoyan 1922-ci il iyunun 19-da bu məsələnin RK(b)P Zaqafqaziya Ölkə Komitəsində təcili müzakirə olunması barədə Tiflisə Q.Orcokidze və M.OraxelaĢviliyə məktub göndərir. N.Nərimanovun məqaləsi 1922-ci il iyunun 22-də AK(b)P MK-nın iclasında müzakirə edilərək, partiyanın birliyinə, beynəlmiləl xəttinə xələl gətirən kimi qiymətləndirilir185a. N.Nərimanov öz xalqını nəinki rus və digər xalqların mədəniyyət nümayəndələrini tanıyan, eləcə də ilk növbədə öz milli Ģair və yazıçılarını öyrənən savadlı, təhsilli görmək istəyinin partiya xəttinə qarĢı yönəldilmiĢ cəhd kimi dəyərləndirildiyi gərgin bir ictimai-siyasi Ģəraitdə milli mədəniyyətin, ədəbiyyatın, incəsənətin inkiĢafı uğrunda dönmədən mübarizə aparırdı. 1925-ci ilin sentyabrında respublika hökuməti Nizami Gəncəviyə abidə ucaldılması haqqında qərar qəbul etdi186.

20-ci illərdə Hüseyn Cavidin orijinal, ictimai fəlsəfi "Peyğəmbər" (1923), "Topal Teymur" (1925) əsərləri, Əhməd Cavadın "Göy göl" (1925) poeması, Hacı Kərim Sanılının "Aran köçü" (1925), "Namus davası" (1927) poemaları çap olunmuĢ, Azərbaycan dramaturgiyası da C.Cabbarlının "Aydın" (1921), "Oqtay Eloğlu" (1923) pyesləri ilə zənginləĢmiĢdi. Partiya orqanları və sovet hökuməti ilk günlərdən yaradıcı təĢkilatların, ədəbiyyat nümayəndələrinin fəaliyyətini ciddi nəzarətində saxlayırdı.

AK(b)P MK katibi Ə.H.Qarayevin 1923-cü ilin dekabrında "Kommunist" qəzetində getmiĢ məqaləsində guya "yaradıcılıqlarında bədbinlik" motivlərinə üstünlük verməkdə, müasir həyata tam laqeydlik göstərməkdə günahlandırılan Ģairlər partiya mövqeyindən ciddi tənqid olunaraq qeyd edilirdi ki, "onların yaradıcılığı "gənclərin tərbiyəsinə mənfi təsir göstərir". O vaxt H.Cavid,

H.X.Sanılı, Ə.Cavad, S.Mənsur kimi görkəmli Ģairlər də kəskin tənqidə məruz qalmıĢdılar. Onlara qarĢı real həyatdan ayrı düĢmək və yeni həyatı təbliğ etmək əvəzinə, "adamları gündəlik həyatdan uzaqlaĢdırmaq" ittihamı səslənirdi. Görkəmli dramaturq və Ģair, XX əsr Azərbaycan ədəbiyyatının ən parlaq simalarından biri – Hüseyn Cavid xüsusi "bolĢevik niĢangahı"na hədəf idi.

Bədii sözün gənclərin tərbiyəsinə böyük təsirini nəzərə alaraq, AK.(b)P MK-nın orqanı "Maarif və mədəniyyət" jurnalı gənclərin bədii və ictimai tərbiyəsini xüsusi nəzarətə götürdü187. Partiya orqanları yaradıcı qüvvələri öz rejimində "birləĢdirərək", sosialist ideyalarını təbliğ məqsədilə partiya sovet platformasında dayanan cəmiyyət və təĢkilatlar yaradır, onların vasitəsi ilə yeni ideya və baxıĢları amiranəliklə qəbul etdirirdilər. Yaradıcılıq azadlığı əməli olaraq partiyanın ciddi nəzarəti altında idi və hər cür özgəfikirliyin təqib edilməsi tədricən "zəruri norma"ya çevrilirdi.

**Teatr.** 192I-ci ilin yanvarında Xalq Maarif Komissarlığı nəzdində teatr, musiqi, təsviri sənət və foto-kino yarımĢöbələri olan xüsusi incəsənət Ģöbəsi202 və incəsənətlə bağlı bütün iĢlərə rəsmi rəhbərlik etmək üçün incəsənət Ģurası təsis edildi. N.Nərimanov respublikada keçirilən ilk mədəni tədbirlərin təĢəbbüskarı və rəhbəri idi. Bədii, musiqi və teatr idarələrinin formalaĢması və inkiĢafında Ü.Hacıbəyov, M.Maqomayev, Ə.Əzimzadə, Ə.Haqverdiyev kimi böyük sənətkarlar fəal iĢtirak edirdilər. Azərbaycan Ġnqilab Komitəsinin 1920-ci il 18 may tarixli dekreti əsasında bütün xüsusi incəsənət idarə və təĢkilatları milliləĢdirildi. Mayilov teatrının bazasında Dövlət teatrı yaradıldı, o vaxt bütün dram və opera kollektivləri orada cəmləĢmiĢdi. 1918-ci il qanlı mart hadisələri zamanı erməni daĢnakları tərəfindən yandırılmıĢ H.Z.Tağıyev teatrı binasının bərpasına baĢlandı.

1920-ci ilin iyulunda Bakıda Azərbaycan Dövlət Dram Teatrının özəyi olan ilk teatr truppası formalaĢdı. Bu teatrın inkiĢafında Xalq Maarif Komissarlığı nəzdindəki incəsənət Ģöbəsində teatr yarımĢöbəsinin rəhbəri, görkəmli dramaturq və ictimai xadim Ə.Haqverdiyevin böyük rolu var idi. Respublikanın teatr həyatında ―Tənqid-təbliğ‖ teatrının açılıĢı da mühüm hadisə oldu. Həmin ilin

dekabrında bu teatrın rus truppası yaradıldı. Onun təĢkilində rus səhnəsinin aparıcı ustaları – V.Q.Saxnovski (Nümunəvi teatrın rejissoru), V.S.Massalitinov (Kiçik teatr), T.Yakulov (Kamera teatrının rəssamı) fəal iĢtirak etmiĢdilər205. Yeni Azərbaycan teatrının tarixində mühüm yer tutan "Tənqid və təbliğ" teatrında Azərbaycan səhnəsinin qocaman ustadları Mirzə Ağa Əliyev, Sidqi Ruhulla və Ələkbər Süheyli də unudulmaz rollar oynadılar.

1922-ci ilin yanvarında Tağıyev teatrının bərpa olunmuĢ binasında Azərbaycan Dövlət Dram Teatrının M.F.Axundovun "Hacı Qara" komediyasının tamaĢası ilə təntənəli açılıĢı oldu. Dövlət Dram Teatrı, M.Ə.Əliyev, M.Davudova, Ġ.Hidayətzadə, A.Qurbanov, Sidqi Ruhulla, R.Təhmasib, Ülvi Rəcəb (U.R.ġaĢixaĢvili), A.M.ġərifzadə, M.Sənani kimi mədəniyyət aləmində Ģöhrət qazanmıĢ görkəmli səhnə ustalarının sayəsində yeni teatr sənəti yüksək pilləyə qaldırıldı. 1924-cü ildən teatrın baĢ rejissoru A.A.Tuqanov teatr sənəti üçün çox iĢ görmüĢ, onun vaxtında teatrda studiya yaradılmıĢ, səhnə ustalığı, rəqs ritmi, psixologiya və digər fənlər üzrə məĢğələlər aparılmıĢ, teatr isə Dövlət Akademik Dram Teatrı adlandırılmıĢdı. 1923-cü ildə Bakıda rus fəhlə teatrı yaradıldızaman erməni teatrı da fəaliyyət göstərirdi. Teatrların səhnələrində M.Jarov, F.Ranevskaya, M. Jasmen və bir sıra istedadlı aktyorlar çıxıĢ edirdilər. 1926-cı ildə Azərbaycan səhnəsində U. Ġekspirin "Hamlet" faciəsi ilk dəfə tamaĢaya qoyuldu. BaĢ rolda görkəmli "Azərbaycan Hamleti" A.M.ġərifzadə çıxıĢ edirdi.

1923-cü ildə Bakıda ġ.X.Məmmədova və A.M.ġərifzadənin fəal iĢtirakı ilə təkcə Azərbaycan üçün deyil, habelə Orta Asiya respublikaları üçün də kadrlar hazırlayan, müsəlman ġərqində birinci teatr texnikumu açıldı.

Yeni sovet teatrının mürəkkəb və ciddi məsələlərindən biri "sosialist quruculuğu" vəzifələrinə cavab verən repertuar idi. Mətbuat səhifələrində və müzakirələrdə bəzən klassik irsi, onun milli özünəməxsusluğunu inkar edən nihilist fikirlər irəli sürülürdü. Bu zərərli meyillər N.Nərimanov və digər görkəmli ictimai xadimlər tərəfindən pislənirdi. Bu illərin teatr repertuarlarında təsadüfi, bədiilikdən uzaq, sənətə yabançı mövzular da özünə yer tapırdı, lakin onlar həm milli sənət inciləri, həm də dünya klassikası ilə zənginləĢmək meyli daha səciyyəvi idi.

**Musiqi.** 20-ci illərdən milli musiqi incəsənətinin yeni əsaslı inkiĢaf bazası yaradılırdı. Musiqi fəaliyyətinin təĢkilinə Xalq Maarif Komissarlığı rəhbərlik edirdi. Sovet hakimiyyətinin ilk çağlarından bütün ictimai və xüsusi musiqi məktəbləri, studiyalar, musiqi qrupları onun incəsənət Ģöbəsinin tabeçiliyinə və nəzarətinə verilmiĢdi.

1920-ci il sentyabrın 16-da Azərbaycan Ġnqilab Komitəsinin dekreti ilə bütün musiqi və not mağazaları milliləĢdirildi207. Musiqi təhsilini "proletar kütlələri" içərisində geniĢ və plana uyğun Ģəkildə yaymaq və bütün "proletar" təĢkilatlarına xidmət etmək məqsədilə Azərbaycan Ġnqilab Komitəsinin l920-ci il 10 iyul və 4 oktyabr tarixli dekretləri ilə bütün musiqi alətləri dövlət mülkiyyəti elan edildi208. Orkestr musiqiçiləri səfərbərliyə alınaraq Xalq Maarif Komissarlığının sərəncamına verildilər. Respublikada geniĢ xalq kütləsi üçün xüsusi musiqi təhsili sisteminin yaradılmasında peĢəkar Azərbaycan musiqisinin əsasını qoyan dahi Üzeyir Hacıbəyovun misilsiz xidməti olmuĢdu. Hələ 1920-ci ilin sentyabrında Maarif Komissarlığında musiqi bölməsinin müdiri olarkən o, musiqi akademiyasının və xalq konservatoriyasının açılması, musiqi məktəbinin binasının onlara verilməsi barədə hökumət rəhbərlərinə yazılı müraciət etmiĢdi.

Lakin ixtisaslı musiqiçi kadrlar kifayət qədər olmadığından Xalq Maarif Komissarlığı ilk mərhələdə "geniĢ zəhmətkeĢ proletar kütləsinin musiqi savadı" alması məqsədilə 1920-ci il iyulun 26-da Bakının səkkiz fəhlə rayonunda Ģöbəsi olan vahid musiqi təhsili müəssisəsi – Xalq Konservatoriyası açdı210. Xalq konservatoriyası, xüsusilə onun ġərq Ģöbəsi Üzeyir Hacıbəyovun səyi sayəsində geniĢ xalq kütləsinin musiqi mədəniyyətinə qovuĢmasında mühüm rol oynamıĢdı. Lakin bir tədris müəssisəsində iki ayrı-ayrı istiqamətdə fəaliyyət musiqi təhsilini təkmilləĢdirmək yolunda çətinlik yaradırdı. Ona görə 1921-ci il avqustun 26-da Azərbaycan SSR Xalq Komissarları Sovetinin dekreti ilə müsəlman ġərqində ilk Musiqi Akademiyası təsis olundu.

Konservatoriyaya azərbaycanlı Ģagirdləri cəlb etmək məqsədilə Ü.Hacıbəyov 1922-ci ildə ilk professional Azərbaycan musiqi məktəbini yaratdı. Tezliklə texnikuma çevrilən bu məktəb 1926-cı il konservatoriyaya birləĢdirilərək milli

musiqiçi kadrların tərbiyəsi probleminin həllini sürətləndirdi212. Musiqi tədrisi müəssilərinin hamısında xalq mahnıları və muğam sinifləri olan milli musiqi Çöbəsi yaradıldı.

Azərbaycan Ġnqilab Komitəsinin 1921-ci ilin yanvarında N.Nərimanovun imzası ilə verdiyi dekretlə musiqi studiyalarında iĢləyən dərəcəsiz Azərbaycanlı müəllimlərə ödənilməli zəhmət-haqqı hədləri əməkhaqqı tarifinə daxil edildi.

1927-ci ildə AK(b)P-nin VIII qurultayında xüsusi olaraq zəhmətkeĢlərin musiqi-bədii təhsil məsələləri müzakirə olundu, təhsil müəssisələrinin maddi bazalarının möhkəmləndirilməsi, tələbələrin qəzalardan cəlb edilməsi, onların təqaüdlə təmin olunması qərara alındı. Qərarda qeyd olunurdu ki, partiya «kütlələrin düzgün ideoloji tərbiyəsinə bədii üsulla təsir etməyə» nail olmalı214, «xalq yaradıcılığı və musiqisinin toplanmasına və öyrənilməsinə» xüsusi diqqət yetirməlidir.

Konservatoriyaya 1923/24-cü tədris ilindən M.L.Presman rəhbərlik etmiĢ, Üzeyir Hacıbəyov rektor müavini olmuĢ, burada müxtəlif vaxtlarda M.Çemyaxovski, D.Slavinski, S.Bretanitski, B.Semyonov, L.Rastropoviç, L.Yablonko, Q.ġaroyev, N.Speranski vo bir sıra görkəmli musiqiĢünaslar iĢləmiĢdilər.

Həmin dövrdə Azərbaycanlıların konservatoriyaya cəlb olunmasında ciddi dönüĢ yarandı. Əgər 1921/22-ci tədris ilində Konservatoriyada təhsil alan 623 tələbə arasında tək-tük azərbaycanlı var idisə, 1926/27-ci tədris ilində 524 tələbənin 331 nəfəri azərbaycanlı, o cümlədən 163-ü qadın idi .

Ü.Hacıbəyov, M.Maqomayev və digər mütərəqqi musiqi mədəniyyəti xadimləri musiqi folklorunun dərindən və hərtərəfli öyrənilməsinə xüsusi diqqət yetirirdilər. Ü.Hacıbəyov 1921-ci ildə «Azərbaycanda musiqi maarifinin vəzifələri» barəsində mətbuatda çıxıĢ etmiĢdi. O yazırdı: «Bu istiqamətdə ciddi və vicdanlı iĢ Ģübhəsiz ona gətirib çıxaracaqdır ki, Avropa musiqisi ilə yanaĢı, ġərq musiqisi nəhayət layiq olduğu Ģərəfli yeri tutacaq və bütövlükdə bütün bəĢəriyyətin inkiĢafını təmin edən nəhəng amillərdən biri olacaqdı.

**Kino.** Sovet hökuməti xalq kütlələrinin tərbiyəsində mühüm vasitə olan kino incəsənətinin inkiĢafına mühüm əhəmiyyət verirdi. Azərbaycan Ġnqilab Komitəsinin 1920-ci il 18 may dekreti ilə bütün kinoteatr və muzeylər

"millilәĢdirildi"224. Hәmin ilin iyununda isә bütün kinematoqrafıya vasitәlәrinin müsadirәsi elan edildi. Xalq Maarif Komissarlığı nәzdindә tәsis edilmiĢ foto-kino yarımĢöbәsi 1921-ci ilin martında Azәrbaycan foto-kino idarәsinә (AFKĠ) çevrildi225. 1923-cü ildә Bakıda birinci kino-fabrik fılmlәrin çәkiliĢinә baĢladı226. Ġ.Hidayәtzadә, R.Dәrablı, Kazım Ziya, Q.Gәraybәyovun iĢtirakı ilә birinci Azәrbaycan sovet bәdii filmi ―Qız qalası" ekrana çıxdı. Milli kinonun görkәmli xadimlәrindәn biri ġamil Mahmudbәyov 1925-ci ildәn AFKĠ-yә baĢçılıq edәrәk, muli kadrlar hazırlamaq üçün istehsalat bazası vә studiya yaratdı. C.Cabbarlı, M.Mikayilov, A.ġәrifzadә, A.Quliyev kino sәnәtindә onun tәlәbәlәri idilәr. N.Pudovkin, Ġ.Perestiani, N.ġengelaya, M.Çiaureli vә digәr mәĢhur kinorejissorları studiyaya dәvәt edir onlardan yaradıcılıq mәslәhәtlәri vә kömәyi alırdılar. AFKĠ ilә yanaĢı, Azәrbaycan kinosunun formalaĢmasında 1923-cü ildә yaradılan, özündә beĢ kinoteatrı birlәĢdirәn "Kino-Qornyak" fәhlә kino tәĢkilatının fәaliyyәti böyük әhәmiyyәt kәsb etmiĢdi227. Fәhlә kütlәlәri içәrisindә mәĢhurlaĢmıĢ "Kino-Qornyak" 1920-1927-ci illәrdә "Neftçi fәhlә istirahәt vә müalicәdә", "Mәdәn-67", "Gözә göz, qaza qaz", "Bibiheybәt neft fontanında yanğın", "Azәrneftin beĢ ili" filmlәrini vә s. ÇәkmiĢdi. 1926-cı ildә filmlәrin kirayәsi vә nümayiĢi ilә mәĢğul olan Azәrbaycan Dövlәt Kino Ġdarәsi yaradıldı. Onın sәyi ilә 1927-ci ildә Gilanda milli-azadlıq hәrәkatına hәsr olunmuĢ "Gilan qızı" fılmi çәkildi. Azәrbaycan kino sәnәti maddi çәtinlik vә kadr çatıĢmazlığını aradan qaldırmaqla, tәcrübә vә peĢәkarlığı artırmaqla tәdricәn inkiĢaf etdirilirdi. 1927-ci ildә su vә dәmiryol nәqliyyatı fәhlәlәrinin tәĢәbbüsü ilә fәhlә tәĢkilatı olan fәhlә kino ġurası (FKġ) fәaliyyәtә baĢladı229. Bu kino tәĢkilatı da «Kino-Qornyak»ın üzәrinә düĢәn eyni funksiyaları yerinә yetirәrәk, qәza kinoteatrlarını himayәsinә götürür, 23 qәza kino-teatrına xidmәt edirdi.

**Tәsviri sәnәt.** Mәdәni dәyiĢikliklәr proqramında zәhmәtkeĢ kütlәlәri onlara az tanıĢ olan yeni bәdii yaradıcılığa – tәsviri sәnәtә alıĢdırmaq vәzifәsi dә dururdu. Onu hәyata keçirmәk üçün 1920-ci ildә Xalq Maarif Komissarlığı nәzdindәki incәsәnәt Ģöbәsindә bәdii bölmә yaradıldı231. MәĢhur rәssam Ә.Әzimzadә hәmin Ģöbәnin müdiri idi. Hökumәtin 1924-cü ilin martında qәbul olunmuĢ

«Qədim abidələrin qeydə alınması və onların mühafizəsi haqqında» qərarına uyğun olaraq, memarlıq, mədəniyyət, tikinti abidələrinin, saraylar, karvansaralar, qədim evlər və mədəniyyət binalarının, bütün incəsənət abidələri, müxtəlif bədii sərvətlərin mühafizəsi və qeydə alınması iĢinə baĢlandı.

«Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti»nin prof. V.M.Zummerin rəhbərlik etdiyi Ġncəsənət Komissiyası xüsusilə AbĢeronda bir çox qədim abidələri tədqiq etmiĢdi233. Həmin cəmiyyətin yanında X.Terequlov, professorlar P.P.Fridolin, V.V.Siadkopevtsev, Ġ.S.Ayzberq, V.M.Zummer və Üzeyir Hacıbəyovun daxil olduğu Ġncəsənət Komissiyası rəyasət heyəti fəaliyyət göstərirdi. Eyni zamanda təsviri sənət üzrə 18 nəfərdən ibarət yardımçı komissiya da fəaliyyətdə idi.

Partiya təsviri sənətin ən kütləvi, asan anlaĢılan, sürətli yerdəyiĢmə imkanı olan janra – siyasi plakata «sosializm uğrunda» əyani təĢviqat vasitəsi kimi böyük əhəmiyyət verirdi. Buna görə rəssamlardan A.M.Lyubimov, N.M.Koçerqin və Ə.Əzimzadənin, sair və rəssam S.M.Qorodetskinin iĢləməsi üçün bədii emalatxanalar yaradılmıĢdı. 1921-ci ilin yanvarında «Türk mədəniyyəti sarayının» binasında Rusiya Teleqraf Agentliyi Qafqaz Ģöbəsinin bədii məhsullarının sərgisi keçirildi235. Həmin ilin oktyabrında Bakıda 400-dək eksponatın nümayiĢ etdirildiyi «inqilabi plakat sərgisi» açılmıĢdı.

Azərbaycanda yeni qrafika sənətinin meydana gəlməsi və inkiĢafı Ə.Əzimzadənin adı ilə bağlıdır. O, təsviri sənət sahəsində təĢkilati və pedaqoji fəaliyyəti əlaqələndirərək silsilə plakatlar yaratdı. Bu plakatlarda Ə. Əzimzadə savadsızlığın ləğv edilməsinə çağırır, yeni Azərbaycan əlifbasının əhəmiyyətini izah edir, dini mövhumatçılığa qarĢı çıxırdı. Onun ən yaxĢı siyasi plakatları qrafika dilinin tam aydınlığı və asan baĢa düĢülməsi, satira tərzinin kəskinliyi ilə seçilirdi. «Molla Nəsrəddin» və digər jurnalların səhifələrində daim çıxıĢ edən Ə.Əzimzadə özünün kəskin satirik Ģəkil və karikaturalarında daxili və beynəlxalq həyatın ən mühüm hadisələrini ustalıqla iĢıqlandırırdı. Əzimzadə satirasının baĢlıca hədəfi bürokratlar, alverçilər, rüĢvətxorlar, irticaçı qalıqların hər cür daĢıyıcıları idi. Teatr tamaĢalarının bədii tərtibi iĢində də onun böyük xidməti olmuĢdu.

## Ədəbiyyat

1..Qaffarov T. Azərbaycan tarixi. 1920-1991. Bakı,1999
2. Azərbaycan tarixi VII clddə, VI-cild.B, 2000
3.Мусаева Т. Революция и народное образование в Азербайджане. Б, 1980
4. Мехтизаде.М Очерки истории советской школы. Б, 1963
5. Rəcəbli Q. Azərbaycan tarixi. Oçerklər.B, 2013

**Sovet Azərbaycanı müharibə edən dövlətlərin işğal planında.İqtisadi, hərbi mənəvi səfərbərlik.Azərbaycan döyüşçüləri ön cəbhədə.**

**Plan:**

1. Azərbaycanı müharibə edən dövlətlərin işğal planında.
2. Müharibə ilə əlaqədar iqtisadi, hərbi mənəvi səfərbərlik.
3.Azərbaycan iqtisadiyyatı müharibə illərində.
4. Azərbaycan döyüşçüləri ön cəbhədə.

Zəngin təbii sərvətlərə və əlverişli coğrafi mövqeyə malik olan Azərbaycan İkinci Dünya müharibəsi illərində də iri dövlətlərin strateji planlarında mühüm yer tuturdu. Hitler Almaniyasının qəsbkarlıq planında Azərbaycan, neft Bakısı xüsusi yer tuturdu. Hətta SSRİ-də yaşayan türkdilli xalqları -"müsəlman monqoloidləri, dağıdıcı qüvvə" hesab edən Hitler "Mənim mübarizəm" kitabında yazırdı ki, "onlar ali irqin qullarına çevrilməlidirlər". Hitlerin tapşırığı əsasında hətta Bakının sənaye və hərbi əhəmiyyətli obyektlərinin dəqiq xəritəsi hazırlanmışdı Almaniya hakimiyyəti Bakı neftini ələ keçirməyi Şərqdə istilaçılıq siyasətini reallaşdırmağın mühüm amili hesab edirdi. Rozenberqin "Qafqazın idarə olunması planı"na görə Azərbaycanda idarəedici orqan - "komissarlıq" yaradılmalı və iqamətgahı Tbilisidə yerləşəcək Qafqaz reyxkomissarlığına tabe edilməli idi.3Faşist Almaniyası sovetlər üzərində qələbədən sonra İran körfəzinə, Hind okeanına qədər əraziləri zəbt etmək niyyətində idi. Türk xalqları yaşayan ərazilərdə Almaniyadan asılı oyuncaq "Böyük Türküstan" dövləti yaradılması planlaşdırılırdı. Bu dövlətin ərazisinə Şimali və Cənubi Azərbaycanla bərabər, Orta Asiya, Qazaxıstan, Başqırdıstan, Tatarıstan, Krım, Şimali Qafqaz, Qərbi Çin və Əfqanıstanın daxil olması nəzərdə tutulurdu. Hələ 1941-ci il martın 27-də Almaniyanın Kontinental Neft Cəmiyyətinə Bakıda neftin çıxarılması, emalı və daşınması ilə məşğul olacağı göstərişi verilmişdi. Artıq Azərbaycandakı iri sənaye müəssisələrinə "ali irqdən" rəhbərlər də təyin edilmişdi. Onlar ucuz iş qüvvəsi hesabına maya dəyəri aşağı olacaq məhsullardan alınacaq yüksək gəliri son qəpiyinədək Almaniyaya çatdırmaq

tapşırığı almışdılar. Hitlerin «Edelveys» adlanan Qafqaza hücum planında Bakının sentyabrın 25-də tutulması vaxtı da göstərilmişdi. Rozenberqin “ Qafqazın idarə olunması “ planında göstərilirdi ki, Qafqaz məsələsi siyasi məsələdir. Almaniya öz ərazilərini Qafqazdan Yaxın Şərqə doğru genişləndirə bilər. Qerinqin “Yaşıl qovluğunda “ göstərılirdi ki, gürcü, erməni, azərbaycan və digər xalqlar arasında olan ziddiyyətlərdən öz xeyrimizə istifadə etməliyik.

Qafqaza xüsusi maraq göstərən ABŞ və Böyük Britaniya tərtib etdikləri «Vilvet» planında Azərbaycanı öz nüfuz dairələrinə çevirmək planı vardı. Öz növbəsində SSRİ-nin də azərbaycanlıları Mərkəzi Asiyaya və Qazaxıstana köçürmək şərtilə Azərbaycanı öz tərkibində saxlamaq planı var idi.

SSRİ XKS və ÜİK(b)P MK-nın 1941-ci il iyunun 29-da qəbul etdikləri direktivlə ölkənin bütün siyasi, iqtisadi və hərbi imkanlarını səfərbər etmək, ilk növbədə, xalq təsərrüfatını hərbi tələblər əsasında qurmaq vəzifələri müəyyənləşdirildi.6 İyunun 30-da isə İ.V.Stalinin başçılığı ilə ölkədə bütün hakimiyyəti öz əlində cəmləşdirən Dövlət Müdafiə Komitəsi (DMK) yaradıldı.7 DMK əsas diqqəti Silahlı Qüvvələrin möhkəmləndirilməsinə, iqtisadiyyatın hərbin tələbləri əsasında yenidən qurulmasına yönəltdi. Geniş miqyasda hərbi səfərbərlik keçirildi, yeni qoşun birləşmələri yaradıldı, cəbhəyə yaxın rayonlardan sənaye müəssisələri və milyonlarla adam uzaq yerlərə köçürüldü Sovet xalqı "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarı altında alman faşizminə qarşı müharibəyə qalxdı . Azərbaycan xalqı da son qələbəyə qədər bu müharibədə fəal iştirak etdi. Respublikanın idarə və müəssisələrində zəhmətkeşlər öz üzərlərinə yüksək öhdəliklər götürür, könüllü surətdə ordu sıralarına, "Xalq qoşunu" dəstələrinə, "Qırıcı batalyon"lara daxil olurdular. 1941-ci il iyunun 22-də Bakıda qəsbkarlara qarşı izdihamlı mitinq keçirildi. Azərbaycanın şəhər və kəndlərində müharibənin ilk günlərində 40 min nəfər, o cümlədən 1000 nəfərə qədər qız könüllü olaraq cəbhəyə getmək üçün respublika Hərbi Komissarlığına müraciət etdi.12 Yalnız 1941-ci ilin iyul-oktyabr aylarında respublikada 30480 nəfər, o cümlədən hərbi məktəblərə 2287 nəfər, qvardiya diviziyalarına 3165 nəfər, döyüşən hissələr ehtiyatına 22319 nəfər səfərbər olundu. Azərbaycandan Müdafiə fonduna 15 kq

qızıl, 952 kq gümüş, 311 mln manat istiqraz, 125 vaqon isti paltar göndərildi. Ümumiyyətlə, 1941-1945-ci illərdə Azərbaycandan orduya 700 minə qədər adam səfərbər olunmuşdu. Onlar arasında 11 mindən çox qadın var idı, 400 min cəbhədə həlak olmuşdu. Döyüşən qoşun üçün ehtiyat qüvvələr hazırlanmasında görülən zəruri işlər nəticəsində 1941-ci il iyunun 22-dən avqustun 14-dək Azərbaycan SSR-də Xalq qoşunu dəstələrinə 186704 nəfər (onların 30563 nəfəri qadın idi) yazılmışdı. Bu dəstələr istehsalat-ərazi prinsipi üzrə təşkil edilirdi. Onların fəaliyyətinə rəhbərlik üçün Mərkəzi qərargah yaradılmışdı. Bakı şəhərinin 18 rayonunda Xalq qoşunu dəstələrinə 61780 nəfər yazılmış və 20 rota təşkil olunmuşdu. Sovet ordusu üçün ehtiyat qüvvələr yaratmaq məqsədilə Dövlət Müdafiə Komitəsinin qərarı ilə hələ 1941-ci ilin iyulundan etibarən bütün ölkədə 16 yaşdan 50 yaşadək olan kişilərə ümumi icbari hərbi təlim keçilməyə başlanmışdı. 1941-ci il oktyabrın 1-dən 1942-ci il dekabrın 15-dək respublikada 172209 nəfər ümumi və xüsusi bölmələrdə hərbi təlim keçmiş 29925 atıcı, 1255 snayper, 363 minomyotçu, 747 pulemyotçu və b. hazırlanmışdı. Yerli hava hücumundan müdafiə bölmələri də müharibə illərində əhali arasında səmərəli iş aparmışlar. Azərbaycan SSR XKS və Azərbaycan K(b)P MK-nın 1941-ci 4 may il qərarına əsasən hava hücumundan müdafiə məqsədilə sığınacaqların tikilməsi təşkil edilmişdi. 1941-ci il iyul ayının 10-na qədər bütün idarə və müəssisələrdə özünümüdafiə dəstələri yaradılmışdı. Cəbhənin respublika sərhədlərinə yaxınlaşması ilə əlaqədar olaraq Zaqafqaziya Cəbhəsi Hərbi Şurası Bakı ətrafında müdafiə mövqelərinin yaradılması haqqında qərar çıxardı. Qərara əsasən 1941-ci ilin sentyabrında Şimal istiqamətdə 10 müdafiə tikintisi təşkil edildi. Bu iş üçün 160 yük maşını, 300 qaynaq aparatı, 55 traktor, 18 ekskavator, 8 səyyar elektrik stansiyası, 7 kompressor, 25000 bel, külüng və başqa alətlər ayrıldı. Tankların keçə bilməməsi üçün 16841 maneə yaradıldı, 91 km uzunluqda dərin xəndəklər qazıldı. Atəş nöqtələri ilə arxanı birləşdirən 535 km uzunluqda gizli əlaqə yolu çəkildi. Müharibə xalq təsərrüfatını ciddi imtahana çəkdi. Tezliklə sənayeni hərbi tələblərə uyğun yenidən qurmaq, birinci növbədə, ordunu yüksək keyfiyyətli yanacaqla, hərbi ləvazimatla və ərzaqla təmin etmək tələb olunurdu. Azərbaycan Kommunist

Partiyasının Mərkəzi Komitəsində, vilayət, şəhər və rayon komitələrində neft hasilatı, neft emalı, neft maşınqayırması və elektrik stansiyaları, tikinti və tikinti materialları, yeyinti sənayesi, kənd təsərrüfatı, nəqliyyat, şəhər təsərrüfatı və s. kimi sahələrə rəhbərlik edən yeni şöbələr yaradıldı. Dövlət Müdafiə Komitəsinin qərarı ilə 1941-ci ilin yayından etibarən, Azərbaycanın bəzi zavodlarının Şərqə köçürülməsinə başlandı Xalq təsərrüfatının hərbi istiqamətdə uğurla fəaliyyət göstərməsi üçün ehtiyatda olan iş qüvvəsinin istehsalata cəlb olunmasına başlandı, hökumət növbəti məzuniyyətləri əvəzinə pul ödəməklə ləğv etdi, iş günü uzadıldı, qadınlar və yeniyetmələr istehsalata gəldilər. Respublikada 20 minə qədər əmək veteranı və əlil istehsalata qayıtdı. Xalq təsərrüfatının işçi qüvvəsi ilə təmin edilməsində qadınlar və yeniyetmələr mühüm rol oynadılar. Azərbaycan qadınları öz atalarını, ərlərini, qardaşlarını əvəz edərək mədənlərdə, fabrik və zavodlarda işləməyə başladılar. 1941-ci il iyulun 24-də Əzizbəyovneft mədənlərinə 50-dən çox evdar qadın gəldi. 1941-ci ilin oktyabrında yalnız Bibiheybət neft mədənlərində 1800-dən artıq qadın çalışırdı.

1941-ci ilin yayında ictimai təşkilatların göndərişi ilə təkcə Bakının mədən və zavodlarında 3500-dən artıq qız işə başlamışdı. Bakının neft sənayesində işləməyə 13 mindən çox yeni işçi cəlb edildi.. Neft sənayesinin maddi-texniki əsasını möhkəmləndirmək məqsədilə DMK və Köçürmə Sovetinin qərarı ilə Bakıya ölkənin cənub və qərb rayonlarından köçürülən 20 iri müəssisənin qurğuları, o cümlədən 250 dəzgah, 12 vaqon mayetökən cihaz gətirilmişdi.Cəbhə sifarişlərini yerinə yetirmək üçün zavodun əməkçiləri hər gün 18-20 saat işləyirdilər. Silah və döyüş sursatını hər zavodda ayrılıqda istehsal etmək imkanı olmadığından, maşınqayırma zavodları müdafiə məhsullarının istehsalı üzrə kooperativlər yaradırdılar. L.Şmidt adına zavodun kollektivi əlaqədar müəssisələrlə birgə işləyərək, 40 gün üçün nəzərdə tutulmuş işi 16 gün ərzində yerinə yetirirdi . Aviabombaların istehsalına başlayan gəmi təmiri zavodu planı vaxtından əvvəl ödəyirdi. Avtomobil təmiri zavodunun kollektivi "M-13" minomyotu hissələrini, "PPŞ" avtomatlarını, tank hissələrini istehsal edirdi. 1942-ci ilin sonlarında Bakıda 130 növ silah, sursat və başqa hərbi ləvazimat istehsal olunurdu. Gəncə şəhərində

12 sənaye müəssisəsi müharibənin tələbləri əsasında yenidən qurulmuşdu və 26 adda hərbi məhsul istehsal edirdi. Cəbhəni vaxtında və yüksək keyfiyyətli yanacaqla təmin etmək üçün ən taleyüklü, ciddi vəzifəni Azərbaycan neftçiləri böyük əzmkarlıqla, şərəflə yerinə yetirirdilər. Ölkənin qərb neft rayonları işğal olunmuşdu. Şimali Qafqaz neft rayonları böyük təhlükə qarşısında qalmışdı. Bakı nefti qızıl ordunun ən etibarlı dayağı idi. Ümumdövlət səviyyəsində daim diqqət mərkəzində olan ölkədə hasil edilən neftin 70-75 faizini, aviasiya benzini istehsalının 85-90 faizini Bakı verirdi. Bakı hərbi-dəniz qüvvələrini də yüksək keyfiyyətli mazutla təmin edirdi. 1941-ci ilin ağır çətinliklərinə baxmayaraq, Azərbaycan neftçiləri 23481 min ton neft və 25864 min kv.m qaz istehsal etmişdilər.55 Bu, respublika neft sənayesi tarixində ən yüksək göstərici idi. 1941-1945-ci illərdə SSRİ-nin neft sənayesi 110 milyon ton neft hasil etmişdi ki, onun 75 milyon tonu Azərbaycanın payına düşürdü . Bakı neftayıranları aviasiya benzininin və müxtəlif müdafiə məhsullarının istehsalını artırmaqda davam edirdilər. Bakının neft emalı müəssisələri Azərbaycanın mühəndis-texniki işçilərinin və alimlərinin səyi sayəsində cəbhə üçün yüksək oktanlı benzin istehsalını uğurla həyata keçirirdilər. Azərbaycanın neft emalçıları 1941-ci ildə neft emalı planını 102,4 faiz, yeni növ benzin istehsalını 118 faiz yerinə yetirmişdilər. Cəbhə 1339 min ton benzin, o cümlədən 218169 ton B-78, 203996 ton B-74, 325148 ton B-70 markalı benzin almışdı.63 1942-ci ildə Bakı neft emalçıları aviabenzin planını 114,4 faiz ödəmişdilər. Cəbhəyə 340,1 min ton aviabenzin göndərilmişdi.64 1943-cü ildə hasil olunmuş 11839 min ton neftdən 5 milyon ton neft məhsulları, o cümlədən 795 min ton benzin, 3332 min ton liqroin, ağ neft, dizel yanacağı, 640 min ton donanma mazutu və solyar yağı, 420 min ton aviayağ və avtol alınmışdı.

ÜİK(b)P MK və SSRİ XKS-nin 1941-ci il avqustun 16-da qəbul etdiyi 1941-ci ilin dördüncü rübünün hərbi-təsərrüfat planında arxa cəbhədə kənd təsərrüfatı məhsulları istehsalının artırılması mühüm əhəmiyyət kəsb edirdi. İlk növbədə ordunu çöräklə və başqa ərzaq məhsulları ilə təmin etmək, bunun üçün əkin sahələrini genişləndirmək, taxıl istehsalını artırmaq lazım idi. Kənd əməkçilərinə

rəhbərliyi gücləndirmək məqsədilə 1941-ci ilin avqustunda fövqəladə orqanlar - 79 MTS və sovxozda siyasi şöbələr təşkil olunmuşdu. 1941-ci ilin yay və payızında kolxoz sahələrinə 5 mindən artıq mexanizator qadın cəlb olunmuşdu. Kənd təsərrüfatına ixtisaslı kadrlar hazırlamaq üçün 17 məktəb fəaliyyət göstərirdi. Respublikada 1941-1942-ci illərdə hazırlanmış 10 min mexanizatorun yarıdan çoxunu qadınlar təşkil edirdi. Kənd təsərrüfatı üzrə çöl işlərinə qulluqçular, məktəblilər, texnikumların və ali məktəblərin tələbələri cəlb olunurdular. 1942-ci ildə "Yüksək məhsul - cəbhəyə köməyin əsasıdır" çağırışı ilə çalışan əməkçilər kənd təsərrüfatı məhsulları tədarükündə mühüm nailiyyətlər əldə etdilər. Əkin sahəsi 1941-ci ilə nisbətən 15 min hektar artdı. 1095,8 min hektar əkin sahəsinin 852 min hektarı taxıl əkininə ayrıldı.1942-ci ildə Azərbaycan kolxoz və sovxozları dövlətə 1941-ci ildən 2583934 pud artıq taxıl, 282962 pud ət, 210012 pud göyərti, 40965 pud yun, habelə kolxozlar 1943-cü ilin planları hesabına 440060 pud ot, 8211 pud yağ, 8 pud pendir, 29699 pud yun, 59755 pud ot və s. təhvil verdi **.** 1943-cü ildə Azərbaycanın sənaye müəssisələri kənd təsərrüfatı üçün texnika və avadanlıq istehsalını artırdı. 1943-cü ildə Azərbaycanın kənd zəhmətkeşləri dövlətə plandan əlavə 1 milyon pud taxıl, 21,5 min pud ət, 48 min pud tərəvəz, 2,2 min pud yun verdilər. Hərbi şəraitin tələbi əsasında nəqliyyatın işi yenidən quruldu. Hərbi hissələrin hərəkəti, onlara silah, sursat, ərzaq daşınması, habelə əhalinin, müəssisələrin köçürülməsi, sənayenin xammala tələbatının ödənilməsi nəqliyyatın ahəngdar işləməsi sayəsində vaxtında təmin olunurdu . Azərbaycanda yeni dəmir yol xətləri çəkilir, əlavə ikinci yollar inşa edilirdi. Azərbaycan dəmiryolçuları azad olunmuş rayonların dəmiryolçularına da köməklik göstərirdilər. Depo və yol emalatxanalarının kollektivləri bu rayonların stansiyalarına avadanlıq və alətlər göndərmişdilər. Bakı və Biləcəri depolarından Stalinqrad, Tixoretski, Minvod, Qafqaz və başqa stansiyalar üçün 36 adda 1000-dən çox alət, iki kompleks "Bekker" qaldırıcı kranı, şpalları qaldırmaq üçün avadanlıq, üç elektrik mühərriki, dörd çilingər dəzgahı, Kirovabad (Gəncə) deposundan Şimali Qafqaz dəmiryolçularına beş dəst çilingər aləti, 100-dən çox parovoz borusu, on dəst ressor və s. materiallar yola salınmışdı. Xəzər Hərbi Donanmasına sərnişin

daşımaq məqsədilə ümumi yük tutumu 14718 ton olan 11 tanker ayrılmışdı.97 "Dağıstan", "Türkmənistan", "Qırğızıstan" sərnişin teploxodları yaralıları daşımaq üçün üzən hospitala çevrilmişdi. 1941-ci ilin avqustunda "Kaspflot" və "Kasptanker"in 30 gəmisi, o cümlədən "Dağıstan", "Baksovet", "Osetiya", "Kuybışev", "Spartak", habelə "Komintern" tankeri Xəzər sahilində döyüş əməliyyatlarında fəal iştirak etmişlər . Bu illərdə "Kasptanker" cəbhə üçün 2 milyon 400 min ton benzin daşımışdı. "Kaspflot"un gəmiləri 1942-ci ildən 1945-ci ilin avqustuna qədər İran limanlarından, Krasnovodsk və Mahaçqaladan Bakıya müxtəlif təyinatlı 2783 min ton mal gətirmişdi.Rəşadətli əməklərinə görə Xəzər gəmiçiliyinin 1534 işçisi Sovet İttifaqının orden və medalları ilə təltif olunmuşdu.

Azərbaycanın yüngül, yeyinti və yerli sənayesi də öz işlərini hərbi tələblər əsasında qurmuşdu. Yüngül sənaye müəssisələri hərbi geyimlər hazırlayırdılar. 1941-ci ildə Rostovdan köçürülmüş ayaqqabı fabriki əsasında Bakıda əsgərlər üçün ayaqqabı fabriki işə salınmışdı. Respublikada qızıl orduya döyüş ləvazimatı, keçə ayaqqabı, paltar, kimyəvi silahlar əleyhinə geyim, hərbi hospitallar üçün mebel, yanğın əleyhinə alətlər və s. ləvazimat istehsal edilirdi. Konserv zavodları 70 növ konserv istehsalına başlamışdı. Hər ay respublikada istehsal olunan 50 tona yaxın çayın qablaşdırılması üçün 1941-ci ildə Bakıda fabrik tikilmişdi.

1941-ci ildə Bakı ət kombinatında ordu üçün yeyinti konsentratı hazırlayan xüsusi sex fəaliyyət göstərirdi. 1941-ci ildə ət kombinatında, süd zavodlarında tibb preparatları hazırlayan xüsusi sexlər yaradılmışdı. Burada SSRİ-də ilk dəfə buynuz və dırnaqdan plastmas istehsalına başlanmışdı. 1942-ci ilin əvvəllərində kombinat artıq 40 adda məhsul istehsal edirdi. 1941-1945-ci illərdə xalq təsərrüfatının bütün sahələrində və sosial-ictimai həyatda işlərin hərbin tələblərinə uyğun yenidən qurulmasında, əmək və istehsalat intizamının güclənməsində Azərbaycan SSR xüsusilə fərqlənmişdi.

Müharibənin ilk dövründə Azərbaycandan 40 mini könüllü olaraq cəbhəyə yollanmışdılar. Azərbaycanlılardan 77-ci, 223-cü, 271-ci 402-ci, 416-cı, diviziyalar formalaşdırıldı. 227-ci və 396-cı diviziyaların tərkibində də azərbaycanlılar çoxluq təşkil edirdilər.

Azərbaycan oğul və qızları da faşizmə qarşı döyüş cəbhələrində igidliklə vuruşmuşdular. Onlar fərdi və kütləvi igidliklər göstərmişdilər, 40 nəfər azərbaycanlı Brest qalasının müdafiəsində iştirak etmiş və son nəfəsinədək qala uğrunda mərdliklə döyüşmüşdülər. 1941-ci ilin payızında Leninqrad (indi Sankt-Peterburq) səmasını qoruyarkən Hüseynbala Əliyev misilsiz qəhrəmanlıq göstərmişdi. O, düşmənin ona qarşı döyüşən 6 təyyarəsindən ikisini məhv etmiş, 17 yara almasına baxmayaraq öz təyyarəsini salamat uçuş meydançasına endirmişdi. Lakin özü həlak olmuşdu. O, ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülmüşdü

1941-ci ilin dekabrında Novqorod yaxınlığındakı Pustinka kəndi uğrunda döyüşlərdə kiçik leytenant İsrafil Məmmədov misilsiz igidlik göstərərək azərbaycanlılar arasında ilk dəfə Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülmüşdü. Şimali Qafqazı faşistlərdən azad etmək uğrundakı döyüşlərdə Azərbaycan diviziyaları böyük rəşadət göstərmişdilər. 1942-ci ildə 402-ci diviziya Mozdok ətrafındakı yaşayış məntəqələrinin, 416-cı diviziya Şimali Qafqazın bir sıra yaşayış məntəqələrinin azad edilməsində fəal iştirak etmişdilər. Şimali Qafqaz uğrunda gedən döyüşlərdə göstərdikləri igidliyə görə Qafur Məmmədov və İdris Süleymanov Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülmüşdülər.

1942-ci ildə Stalinqrad (indi Volqoqrad) uğrunda döyüşlərdə azərbaycanlılar şücaətlə vuruşmuşdular. Baloğlan Abbasovun snayperlər qrupu, Həzi Aslanovun tank alayı Stalinqrad döyüşlərində böyük mətanət göstərmişdilər. Stalinqrad uğrundakı döyüşlərdə göstərdiyi rəşadətə görə 1942-ci il dekabrın 22-də Həzi Aslanov ilk dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. O ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı fəxri adına Berezina çayını keçərək Pleşeni şəhərini, habelə 508 yaşayış məntəqəsini azad etdiyinə görə almışdı. Bu barədə fərman onun ölümündən 47 il sonra 1991-ci ildə həyata keçirilmişdi. 1943-cü ildə Ukraynanın azad olunması uğrunda döyüşlərdə, xüsusən Dnepr çayını keçməkdə göstərdikləri misilsiz rəşadətə görə M.Məhərrəmov, M.Ələkbərov, Ə.Məmmədov, F.Səfərov Sovet İttifaqı Qəhrəmanı fəxri adını almışdılar.

Müxtəlif cəbhələrdə faşist qoşunlarına qarşı döyüşlərdə göstərdikləri rəşadətə görə

416-cı diviziya «Taqanroq diviziyası», döyüşçülərinin əksəriyyətini azərbaycanlılar təşkil edən 227-ci diviziya «Temryuk divİziyası», 271-ci diviziya «Qarlov diviziyası», 77-ci diviziya «Simferopol diviziyası» və 223-cü diviziya «Belqrad diviziyası» adını qazanmışdılar. 223-cü və 416cı diviziyalar Odessa və Kişinyovu, 271-ci diviziya Polşa və Çexoslovakiyanı, 223-cü diviziya Yuqoslaviyanı azad etməkdə fəal iştirak etmişdilər. 416-cı diviziya Qafqazdan Berlinə kimi böyük döyüş yolu keçmiş, Berlinin zəbt olunmasında iştirak etmişdi, Polşa və Çexoslovakiyanın faşistlərdən təmizlənməsi uğrundakı döyüşlərdə göstərdikləri igidliyə görə Ziya Bünyadov da daxil olmaqla 20 nəfər azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülmüşdülər.1944-cü ildə Şimali Transilvaniyanın Mağara şəhəri uğrunda döyüşlərdə göstərdiyi misilsiz igidliyə görə Gəray Əsədov ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülmüşdü. Moskva uğrunda qanlı vuruşmalarda Azərbaycan döyüşçüləri də fərqlənmişdilər. Tank hissəsinin komandiri, kapitan Həzi Aslanov qeyri-adi sərkərdə bacarığı göstərərək, əsgərlərini və döyüş sursatı yüklənmiş beş avtomobili mühasirədən çıxarmış, daha sonra yaralanmış tankçını əvəz edərək, tankı faşistlərin səngərinə yönəltmiş və düşməni məhv etmişdi. H.Aslanov qəhrəmanlığına görə Qırmızı Ulduz ordeni ilə təltif olunmuşdu. Moskva uğrunda döyüşlərdə Azərbaycan qızları Z.Seyidməmmədova, S.Quliyeva, N.Korneyeva, O.Şahbazova və başqaları igidliklə vuruşmuşdular. Cərrah Aliyə Rüstəmbəyova onlarca yaralının həyatını xilas etmişdi. 1941 -1942-ci illərin qışında sovet ordusunun Kerç yarımadasındakı desant əməliyyatında 77-ci Azərbaycan atıcı diviziyası da iştirak edirdi. Stalinqrad ətrafında əks-hücumlar zamanı 55-ci xüsusi tank alayının komandiri podpolkovnik Həzi Aslanov mahir hərbi sərkərdə istedadı nümayiş etdirdi. 1942-ci il noyabrın 19-da onun tank alayı Barmanktsak gölü rayonunda hücuma keçərək bir neçə saat ərzində düşmənin 4 tankını, 5 minomyot batareyasını, bir ağır topunu, 3 piyada rotasını sıradan çıxardı və 700 hitlerçi əsgər və zabiti əsir aldı. Həmin gün H.Aslanovun tankçıları hücumu davam etdirərək Plodovito kəndini almanlardan təmizlədilər. Noyabrın 21-də H.Aslanovun tank alayı Stalinqrad-Silsk dəmir yoluna çıxdı və piyadalarla birgə Abqanerovo və

Sovetski stansiyasına daxil oldu. H.Aslanovun tankçıları Kotelnikovo tərəfə hərəkət edərək, dekabrın 16-da Verxne-Kumsk kəndi yaxınlığında düşmənin mühasirəyə alınmış 6-cı ordusunun köməyinə 70 tankla tələsən Manşteyn qoşununun bir qrupunun qarşısını kəsdi. Aslanov tankçıları düşmənlə 6 gün davam edən ağır döyüşdə mətanət göstərərək, qat-qat artıq qüvvəyə malik faşistlərin 12 hücumunu dəf etdilər. Döyüşdə aslanovçular düşmənin 45 tankını, 9 minomyot batareyasını, 14 tank əleyhinə və 12 səhra silahını, 50 avtomobilini və 700-dən çox canlı qüvvəsini sıradan çıxardılar. 700 hitlerçini əsir götürdülər. 1942-ci il dekabrın 31-də SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə Həzi Aslanova Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Stalinqrad uğrunda kişilərlə çiyin-çiyinə azərbaycanlı qadınlar da mərdliklə vuruşurdular. İlk azərbaycanlı qadın, hərbi təyyarəçi-kapitan Züleyxa Seyidməmmədova 40-dan artıq səma döyüşündə iştirak etmişdi. Onun döyüş xidmətləri Vətən müharibəsi ordeninə və medallara layiq görülmüşdü.20 Respublikanın onlarca qızı "Stalinqradın müdafiəsi uğrunda" medalı almışdı Qafqazın müdafiəsində əsasən Zaqafqaziya xalqlarından təşkil olunmuş 18 milli və 15 qarışıq diviziya iştirak etmişdi. Bunlardan 77, 223, 402 və 416-cı diviziyalar milli Azərbaycan diviziyaları idi. 227, 271-ci diviziyaların isə şəxsi heyətinin 30 faizdən 70 faizə qədərini azərbaycanlı döyüşçülər təşkil edirdi..Qafqazda beş ay davam edən döyüşlərdə yüz mindən çox əsgər və zabit itirilmişdi. Qafqaz uğrunda döyüşlərdə Azərbaycanın cəsur qızları S.Bayramova, Z.Səlimova, L.Abdullayeva, R.Babayeva, T.Fəttahova, R.Əhmədova, M.Dəmirova, S.Polişeva, S.Xəlilova, P.Manafova da şücaət göstərmişlər. 1942-ci ilin dekabrında bu diviziyada Akim Abbasovun komandanlıq etdiyi 833-cü atıcı alay bir gündə düşmənin 100-ə qədər tankının 13 həmləsini qəhrəmancasına dəf etmiş, 36 tankı məhv edərək hücumun qarşısını almışdı. Hərbi nailiyyətlərinə görə A. Abbasov "Qırmızı Bayraq" ordeni ilə təltif edilmişdi. 416-cı diviziya 1943-cü ilin oktyabrında düşməni Konstantinovka ətrafında darmadağın edib, tank hissələrinin köməyi ilə Melitopolu azad etmişdi. Diviziya "Qırmızı Bayraq" ordeni ilə təltif olunmuşdu. Ukrayna ərazisinin alman-faşist istilaçılarından azad olunmasında 223-cü Azərbaycan atıcı

diviziyası fəal iştirak etmişdi. 1943-cü ilin sentyabrında diviziya 16 yaşayış məntəqəsini azad etmiş, düşmənin 4300 əsgər və zabitini, 45 top və tankını, çoxlu minomyot və pulemyotunu, habelə digər silahlarını sıradan çıxarmışdı. Mayor Baxış Mehdiyev düşmənin güclü atəşinə baxmayaraq, öz hissəsi ilə Dnepri keçərək, sağ sahildə möhkəmlənmişdi. Taman yarımadasının alman-faşist işğalçılarından azad edilməsində fərqləndiyinə görə, şəxsi heyətinin 60-70 faizini azərbaycanlı döyüşçülər təşkil edən 227-ci atıcı diviziya fəxri "Temyurq" diviziyası adını almışdı. Ukraynanın azad edilməsi salnaməsinə leytenant Məlik Məhərrəmovun komandanlıq etdiyi qvardiya rotasının igidliyi əbədi daxil olmuşdur. 1943-cü il sentyabrın 27-nə keçən gecə rota Dneprin sağ sahilinə keçib həmlə ilə hitlerçiləri tutduğu mövqelərdən çıxarmışdı. Bununla da sovet ordusu hissələrinin çayı maneəsiz keçməsi təmin olunmuşdu. Məlik Məlik oğlu Məhərrəmova və onun 17 silahdaşına Sovet İttifaqı Qəhrəmanı adı verilmişdi. 1944-cü ilin iyununda H.Aslanovun tankçıları partizanlarla birlikdə faşistləri Pleşinitsı şəhərində darmadağın edərək, 3-cü mexanikləşdirilmiş korpusun Metion və Pusto-Petin üzərinə hücumunun genişləndirilməsi üçün əlverişli şərait yaratdılar və iyulun 2-də Vineykanı azad etdilər. H.Aslanovun tankçıları qısa zaman ərzində Belorusiyanın bir çox yaşayış məntəqələrini azad edərək, düşmənin minlərlə canlı qüvvəsini, 43 tankını, 131 topunu, 12 minomyot batareyasını, 40 təyyarəsini, 15 qatarını məhv etdilər, 74 topunu, 88 pulemyotunu, 5 hərbi ləvazimat anbarını, 7 qatarını, 16 parovozunu, 520 avtomaşınını, 550 atını, 220 hərbi sursat arabasını ələ keçirdilər, 580 faşisti əsir aldılar. Minskin azad edilməsi zamanı fərqlənən briqada Baş Komandanın təşəkkürünü aldı. Həzi Aslanovun tankçıları iyulun 7-də birinci olaraq Vilnüsə daxil oldular. Yüksək hərbi ustalığına, tank yürüşlərini məharətlə təşkil etdiyinə və 1944-cü ilin yayında döyüşlərdə göstərdiyi şəxsi igidliyinə görə SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə H.Aslanov II dərəcəli Suvorov ordeni ilə təltif olundu. 1944-cü ilin iyulunda Şaulyay şəhərinin azad edilməsi uğrunda döyüşlərdə fəal iştirakına görə H.Aslanovun 35-ci qvardiya tank briqadasına fəxri "Şaulyay" adı verildi. Belorusiyanın və Pribaltikanın azad olunması döyüşlərində Həzi Aslanovun briqadası 8 dəfə Ali Baş Komandanın

təşəkkürünə layiq görüldü. Cəbhənin komandanlığı H.Aslanovun ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı ilə təltif olunmasına təqdimat vermişdi. Lakin ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı ona ölümündən sonra -1991-ci il iyunun 21-də verildi. 1944-cü ildə sovet qoşunları SSRİ ərazisini alman-faşist işğalçılarından azad etdi, Barents dənizindən Qara dənizə qədər sovet sərhədi bərpa olundu. Bu tarixi qələbədə Sovet İttifaqının bütün xalqları kimi, Azərbaycan xalqının oğul və qızları da şücaət, rəşadət və mərdlik göstərdilər.

Ədəbiyyat:


1. Azərbaycan tarixi. 7 clldə, 7-ci cild, Bakı, 2003, s. 11-89.
2.Qaffarov T. Azərbaycan tarixi. 1920-1991. Bakı,1999
3.X.İbrahimli. Azərbaycan siyasi mühacirəti. Bakı, 1956.
4. Г.Раджабли. Азербайджан в годы Второй мировой войны. Учебное пособие, Баку, 2003.
5. *Orucov Q.* Azərbaycan Qafqaz döyüşlərində. Bakı, 1984
6. *Абасов М.* Баку в годы Великой Отечественной войны. Баку, 1967
7.Qaffarov T . Azərbaycan tarixi 1991-2001.B, 1999
8.Azərbaycan SSR xalq təsərrüfatı Böyük Vətən müharibəsi illərində. Bakı, 1985
9.İsmayılov İ. Azərbaycanlıların İkinci dünya müharibəsində.iştirakı. Bakı: 2000.

## Azərbaycan döyüşçülərinin partizan və antifaşist müqavimət hərəkatında iştirakı.Milli legionlar.

**Plan:** 1.**SSRİ XKS və ÜİK(b)P –nin 1941-ci il 29 iyun və 19 iyul tarixli dekreti.**

**2. Azərbaycan döyüşçülərinin Belorusiya və Ukrayna partizan hərəkatın da iştirakı.**

**3. Azərbaycan döyüşçülərinin Leninqrad Vilayəti partizan hərəkatın da iştirakı.**

**4. Azərbaycan döyüşçülərinin Pribaltika partizan hərəkatın da iştirakı.**

**5. Azərbaycan döyüşçülərinin Avropa antifaşist müqavimət hərəkatında iştirakı.**

6.**Milli legionlar.**

SSRİ XKS və ÜİK(b)MK-nın 1941-ci il 29 iyun tarixli direktivlərində və ÜİK(b)MK-nın 1941-ci il 19 iyul tarixli "Alman ordularının arxasında mübarizənin təşkili haqqında" qərarında, bir sıra digər qərar və direktivlərində müvəqqəti işğal edilmiş rayonlarda düşmən və onun əlaltıları üçün dözülməz şərait yaratmaq, süvari və piyada partizan dəstələri təşkil etmək, işğalçılara qarşı bütün mübarizə formalarına rəhbərlik etmək üçün gizli partiya təşkilatları şəbəkəsi yaratmaq və genişləndirmək vəzifələri müəyyən olunmuşdu.

Brest vilayətindəki partizan hərəkatında Q.A.Abbasov, M.Y.Abdullayev, M.A.Əliyev, İ.M.İsmayılov və başqaları fəal iştirak etmişdilər.101 Dmitrov adına partizan dəstəsinin tərkibində iki ildən artıq vuruşan Qurban Abbas oğlu Abbasov Belorusiya partizanları ilə birlikdə faşistlərin cəbhəyə canlı qüvvə, texnika və hərbi sursat aparan beş qatarının qəzaya uğradılmasında, iki avtomobilinin yandırılmasında, 40 kilometr rabitə xəttinin sıradan çıxarılmasında, iki körpünün və bir zavodun partladılmasında fərqlənmişdi.. 1942-1943-cü illərdə Brest vilayətinin Jabinsk rayonunda fəaliyyət göstərən M.Çernyak adına partizan dəstəsinin vzvod və rota komandiri kommunist M.A.Əliyev öz döyüşçüləri ilə 20 dəfə faşist qarnizonu ilə döyüşə girmiş, hitlerçilərin yaşadığı 7 binanı dağıtmış, 6 avtomobili yandırmış, 1000 nəfərdən çox əsgər və zabiti məhv etmiş və əsir tutmuş, 50 qatarı qəzaya uğratmışdı.1943-cü ilin iyununda Belorusiya K(b)P MK-sı işğal olunmuş ərazilərdə, eyni vaxtda düşmənin dəmir yol relslərini məhv etmək planını irəli sürdü. Mərkəzi Partizan Qərargahı tərəfindən genişləndirilən bu planın

həyata keçirilməsinə Leninqrad, Kalinin, Smolensk, Oryol və qismən Ukrayna partizanları da cəlb olundular. 1943-cü il avqustun 3-də başlanan "rels müharibəsi"nin həyata keçirilməsində 73853 nəfər Belorusiya partizanı iştirak etmişdi. "Rels müharibəsi"nin həyata keçirilməsində Azərbaycandan olan bir çox döyüşçülər belorus partizanları ilə birlikdə fəaliyyət göstərmişlər. Həmin döyüşçülərdən Q.A.Abbasov, R.P.Babayev, İ.N.Qocayev, M.M.İsayev, E.Q.İsmayılov, M.B.Hənifəyev, Q.Q.Məmmədov, S.B.Mamin, N.M.Monaxov Belorusiya Mərkəzi Partizan Qərargahının rəisi P.K.Ponomarenkodan şəxsən təşəkkür almış, SSRİ-nin müxtəlif orden və medalları ilə təltif edilmişlər. Minsk vilayətində də sovet xalqlarının digər nümayəndələri ilə yanaşı, Azərbaycan döyüşçüləri də düşmənə qarşı amansız mübarizə aparırdılar. 1942-ci ilin oktyabrında Borisov şəhər gizli partiya komitəsinin sərəncamı ilə mayor Ələkbər Əliyev "Dyadya Kolya" Partizan birləşməsindəki Suvorov adına dəstənin qərargah rəisi, sonralar isə komandiri təyin edilmişdi. Onun rəhbərlik etdiyi partizan dəstəsi düşmənin 11 qatarını, 13 parovozunu, 84 vaqonunu, 9 avtomobilini, bir tankını partlatmış, üç təyyarəsini vurmuş, 7,9 km rabitə xəttini sıradan çıxarmış, Almaniyaya zorla aparılan 400 sovet vətəndaşını azad etmiş, 28 dəfə cəbhə-Berlin xəttini kəsmişdir.106 Minsk vilayətində Azərbaycandan olan döyüşçülər partizan hərəkatında daha fəal iştirak etmişdilər. Burada Azərbaycan övladları belorus partizanları ilə birlikdə faşistlərin 3000 əsgər və zabitini öldürmüş və yaralamış, 50 qatarını, 63 parovozunu, 230 vaqonunu, 40 avtomobilini, 15 tank və zirehli maşınını, 1500 dəmiryol relsini, 10 körpüsünü partlatmış, 15 rabitə xəttini kəsmiş, 10 km dəmiryol relsini sökmüş və xeyli qənimət ələ keçirmişdilər.Böyük Vətən müharibəsi illərində Ukrayna ərazisində fəaliyyət göstərən bütün partizan dəstə və birləşmələrində Azərbaycan döyüşçüləri faşistlərə qarşı amansız olmuşlar. Ukraynada partizan hərəkatının görkəmli təşkilatçılarından birinin S.A.Kovpakın partizan birləşməsində 20 nəfərdən çox Azərbaycan döyüşçüsü düşmənə qarşı fədakarlıqla vuruşmuşdu. Onlardan Aslan Əliyev, Müslüm Bağırov, Babaş Dadaşov, Vladimir Korastılyov bir sıra çətin və məsul tapşırıqları uğurla yerinə yetirmişlər. Komsomolçu A.Əliyevin kəşfiyyatçılar. bölməsi düşmənin 250 əsgər

və zabitini məhv etmişdi ki, onların 70 nəfəri igid komandirin payına düşür. Bakı neftçisi V.Korastılyov on beş ay düşmən arxasında vuruşmuş, 53 dəfə faşistlərlə döyüşə girmişdi. Pulemyotçu Bağırov bir il düşmən arxasında mübarizə aparmış, faşistlərin 40 əsgərini öldürmüş və 13 atəş nöqtəsini dağıtmışdı. M.Q.Bağırov II dərəcəli Vətən müharibəsi, "Qırmızı Ulduz" ordenləri və I dərəcəli "Vətən müharibəsi partizanı" medalı ilə təltif olunmuşdu. Ukrayna ərazisində fəaliyyət göstərən "Şors" partizan dəstəsi Azərbaycan döyüşçülərindən ibarət ən böyük partizan dəstəsi idi. Bu dəstə Ukraynanın Zdolbunov rayonundakı düşərgədən qaçmış hərbi əsirlərdən təşkil edilmişdi. Onlar 1943-cü ilin avqustunda faşist gözətçilərini məhv edərək Slavuta meşələrinə çəkilmiş və xalq intiqamçıları ilə birgə düşmənə qarşı mübarizə aparmışdılar. Dəstə 18 ay ərzində düşmən arxasında 6000 kilometr yol keçmiş, 27 faşist qarnizonu dağıtmış, 2500 hitlerçini öldürmüş, 500 nəfəri əsir almış, 11 şose, dəmir yol körpüsü, 80 avtomobil, 70 neft buruğu, 5 neftayıran zavod, 20 neft anbarı, 8 hərbi yüklü qatar, 22 təyyarə, 2 hərbi anbar, 1 qənd zavodu, 120 hərbi araba məhv etmiş və xeyli qənimət ələ keçirmişdi.

1941-1944-cü illərdə Krım partizanları düşmənin 29 min əsgər və zabitini qırmış, dörd min nəfərini əsir almış, 38 parovozunu, 947 vaqonunu, 2 zirehli qatarını, 13 tankını, 211 topunu, 1940 avtomobilini məhv etmiş və xeyli qənimət ələ keçirmişdilər.116 Bu əməliyyatlarda digər sovet xalqlarının nümayəndələri ilə birlikdə Azərbaycan döyüşçüləri də fəal iştirak etmişlər. Nurməmməd Əzimov, Hacı Əliyev, Saleh Əsgərov, Əli Məmmədov, Hacı Hüseynov, Mixail Sepatov, Qafur Əyyubov və başqaları partizan dəstələrində düşmənə qarşı fədakarlıqla vuruşurdular.

1943-1944-cü illərdə Krımda 11700 nəfər xalq intiqamçısını özündə birləşdirən 33 partizan dəstəsi faşist işğalçılarına qarşı cəsarətlə vuruşurdu. Bunlardan biri də döyüşçülərinin 90 faizi azərbaycanlılardan ibarət olan 8-ci Azərbaycan partizan dəstəsi idi. Bu dəstə yeddi ay faşistlərə qarşı mübarizədə 32 dəfə faşist qarnizonuna və nəqliyyat vasitələrinə hücum etmiş, düşmənin 1225 əsgər və zabitini məhv etmiş, 451 nəfərini əsir almış, 23 avtomobilini partlatmış, 9700 metr rabitə xəttini kəsmiş, qənimət olaraq 7 topunu, 11 minomyotunu, 60 pulemyotunu, 3500 avtomat

və tüfəngini, 11000 patronunu ələ keçirmişdi.Azərbaycan döyüşçüləri Leninqrad vilayətində də partizan hərəkatının fəal iştirakçıları olmuşlar. Hələ 1941-1942-ci illərdə N.C.Allahverdiyev, H.C.Axundzadə, H.Ə.Əliyev, R.Z.Əliyev, D.V.Yeretev və başqaları partizan qrupu və dəstələrinə rəhbərlik etmişdilər. 1942-ci ilin iyun ayında Leninqrad vilayətinin Dedeviçsk, Oredensk, Olutsk rayonlarında fəaliyyət göstərən partizan dəstəsinə mayor N.Allahverdiyev rəhbərlik etmişdir. Həmin dəstənin tərkibində K.M.Eyvazov, Ə.Ə.Məmmədov, R.Rzayev, İ.S.Süleymanov, N.Ş.Məmmədov, Ə.N.Cəfərov və başqaları vuruşmuşdular. K.M.Eyvazov şəxsən düşmənin iki avtomobilini partlatmış, dəmiryol relsini dağıtmış, rabitə xəttini sıradan çıxarmış və Qrefiya kəndindəki faşist qarnizonunun darmadağın edilməsində fərqlənmişdir. Leninqrad vilayətində partizan hərəkatının fəal iştirakçılarından Q.Q.Qasımov, V.İ.Lukyançenko, Y.V.Novruzov, C.A.Novruzov, M.V.Süleymanov, D.M.Tanrıverdiyev igidlik göstərmişlər.

Azərbaycan partizanları Baltika respublikaları ərazisində də fəaliyyətdə olublar. Baş serjant Qəzənfər Şabanov Latviya SSR-də A.S.Poçonun rəhbərlik etdiyi partizan dəstəsində bir ildən çox vuruşmuş və şəxsən 25 faşist məhv etmişdi. Litva SSR Trakay rayonunda fəaliyyət göstərən "Azad Litva" partizan dəstəsinin döyüşçüsü İ.H.Alxasov silah yoldaşı Pranas Koşatla birlikdə faşistlərlə qeyri-bərabər döyüşə girərək öz canları bahasına xalq intiqamçılarının həyatını xilas etmişdilər. Estoniya SSR ərazisinə reydə çıxan A.Kozlovun partizan dəstəsinin döyüşçüsü İ.B.Dadaşov 1941-ci il noyabrın 6-da beş nəfər partizanla birlikdə Rakvere şəhəri yaxınlığındakı təyyarə meydanında faşistlərin 16 təyyarəsini yandırmışdı.

Azərbaycandan olan hərbi əsirlər Almaniya, İtaliya, Fransa, Polşa və digər ölkələrin ərazilərində yerləşən hərbi düşərgələrdə düşmənə qarşı müxtəlif mübarizə formalarından istifadə etmişdilər. Onlar gizli təşkilatlar yaradır, faşistlərə işləyən müxtəlif hərbi obyektlərdə təxribat işləri aparır və əsirlərin qaçıb antifaşist müqavimət hərəkatına qoşulmasını təşkil edirdilər. Hərbi əsirlərin saxlanıldığı ən böyük əsir düşərgələrindən biri Polşanın Yedlina şəhərində idi. 1942-ci ilin yazında Hadi Qiyasbəyov, Mirzəxan Məmmədov, Xələf Hacıyev, Əşrəf

Süleymanov və başqalarının rəhbərliyi altında Yedlina hərbi əsir düşərgəsində gizli təşkilat yaradılmışdı. Təşkilatın fəal üzvü Əli Əliyev polyak partizanları ilə əlaqə yaradıb, onlardan parol almışdı. B.Hacıyevin rəhbərliyi altında bir dəstə hərbi əsir qaçıb bu parol vasitəsilə müqavimət hərəkatına qoşulmuşdu. Həmin döyüşçülər əsasən Polşa ərazisində fəaliyyət göstərən T.Novakın partizan briqadasında bir ildən çox vuruşmuş, öz cəsarəti ilə xalq intiqamçılarının rəğbətini qazanmışdılar. Polşa ərazisində fəaliyyət göstərən "Avanqard" partizan dəstəsinin tərkibində 12 azərbaycanlı partizan 1944-cü il noyabrın 28-də A.Bubnovun rəhbərliyi ilə alman generalı Ernest Rostu əsir almışdılar. Qəzəblənmiş faşist qərargahı xalq intiqamçılarına qarşı hücuma 3 piyada batalyonu göndərmişdi. Bu döyüşdə son patronadək qəhrəmanlıqla vuruşan azərbaycanlı partizanlardan Kərim Doşqan oğlu və Əli Qarabala həlak oldular. Polşa ərazisində fəaliyyət göstərən müxtəlif partizan dəstələrində Vahab Əmirov, Surxay Hacızadə, Əli Əliyev, Həsən Rəsulov, Xəlil Məlikov, Ənvər Səfərəliyev, Şamil Muxtarov, Məmməd Həsənzadə və onlarca başqaları polyak vətənpərvərləri ilə birgə faşist işğalçılarına qarşı amansız mübarizə aparmışdılar.

Çexoslovakiya ərazisində fəaliyyət göstərən müxtəlif partizan dəstələrinin tərkibində 500-ə qədər Azərbaycan döyüşçüsü vuruşurdu. Xüsusi desant dəstələrinin tərkibində düşmən arxasına göndərilən M.Abışov, A.İbadov, H.Məmmədov, müxtəlif əsir düşərgələrindən qaçıb müqavimət hərəkatına qoşulan A.Kastryulin, Ə.Baxışov və başqaları döyüşlərdə xüsusilə fərqlənmişdilər. Ə.Əlimərdanov Çexoslovakiyanın beş orden və medalı ilə təltif edilmişdi.

Çexoslovakiya ərazisində fəaliyyət göstərən "Fakel", "Qrom", "Yan Qus" və başqa partizan dəstələrində çoxlu azərbaycanlı döyüşçü vardı. M.İ.Şukayevin partizan birləşməsindəki azərbaycanlılardan ibarət Uritski adına partizan dəstəsi Çexoslovakiya ərazisində fəaliyyət göstərdiyi müddətdə faşistlərlə 25 dəfə döyüşə girmiş, 7 dəfə düşmən qarnizonuna hücum edib, hitlerçilərdən 246 nəfərini öldürmüş, 49 nəfərini əsir almış, 41 parovoz, 85 avtomobil, 21 təyyarə məhv etmiş və xeyli qənimət ələ keçirmişdi.

1944-cü ilin əvvəlində Yuqoslaviya Xalq Azadlıq Ordusunun 9-cu korpusu qərargahında xüsusi kəşfiyyatçılar qrupu yaradıldı. Onun tərkibinə slovak partizanları ilə yanaşı, azərbaycanlı partizanlardan Mirdamət Seyidov, Tağı Əliyev, Ənvər Məmmədov da daxil edildilər. Kəşfiyyat qrupuna Mehdi Hüseynzadə başçılıq edirdi. Bu kəşfiyyat qrupu, xüsusilə onun komandiri M.Hüseynzadə - "Mixaylo" özünün əfsanəvi qəhrəmanlıqları ilə Yuqoslaviyanın Adriatik dənizi sahillərində yaşayan bütün əhalinin dərin rəğbətini qazanmışdı.
Ümumiyyətlə, 1943-1945-ci illərdə Fransa antifaşist müqavimət hərəkatında 2000 nəfərə yaxın azərbaycanlı iştirak etmişdi. Bunlardan Ə.Cəbrayılov, X.Hacıyev, D.Abdullayev, N.Abdullayev, R.Rzayev, Ə.Möhsümov, M.Məhərrəmov və başqaları cəsur partizan kimi tanınmış, bir neçə ali fransız hərbi orden və medalları ilə təltif edilmişdilər. Əhmədiyyə Cəbrayılov "Armed Mişel" adı ilə bu ölkənin azadlıq hərəkatında fəal iştirak etmiş, şəxsi igidliyə görə paradda əsgərə generaldan irəlidə getmək kimi şərəfli hüquq verən yüksək mükafatla - Hərbi medalla təltif olunmuşdu.
Azərbaycanlı hərbi əsirlər Berlində yaradılmış gizli antifaşist təşkilatının işində də yaxından iştirak edirdilər. Cümşüd Məmmədov, Bəxtiyar Paşayev, Səttar Kərimov, Seyidəli Seyidov və bu gizli təşkilatın digər üzvləri çalışdıqları sənaye müəssisələrində düşmənə qarşı təxribatlar törədirdilər. Azərbaycan döyüşçülərindən M.Seyidov, Ə.Əlimərdanov faşistlərin Buhenvald, Mauthauzen, Daxau, Zaksenhauzen ölüm düşərgələrində Avropa ölkələrindən olan antifaşistlərlə birgə fəal iş aparırdılar.152 Ə.S.Ağayev Buhenvald ölüm düşərgəsində antifaşist təşkilatın fəal üzvlərindən biri olmuşdur.Azərbaycan oğulları faşizmə qarşı partizan və müqavimət hərəkatında da fəal iştirak etmişdilər. Onlar Krımda, Ukraynada, Belorusiyada, Şimali Qafqazda, Baltikyanı ölkələrdə, Polşada, Çexoslovakiyada, Macarıstanda, Yuqoslaviyada və İtaliyada partizan dəstələri sıralarında, Fransada antifaşist müqavimət hərəkatında igidliklə vuıuşmuşdular. İsmayıl Əliyev Smolensk vilayətində fəaliyyət göstərən partizan briqadasının qərargah rəisi, Məmməd Əliyev Krımda partizan dəstəsinin başçısı, Ələkbər Əliyev Belorusiyada «Dyadya Kolya» partizan birləşməsinin qərargah rəisi

olmuşdu. Ukraynada 400 azərbaycanlı partizan dəstəsi təşkil etmişdilər. 1942-ci ildə Polşada faşist hərbi əsir düşərgəsində Hadi Qiyasbəyovun və Mirzəxan Məmmədovun başçılığı ilə gizli təşkilat yaranmışdı. Müharibə dövründə üç mindən çox azərbaycanlı Qərbi Avropa ölkələrində, xüsusən Fransada müqavimət hərəkatında iştirak etmişdilər. Onlardan Fransa müqavimət hərəkatında vuruşan Əhmədiyyə Cəbrayılovun adı yaddaşlarda daha çox qalmışdır. O, «Armed Mişel» (Xarqo) adı ilə müqavimət hərəkatında fəal iştirakına görə Fransanın 5 ordeni və en yüksək fəxri adı - «Fransanın Milli Qəhrəmanı», şəxsi igidliyinə görə paradda əskərə generaldan qabaqda getmək hüququ verən hərbi medalı ilə də təltif olunmuşdu. Azərbaycanın igid oğlu Mehdi Hüseynzadə (Mixaylo) Yuqoslaviyada faşistlərə qarşı mübarizədə əfsanəvi qəhrəmanlıqlar göstərmişdi. O, Yuqoslaviya Xalq Azadlıq Ordusunun kəşfiyyat təxribatçı qrupuna rəhbərlik edərək 1000 nəfərdən çox fa-şist zabitini məhv etmiş, 700 nəfər hərbi əsiri azad etmişdi. 1944-cü ildə faşistlərlə qeyri-bərabər döyüşdə həlak olmuşdu. 1957-ci ildə ona ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı fəxri adı verilmişdi.

Partizan dəstəsində onunla yanaşı T.Əliyev, D.İsmayılov, Ə.Məmmədov, M.Seyidov və b. da döyüşmüşdülər. Bunlardan başqa Yuqoslaviya Xalq Azadlıq ordusu sıralarında onlarla azərbaycanlı faşizmə qarşı vuruşmuşdu. Onlardan 50 nəfəri Yuqoslaviyanın orden və medallarına layiq görülmüşdülər. Onlardan partizan qərargahının rəisi D.Həkimli, bölmə komandirləri M.Abdullayev və A.Məmmədov, pulemyotçu V.Hüseynov, həkim R.Ağazadə, feldşer M.Qulubəyov və b. fərqlənmişdilər.

İtaliyada partizan dəstələrində vuruşan Ə.Babayev, H.Nadirov, M.Nəzərov, İ.Məmmədov, V.Hüseynov, Ş.Məcidov, A.Mirzəyev, M.Nəcəfov, H.Əskərov, M.Abdullayev, S.Səfıyev və b. Şimali İtaliyanın azad edilməsində fəal iştirak etmişdilər. Əli Babayev Qaribaldi adına batalyonun komandiri olmuş, «Hərbi şücaətinə görə» gümüş medalla təltif olunmuşdu. Vilayət Hüseynov İtaliya faşistlərinin lideri B.Mussolini həbs edənlərdən biri olmuşdu.

Azərbaycandan cəbhəyə səfərbər edilmiş 600 minə yaxın adamdan 200 mindən

çoxu həlak olmuş və itkin düşmüşdü. Müharibə cəbhələrində göstərdikləri şücaətə görə xalqımızın 121 nəfər mərd oğlu Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülmüşdü.Müharibə illərində azərbaycanlılar antisovet hərəkatında da iştirak etmişdilər. Baltikyanı ərazilər uğrunda gedən döyüşlər zamanı əsir düşən Əbdürrəhman (Əbo) Fətəlbəyli Düdənginski Hitlerin razılığı ilə azərbaycanlılardan ibarət hərbi dəstələr yaratmışdı. Azərbaycanlılardan yaradılan hərbi legion Fransanın cənubunda müttəfiqlər əleyhinə döyüşlərdə iştirak etmişdilər.
Hitler hökumətinin Şərq nazirliyi 1941-ci ilin payızında M.Ə.Rəsulzadəni Almaniyaya dəvət etmişdi. Onunla azərbaycanlı əsirlərin azad edilməsi, onlardan milli ordu yaradılması məsələləri müzakirə edilmişdi. Hitler 1941-ci il dekabrın 22-də başqa milli hərbi hissələrlə yanaşı, Qafqaz müsəlmanlarından xüsusi hərbi hissə yaradılması barədə əmr vermişdi. Qafqaz müsəlmanlarından təşkil edilmiş hərbi hissələr 1942-ci ilin yayında Qafqaz cəbhəsindəki döyüşlərdə iştirak etmişdilər. Azərbaycanlılardan təşkil olunmuş 7 min nəfərdən çox döyüşçüsü olan «Aslan», «Dönməz», «Qafqaz», «Vətən» və b. hərbi dəstələr də bu döyüşlərdə iştirak etmişdilər.
1943-cü ilin yazında antisovet hərəkatına rəhbərlik etmək üçün Berlində Milli Azərbaycan Komitəsi yaradılmışdı. Həmin ilin may ayında xüsusi azad türk diviziyası (162-ci piyada diviziyası) yaradılmışdı. Diviziyanın tərkibində Azərbaycan legionu da var idi.
Hitlerin Azərbaycanı işğal etmək niyyətlərindən xəbər tutan M.Ə.Rəsulzadə hitlerçilərlə əlaqəni kəsmişdi. O, Almaniyanı tərk etməli olmuşdu. 1943-cü ilin payızında Hitler hökumətinin himayəsi ilə Berlində Azərbaycan parlamenti və hökuməti yaradılmışdı. Ona Əbo bəy Fətəlibəyli Düdənginski başçılıq etmişdi. Bu hökumət 1944-cü ilin qışınadək fəaliyyət göstərmişdi.
1942-ci ilin iyul ayında DTK-nin işçisi erməni Aruşanovun uydurma ittihamı əsasında Bakının müxtəlif Ali və Orta ixtisas məktəblərindən olan 8 nəfər tələbə həbs olunmuşdu. Onlar əsassız olaraq antisovet millətçi təşkilat yaratmaqda təqsirləndirilmişdilər. Erməni müstəntiqləri Aruşanovun, Qriqoryanın və Arustamovun əsassız ittihamnaməsi əsasında onlar 1942-ci ilin oktyabrın 31-də

mühakimə olunmuşdular. Mühakimə prosesi cəmi 45 dəqiqə çəkmişdi. Mühakimə olunanlardan İsgəndərov Süleyman ƏliAbbas oğlu, Tağıyev Ələsgər Əli Səttar oğlu və Rzayev Məmmədhüseyn Həbib oğlu məhkəmənin hökmü ilə 1942-ci il dekabrın 24-də güllələnmişdilər. Mustafayev Çingiz Seyfulla oğlu, Ağayev Hüseynağa Mirhəşim oğlu, Məmmədov Ağa Ələsgər Rza oğlu, Rzayev Saleh Əbdülhüseyn oğlu və Mehdiyev Zaman Zeynal oğlu 10 il müddətinə azadlıqdan məhrum edilmişdilər. Həmin işdə adları çəkilən Həbibzadə Şükür 1942-ci ilin noyabrında 8 il həbsə və Rüstəmov Ramiz isə dekabr ayında güllələnməyə məhkum olunmuşdu. Lakin 1943-cü ilin fevralında onun cəzası 10 il həbslə əvəz edilmişdi. Lakin sonradan apardan yoxlamalar nəticəsində sözügedən iş üzrə hökmün əsassız və uydurma olduğu sübuta yetirilmiş, 1960-cı il yanvarın 5-də isə ona xitam verilmişdir.

Müharibə illərində Azərbaycanın bütün iqtisadiyyatı da müharibə tələblərinə uyğun qurulmuşdu. Fəhlə və qulluqçular üçün iş günü 11-12 saata qaldırılmışdı. Məzuniyyətlər ləğv olunmuşdu. Ərzaq və çox işlənən sənaye məhsullarının satışı üzrə kartoçka sistemi tətbiq edilmişdi. Orduya səfərbər edilmiş işçilərin yerinə qadınlar və yeniyetmələr cəlb olunmuşdular. Müharibənin ilk ilində neft sənayesində işləməyə 11 min qadın gəlmişdi. Gənclərdən ixtisaslı kadrlar hazırlanması genişləndirilmişdi.

Bütün sənaye sahələri cəbhə üçün məhsul istehsal etməyə başlamışdılar. O zaman SSRİ-nin əsas duru yanacaq-neft bazası olan Bakının rolu artmışdı. Müharibə illərində Bakı ölkə neftinin 70-75 faizini, benzinin 85-90 faizini verirdi. Motorlu hərbi texnika demək olardı ki, əsasən Bakının verdiyi yanacaqla işləyirdi. 1941 1945-ci illərdə Bakı ölkəyə 75 milyon ton neft, 22 milyon ton benzin vermişdi. Bakı döyüşən ordunun cəbbəxanalarından birinə çevrilmişdi. Bakıda «Katyuşa» raketi, «Şpakin pulemyotu» istehsal edilir, «YAK - 3» qırıcı təyyarəsi yığılırdı. Ümumən Bakıda 130-dan çox silah və onun hissələri hazırlanırdı. Azərbaycanın kənd əməkçiləri də müharibə illərində döyüşən cəbhəyə əllərindən gələni etmişdilər. Onlar ölkəyə 500 min ton pambıq və digər strateji xammal məhsulları vermişdilər.Azərbaycan zəhmətkeşləri təmənnasız olaraq müdafiə

fonduna milyardlarla rubl könüllü vəsait və qiymətli əşyalar vermişdilər. 1941 - 1943-cü illərdə Azərbaycan vətəndaşları müdafiə fonduna 15 kiloqram qızıl, 952 kq gümüş, 311 milyon manatlıq istiqraz vermişdilər. Cəbhəyə 1,6 milyon ədəd müxtəlif əşya, 125 vaqon isti paltar göndərmişdilər. Öz vəsaitləri hesabına tank və təyyarə kolonnaları təşkil etmişdilər.
Azərbaycanın alimləri də müharibə illərində şərəflə işləmişdilər. Məşhur akademik Yusif Məmmədəliyev başda olmaqla kimyaçı alimlər müharibə illərində 38 növ sürtkü yağı, 9 adda təyyarə benzini və 8 növ dizel yağı istehsalını təşkil etmişdilər. Bütün ziyalıların, o cümlədən yaradıcı ziyalıların fəaliyyəti faşizm üzərində qələbəyə yönəldilmişdi.
Beləliklə, ikinci dünya müharibəsində faşizm və militarizm üzərində qələbənin əldə edilməsində Azərbaycan da öz böyük töhfəsini vermişdi.

**Milli legionlar.** Müharibənin başlanması, ilk vaxtlarda alman-faşist ordularının müvəffəqiyyətləri ilə əlaqədar azərbaycanlı döyüşçülərin bir hissəsində yeni bir düşüncə tərzi yaratdı və onlar itirilmiş müstəqilliyi bərpa etmək uğrunda mübarizəyə başlayaraq sanki bolşevik Rusiyasından və Stalindən intiqam almaq istəyirdilər. Sovet rejimi ilə razılaşmaq istəməyən bir çox azərbaycanlı döyüşçülər qəsdən əsir düşür və Azərbaycanın milli istiqlalını yenidən bərpa etmək ümidi ilə alman əsgərləriilə birlikdə bolşevizmə qarşı birgə mübarizə aparırdılar. Eyni zamanda bolşevik istilasından sonra Almaniyada və digər Avropa ölkələrində mühacir olmuş azərbaycanlılar Vətən həsrəti ilə yaşayırdılar. Mühacirlər əsir düşmüş azərbaycanlıların içərisində ayrıca milli legionların yaradılması
və ən mühümü isə Almaniyanın Azərbaycanın müstəqilliyinin tanıması istiqamətində intensiv iş aparırdılar. Əsir düşənlər isə çox idi. Alman tədqiqatçısı P.Mühlen yazırdı ki, 1941-ci il noyabrın 1-nə qədər 2 milyondan artıq sabiq Qırmızı Ordu döyüşçüsü əsir düşmüşdü. Şərq Nazirliyinin rəhbəri Rozenberq
əsir düşənlərin 3,6 milyon olduğunu göstərirdi. Ə.Fətəlibəyli- Düdənginskinin məlumatlarına görə əsir düşənlərin 150 min nəfəri Azərbayan türkü, 1 milyona qədəri isə bütün türklərin və qafqazlıların olduğu göstərilir. Qeyd etməliyik ki, əsir

düşənlərlə alman komandanlığı «ali irq» ideologiyası ilə davranır, onların qaldığı düşərgələrdə kütləvi xəstəliklər yayılır və on minlərlə adam acından, soyuqdan məhv olurdu. Təkcə bir düşərgədə 30 min əsirdən 28 min nəfəri tif xəstəliyindən ölmüşdü. Belə ölüm hallarının qarşısını almaq məqsədi ilə də Milli legionların yaradılmasının əhəmiyyəti böyük idi. Milli legionların yaradılmasında görkəmli vətənpərvər, xalqını və Vətənini sevən mayor Əbdül Rəhim bəy Fətəlibəyli-Düdənginskinin böyük xidmətləri olmuşdur. Ə.Fətəlibəyli- Düdənginski (Naxçıvanın Düdəngə kəndində doğulmuşdu) 1940-cü ildə Moskva Hərbi Akademiyasını bitirmiş və ailəsi ilə birlikdə Litvaya getmişdi. O, Baltikyanı döyüşlərin birində almanlara əsir düşmüş və 1941-ci ilin noyabrında Hitlerə məktub yazaraq Azərbaycan legionlarının yaradılması fikrini bildirmişdi. İlk əvəl Hitler bu məsəlyə diqqət vermədi. Çünki sürətlə irəliləyən alman ordusu 1941-ci ilin sonuna qədər müharibəni başa çatdırmaq fikrində idi. Ancaq məlumdur ki, Moskva yaxınlığında alman orduları ağır məğlubiyyətə uğradı və müharibə uzandı. Bundan sonar müxtəlif legionların, o cümlədən Azərbaycan legionlarının yaradılmasına Hitler və onun komandanlığı razılıq verdi, sovet ordusuna qarşı döyüşlərdə müxtəlif xalqların gücündən istifadə etməyə başladı. Rozenberqin təklifi illə Hitler 1941-ci il dekabrın 22-də Milli legionların yaradılması haqqında əmr verdi. 1942-ci ilin baharında Milli legionların yaradılması işinə başlandı. İlk legionlar işğal altında olan Polşada yarandı. Legionlara rəhbərlik edənlərin 20-25 faizi alman zabitləri idi. Həmin legionlarda 1941-ci ildə Almaniyaya dəvət olunan M.Ə.Rəsulzadənin «Üçrəngli bayraq» əsəri əldən-ələ gəzirdi. Sabiq legionçulardan Məhəmməd Gəngərli və Kərrar Ələsgərlinin məlumatlarına görə «Boz qurd», «Cavad xan», «Aslan» və b. taburlarda qruplaşdırılan Azərbacyan legionerlərinin sayı 70 mindən çox idi. Hər bir Milli legionda almanlar tərəfindən maliyyələşdirilən «Azərbaycan», «Milli birlik», «Hücum» qəzetləri nəşr olunurdu. Qəzet səhifələrində «bolşeviklərə qarşı mübarizəyə» ruhlandırılan məqalələr, Ə.Cavad, M.Müşfiq, A.İldırım və başqalarının şeirləri dərc edilirdi. Bütün legionerlər alman forması geyinməyə məcbur edilirdi. Lakin onların sol qollarında üç rəngli bayrağımız və ay-ulduz həkk olunmuş fərqlənmə nişanı var idi.

Ə.Fətəlibəyli-Düdənginski yazırdı ki, Stalin Hitlerlə Polşanı bölən, Baltik ölkələrinin müstəqillyini əlindən alan, Finlandiyanı darmadağın edən vaxt biz nəfəsimizi içimizə çəkib gözləyirdik… biz atalarımızın ənənələrini tapdalayıb xalqımızıkölə halına salmış Böyük Rusiya uğrunda vuruşa bilməzdik…

Buna görə də bolşevizmin kölə etdiyi xalqlarla yanaşı, azərbaycanlılar da almanların tərəfinə keçərək, onlarla birlikdə Vətənin azadlığı və müstəqillyi uğrunda mübarizəyə qoşulurdu və bu əhval-ruhiyyə əsir düşənlərin qəlbinə hakim idi. 1942-ci ilin əvvəllərindən formalaşmağa başlayan Azərbaycan legionları döyüşlərdə bir sıra ciddi uğurlarqazanmış, Kubana, Şimali Qafqaza qədər gəlib çıxa bilmişdi. K.Ələsgərli yazırdı: «Gün kimi yadımdadır. Şimali Qafqazda ağsaqqal çeçenlər və b. bizi ata-baba qaydalarınca qarşılamağa çıxmışdılar. Mümkün qədər tezliklə Azərbaycana çatmaq və ölkəmizi bolşeviklərdən azad etməyə can atırdıq. Bizə bolşevizmi məhv etmək, repressiya illərində öldürülən qohumqardaşlarımıza görə Stalindən intiqam almaq hissi hakim kəsilmişdi. Legionerlərdən çoxu döyüşlərdə göstərdikləri qəhrəmanlığa görə orden və medallarla təltif edilmişdilər. Azərbaycanlı legionerlərin döyüşlərdə ilk uğurları Qafqaz cəhbəsində qazanılmışdı. Bu döyüşlərdə F.Düdənginski xüsusilə fərqlənmişdi. Azərbaycanlı legionerlərin bu uğurları alman komandanlığı tərəfindən yüksək qiymətləndirilmişdi. Azərbaycanlı legionerlərin qəhrəmanlığını qiymətləndirmək üçün iki orden: «Azərbaycan istiqlaliyyəti» və «Boz Qurd»
ordenləri təsis olunmuşdu. Azərbaycanlı legionerlərin qəhərəmanlığı barədə məlumatlı olan Hitler erməni və gürcülərə nisbətən müsəlmanlara daha çox üstünlük verirdi.Məhz bu inama görə alman komandanlığı legionerləri yalnız döyüş cəbhəsinə deyil, hətta kəşfiyyata da göndərirdi. Almaniya Xarici İşlər Nazirliyində Şərq mütəxəssisi olan, keçmiş Moskva səfiri Şulenberq Hitlerlə razılaşaraq 1942-ciilin aprelində Avropa ölkələrində məskunlaşan tanınmış mühacirlərlə Berlinin məşhur «Adlon» otelində görüş təşkil etdi. Bu tarixi görüş «Adloniada» adlandırıldı və mayda təşkil edildi. Görüşə M.Ə.Rəsulzadə də dəvət olunmuşdu.

idi. M.Ə.Rəsulzadənin rəhbərliyi altında Milli Azərbaycan Komitəsi fəaliyət göstərirdi. M.Ə.Rəsulzadə Almaniya ordu rəhbərliyi, Xarici İşlər Nazirliyi və Şərq Nazirliyi ilə uzunuzadı danışıqlar apardı. Bu danışıqlarda əsas məsələ Almaniya tərəfindən Azərbaycanın müstəqilliyinin tanınması idi. Lakin danışıqların bir nəticə vermədiyini görən M.Ə.Rəsulzadə 1942- ci ilin sonlarında Almaniyanı tərk etdi. Rozenberqin istəyinə rəğmən üç nəfərdən ibarət təşkil olunan Azərbacyan «İrtibat Heyəti»nə mayor Ə.Fətəlibəyli, «Qafqaz» qrupunun fəalı Fuad Əmircan və 1920-ci ildə Azərbaycan Parlamenti tərəfindən Paris Sülh konfransına göndərilən Abbas bəy Ataməlibəyov daxil edildilər. Ə.Fətəlibəyli-Düdənginski böyük enerji ilə azərbaycanlıların hüquqlarını müdafiə edir, almanlarla o qədər də asan olmayan iş birliyi yaradır, mürəkkəb tarixi şəraitdə Azərbaycanın müstəqilliyinin tanınmasına çalışırdı. Bu məqsədlə 1943-cü ilin noyabrında Berlində 300 nəfər soydaşlarılmızın iştirak etdiyi qurultay oldu. Qurultayda Rozenberq də iştirak edirdi. Qurultayda hələ Azərbaycanın müstəqilliyini tanımayan Almaniyanın siyasəti tənqid edildi. Qurultayda Ə.Fətəlibəyli-Düdənginskinin məruzəsi üzrə 5 bənddən ibarət qərar qəbul edildi. Qurultayda qəbul edilən qərarların böyük əhəmiyyəti oldu. Hitlerin müsəlmanlara inamı artdı. 1943-cü ilin payızında Berlində mühacir Azərbacyan Parlamenti və Azərbaycan Hökuməti yaradıldı. Hökumətin başında Ə.Fətəlibəyli-Düdənginski dururdu. Almaniya hökuməti «Mühacir Azərbaycan hökuməti»ni tanıdı. Bu hökumət 1944-cü ilin qışınadək fəaliyyət göstərmişdi. Azərbaycan Milli legionu Fransanın cənubunda almanlarla birlikdə müttəfiqlərin qoşunlarına qarşı döyüşlərdə iştirak etdi. 1944-cü ilin iyununda ikinci cəbhə açılandan sonar almanların vəziyyəti ağırlaşdı, amerikan qoşunları Atlantik sahillərini ələ keçirdi. Bu zaman geri çəkilən almanlarla birlikdə Azərbacyan Milli legionu da geri çəkilirdi. Müharibə qurtardıqdan sonra azərbaycanlı legionçular dünyanın müxtəlif ölkələrinə səpələndilər. Almaniyanın məğlubiyyətindən sonar Azərbaycan Milli Hökumətinin prezidenti Ə.Fətəlibəyli-Düdənginskinin ağır mühacirət dövrü başlayır. O, əvvəl Misirə, sonra Türkiyəyə gedir. «Bolşevizmə qarşı mübarizə» məqsədilə ABŞ ideoloji təbliğat vasitəsi olan «Azadlıq» radiosunu təşkil edir və Ə.Fətəlibəyli-Düdənginskini Azərbaycan redaksiyasının redaktoru vəzifəsinə dəvət

edir. «Azadlıq» radiostansiyasının açılışı Stalinin ölümü günü - 1953-cü il martın 5-də olur. 1954- cü ildə Ə.Fətəlibəyli-Düdənginski sovet casusu tərəfindən xaincəsinə öldürülür.

## ƏDƏBİYYAT


1..Qaffarov T. Azərbaycan tarixi. 1920-1991. Bakı,1999
2.Azərbaycan tarixi VII cilddə, VII cild, B, 2003
3. *Mədətov Q.* Azərbaycan Böyük Vətən müharibəsində (1941-45-ci illər). Bakı, 1965
4. *Orucov Q.* Azərbaycan Qafqaz döyüşlərində. Bakı, 1984
5. *Абасов М.* Баку в годы Великой Отечественной войны. Баку, 1967
6.Azərbaycan SSR xalq təsərrüfatı Böyük Vətən müharibəsi illərində. Bakı, 1985
*7.Bağırzadə Ə.* Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində. Bakı, 1970
8.Siyasi tarix.II hissə, B, 1995
9.İsmayılov İ. Azərbaycanlıların İkinci dünya müharibəsində.iştirakı. Bakı: 2000.

## Azərbaycan mədəniyyəti müharibə illərində

**Plan:** **1.Azərbaycan elmi müharibə illərində**
**2. Azərbaycan ədəbiyyatı müharibə illərində**
**3.Azərbaycan ingəsənəti müharibə illərində.**
**4.Orduya ümumxalq köməyi.**

Azərbaycan ziyalıları müharibənin ilk günlərindən bütün səy və yaradıcılıq fəaliyyətlərini qəsbkar faşist Almaniyasına qarşı mübarizəyə, azadlığın, humanizmin, tərəqqinin, sivil cəmiyyətin qorunmasına yönəltdilər. SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı, respublikanın elmi-tədqiqat müəssisələri, yaradıcı cəmiyyətlər, ali məktəblərin kafedraları öz işlərini müharibənin tələblərinə uyğun qurmağa başladılar. Kompleks elmi tədqiqatlar aparılması, istehsalatla canlı və sıx əlaqə cəbhəyə, hərbi təsərrüfata xidmət edən proseslərin təkmilləşdirilməsinə, yerli xammal əsasında müdafiə əhəmiyyətli strateji məhsullar, yüksək keyfiyyətli yanacaq növləri yaradılmasını sürətləndirməyə kömək edən yeni elmi istiqamətlərin, mövzuların işlənməsi elmi kollektivlərin fəaliyyətinin əsasını təşkil edirdi.

Azərbaycan alimləri zirehli texnikaya qarşı top gülləsi, özüidarəolunan bombalar, tanka qarşı elektrik minaları, çoxpilləli minalar, silahı və hərbi sursatı pas atmaqdan qoruyan vasitələr hazırlamış, əl bombaları səthinin sinkləndirilməsi və elektrik qalaylanması haqqında təkliflər irəli sürmüşdülər. Poladı, çuqunu duru yanacaqda əritməyə imkan verən texnologiya hazırlanmış və bunun nəticəsində kənardan əla növ daş kömür, koks və termoantrasit gətirməyə ehtiyac qalmamışdı. Azərbaycan alimlərinin qabaqcıl üsulları Zaqafqaziyanın poladəritmə zavodlarında da tətbiq edilirdi. Respublikanın kimyaçı alimləri Bakı sulfat turşusu zavodunda yerli xammal və materiallardan akkumulyator turşusu, həmçinin xlorlu sulfat, azot turşusu almışdılar. Yerli material və xammaldan istifadə edərək hidrogen, perozin, reaktiv toluol, bərk partlayıcı material, odadavamlı rəng və qara lak, odsöndürən vasitə, tüstü briketi və başqa məhsullar istehsalı texnologiyası istehsalata tətbiq olunmuşdu.

1941-ci ilin yayında Bakıda ilk hidrogen birləşmələri qrupu hazırlandı. Y.H.Məmmədəliyevin başçılığı altında bir qrup alim 28 gün laboratoriyadan çıxmayaraq, neft-kimya elmində böyük hadisə olan yüksək oktanlı aviasiya yanacağı əldə etdi. Akademik Y.H.Məmmədəliyevin sədrliyi ilə EA-nın Azərbaycan filialında görkəmli Azərbaycan alimləri R.H.İsmayılov, H.X.Əfəndiyev, Ə.M.Quliyev, H.B.Şahtaxtinski, V.S.Qutırya, M.A.Dalin, S.C.Mehdiyev, Ş.A.Məmmədov, V.F.Neqreyevdən ibarət SSRİ Mərkəzi Elmi-Texniki Şurasının kimya problemləri üzrə bölməsi yaradıldı.118 Neft emalı müəssisələrində yeni texnoloji proseslər hazırlayan 75 laboratoriya fəaliyyət göstərirdi. Alimlərin və istehsalçıların birgə işi nəticəsində Bakıda yeni neft-kimya və kimya müəssisələri, Y.H.Məmmədəliyevin ideyası əsasında yüksək oktanlı alkilbenzol və onun tərkib hissəsini istehsal edən yeni zavod fəaliyyətə başladı.

Azərbaycan alimləri mühüm hərbi əhəmiyyəti olan xlorlu metal, azoktanlı benzindən hərbi əməliyyat üçün vacib olan toluol almaq texnologiyasını hazırladılar. Bakının elmi laboratoriyalarında tank əleyhinə şüşələrə doldurulmuş yandırıcı qarışıq və başqa partlayıcılar istehsal olunurdu. Akademik Ə.M.Quliyev kəşf etdiyi partlayıcı maddəni sınaqdan keçirərkən baş vermiş partlayış nəticəsində bir qolunu itirmişdi. Akademik İ.A.Orucovanın başçılığı altında Azərbaycan kimyaçıları təyyarə, tank və müxtəlif hərbi maşınlar üçün sürtkü yağları istehsalı texnologiyasını hazırlayıb istehsalata tətbiq etmişdilər. Azərbaycan alim və mühəndisləri yeni metalkəsən dəzgahlar hazırlamışdılar. Neft maşınqayırma zavodunda K.Əliverdizadə soyuq ştamplama üsulu hazırlamış və onu istehsalata tətbiq etmişdi. Bu, silah istehsal edən müəssisələrdə fəhlələrin əməyini yüngülləşdirmiş, əmək məhsuldarlığını artırmışdı. İ.Mehdiyevanın hazırladığı avtomat qurğıı silah istehsalı prosesini xeyli sadələşdirmiş, məhsulun keyfiyyətini yaxşılaşdırmışdı.

Azərbaycanın geoloq alimləri Mirəli Qaşqayın və Şamil Əzizbəyovun rəhbərliyi ilə strateji xammal - odadavamlı gil, fosforit və s. yataqları aşkar edilmişdi. "Azneft" geoloqları tərəfindən aparılmış kəşfiyyat işləri sayəsində daha 850 yüksək debitli neft mənbəyi müəyyənləşdirilmiş, 6 neft yatağı - "Qala", "Bulla-dəniz",

"Buzovna", "Maştağa", "Naftalan", "Əmirxanlı" neft yataqları kəşf olunmuş, onlardan dördünün işlənməsinə başlanmışdı. "Qobustan" neft rayonunda "Duvannı" qaz yatağı aşkar edilmişdi. Utalgi yatağında yeni neft və qaz ehtiyatları müəyyən olunmuşdu.119 Stratiqrafik yataqların aşkar olunması Azərbaycan geologiya elminin böyük uğuru idi. Şərqi Abşeronda, Qala stansiyası sahəsində "Qala lay dəstəsi" adlanan yeni zəngin neft yatağı kəşf edilmişdi. "Suraxanı" və "Qaraçuxur" yataqlarında da belə laylar aşkar olunmuşdu. Kürətrafı ovalıqdakı "Pirsaat", "Xıdırlı", "Bəndovan", "Babazənən", "Xıllı", "Neftçala" və digər strukturlarda neft yataqlarının yaranması üçün əlverişli olan dördqırışlı geoloji sistem kəşf edilmişdi. Geoloqların təklifi ilə sement, həmçinin xüsusi istiburaxmayan materiallar istehsalında vulkan külü işlənilməyə başlanmış, kəşf edilmiş mineral ngləyicilərdən hərbi və yerli sənayedə geniş istifadə olunmuşdu. Respublikanın fizika alimləri hərbi təşkilatların bir sıra vacib sifarişlərini müvəffəqiyyətlə yerinə yetirmişdilər: neft koksundan elektrik avadanlığı üçün material və fosforlu rənglər alınmış, neft, neft məhsulları üçün xüsusi analiz, neft kəşfiyyatında termik üsul təklif və tətbiq edilmişdi. Fiziklərin iştirakı ilə respublikada şüşə izolyatorlar təşkil olunmuş, fosforlu rəngləri gecə iş vaxtı neft sənayesinə tətbiq etməyin texnologiyası hazırlanmışdı. Soyuducu qurğularda istifadə edilən ammiaklı qaz respublikada istehsal olunan propanla əvəzlənmişdi. Neft quyularının ikinci istismarı və neft hasilatını artırmaq, təmizləyici aparatları hərəkətə gətirən və borularda sürtünməni aşkar edən alətlərin tətbiq olunması sahəsində energetiklərin irəli sürdüyü təkliflər böyük hərbi və təsərrüfat əhəmiyyəti kəsb edirdi. Energetiklərin səmərələşdirici təklifləri duru yanacaq istehsalında itkini xeyli azaltmışdı. Bioloq alimlər Azərbaycan ərazisində bitən dərman bitkilərinin, vitaminlə zəngin təbii çöl meyvələrinin aşkar olunmasında fəal iştirak edirdilər. Onların köməyi ilə Göyçayın yağ zavodunda ardıc kolundan efir yağı alınırdı. Professor Mustafa Topçubaşov və onun tələbələri hərbi cərrahiyyədə yeni, səmərəli metodlar işləyib hazırlamış, minlərlə yaralı döyüşçünü həyata qaytarmışdılar. İctimai və humanitar elmlər sahəsində çalışan alimlər xalqın qəhrəmanlıq tarixindən, döyüş ənənələrindən bəhs edən əsərlər yaratdılar. 1943-cü

ildə H.Hüseynov və M.Dadaşzadənin redaktəsi ilə "Azərbaycan ədəbiyyatının qısa tarixi" nəşr edildi. 1945-ci il martın 23-də SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı əsasında Azərbaycan SSR Elmlər Akademiyası yaradıldı. Onun ilk prezidenti akademik M.Mirqasımov oldu. Respublikada elmi-tədqiqat işlərinin mərkəzinə çevrilmiş akademiyada 16 institut və bölmə, Şərq əlyazmaları və nadir kitablar fondu fəaliyyətə başladı. Müharibə illərində respublikanın maarif, mədəniyyət və tibb işçiləri düşmənə tezliklə qələbə çalmaq naminə cəbhədə və arxada çoxsahəli fəaliyyət göstərmişlər. Müəllimlərin əlli faizi orduya səfərbər olunmuşdu. Məktəb binalarının əksəriyyəti, xüsusən Bakıda, hospitallara və müdafiə müəssisələrinə verilmişdi. Məktəblər iki-üç növbəli iş rejiminə keçirilmişdi. Ali məktəb və texnikum tələbələrinin yarıdan çoxu ordu sıralarına çağırılmışdı. İxtisaslı kadrlar qısaldılmış proqramla hazırlanmağa başlanmış, ali məktəblərdə təhsil müddəti azaldılmışdı. Ali məktəb tələbələrinin, yuxarı sinif şagirdlərinin hərbi-fiziki hazırlığı, tələbələrin kənd təsərrüfatı işlərində iştirakı kütləvi xarakter almışdı. 1941-ci ildə məktəbləri pedaqoji kadrlarla təmin etmək məqsədilə Qazaxda, Qubada, Xankəndində, Ağdamda ikiillik müəllimlər institutları, Cəlilabad və Laçında pedaqoji məktəblər açılmışdı. Ölkənin işğal edilmiş rayonlarından Azərbaycana köçürülmüş müəllimlər pedaqoji işə cəlb olunurdular. Azərbaycanın səhiyyə orqanları müharibənin ilk günlərindən öz işlərini hərbin tələbləri əsasında qurmağa, səfərbərlik planı üzrə işləməyə başladılar. İlk növbədə hospitallara, onların avadanlıqla təmin olunmasına, evlərdə, ictimai yerlərdə, dəmir yol stansiyalarında, dəniz vağzallarında sanitar qaydalarına riayət edilməsinə, sanitar-buraxıcı məntəqələrin təşkilinə xüsusi diqqət yetirildi. Hospitallar və hərbi hissələr üçün yeni tibb kadrları hazırlandı.

Yazıçılar, şairlər, bəstəkarlar, rəssamlar öz əsərləri vasitəsilə insanlarda vətənə məhəbbət, düşmənə nifrət hissi aşılayır, faşist işğalçıları üzərində qələbəyə inam yaradırdılar.

Yazıçı və şairlər - Səməd Vurğun, Süleyman Rüstəm, Məmməd Səid Ordubadi, Rəsul Rza, Mirzə İbrahimov, Süleyman Rəhimov, Osman Sarıvəlli, Məmməd Rahim, Zeynal Xəlil, Əhməd Cəmil, Mirvarid Dilbazi, Nigar Rəfibəyli, Cəfər

Xəndan, Tələt Əyyubov və başqaları çağırış məntəqələrində, ordu hissələrində, müəssisə və idarələrdə insanları vətənpərvərliyə, qələbəyə səsləyən müxtəlif tədbirlərdə, mərasimlərdə fəal iştirak edirdilər. Yazarların vətənpərvərlik mövzusunda bədii əsərlər məcmuəsi çap olundu. S.Rəhimovun, M.S.Ordubadinin, M.Paşayevin, H.Mehdinin, Ə.Məmmədxanlının, Y.Şirvanın və b. bu mövzuda əsərlərindən ibarət "Döyüşkən qələm" toplusu tərtib edildi. Yeniyetmələr və uşaqlar üçün "Vətən mahnıları" adı altında kitab nəşr olundu. Yazıçılar, şairlər, tənqidçilər və ədəbiyyatşünaslar "Faşizm insan mədəniyyətini məhv edir" (S.Vurğun), "Faşist qaniçənləri məhv ediləcəklər" (M.Arif), "Faşizm mədəniyyətin düşmənidir" (M.Hüseyn), "Faşizmin irq nəzəriyyəsi" (A.Ağayev), "Üçüncü imperiyanın sələfi", "Xaç yürüşü baş tutmadı" (M.Cəfərov), "Tarixin dərsi", "Faşizmə ölüm" (M.Rəfili), "Azərbaycan xalqının qəhrəmanlıq dastanı" (M.İbrahimov) və digər mövzularda məruzə və məqalələrlə çıxış etdilər. S.Vurğun, M.Arif, M.Hüseyn, M.İbrahimov, İ.Əfəndiyev, Ə.Ağayev və başqalarının məqalələri daxil edilmiş "Faşizm insan mədəniyyətini məhv edir" toplusu çapdan çıxdı. M.Hüseynin "And", S.Rüstəmin "Partizanlar", S.Rəhmanın "Fitnə", Z.Xəlilin "Namus bayrağı" pyesləri - böyük tərbiyəvi əhəmiyyəti olan əsərləri işıq üzü gördü. Azərbaycan dramaturgiyası S.Vurğunun "Fərhad və Şirin", M.Hüseynin "Nizami" kimi əsərləri ilə zənginləşdi. Döyüşən ordu ilə canlı əlaqə, cəbhəçilərlə görüş yazıçıları və şairləri vətənpərvərlik ruhunda yeni əsərlər yaratmağa ilhamlandırırdı. Krasnodara və Novorossiyskə getmiş ilk Azərbaycan nümayəndəliyinin tərkibində respublika neftçiləri və kənd təsərrüfatı əməkçiləri ilə yanaşı, S.Vurğun, R.Rza, Z.Xəlil, Mir Cəlal da var idi. 1942-ci ilin iyununda S.Vurğun, O.Sarıvəlli, M.Rahim, R.Rza, Ə.Vəliyev, Z.Xəlil və İ.Əfəndiyev 416-cı, 402-ci və 223-cü Azərbaycan diviziyaları ilə görüşə getmişdilər. M.İbrahimov və M.C.Paşayev 1942-ci ilin sentyabrında Uzaq Şərqdəki qızıl ordu hissələrinə yollanan nümayəndəliyin tərkibinə daxil edilmişdilər.123

1942-ci ilin payızında Qafqaz uğrunda gərgin döyüşlər getdiyi günlərdə də S.Vurğun, S.Rüstəm, M.Rahim, R.Rza, M.Hüseyn, Z.Xəlil, M.Əkbər, Ə.Məmmədxanlı ön cobhələrdə, əsgərlərin yanında idilər. M.Rahim, S.Rüstəm,

O.Sarıvəlli, Z.Xəlil, T.Əyyubov və başqaları uzun müddət Sevastopol və Kerçdə cənub cəbhəsi döyüşçüləri arasında səngərlərdə olmuşdular.

Yazıçı və şairlər Azərbaycan oğullarının cəbhədəki əsgəri rəşadətini, arxa cəbhə qəhrəmanlarının fədakar əməyini tərənnüm edən onlarla əsər yazmışdılar. Cəbhə üçün Azərbaycan yazıçılarının 12 külliyyatı, cəbhəçi şairlərin xüsusi şeirlər toplusu çap edilmişdi. Müharibənin ilk ilində ordu hissələrinə Azərbaycan dilində 172 adda 247 min nüsxə kitabça, 106 adda 736 min plakat, 66 adda 813 min vərəqə, 213 adda 11898 min şüar göndərilmişdi.İncəsənət xadimləri müharibə şəraitində qələbə naminə önəmli işlər görmüşlər. Azərbaycan bəstəkarları müharibə illərində 400 yeni əsər-marş, simfoniya, mahnı, opera və s. yaratmışlar. Üzeyir Hacıbəyovun "Şəfqət bacısı", "Qələbə himni", Səid Rüstəmovun "Cəbhəyə", Süleyman Ələsgərovun "Gözlə məni" mahnıları dillər əzbəri olmuşdu. Aşıq M.Bayramovun "Kamal haqqında dastan"ında azərbaycanlı gəncin faşistlərlə döyüşdəki qəhrəmanlığı tərənnüm edilirdi. 1941-ci ildə Radio Komitəsi nəzdində Ü.Hacıbəyovun təşəbbüsü ilə Xalq çalğı alətləri ansamblı təşkil olundu. Döyüşçülərə xidmət üçün cəbhə konsert briqadaları yaradılmışdı. 22 briqada döyüşən ordu hissələrində, 70 briqada sərhəd və ehtiyat hissələrində çıxış etmişdi.125 1941-ci il iyunun 23-dən 1943-cü ilin əvvəllərinədək incəsənət işçiləri hərbi hissələrdə 19261 konsertlə çıxış etmişdilər.126 Mineralnıye Vodı, Kislovodsk, Pyatiqorsk, Jeleznovodsk, Yessentuki hospitallarında müalicə olunan yaralılara xidmət məqsədilə Bakıdan xüsusi briqadalar göndərilirdi.

Xalq artisti Bülbül, bəstəkarlar C.Cahangirov, Səid Rüstəmov, Niyazi və b. ardıcıl olaraq cəbhəyə gedirdilər. Onlar Belorus, Bryansk cəbhələrində olmuş, Azərbaycan diviziyalarının döyüşçüləri önündə çıxışlar etmişdilər. Teatr artistləri Kerçdə, Voroşilovqradda, Uzaq Şərqdə 100-ə qədər konsert-tamaşa təşkil etmişdilər. Müharibə illərində Azərbaycan artistləri hərbi hissələrdə 35 min konsert vermiş, Bakı teatrları və konsert təşkilatları təşviqat məntəqələrində, hospitallarda və kənd rayonlarında 15 min dəfədən artıq çıxış etmişdilər.İncəsənət xadimlərinin əsgər və zabitlər qarşısında çıxışları döyüşçülərə yüksək mənəvi ruh verir, onlarda qələbəyə inamı möhkəmləndirirdi.

Azərbaycan kinematoqrafçıları hərbi xronika və vətənpərvərlik mövzusunda kinolentlər yaradırdılar. Bu dövrdə "Vətən oğlu", "Bəxtiyar", "T-9 sualtı qayığı" filmləri daha populyar idi. Cəbhəyə xidmət üçün 67 səyyar kino qurğusu, 42 kino dəzgahı göndərilmişdi.

Azərbaycan teatrlarında S.Vurğunun "Fərhad və Şirin", M.Hüseynin "Nizami", M.İbrahimovun "Məhəbbət", Z.Xəlilin "İntiqam", R.Təhmasibin "Aslan yatağı", S.Axundovun "Çətin dərə", K.Simonovun "Rus adamları", A.Korneyçukun "Cəbhə" pyesləri, gənc bəstəkarlar Q.Qarayev və C.Hacıyevin "Vətən" operası tamaşaya qoyulmuşdu.

Təsviri incəsənətin rəngkarlıq, heykəltəraşlıq, plakat və qrafika əsərləri xalqın vətənpərvərlik tərbiyəsində qüdrətli vasitə idi. Müharibənin ilk günlərindən rəssam briqadaları yaradılmışdı. İ.Axundovun rəhbərliyi ilə Q.Xalıqov, M.Nəcəfov, S.Salamzadədən ibarət rəssam briqadası 1941-ci il iyunun 25-dən iyulun 12-dək 13 siyasi plakat hazırlamışdı. "Döyüşkən karandaş" məcmuəsi buraxılırdı. Heykəltəraş P.Sabsayın başçılığı altında gənc heykəltəraşlar F.Əbdürrəhmanov, Z.Məmmədova və başqaları geniş ölçülü plakatlar hazırlamışdılar. "SİTA pəncərəsi", "Təşviqat pəncərəsi" kimi kütləvi nəşrlər fəaliyyətə başlamışdı.

Ə.Əzimzadənin və İ.Axundovun siyasi mövzuda çəkilmiş karikaturaları xalq arasında çox məşhur idi. Faşist quldurlarını tamamilə darmadağın etməyə çağırış S.Salamzadə, S.Şərifzadə, M.Rəhmanzadə, T.Babazadə, M.Abdullayev, T.Tağıyev, B.Mirzəzadə, K.Kazımov və başqalarının əsərlərinin əsas mövzusu idi. Azərbaycan fırça və tişə ustalarının əsərləri onlarca sərgidə, habelə 1943-cü ildə Moskvanın Tretyakov Qalereyasında nümayiş etdirilmişdi.

Azərbaycan ruhaniləri də xalqın düşmənə qarşı mübarizəyə səfərbər olunmasında fəal iştirak edirdilər. 1944-cü il aprelin 14-də SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Zaqafqaziya Müsəlmanlarının Ruhani İdarəsi təşkil olundu. Zaqafqaziya müsəlmanlarının Birinci qurultayında Ruhani İdarəsinin sədri-şeyxülislam, sədr müavini - müfti və idarə üzvləri seçildi. İdarənin ilk sədri şeyxülislam Ağa Əlizadə Təzəpir məscidindəki birinci moizəsində dindarları hökumətin qanunlarına itaət göstərməyə, bu yolla "dini hifz etməyə" çağırdı.

Müharibə xalqın bütün maddi və mənəvi qüvvələrini ciddi sınağa çəkmişdi. Əhalinin böyük əksəriyyəti bütün fəaliyyətini cəbhənin mənafeyinə, düşmənin tezliklə darmadağın olunması vəzifəsinə tabe edərək, müharibənin ilk günlərindən yüksək vətəndaşlıq mövqeyi nümayiş etdirir, ümumxalq vətənpərvərlik təşəbbüsü göstərirdilər. 1941-ci ilin payızı və qışında bütün ölkədə sovet döyüşçüləri üçün isti paltar toplamaq hərəkatı başlandı. 1941-ci ilin sentyabrında partiyanın "Əhali arasında qızıl ordu üçün isti şeylər və paltar toplamaq barəsində" xüsusi qərarı ilə bu hərəkat daha da genişləndi. Azərbaycan hökuməti isti paltar və ərzaq bağlamalarının toplanmasını təşkil etmək üçün 1941-ci ilin oktyabrında xüsusi respublika komissiyası, yerlərdə isə 6 min komissiya yaratmışdı. Uzaq kəndlərdə xüsusi məntəqələr təşkil edilmişdi. Təkcə 1941-ci ilin sonunda, yeni il bayramı ərəfəsində Azərbaycan əhalisi cəbhəyə 63,7 min bağlama göndərmişdi. Komsomolçular 200 min dəst isti paltar toplayaraq döyüşçülərə yola salmışdılar. İsti geyim toplamaqla yanaşı, onlara kollektiv və şəxsi sovqat göndərmək hərəkatı da başlanmışdı.130 Lenin rayonunun neftçiləri döyüşçülərə 1040, Orconikidze rayonu zəhmətkeşləri 1138, Dzerjinski rayonunun fəhlələri və evdar qadınları iki min müxtəlif bağlama göndərmişdilər. Kurortologiya Elmi-Tədqiqat İnstitutunun kollektivi cəbhəyə, yaralılara ilk tibbi yardım üçün beş mindən çox fərdi tibb paketi yollamışdılar. Respublikanın zəhmətkeşləri cəbhəyə 1942-ci ilə qədər 2000 bağlama və 146 vaqon ərzaq və s. məhsul göndərmişdilər. Bayramlar ərəfəsində Vətən müdafiəçilərinə bağlamalar hədiyyə etmək ənənəyə çevrilmişdi.133 1941-1943-cü illərdə ordu döyüşçülərinə 1601 min isti geyimsırıqlı, gödəkçə, keçə çəkmə, corab, əlcək, qulaqlı papaq və s. göndərilmişdi. 1941-42-ci illərdə ölkədə vətəndaşların şəxsi qənaətləri hesabına tank dəstələri və hava eskadronları yaratmaq hərəkatı geniş vüsət aldı. Azərbaycanda bir çox alimlər, ədəbiyyat və incəsənət xadimləri, təsərrüfat rəhbərləri, istehsalat qabaqcılları tank kolonnaları və hava eskadronları fonduna şəxsi qənaətləri hesabına vəsait verirdilər. SSRİ xalq artisti Üzeyir Hacıbəyov Dövlət Müdafiə Komitəsinə ünvanlanmış məktubunda yazırdı: "Mən Azərbaycan incəsənəti" tank kolonunun yaranması üçün 25 min manat verdim, qoy bizim vəsaitimizlə yaradılmış tank kolonu minlərlə sovet zirehli

maşını ilə birlikdə düşmənin bel sütununu sındırsın, ona ölümcül zərbə endirsin".134 "Azərbaycan kolxozçusu" tank kolonnasının hazırlanması üçün kolxozçular vəsait yığımına başlamış və öz qənaətlərindən dövlət bankına 81020 min manat keçirmişdilər. Respublika kolxozçu kəndliləri "Azorbaycan kolxozçusu" təyyarələr eskadronu yaratmaq üçün əlavə 70784 min manat yığmışdılar. Kənd əhalisi şəxsi təsərrüfatlarından qızıl ordu fonduna 18 min baş iribuynuzlu heyvan, 152 min pud taxıl, 170 min pud digər kənd təsərrüfatı məhsulu vermişdilər. Ordunun hərbi texnika ilə təchizində iştirak etmək təşəbbüsü respublika əhalisinin müxtəlif təbəqələri arasında geniş yayılmışdı.Bu hərəkatın iştirakçıları sırasında ağsaçlı qocalar da, komsomolçular da, pionerlər də var idi.
Naxçıvan MSSR zəhmətkeşləri tank kolonnası və hava eskadronu fonduna 8,1 milyon manat, DQMV zəhmətkeşləri 11,2 milyon manat, Abşeron əhalisi 10,1 30
milyon manat, Qaryagin (Füzuli) rayonu əhalisi 4,7 milyon manat vermişdilər. 1941-1943-cü illərdə Azərbaycan fəhlələri, kəndliləri və ziyalılarının nümayəndələri bu fonda 230 milyon manatdan çox vəsait göndərmişdilər.136
Müharibə illərində Azərbaycan fəhlə və kəndliləri, ziyalıları müdafiə fonduna şəxsi əmlaklarından 15,5 kq qızıl, 952,5 kq gümüş, 295 milyon manat pul, 15 milyon manatlıq qızıl istiqraz vermişdilər. Bundan əlavə, 1,5 milyon manatlıq istiqrazlara yazılmış, pul-şey lotereyaları almışdılar. 1943-cü ilin yazında respublika zəhmətkeşlərinin vəsaiti hesabına yaradılmış "Bakinski raboçi" hərbi hava bölməsi təyyarələrinin ilk hissəsi - Azərbaycan SSR ərazisində yenidən formalaşdırılan 833-cü hava alayının üzərində qırmızı hərflərlə "Bakinski raboçi" yazılmış təyyarələri verilmişdi. Bu alay Krasnodar, Taman, Sevastopol, Xarkov, Minsk, Tilzit rayonlarındakı hava döyüşlərində iştirak etmişdi. Azərbaycan faşist işğalçılarından azad edilmiş rayonlarda xalq təsərrüfatının bərpasına fəal kömək göstərmişdi. 1943-cü ilin payızında bu məqsədlə respublika yardım komitəsi və onun rayon komissiyaları təşkil olunmuşdu. Şimali Qafqaz neftçilərinə, Leninqrad, Stalinqrad, Stavropol, Qaraçay, Ukrayna təsərrüfatlarına çoxlu pul, ərzaq, tikinti materialı, mal-qara, istehsal avadanlığı və s. göndərilirdi. Gəncə əhalisi Pyatiqorsk, Şəki əhalisi Georgiyevsk, Qasım İsmayılov kolxozçuları Mozdok şəhərlərini

himayəyə götürmüşdülər. Azərbaycan kolxozçuları SSRİ-nin azad edilmiş rayonlarına kömək olaraq 1500 kotan, 200 ton sement, 25 min pud taxıl, 287 kq yağ və başqa kənd təsərrüfatı məmulatı göndərmiş, min hektarla sahədə taxıl əkmiş və xeyli mal-qara bəsləmişdilər. DMK-nın 22 sentyabr və ÜİK(b)P MK-nın 8 oktyabr 1941-ci il tarixli qərarlarında yaralı döyüşçü və komandirlərə tibbi xidmətin yaxşılaşdırılması və köçürmənin qaydaya salınması qarşıya qoyuldu. Cəbhəyə ümumxalq köməyinin tərkib hissələrindən biri yaralılara qayğı olmuşdur. Yaralı əsgər və zabitlərin tez sağalıb döyüşən ordu sıralarına, yaxud əmək cəbhəsinə qayıtmasını təmin etmək üçün onlara yüksək keyfiyyətli tibbi xidmətin təşkilinin böyük hərbi və xalq təsərrüfatı əhəmiyyəti var idi.

Böyük Vətən müharibəsinin ilk günlərindən Azərbaycan ərazisində hərbi hospitalların təşkilinə başlanmışdı. 1941-ci ildə respublikada 76 hərbi hospital yaradıldı. Naxçıvan, Şuşa, Şəki, Hacıkənd, Mərdəkan və Buzovnada yerləşən sanatoriyalar və istirahət evləri hərbi hospitallara çevrilmişdi. Səhiyyə işçilərinin ən qabaqcıl nümayəndələri - təcrübəli həkimlər hərbi hospitallarda çalışırdılar.

1942-ci ilin yanvarında tibb elmləri doktoru, professor Əziz Əliyevin sədrliyi ilə Yaralı Döyüşçülərə və Xəstələrə Kömək Komitəsi yaradıldı. Azərbaycan zəhmətkeşlərinin yaralılara qayğısı həkimlərin fədakar əməyində, qanvermə hərəkatında, fəhlələrin və kolxozçuların himayəçilik işlərində təzahür edirdi. Azərbaycan Xalq Tibb Komissarlığının Hərbi Hospitallar İdarəsinin baş cərrahı, tibb elmləri doktoru, professor M.A.Topçubaşovun xidmətləri xüsusilə qeyd olunmalıdır. O, cərrahlığa xeyli yenilik gətirdi, ən mürəkkəb cərrahi əməliyyatları böyük ustalıqla həyata keçirərək, yüzlərlə döyüşçünün həyatını xilas etdi. Həkimlər M.Abbasov və S.Axundov cəbhədə gözlərini itirmiş 200-dən çox döyüşçüyə yenidən görmək sevinci bəxş etdilər. Professor M.Mirqasımov, F.Əfəndiyev, M.Məlikov, Z.Məmmədov və b. yaralı döyüşçülərə səmərəli xidmətlərinə görə yüksək dövlət mükafatlarına layiq görüldülər. Yaralıların müalicə edilib ordu sıralarına qayıtmasında respublikamızda sayı gündən-günə artan donorların böyük xidməti olmuşdu. Qafqaz uğrunda döyüşlər zamanı instituta çevrilmiş respublika Qanköçürmə Stansiyasının kollektivi yaralı əsgər və zabitlərin müalicəsində böyük

rol oynamış, yaxşı işinə görə dəfələrlə DMK-nın, Zaqafqaziya və Şimali Qafqaz cəbhələri komandanlığının təşəkkürünü almışdı. Böyük Vətən müharibəsində cəbhəyə və ölkə iqtisadiyyatına xidmət və qayğı göstərməklə Azərbaycan xalqı, öncə onun ziyalıları sovet ordusunun alman faşizmi üzərində qələbəsinə mühüm töhfə vermişlər.

**Ədəbiyyat**


1.Qaffarov T. Azərbaycan tarixi. 1920-1991. Bakı,1999
2.Azərbaycan tarixi VII cilddə, VII cild, B, 2003
**3.** *Bağırzadə Ə.* Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində. Bakı, 1970
*4. Mədətov Q.* Azərbaycan Böyük Vətən müharibəsində (1941-45-ci illər). Bakı, 1965
5.Əmrahov M Azərbaycan mədəniyyəti müharibə illərində.B, 2005
6. Azərbaycan kino tarixinin oçerkləri. Bakı, 2001.
7. H.Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, 1992.
8. H.Əliyev. Mədəni irsimizin keşiyində. I-II kitablar, Bakı,
2001.
9. X.Əlimirzəyev. Təhsil, elm və səhiyyə 50 ildə. Bakı, 1970.
10. İ.Rəhimli. Azərbaycan teatr tarixi. Bakı, 2005.
11. M.Süleymanov. Eşitdiklərim, oxuduqlarım və gördüklərim.Bakı, 1987.

## Cənubi Azərbaycan müharibə illərində

**Plan:** 1.Müharibə illərində İranın bitərəflik siyasəti
2.Sovet qoşunlarının İrana daxil olması.
3.Şimali Azərbaycandan Cənubi Azərbaycana yardım.

İran müharibədə neytral mövqedə qalacağını bəyan etsə də, Almaniya ilə strateji əməkdaşlıq xəttini davam etdirirdi. Almaniya İranın xarici ticarətində ikinci yeri tuturdu. İrandan benzin qeyri-qanuni yollarla Almaniyaya aparılırdı.

Almanlar İranın dövlət müəssisələri və hərbi idarələrində mühəndis, texnik, məsləhətçi adları altında öz hərbi və xüsusi idarələrinin nümayəndələrini yerləşdirir, Təbriz, Maku, Xoy, Miyanə, Mərənddəki firmalarında xüsusi xidmət orqanları işçilərinin sayını artırırdılar. Almaniyanın müharibənin ilk illərindəki qələbəsi İranda almanpərəst meyli gücləndirirdi. Bu ölkənin rəhbər dairələrində SSRİ məğlub olarsa, "Zaqafqaziya və Orta Asiyanın 16 şəhərinin" İrana birləşdirilməsi barədə planlar qurulurdu. Faşist Almaniyasının SSRİ-yə hücumundan sonra, 1941-ci ilin iyun-iyul aylarında Sovet İttifaqı İrana üç xəbərdarlıq notası vermiş, həmin ilin iyun ayında Britaniya xarici işlər naziri İranın səlahiyyətli nümayəndəsi qarşısında "almanların İrandakı şübhəli fəaliyyətinə" son qoyulması tələbini irəli sürmüşdü. İyulun 19-da Britaniya Nazirlər Kabineti İranın cənubuna daxil olmaq barədə qərar qəbul etmişdi. Dövlət Müdafiə Komitəsinin qərarı ilə sovet qoşunları 1921-ci il 26 fevral tarixli Sovet-İran müqaviləsinin altıncı maddəsinə əsasən, 1941-ci il avqustun 25-də gecə saat 2-də İran sərhədini keçərək, Ərdəbil və Təbriz istiqamətində irəlilədilər.3 Hərbi əməliyyatlarda Naxçıvandan Xəzərin cənubuna doğru bütün istiqamətlərdən SSRİ sərhəd qoşunları, 44-cü (tərkibində 77-ci Azərbaycan və 20-ci diviziyalar) və 47-ci ordular, Xəzər donanması, Zaqafqaziyadakı 8-ci aviakorpus, Yevlaxdakı 132-ci aviadiviziya iştirak edirdilər. Sovet qoşunları ilə bir vaxtda İranın cənub və qərbindən ingilis qoşunları da ölkəyə daxil oldu. Sovet ordu hissələri avqustun 26-da Təbriz və Ərdəbilə, avqustun 30-da Zəncana, avqustun 31-də Qəzvinə girdilər. Sentyabrın 17-də sovet, sentyabrın 18-də isə ingilis qoşunları Tehrana daxil oldular.5 Sovet ordu hissələri Uşnu-Miyandab-Zəncan-Qəzvin-Babol-Zirab-

Semnan-Şahrudda, şərqdə isə Əliabadda yerləşdilər. İngilis qoşunları Xanəkin-Kermanşah -Xürrəmabad-Məscede-Süleyman-Rame-Hörmüz-Bəndər-Deyləm xəttindən cənub və qərbə doğru olan ərazini tutdular.Sovet qoşunlarının İranda keçirdiyi sonrakı hərbi əməliyyatlarda Azərbaycan SSR-dən xüsusi bir qrup iştirak etmişdi. Cənubi Azərbaycanda sovet təsirini yaymaq məqsədilə 1941-ci il sentyabrın 21-də İran dövlətinin Azərbaycan ərazisində Azərbaycan SSR-dən səfərbər edilmiş partiya, sovet, hüquqmühafizə, təsərrüfat və mədəniyyət işçilərindən ibarət qrup Azərbaycan Kommunist Partiyası MK-nın üçüncü katibi, Təbrizdəki 47-ci ordunun Hərbi Şurasının üzvü Ə.M.Əliyevin rəhbərliyi ilə fəaliyyətə başladı.8 Bu qrupa Süleyman Rəhimov, Mirzə İbrahimov, Mustafa Quliyev və b. daxil idi. 1941-ci ilin sonuna qədər Bakıdan - Respublika fondundan yardım olaraq Cənubi Azərbaycana 2548 ton qənd, 1371 ton un, 1814 ton buğda, 1494053 metr parça və ümumi dəyəri iki milyon manatlıq digər mallar göndərildi.

Cənubi Azərbaycanda fəaliyyət göstərmiş alman firmalarının əmlakı müsadirə edilib, SSRİ-yə göndərildi." Mətbuat, redaksiya qrupu 1941-ci il oktyabrın 11-dən ərəb əlifbası ilə Azərbaycan dilində "Vətən yolunda" qəzetinin nəşrinə başladı.12 Urmiyədə Azərbaycan dilində "Qızıl əsgər" (redaktoru Zülfəli İbrahimov) və Rəştdə fars dilində "Sərbaz-e sorx" ("Qızıl əsgər") (redaktoru Xasay Vəzirov) ordu qəzetləri buraxılırdı. Azərbaycandan gəlmiş həkimlər əhaliyə tibbi yardım göstərir, sanitariya-gigiyena sahəsində izahat işləri aparır, malyariyaya qarşı geniş tədbirlər həyata keçirirdilər. Sovet-İran mədəni əlaqələrinin inkişafında Azərbaycan Respublikasının mədəniyyət xadimləri mühüm rol oynayırdılar. İrana qastrol səfərinə gəlmiş ilk sovet incəsənət kollektivlərindən biri - M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrı Ü.Hacıbəyovun "Koroğlu", "Leyli və Məcnun", "Əsli və Kərəm", M.Maqomayevin "Şah İsmayıl" operalarını, Ü.Hacıbəyovun "Arşın mal alan" musiqili komediyasını tamaşaçılara göstərmişdilər. Qastrolların müvəffəqiyyətlə keçməsində rejissor İsmayıl Hidayətzadənin, dirijor Niyazinin, balet ansamblının rəhbəri Qəmər Almaszadənin, artistlərdən Bülbülün, Əlövsət Sadıqovun, Həqiqət Rzayevanın böyük əməyi olmuşdu.15 1941-ci il oktyabrın 26-da SSRİ xalq artisti Şövkət Məmmədova

təbrizlilər qarşısında geniş konsertlə çıxış etmiş, 1942-ci il fevralın 20-dən aprelin 9-dək Rəşid Behbudovun İran qastrolları uğurla keçmişdi.16 Bakı kinostudiyasının istehsalı olan "Kəndlilər", "Bakılılar", "T-9" sualtı qayığı" bədii, "Ordenli Azərbaycan", "Əbədi Odlar ölkəsi" sənədli və "Zoya", "O, Vətəni müdafiə edirdi", "217 №-li adam" dublyaj filmləri tamaşaçıların böyük rəğbətini qazanmışdı.

Cənubi azərbaycanlılar sovet xalqlarının faşizm əleyhinə mübarizəsinə ehtiramla yanaşır, SSRİ Müdafiə Fonduna, xüsusilə azərbaycanlılardan ibarət 416-cı Taqanroq diviziyasına pul vəsaiti toplanmasını təşkil edir, müttəfiq ölkə yüklərinin İrandan Sovet İttifaqına pulsuz daşınmasına təşəbbüs göstərirdilər. "İstgah-e İran trans" nəqliyyat təşkilatının fəhlələri birgünlük əmək haqlarını, Miyanədə "İran-Sovet trans"ın fəhlələri gündəlik mədaxillərindən bir hissəsini, Təbrizdəki "Pəşminə", "Azərbaycan", "Mümtaz", "Qəzvini", "Xosrovi" fabriklərinin işçiləri, İran Culfası əhalisi 416-cı diviziyanın fonduna xeyli vəsait keçirmişdilər.18

Təbrizin "Gülüstan" bağında məşhur yerli musiqiçilər (müğənni Əbülhəsənxan İqbal Azər, skripkaçı Yeganə, santur çalan Böyük İbadi) konsert proqramı ilə çıxış edərək, pul və qiymətli əşya toplamış, sovet ordusuna yardım göstərmişdilər.19

Sovet təbliğatçılarının siyasi fəaliyyəti nəinki İran hökumətini, eləcə də qonşu dövlətləri, o cümlədən onların müttəfiqlərini - İngiltərə və ABŞ-ı narahat edir, üçtərəfli Sovet-İran-İngiltərə danışıqlarına mane olurdu. SSRİ o vaxt çox əhəmiyyətli tranzit xidməti göstərən İranla və müttəfiqləri ilə münasibəti pozmamaq üçün İrandakı siyasi fəaliyyətini bir qədər zəiflətməyə məcbur oldu.

1942-ci il yanvarın 29-da Tehranda SSRİ-Böyük Britaniya-İran arasında ittifaq müqaviləsi bağlandı. Həmin ilin martında Azərbaycandan İrana göndərilmiş siyasi işçilərin əksəriyyəti geri çağırıldı. 1942-ci ilin ortalarında burada Bakı missiyasından cəmi 84 nəfər qalmışdı.20 Aprel ayında "Vətən yolunda" qəzetinin nəşri dayandırıldı.21 1943-cü il noyabrın 28-dən dekabrın 1-dək ABŞ, SSRİ və Böyük Britaniya dövlət başçılarının Tehran konfransında qəbul edilmiş "İran haqqında Bəyannamə"də bütün tərəflər bu dövlətin ərazi bütövlüyünün qorunub saxlanmasına tərəfdar olduqlarını bildirdilər.

1944-cü ilin əvvəllərində beynəlxalq aləmdə və İranda yaranmış vəziyyətlə əlaqədar Sovet İttifaqı yenidən Cənubi Azərbaycan məsələsinə diqqəti artırdı.

SSRİ XKS 1944-cü il martın 6-da "Cənubi Azərbaycan əhalisinə iqtisadi və mədəni yardımın gücləndirilməsi tədbirləri haqqında" məsələ müzakirə edərək, əhəmiyyətli qərar qəbul etdi. Qərarda siyasi işçilərin tərkibində, diplomatik orqanlarda çalışan konsul, vitse-konsul və konsulluğun katibi vəzifələrində, Tehrandakı Sovet səfirliyi və ticarət nümayəndəliyində çalışan azərbaycanlıların sayını artırmaq, həftədə üç dəfədən az çıxmamaqla"Azərbaycan dilində ordu qəzeti nəşr etmək", Təbrizdə pulsuz "Azərbaycan dilində təhsil verən onillik məktəb", "məktəbdə kitabxana - oxu zalı", Cənubi Azərbaycan yazıçı və şairlərinin əsərlərinin nəşri və əhali arasında yayılması məqsədilə avadanlıqla yaxşı təchiz olunmuş "Təbriz" mətbəəsi açmaq, may-iyun aylarında Azərbaycan Dövlət Dram Teatrının Cənubi Azərbaycan şəhərlərinə qastrolunu təşkil etmək, "Təbrizdə corab-trikotaj fabriki", "Təbriz rayonunda nümunəvi aqrotexniki stansiya" yaratmaq kimi əhəmiyyətli məsələlər öz əksini tapmışdı.Qərara uyğun olaraq, 1944-cü il martın əvvəllərində azərbaycanlılara Cənubi Azərbaycanda çalışmaları üçün siyasi işçilər üzrə 33, ticarət müvəkkilliyi üzrə 11, diplomatik idarələr üzrə 14, qəzetin nəşri üzrə 27 yer ayrılmış və ümumi rəhbərlik H.M.Həsənova tapşırılmışdı.

1944-cü ilin yaz və yayında Azərbaycandan Cənubi Azərbaycana 620 nəfərdən çox müxtəlif işçilər göndərilmiş və daha 375 nəfər səfərbər edilmişdi.25 Mühüm tapşırıqla gedənlərin qarşısında duran əsas vəzifə Arazın o tayındakı azərbaycanlıların milli özünüdərk hissini artırmaq, onların tək olmadığını, sərhədin şimal tərəfində qardaşlarının yaşadığını təbliğ etmək idi. İkiillik fasilədən sonra 1944-cü il aprelin 10-da "Vətən yolunda" qəzeti yenidən nəşrə başladı və onun nəşri 1946-cı il mayın 1-dək davam etdi (bütövlükdə, 1941-1946-cı illərdə qəzetin 406 nömrəsi nəşr olunmuşdu. M.İbrahimov, H.Şahgəldiyev və R.Quliyev onun baş redaktoru olmuşlar).

İçməli su olmadığı üçün Bakıdan 1944-cü il mayın 11-də Qəzvinə qazma qurğusu, boru və 33 qazmaçıdan ibarət briqada göndərildi. Qəzvində 4, Təbrizdə 8 su quyusu qazıldı.

1944-cü ilin yaz-yay aylarında "Təbriz" mətbəəsinin yaradılması və fəaliyyəti üçün ərəb və kiril əlifbası ilə işləyən mətbəə maşını, 30 ton kağız, kitablar, mebel, dəmir sobalar, yağlı boya, makina və hər ay 400 litr benzin və s. göndərildi.29

Azərbaycan SSR hökuməti Təbriz nümunəvi aqrotexniki stansiyasının yaradılması üçün 15 traktor, 5 maşın, toxumçuluq laboratoriyası üçün avadanlıq, 50 nəfərlik yeməkxana üçün inventar ayırdı. SSRİ XKS 1944-cü il iyunun 24-də Təbrizdə Azərbaycan dilində orta məktəbin açılması haqqında qərar qəbul etdi. C.Ələsgərovun direktor olduğu, 36 nəfər müəllim və inzibati-təsərrüfat işçisindən ibarət bu məktəbdə dərslər noyabrın 1-də başlandı. 1945-ci ilin sentyabrında məktəbin 18 sinfində 566 şagird təhsil alırdı. Marağa, Maku, Kürdüstan və Urmiyədən gəlmiş şagirdlər üçün yataqxana ayrılmışdı. Bakıdan məktəbə yeni dərsliklər göndərilmişdi. 1944-cü il sentyabrın 3-də Təbrizdə sovet xəstəxanası (baş həkim S.Səmədov) açıldı. Hər gün 150 xəstəyə tibbi xidmət göstərən xəstəxanada 20 çarpayılıq stasionar, cərrahlıq, daxili xəstəliklər, göz, ginekologiya şöbələri var idi. Xəstəxananın nəzdində diş və dəri, zöhrəvi xəstəliklər də daxil olmaqla, hər cür xəstə qəbul edən poliklinika da fəaliyyət göstərirdi. Burada rentgen, prosedura kabinetləri, palçıq müalicəxanası, laboratoriyalar, həmçinin aptek yerləşirdi.

İki ölkə arasında mədəni əlaqələrin möhkəmlənməsində 1943-cü il oktyabrın 31-də fəaliyyətə başlayan "İranın SSRİ ilə Mədəni Əlaqələr Cəmiyyəti" önəmli rol oynayırdı.34 Cəmiyyətin İranın 34 şəhərində açılmış şöbələri içərisində 72

ən fəalı 1944-cü il avqustun 12-də yaradılmış Təbriz şöbəsiTəbriz şöbəsinin nüfuzunun artmasında Ə.Bağırzadənin rəhbərlik etdiyi Sovet mədəniyyət evinin böyük xidmətləri vardı.

1945-ci ilin oktyabrında Bakıda Azərbaycanın İranla Mədəni Əlaqələr Cəmiyyəti (AİMƏC) yaradıldı. Cəmiyyətin sədri S.Vurğun çıxışlarından birində demişdi: "Azərbaycanda yaradılan İranla Mədəni Əlaqələr Cəmiyyətinin məqsədi Azərbaycan xalqının mədəniyyət sahəsindəki nailiyyətlərini İranda tanıtdırmaq, habelə İranın elm və incəsənət sahəsindəki müvəffəqiyyətlərini Azərbaycanın geniş zəhmətkeş kütlələrinin malı etməkdir".

AİMƏC-də 8 bölmə, o cümlədən ədəbiyyat (rəhbəri M.Arif), musiqi (Q.Qarayev), humanitar elmlər (H.Hüseynov), tibb (Z.Məmmədov), memarlıq (S.Dadaşov), rəssamlıq (Q.Xalıqov), incəsənət (M.Haşımov) və nəşr (H.Sultanov) bölmələri fəaliyyət göstərirdi. Dünya müharibəsindən sonrakı dövrdə nüfuz dairələri, enerji mənbələri, bazarlar uğrunda mübarizə kəskinləşdi.

Sovet İttifaqı Cənubi Azərbaycandakı azadlıq ideallarını və milli prosesi öz təsiri altında saxlamaqla, İkinci dünya müharibəsinin sonunda buradakı siyasi hadisələrə beynəlxalq aləmdə arzuolunmaz bir münasibət formalaşdırmışdı. Böyük Britaniya, ABŞ və Türkiyə bu hadisələrə milli azadlıq hərəkatından daha çox Sovetlərin İrana ərazi, iqtisadi və ideoloji ekspansiyası kimi baxırdılar.

1944-cü il sentyabrın 10-da SSRİ xalq xarici işlər komissarının müavini S.İ.Kavtaradzenin sədrliyi ilə Sovet hökumət komissiyası Tehrana rəsmi səfəri zamanı Şimali İranda - Semnan, Qorqan, Mazandaran, Gilan və Azərbaycanda neft konsessiyası haqqında təkliflərinə40 müsbət cavab almadı. Sovet İttifaqı yerli demokratik qüvvələrə təsiri gücləndirdi.

1945-ci ilin yayında və payızın əvvəllərində Cənubi Azərbaycanda vəziyyət gərginləşdi. Mərkəzi hökumət, bilavasitə ABŞ və İngiltərənin hərbi-siyasi yardımına arxalanan mürtəce dairələr kəndlilər, həmkarlar ittifaqları fəalları və demokratik təşkilatların üzvlərinə qarşı kütləvi təqib və terrora keçdilər. Bunlara qarşı özünümüdafiə məqsədilə fədai dəstələri təşkil olundu. Belə bir şəraitdə vətəndaş müharibəsinə yol vermədən ictimai-siyasi hadisələrə başçılıq etməyə qadir siyasi təşkilatın yaradılması zərurəti meydana çıxdı. 1945-ci il sentyabrın 3-də S.C.Pişəvərinin (1892-1947) başçılığı ilə milli azadlıq və demokratik hərəkata rəhbərlik edən Azərbaycan Demokratik Partiyası (ADP) yaradıldı.

1945-ci il oktyabrın 2-dən 4-dək Təbrizdə ADP-nin I qurultayı keçirildi.42 ADP-nin qurultayda qəbul edilmiş proqramında milli məsələ barədə deyilird"İran məmləkəti daxilində yaşayan hər bir millətin muxtariyyəti və öz müqəddəratını təyin etmək hüququ əyalət və vilayət əncümənləri vasitəsilə təmin edilməlidir".43İran məclisi və hökuməti Azərbaycan xalqının tələblərini eşitmədi. Əyalət və vilayət əncümənlərinin təşkil olunmayacağını rəsmi surətdə elan etdi.

Hökumət çoxlu miqdarda ərzağı Azərbaycandan daşıtmaqla orada süni qıtlıq yaratmaq istədi. Azərbaycan tacirlərinin 15 milyon tümənə yaxın pulunu Tehran banklarına köçürməklə, Azərbaycan ticarətində çətinliklər yaratdı. 1945-ci il sentyabrın 10-da Marağa və oktyabrın 20-də Ərdəbil şəhərlərində hərbi vəziyyət elan edildi. Marağada ADP-nin fəal üzvü, şəhər idarəsinin rəisi Məhəmməd Hüseyn Rahvər terror nəticəsində öldürüldü. Azərbaycan xalqının etirazına baxmayaraq, sentyabrın 12-də qatı irticaçı S.M.Fərrux Azərbaycana vali təyin olundu. Hökumət başçısı, hərbi nazir və İran qoşunu Baş qərargahı rəisinin iştirakı ilə keçirilən iclasda ADP-nin komitə üzvlərinin Təbrizdə həbs edilərək gizli və təcili Tehrana aparılması qərara alındı. Bu barədə hökumətin Azərbaycandakı diviziya komandanlığına xüsusi əmr də verildi.44

İrticanın qarşısını almaq üçün demokratik təşkilat üzvlərindən Sovet İttifaqına tərəfdar olanların silahlandırılması zəruri məsələyə çevrilmişdi. Buna görə ÜİK(b)P MK və SSRİ XKS 1945-ci il oktyabrın 8-də vəziyyətin ciddiliyini nəzərə alaraq, Cənubi Azərbaycanda möhkəmlənmək barədə qərar qəbul etdi.45 Buraya göndərilmək üçün çoxlu silah ayrıldı.

1945-ci il noyabrın 20-21-də Təbrizdə keçiriləcək Azərbaycan Xalq Konqresinə (AXK) Cənubi Azərbaycanın bütün şəhərlərindən nümayəndələrin seçilməsi üzrə kompaniyanın getdiyi bir vaxtda İran qoşununun birinci dəstəsi noyabrın 17-də, ikinci dəstəsi 18-də Tehrandan Qəzvinə tərəf hərəkət etdi. Fədailər hökumətin silahlı qüvvələrinə ilk zərbəni 1945-ci il noyabrın 16-dan 17-nə keçən gecə Marağa, Mərənd, Miyanə, Sərab və Ərdəbil mahallarında eyni bir vaxtda endirdilər. Nəticədə Təbriz, Ərdəbil, Əhər, Astara, Marağa, Miyandab, Urmiyə, Xoy və Maku şəhərlərindəki dövlət qüvvələri bir-birindən ayrı düşərək təklənmiş oldular.

1945-ci il noyabrın 18-dən 26-dək Azərbaycanın böyük qəsəbə və şəhərlərində, o cümlədən Nəmin, Zəncan, Germi, Astara, Biləsuvarda, dekabrın 1-dən 19-dək Xoy, Maku, Səlmas, Marağa, Meşkinşəhr, Təbriz, Əhər, Xalxal, Ərdəbil, Kələybər, Miyandab və Urmiyədə "Hökumət qan tökülmədən irtica qüvvələrinin əlindən çıxıb xalqın əlinə keçdi".

Azərbaycan Xalq Konqresi özünü Müəssislər Məclisi elan etdi və tərkibində Milli Heyət seçildi. Bu heyət Azərbaycan Milli Məclisinə qədər Müəssislər Məclisinin qərarlarının icrasını və seçkilərin keçirilməsini təmin etməli idi. Müəssislər Məclisinin qəbul etdiyi Bəyannamədə Azərbaycana İran dövləti daxilində milli muxtariyyət verilməsi tələb olunurdu.4

1945-ci il noyabrın 27-dən dekabrın 1-dək məclisə ümumi seçkilər keçirildi. 12 dekabr - Milli Məclisin açıldığı gün Azərbaycan muxtariyyətinin yarandığı gün oldu.49 Ölkədə milli azadlıq hərəkatının ümumi yüksəlişi şəraitində manevr etməklə vaxt qazanmağa çalışan Tehran hökuməti 1946-cı il iyunun 13-də Azərbaycan Milli Məclisini Azərbaycan Əyalət əncüməni kimi tanımağa məcbur oldu.50 Azərbaycan valisini təyin etmək (Əyalət əncüməninin təklifi ilə) İran hökumətinin səlahiyyətində qaldı.

Azərbaycan Milli hökuməti qısa fəaliyyəti ərzində mühüm əhəmiyyətli tədbirlər həyata keçirdi. 1946-cı il fevralın 16-da "Xalisələrin bölünməsi haqqında qanun" və "Müsadirə haqqında qanun" qəbul etdi. Bu qanunlar əsasında dövlət kəndlərinin torpaqları və sular kəndlilər arasında əvəzsiz olaraq bölünməli, Milli hökumətə qarşı mübarizə edənlərin torpaqları kəndlilərə verilməli idi.

Sənayedə fəhlə nəzarəti yaradıldı. Azərbaycan Milli Məclisinin 1946-cı il mayın 12-də qəbul etdiyi Əmək qanununda 8 saatlıq iş günü, əməkçilərin bir çox sosial-iqtisadi ehtiyaclarının təmin edilməsi nəzərdə tutulurdu. Qənd zavodu, Təbrizin tütün və çay fabrikləri Milli hökumətin ixtiyarına keçdi. Milli hökumət Təbrizin "Şayan" trikotaj fabrikini satın aldı, Təbrizdə "Zəfər" adlı trikotaj fabriki və bir neçə şəhərdə parça və corab fabrikləri açdı.

1946-cı il fevralın 6-dan xalq qoşunları yaradılmasına başlandı. Hərbi məktəb açıldı, az müddətdə xalq qoşunları üçün 250 nəfərdən çox zabit hazırlandı.53

Mədəniyyət sahəsində mühüm işlər görüldü. Milli hökumətin 1946-cı il 6 yanvar tarixli "Dil haqqında Azərbaycan Milli hökumətinin qərarı" ilə Azərbaycan dili Cənubi Azərbaycanda rəsmi dövlət dili elan olundu.54 1946-cı il yanvarın 6-da Milli hökumət Təbrizdə Azərbaycan Dövlət Darülfünunu təşkil etmək haqqında

qərar verdi. Tibb, pedaqoji, kənd təsərrüfatı fakültələrindən ibarət olan Təbriz Universiteti rəsmi surətdə həmin il iyunun 12-də açıldı.

1946-cı il yanvarın 19-da Təbrizdə Ali İncəsənət və Rəssamlıq Məktəbi, martın 28-də Azərbaycan Dövlət Teatrı, aprelin 7-də Azərbaycan radiosu, iyulun 5-də İncəsənət Muzeyi, sentyabrın 3-də Azərbaycan Milli orkestri56 və onun əsasında təşkil olunmuş Dövlət Filarmoniyası57 fəaliyyətə başladı. Xalq hökuməti hesabına 7 şəhərdə tərbiyə evləri, şəhər, qəsəbə və kəndlərdə çoxlu kitabxana və qiraətxana açıldı, Azərbaycan Rəssamlar və Heykəltəraşlar Cəmiyyəti təşkil olundu, Ərdəbil, Astara, Marağa və digər şəhərlərdə teatr binaları tikildi. Əhalinin vəsaiti hesabına bir ildə 2000-dən artıq məktəb açıldı. Azərbaycan dilində 20-dən çox qəzet və jurnal nəşr edilməyə başlandı.

İran hökuməti sovet qoşunlarının İrandan çıxmasına qədər gözləmək, ABŞ-dan hərbi-siyasi kömək almaq və mürtəce qüvvələri birləşdirməklə əsas məqsədinə nail olmaq istəyirdi.

Sovet İttifaqı, Böyük Britaniya və İran arasında bağlanmış 1942-ci il 29 yanvar tarixliittifaq müqaviləsinə görə, sovet qoşunlarının İranda qalması müddəti1946-cı il martın 2-də qurtardı. Elə həmin gün Məşhəd, Şahrud, Semnan kimi nisbətən sakit şəhərlərdən sovet qoşunlarının çıxarılmasına başlandı.59 Ancaq Cənubi Azərbaycandakı hadisələrlə əlaqədar bu iş bir qədər dayandırıldı. ABŞ və Böyük Britaniya dövlətləri BMT-nin 1946-cı ilin yanvarında Londonda keçirilən sessiyasında "İran məsələsi"ni Təhlükəsizlik Şurasının gündəliyinə çıxardılar. Lakin SSRİ-nin təkidi ilə bu məsələ təxirə salındı.60

1946-cı il martın 18-də "İran məsələsi" ikinci dəfə Təhlükəsizlik Şurasının gündəliyinə çıxarıldı və martın 26-da bu məsələyə baxıldı. Ancaq sovet qoşunlarının martın 24-də yenidən təxliyəsi getdiyi üçün müzakirə İran hökumətinin xahişi ilə dayandırıldı. 1946-cı il aprelin 4-də Moskvada SSRİ və İran hökumətləri qalan qoşunların da çıxarılması haqqında razılığa gəldilər.61 Həmin tarixdə (4 aprel 1946-cı il) Tehran şəhərində imzalanmış Sovet-İran sazişinin 3-cü maddəsində deyilirdi: "Azərbaycan (Cənubi Azərbaycan nəzərdə tutulur - *Red.)* məsələsi İranın daxili işi olduğundan mövcud qanunlara görə hökumətlə

Azərbaycan əhalisi arasında və Azərbaycan xalqına xeyirxah münasibət ruhunda islahat keçirməyin dinc yolu tapılacaqdır".

1946-cı il aprelin axırından həyata keçirilən sovet qoşunlarının təxliyəsi İranın başqa rayonları kimi, Cənubi Azərbaycanda da mayın 26-da başa çatdırıldı.63 Beləliklə, "Azərbaycan məsələsi İranın daxili işi olduğundan" artıq onun taleyi həll edilmişdi. Hələ 1942-ci ilin sonundan İranın bütün silahlı qüvvələrinin ixtiyarını öz əlinə keçirmiş ABŞ hərbi heyətləri 21 Azər hərəkatının əvvəlindən İranın silahlı qüvvələrini Azərbaycana qarşı hücuma hazırlayırdılar. Bununla əlaqədar İran hökuməti ABŞ-dan 20 milyon dollarlıq silah və hərbi sursat almış, əməliyyat zamanı amerikalılar İran qoşununa 40 bombardmançı təyyarə vermişdilər. İngilislər isə 1946-cı ilin avqustunda İran sərhədinə, Bəsrə şəhərinə 5 diviziya gətirmiş, hərbi gəmiləri İranın Xürrəmşəhr və Abadan limanlarına yan almışdı.64

1946-cı il sentyabrın 1-də Azərbaycan Xalq hakimiyyəti üzərinə ümumi silahlı hücuma başlayan İran hökuməti 1946-cı il dekabrın 20-də onun fəaliyyətinə son qoydu.

### Ədəbiyyat:


1. M. İbrahimov Cənubi Azərbaycanda 1945-1946-cı illər demokratik hərəkatı haqqında. Bakı, 1948, s. 3-44.
2. Azərbaycan tarixi. 11-ci sinif üçün dərslik, Bakı, 2002, s. 188-195, 189-199, 260-278.
3. Cənubi Azərbaycan tarixi məsələləri. Bakı, 1989, s. 18-43.
4. Siyasi tarix. Prof. S.Qəndilovun redaktorluğu ilə mühazirə kursu, II hissə, Bakı, 1995, s. 44-51, 74-86.
5. История Ирана. Москва, 1977, с. 355-36

**Azərbaycan SSR XX əsrin 40-50-ci illərində.**

**Plan:** 1. Totalitar siyasi rejimin sərtləşməsi.
2.Siyasi rejimin təkmilləşdirilməsi cəhdləri.
3. Müharibədən sonrakı dövrdə repressiyalar.
4.Siyasi mülayimləşmə, ictimai siyasi həyatda deformasiya.

İkinci dünya müharibəsi, onun tərkib hissəsi - Böyük Vətən müharibəsi başa çatdıqdan sonra bəşəriyyətin ictimai-siyasi həyatında köklü dəyişikliklər baş verdi. Sovetlər ölkəsində 1945-ci ilin sentyabrında Dövlət Müdafiə Komitəsi fəaliyyətini dayandırdı. 1946-cı il fevralın 10-da SSRİ Ali Sovetinə yeni seçkilər keçirildi. Həmin ilin martında SSRİ Ali Soveti xalq komissarları sovetlərini nazirlər sovetlərinə çevirmək haqqında qanun qəbul etdi.1 İ.V.Stalin SSRİ Nazirlər Sovetinin sədri təsdiq olundu. Əslində siyasi hakimiyyət yenə də ÜİK(b)P MK Siyasi Bürosunun əlində idi. Az sonra bu siyasi qurum da praktiki olaraq fəaliyyətdən qaldı. Stalin dövləti və partiyanı MK Siyasi Bürosunun, 1952-ci il oktyabrından (partiyanın XIX qurultayından sonra) isə MK Rəyasət Heyətinin daxilində şəxsi seçimi ilə yaradılan "üçlük", "beşlik", "altılıq" və s. vasitəsilə təkbaşına idarə etməyə çalışırdı. Partiya nizamnaməsi pozulur, ali orqanlar vaxtlı-vaxtında çağırılmır (XVIII qurultayla XIX qurultay arasından 13 il yarım keçmişdi), kollegiallıq prinsipinə əməl olunmurdu. Stalinin şəxsiyyətinə pərəstiş, onun əlaltılarının partiyaya, dövlətə zidd hərəkətləri və siyasi avantürist Beriyanın cinayətkar fəaliyyəti totalitar rejimin güclənməsinin əsas səbəblərindən idi. 1949-cu il aprelin 12-də şəhər və rayon milis orqanlarında siyasi idarələr yaradıldı, avqustun 9-da paytaxtlarda, o cümlədən Bakıda milisə xüsusi hüquqlar verildi, oktyabrın 13-də milis SSRİ Dövlət Təhlükəsizlik Nazirliyinin tabeçiliyinə keçirildi.3 Fikirlərə nəzarət, gizlin izləmə, çuğulluq (donos) genişləndi.4 Əsassız repressiyalar başlandı. Repressiyanın əsas hədəfləri, ilk növbədə, əsirlikdən qayıtmış müharibə iştirakçıları oldular. Vətənə qaytarılan keçmiş əsirlərin üzərində və "tələbələrin əhvali-ruhiyyəsinə nəzarət" gücləndirildi. Partiya dövlət mətbuatında və başqa ideoloji təbliğat vasitələrində 1952-ci ilin sonu - 1955-ci ilin

əvvəllərində dərc olunan materiallarda 1937-ci ilin qanlı havası sezilirdi. Stalinin şəxsiyyətinə pərəstişi formalaşdırmaq totalitar üsuli-idarəni daha da gücləndirməyin vasitələrindən biri idi. Totalitar rejimin sərtləşməsinin təzahürlərindən biri elm, ədəbiyyat və incəsənət üzərində "hakim" ideologiyanın inhisarının daha da güclənməsi idi. ÜİK(b)P MK 1947-1951-ci illərdə fəlsəfə, biologiya, fiziologiya, siyasi iqtisad, dilçilik və başqa elm sahələri üzrə açdığı "elmi" diskussiyalarda əslində geniş elmi mübahisə yox idi, "marksist" maskası geymiş elmdə təsadüfi fırıldaqçılar, ehkamçılar hökm edirdilər. Bu cür həqiqi elmdən uzaq olan, "hakim ideyaya" tabe olmaq məqsədini daşıyan saxta tədbirlər ölkədə elmin inkişafına ciddi ziyan vurdu. Genetika belə, lazımsız elm kimi yasaq edilmişdi. Azərbaycanda da "Lisenko məktəbinə" uyğunlaşmayan bioloqlar - M.Ə.Axundov və başqaları təqib olunurdular. Şəxsiyyətə pərəstişin ağır nəticələri ictimai, humanitar,ələlxüsus, tarix elmində özünü daha çox göstərirdi. XX əsrin tarixinə aid tədqiqatlar "ÜİK(b)P tarixinin qısa kursu"nun təsiri altında qalmışdı. Faktlar saxtalaşdırılırdı. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən istilası haqqında həsətinə qarşı çıxış edən mütərəqqi milli burjuaziyanın nümayəndələrinin müstəqil Azərbaycan Respublikası uğrunda mübarizəsi saxtalaşdırılırdı. Sovet üsuli-idarəsinin, təkpartiyalı siyasi sistemin, cəmiyyət həyatının bütün sahələrində partiya amirliyinin, ictimai mülkiyyətin, "sosialist" istehsal münasibətlərinin ziddiyyətləri ört-basdır olunurdu. Həqiqəti yazmaq cəhdlərinin qabağı tezliklə təqib, habelə müxtəlif cəzalarla alınırdı. Mir Cəfər Bağırovun əlaltıları olan satqınlar dəstəsi - Markaryan, Qriqoryan, Yemelyanov-Borşov və Sumbatov-Topuridze, Atakişiyev Azərbaycan xalqının ən qabaqcıl, nüfuzlu şəxsiyyətlərinə, ələlxüsus millətin mənəvi aparıcı təbəqəsi olan ziyalılara qarşı səlib yürüşünə başlamışdılar. Azərbaycan neftçi alimlərindən Ələşrəf Əlizadə, Baxışbəy Sultanov, Əli Muradbəyli Cəmil, Yusif Səfərov,7 filosoflardan Heydər Hüseynov, Əli Əlizadə, yazıçılardan Əbülhəsən Ələkbərzadə, şairlərdən Səməd Vurğun, bəstəkarlardan Üzeyir Hacıbəyov və başqaları təqiblərin əsas obyektləri idilər.

İstedadlı filosof, görkəmli alim və ictimai xadim, akademik Heydər Hüseynovun 1949-cu ildə çap olunmuş "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir

tarixindən" əsəri Stalin mükafatı almışdı. Elmi-ictimaiyyət və cəmiyyət tərəfindən ehtiramla qəbul olunmuş kitab "Şamilin başçılığı ilə hərəkat, müridizm, guya Rusiya xalqına qarşı mübarizə kimi qiymətləndirilmiş", məhz buna görə Stalin mükafatı hökumətin qərarı ilə ləğv edilmişdi, müəllif ağır təqiblərə məruz qalmış, özünə qarşı haqsızlığa görə intihar etmişdi. Ədəbi jurnallar, teatr repertuarları və kino sənəti haqqında ÜİK(b)P MK-nın 1946-1948-ci illərdə qəbul etdiyi qərarlarda bədii formanın "yüksək ideyalara" tabe edilməsinin "geniş proqramı" verilmişdi. Ədəbiyyat və incəsənətdə fərdiliyə, milliliyə "formalizm" damğası vurulurdu. "Sosialist realizmi" ideoloji qəlibindən kənara çıxmaq, cəmiyyətin həyatında mövcud olan nöqsanlardan, ziddiyyətlərdən danışmaq Azərbaycan xalqının dastanları feodal münasibətlərini təbliğ etməkdə, qeyri-xəlqilikdə ittiham olunurdu. Türk dünyasının möhtəşəm orta əsr abidəsi "Kitabi-Dədə Qorqud" "irticaçı feodal-xan eposu" adı ilə damğalanmış, onun tədqiqatçıları təqiblərə məruz qalmışdılar. A.A.Bakıxanov idealizmdə, fanatizmdə, xan və bəyləri müdafiə etməkdə, M.M.Kazım bəy "çarizmin sadiq qulu" olmaqda günahlandırılırdı. Akademik M.A.Dadaşzadə "Türkiyə casusu" kimi damğalanmışdı. Akademik, yazıçı M.İbrahimov, professor, SSRİ Elmlər Akademiyasının müxbir üzvü A.O.Makovelski elmi-siyasi sayıqlığı itirməkdə tənqid edilmişdi. M.Rəfili "kosmopolit" damğası ilə işdən uzaqlaşdırılmış, Süleyman Vəliyev sürgün olunmuşdu. M.C.Bağırov AK(b)P XIX qurultayında (1952, sentyabr) Səməd Vurğunu hədələyərək, "Sən ləngimədən kommunizmin əlifbasından başlamalısan, yoxsa məhv olacaqsan" - demişdi. Mərkəz azərbaycanlılara etibar etmirdi, mühüm vəzifələrin çoxuna, xüsusən güc orqanlarına başqa millətlərin, əsasən rus və ermənilərin nümayəndələrini cəlb edirdi. Bu şovinist münasibətdən erməni millətçiləri azərbaycanlı kadrlara qarşı hiyləgərcəsinə istifadə edirdilər. Hətta M.C.Bağırov belə vəziyyətin güc orqanlarında kök saldığını hiss edərək, 1945-1953-cü illərdə Azərbaycan xalqının qatı düşməni olan bir sıra erməni daşnak fitnəkarlarını ifşa edərək respublikadan qovmuşdu. Qarabağın, Naxçıvanın və başqa tarixi Azərbaycan torpaqlarının erməni ərazisi olduğunu "yaradıcılığı"nda əsaslandırmağa çalışan yazıçı Marietta Şaginyanın Bakıya gəlməsini rədd etmişdi.

O, eyni münasibəti marşal İ.Baqramyanın qardaşı Baqramova və 1918-ci ilin martında Bakıda azərbaycanlıların qırğınını təşkil edən Stepan Şaumyanın oğlu, "Böyük Sovet Ensiklopediyası"nın baş redaktorunun müavini Levon Şaumyana qarşı da tətbiq etmişdi. İnzibati-amirlik üsuli-idarəsinin güclənməsi, sözdə verilmiş "demokratik" hüquqların çoxunun təmin olunmaması insanların ictimai-siyasi həyatda, dövlət idarəçiliyində fəal iştirakına ciddi maneələr törədirdi. "Xalq hakimiyyəti" orqanlarına seçkilər formal, inzibati nəzarət, hətta təzyiq altında keçirilirdi. Zehni inkişaf səviyyəsi yüksək olan əhalinin, xüsusən gənclərin arasında mövcud quruluşun ziddiyyətlərini, həqiqi mahiyyətini dərk edənlər çoxalırdı. Təşkilatlanmaq və mübarizə aparmaq arzusunda olanlar da vardı. Gizli fəaliyyət göstərən "İldırım" təşkilatının üzvü olan bir qrup vətənpərvər və romantik gənc - İsmixan Rəhimov, Gülhüseyn Abdullayev, Hacı Zeynalov, Kamal Əliyev, Aydın Vahidov və b. Azərbaycanın azadlığa çıxması üçün xalqa onun qüvvələrini birləşdirə biləcək güclü, tanınmış bir liderin rəhbərlik etməsini vacib bilərək, S.Vurğuna gizli məktubla müraciət etmişdilər ki, bu missiyanı öz üzərinə götürsün. İstibdada qarşı açıq mübarizə üçün hələ real vəziyyət yaranmamışdı. Təşkilat 1947-ci ilin əvvəllərində fəaliyyətini dayandırdı. 1948-1949-cu illərdə onun 8 fəal üzvü həbs edilib sürgün olundu. Xaricdə fəaliyyət göstərən siyasi mühacirlərin də Azərbaycanda sovet rejiminə qarşı fəaliyyəti genişlənirdi. Müharibədən sonrakı illərdə Azərbaycan mühacirləri "əski" və "yeni" mühacirlər adlanan qruplara bölünmüşdü, onların arasında əsas məsələlərdə birlik yox idi.13 M.Ə.Rəsulzadə 1949-cu ildə Ankarada "Azərbaycan kültür dərnəyi" təşkil etmişdi. Onun rəhbərliyi ilə 1952-ci ildən Ankarada "Azərbaycan" jurnalı nəşr olunmağa başlanmışdı. Bolşevizmə qarşı mübarizədə Mirzə Bala Məmmədzadə (1954-cü ildən Münhendə (Almaniya) SSRİ-ni öyrənən institutun Azərbaycan dilində nəşr etdiyi siyasi jurnalın redaktoru idi), Əbdürrəhman Fətəlibəyli-Düdənginski (1945-1954-cü illərdə Münhendə ABŞ-ın təsis etdiyi Azadlıq" radiosunun Azərbaycan şöbəsinin rəhbəri idi) və başqaları da fəal iştirak edirdilər

1953-cü il martın 5-də totalitar sovet sistemini törədən İ.V.Stalin vəfat etdi. Stalinin şəxsiyyətinə pərəstişin zərərli, ağır nəticələri aşkarlandı. Hakimiyyət

uğrunda rəhbərlikdə mübarizə başlandı və həmin ilin sentyabr ayında ölkənin siyasi hakimiyyətində köklü dəyişiklik baş verdi. Hakimiyyətə gələn N.S.Xruşşov, Sov.İKP Mərkəzi Komitəsinin katibi kimi, nəzarət etdiyi partiya aparatının, ali hərbi rəhbərlərin yaxından köməyi ilə hakimiyyəti ələ keçirməyə cəhd edən siyasi avantürist L.P.Beriyanı və onun əlaltılarını aradan götürdü, stalinizm tərəfdarları hakimiyyətdən uzaqlaşdırıldı.

N.S.Xruşşov 1953-cü ilin sentyabrında Sov.İKP MK-nın birinci katibi seçildi.

M.C.Bağırov Azərbaycan KP MK və Bakı Komitəsinin birgə plenumunda (1953, 12-13 iyul) ziyankarlıqda, qüsurlu rəhbərlik metodlarında, kadrlara səmərəli fəaliyyət üçün şərait yaratmamaqda və başqa əməllərdə təqsirkar bilinib vəzifəsindən kənar edildi.34 M.C.Bağırov bir müddət Kuybışev Neft Birliyinin rəis müavini vəzifəsində işlədi. Lakin tezliklə həbsə alındı. Bakıda SSRİ AliMəhkəməsinin Hərbi Kollegiyası tərəfindən mühakimə edilib (1956, 12-26 aprel), xalq düşməni kimi ölüm cəzasına - güllələnməyə məhkum olundu. Məhkəmədə M.C.Bağırov ittihamnamənin qərəzli olduğunu bildirsə də, öz günahlarını etiraf edərək demişdi: "Mənim əsas səhvim odur ki, Sumbatov, Borşov, Qriqoryan, Markaryan və başqalarına göz yummuşam, onların iç üzünü tanımamışam. Mən onlara inanaraq XDİN orqanlarını onlara etibar etmişəm. Bu işdə xalqım qarşısında günahlarım o qədər böyükdür ki, məni güllələmək azdır, asmaq azdır, məni şaqqalamaq, parça-parça etmək lazımdır".

1954-cü il fevralın 14-16-da Azərbaycan KP-nin XX qurultayı keçirildi və akademik İ.D.Mustafayev MK-nın birinci katibi seçildi. İmam Daşdəmir oğlu Mustafayev (25.02.1910-10.03.1997) Zaqatala qəzasının Qax kəndində anadan olub. Görkəmli bioloq-alim, Azərbaycan SSR Elmlər Akademiyasının akademiki (1950), 1934-1940-cı illərdə AKTİ-də işləmiş, 1940-cı ildən Sov.İKP üzvü idi. 1940-1954-cü illərdə Azərbaycan SSR Dövlət nəzarəti komissarının birinci müavini, xalq torpaq komissarının birinci müavini, Azərbaycan SSR kənd təsərrüfatı naziri, AKP Gəncə Vilayət Komitəsinin birinci katibi və AKP-nin birinci katibi (1954-1959-cu illərdə) işləmişdi. Sadıx Rəhimov Azərbaycan SSR Nazirlər Sovetinin sədri, yazıçı Mirzə İbrahimov Ali Sovetin Rəyasət Heyətinin

sədri təyin olundular. İ.D.Mustafayev, M.İbrahimov, S.Rəhimov və həmkarları yeni şəraitdə respublikanın, xalqın vəziyyətini yaxşılaşdırmağa, milli, mənəvi dəyərlərin, mədəniyyətin, elmin, təhsilin inkişaf etdirilməsinə, xalq təsərrüfatının tərəqqisinə nail olmağa cəhdlər göstərdilər. Sənayenin sürətlə inkişafı, yeni iş yerlərinin açılması, kəndli gənclərin Bakıya axını nəticəsində paytaxtın iqtisadi-ictimai həyatında azərbaycanlı kadrların rolu artdı, sosial-siyasi sahədə vəziyyət yeniliyə doğru dəyişməyə başladı. Beynəlmiləl şəhər kimi məşhurlaşmış Bakı azərbaycanlılaşmağa doğru tərəqqi yoluna düşdü. Respublikada kənd təsərrüfatına göstərilən diqqət nəticəsində ərzaq məhsulları istehsalı artmağa başladı.

Azərbaycan rəhbərliyi Mərkəzi hökumət qarşısında respublikada istehsal olunan pambığın emalı üçün yerlərdə müvafiq zavodlar və fabriklərin tikilməsi məsələsini qaldırdı. İ.D.Mustafayev xatirələrində yazır: "Məsələ onda idi ki, biz respublikada istehsal olunan pambığın və eləcə də neftin bir tonuna büdcədən əlavə 10 rubl pul alırdıq və həmin məhsulların 9-10 faizi Azərbaycana qalırdı. Mən məsələnin həlli üçün o zaman N.Xruşşova müraciət etdim və o mənim təklifimi rədd edərək: "Nədir, yoldaş Mustafayev, Rusiya kəndlisi ac-yoxsul vəziyyətdə yaşadığı halda, siz istəyirsiniz Azərbaycanda yağ-bal içində üzsünlər? - "deyə cavab vermişdi".36

İctimai-siyasi ab-havanın mülayimləşməsi şəraitində respublikada Azərbaycan dilinin rəsmi dövlət dili statusunun təmin olunmasına təşəbbüs edildi. Bu məsələnin mətbuatda açıq müzakirəsi keçirildi. 1956-cı ildə Azərbaycan SSR Ali Soveti 1937-ci ildə qəbul edilmiş Konstitusiyaya respublikada dövlət dilinin Azərbaycan dili olması barədə maddə əlavə etdi. Rəsmi sənədlərin, kargüzarlıq işlərinin Azərbaycan dilində aparılması üçün konkret tədbirlər görüldü. Elmi işçilərin, aspirantların sayı xeyli çoxaldı. 1957-1959-cu illərdə "İncəsənət" almanaxı, 1958-ci ildən Azərbaycan və rus dillərində "Bakı" axşam qəzeti, uşaqlar üçün "Göyərçin" jurnalı çap olunmağa başlandı. 1956-cı ildə Bakı telestudiyası işə düşdü. Azərbaycan xalqının milli şüurunun, özünü dərindən dərketmə ruhunun oyanması, ədəbiyyatda da, incəsənət aləmində də yaradıcılıq, əsl insan azadlığı iqliminin təşəkkülü görünürdü. İctimai hadisələri tənqidi təhlilə çağıran cəsarətli mövzular meydana çıxırdı. Bəxtiyar Vahabzadənin "Gülüstan", Rəsul Rzanın

"Qızılgül olmayaydı" poemaları bu illərin məhsulu idi. Stalinin şəxsiyyətinə pərəstişin aradan götürülməsi ilə həqiqətən sovet ölkəsinin ictimai-siyasi həyatında mülayimləşmə başlanmışdı. Ölkədə yeni kütləvi tədbirlər, islahatlar, partiya və cəmiyyətdə nüfuz qazanmaq məqsədi daşıyan dəyişikliklər başladı. Partokratik inzibati-amirlik üsuli-idarəsinin ictimai tərəqqiyə əngəl olan, köhnə siyasi bürokratiya sisteminin ifrat cəhətlərini, partiya-təsərrüfat fəallarına qarşı repressiyanı, cəmiyyətdəki vahiməni aradan qaldırmağa cəhdlər göstərilməli idi. Mövcud siyasi sistemin qüsurları, əsasən Stalinin şəxsiyyətinə pərəstişin nəticəsi partiya həyatında "Lenin prinsipləri"nin pozulması kimi qələmə verildi. Sov.İKP XX qurultayında (1956, fevral) sosialist demokratiyasını dərinləşdirməklə sistemi, kollektiv rəhbərliyi, partiyadaxili demokratiyanı, xalqla əlaqəni genişləndirmək tədbirləri müəyyən olundu. Partiyanın Mərkəzi Komitəsi "Şəxsiyyətə pərəstiş və onun nəticələrini aradan qaldırmaq haqqında" (1956, 30 iyun) qərar qəbul etdi. Stalinizm, şəxsiyyətə pərəstiş tənqid olundu, onun təzahürləri göstərildi, lakin bu hadisəni törədən səbəblər, mövcud rejim üçün əlverişli olmadığından, tam açıqlanmadı. Faktiki cəhətdən partiya nəzarətindən çıxmış və siyasi sistemə həddindən çox təzyiq gücünə malik olan Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizlik və başqa güc orqanları nəzarət altına alındı. Bu orqanlar, habelə partiya aparatı 1953-cü ilin iyun ayında hakimiyyət uğrunda daha çevik hərəkət edən Xruşşovun səyi ilə vəzifəpərəstlikdə, millətçilikdə, xarici kəşfiyyatla əlaqədə təqsirləndirilib həbs edilmiş L.P.Beriyanın əlaltılarından təmizləndi. Azərbaycanda güc orqanlarına rəhbərlik etmiş Y.D.Sumbatov-Topuridze, X.Qriqoryan, T.Borşov, S.Yemelyanov, A.Atakişiyev, K.Markaryan da öz qanlı əməllərinə görə 1956-cı ilin aprelində güllələnməyə məhkum olundular.

Repressiya illərində cəzaya məruz qalanların işlərinə yenidən baxılması üçün komissiyalar təşkil olundu. Bəraətvermə prosesi başlandı. Bu proses repressiyalarda ən ümdə, stalinizmi təqsirləndirmək, hakim partiyanı, sovet siyasisisteminin nüfuzunu qorumaq, ona xalqın inamının itməməsinin qarşısını almaq məqsədilə siyasi kampaniya kimi planlaşdırılmışdı. Buna baxmayaraq, bəraətvermə prosesi əslində humanist bir proses idi. SSRİ Ali Məhkəməsinin

Hərbi Kollegiyası, Azərbaycan SSRİ Ali Məhkəməsinin Cinayət İşləri üzrə Məhkəmə Kollegiyası cəzaya məruz qalanların əksəriyyətinə bəraət verdi. Minlərlə azərbaycanlının üzərindən "xalq düşməni" damğası götürüldü. Onların ailələrinin, övladlarının məruz qaldığı təqiblərə son qoyuldu, hüquqları bərpa edildi. 1956-cı ilin ortalarından yüzlərlə dövlət, ədəbiyyat və incəsənət xadiminə, o cümlədən S.M.Əfəndiyev, Q.Musabəyov, D.Bünyadzadə, R.Axundov, Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Yusif Vəzir Çəmənzəminliyə və başqalarına bəraət verildi. Azərbaycan xalqının tarixi, dili, folkloru və etnoqrafiyası baxımından çox qiymətli monumental dastanı "Kitabi-Dədə Qorqud" və "həbs olunmuş" yazılı abidələr, əsərlər azad edildi, bəraət almış şair və yazıçıların əsərləri yenidən çap olundu.

Bununla belə, minlərlə siyasi mübarizə, günahsız qurbana, habelə 20-30-cu illərdə apardığı istiqlal mübarizəsi üstə təqib olunaraq xaricə getməyə məcbur olmuş mühacirlərə bəraət verilmədi. Tarixi keçmişimizdən, türk xalqları birliyindən bəhs edən bir çox əsərlər üzərindən qadağalar götürülmədi. Hüseyn Cavidin "Topal Teymur", "Peyğəmbər" pyesləri yenə də qəsdən "unuduldu". Azərbaycan tarixinin obyektiv şəkildə öyrənilməsinə cəhdlər mərkəz tərəfindən qısqanclıqla qarşılanırdı. Hətta Sov.İKP MK yanında Marksizm-Leninizm İnstitutunun təsdiq etdiyi "Azərbaycan KP tarixinin oçerkləri" əvəzinə "Azərbaycan Kommunist Partiyası tarixi"nin (iki clddə) yazılması haqqında bu institutun AKP MK yanındakı filialı alimlərinin təşəbbüsünü Sov.İKP MK katibi M.A.Suslov "millətçilik" təzahürü kimi qiymətləndirmişdi, Bakıya böyük bir komissiya göndərilmişdi.

1959-cu ilin oktyabrında AKP MK xüsusi qərarla "partiya tarixi ədəbiyyatında buraxılan səhvlərin" aradan qaldırılmasını tələb etmişdi. Respublikanın ictimai-siyasi həyatında mövcud siyasi sistemin əsas prinsiplərinə - təkpartiyalılığa, Kommunist partiyasının bütün siyasi təşkilatlar, dövlət üzərində amirliyinə toxunmadan ictimai təşkilatların, xalq hakimiyyəti orqanlarının fəaliyyətini nisbətən canlandırmaq üçün şərait yaradıldı. Bəzi operativ məsələlərdə idarəçilik mərkəzdən yerlərə keçirildi. Yerli sovetlər iriləşdirildi. Kənd sovetlərinin sayı azaldıldı. 1955-ci il seçkilərində deputatların sayı artırılıb, kənd və qəsəbə

sovetlərində 9-dan 15-ə, rayon sovetlərində 25-dən 35-ə çatdırıldı. Deputatların ümumi sayı 3 min nəfər çoxaldı. Sovetlərin daimi komissiyaları 6 minə çatdırıldı. Onların işinə 33 min nəfərdən çox deputat - fəal cəlb edildi.38 Lakin yenə də partiyanın sovetlər üzərində qəyyumluğu saxlandığı, istər ali, istərsə də yerli sovetlərə seçkilər əvvəlki prinsiplərlə keçirildiyi, deputat korpusununəsasən mövcud siyasi sistemə, liderlərə arxa ola biləcək müti, icraçı, səriştəsiz adamlardan formalaşdığı üçün bütün pillələrdən olan hakimiyyət orqanlarının fəaliyyəti əvvəlki kimi formal xarakter daşıyırdı. Elə bu səbəbdən Sov.İKP MK-nın "Zəhmətkeş deputatları sovetləri fəaliyyətini yaxşılaşdırmaq və onların kütlələrlə əlaqəsini möhkəmləndirmək haqqında" 1957-ci il 22 yanvar qərarı39 ilə əlaqədar yerli sovetlərin təsərrüfat və mədəni quruculuq məsələlərinin həllində iştirakı, seçicilərlə əlaqələri fəallaşdı. Azərbaycan SSR Ali Sovetinin səlahiyyət dairəsi nisbətən genişləndi. 1956-cı ildə Ali Sovetin sənaye, kənd təsərrüfatı, mədəni-maarif, səhiyyə və ictimai təminat, tikinti və abadlıq komissiyaları yaradıldı. Məhkəmə quruculuğu məsələləri, mülki və cinayət məcəllələrinin qəbulu respublikaların öz ixtiyarına verildi. Rayon, şəhər, kənd və qəsəbə zəhmətkeş deputatları Sovetləri haqqında yeni əsasnamələr qəbul edildi, onların hüquqları artdı. 50-ci illərin ortalarında partiya sıralarında 110 minədək üzv birləşmişdi. Həmkarlar ittifaqı, komsomol təşkilatları, onların seçkili orqanları yenə partiyanın ciddi nəzarəti altında fəaliyyət göstərirdi. Həmkarlar ittifaqlarına bəzi yeni hüquqlar verilmişdi. Onlar 1958-ci ildən fəhlə və qulluqçuların əmək və məişət şəraitini yaxşılaşdırmaq tədbirlərində, təsərrüfat planlarının hazırlanması işində iştirak etmək, idarə rəhbərini dəyişdirmək məsələsini qaldırmaq, əmək mübahisələrinin həllində qəti qərar vermək, əmək mühafizəsi və sığorta işlərini, 1960-cı ildən isə həm də sanatoriya və istirahət evlərini idarə etmək hüququ aldılar. Lakin 600 minə qədər (1960-cı il) fəhlə və qulluqçunun üzv olduğu bu təşkilat xalqın mənafeyinin həqiqi müdafiəçisinə çevrilə bilmədi. Sıralarında 333 min (1960-cı il) oğlan və qızı birləşdirən komsomol təşkilatları da partiyanın diktəsi altında işləyirdi. Respublikada qadınlar şurası, könüllü xalq drujinaları, məhəllə, valideyn komitələri, yoldaşlıq məhkəmələri kimi ictimai təşkilatlar fəaliyyət göstərirdilər.

1957-ci il martın 27-də Azərbaycan qadınlarının II qurultayı keçirilmişdi. Qurultay ictimai-siyasi və təsərrüfat həyatında qadınların rolunu daha da canlandırmaq üçün tədbirlər müəyyən etmişdi. 50-ci illərin ortalarında siyasi ab-havanın nisbətən yumşalması ilə əlaqədar müttəfiq respublikalarda, o cümlədən Azərbaycan SSR-də milli dirçəliş meyilləri mərkəzdə kök salmış şovinizmi çox narahat etmiş, onlara qarşı ciddi müqavimət göstərilmişdi. 1956-cı ilin oktyabr-noyabr aylarında Macarıstanda baş vermiş antisovet qiyamı da buna təsir göstərmişdi. N.S.Xruşşov hakimiyyətdə möhkəmləndikdən, xüsusən Sov.İKP MK-nın 1957-ci il İyun plenumunda siyasi rəqiblərini məğlub edib partiyadan və rəhbər vəzifələrdən uzaqlaşdırdıqdan, orduda və Dövlət Təhlükəsizlik Komitəsində rəhbərliyi təzələdikdən sonra partiya vəcəmiyyət üzərində şəxsi amirliyini gücləndirdi. Xruşşov "volyuntarizmi" dövrü başlandı.

Milli oyanış əlamətləri hiss edilən respublikaların, o cümlədən Azərbaycanın rəhbərliyinə qarşı təqiblər başlandı. Mərkəz xalqı qorxutmaq, özünə tabe saxlamaq üçün növbəti dəfə Dağlıq Qarabağ məsələsini ortaya atdı. Ermənistan SSR və Azərbaycan SSR-in DQMV erməni əhalisi Dağlıq Qarabağın Ermənistana verilməsini tələb etməyə başladı. Ermənistanda antitürk əhvali-ruhiyyəsi yenidən qızışdırıldı. Yerevan Pedaqoji İnstitutunun əyani və qiyabi Azərbaycan bölmələri bağlandı. Yerevan Azərbaycan Pedaqoji Texnikumu Azərbaycanın Xanlar rayonuna köçürüldü. C.Cabbarlı adına Dram Teatrı, Azərbaycan dilində çıxan rayon qəzetləri və b. nəşrlər bağlandı. Ermənistanda "Qarabağ hərəkatı" xeyli leqallaşdırıldı. 1958-ci ildə erməni katolikosu II Vazgen Bakıya səfəri zamanı respublika Nazirlər Sovetinin Sədrinə Dağlıq Qarabağın Ermənistana verilməsini, Bakıda erməni ruhani seminariyasının açılmasını, hər səhər şəhərin mərkəzində yerləşən erməni kilsəsinin zəng vurmasına icazə verilməsini təklif etmiş, lakin rədd cavabı almışdı. Ermənilərin Moskvada güclü arxası olduğunu bilən, özlərinin təkləndiyini hiss edən azərbaycanlılar həyəcan içində idi. Lakin mərkəz sərhəd dəyişikliklərinin mübahisəli ərazilər olan digər respublikalarda arzuedilməz reaksiyalar doğuracağından çəkinərək, Azərbaycanda məkrli siyasətindən çəkindi.

Azərbaycan SSR rəhbərliyi millətçilik siyasəti həyata keçirməkdə təqsirləndirildi. Sov.İKP MK Azərbaycanda partiya təşkilatının işini yoxlamaq üçün Bakıya 26 nəfərdən ibarət komissiya göndərdi. Həmin günlərdə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyünə respublikanın "millətçi" rəhbərləri dəvət edilmədi.

Sov.İKP MK-nın 1959-cu il iyunun 24-29-da keçirilən plenumu heç bir əsas olmadan, qondarma ittihamlarla Azərbaycan SSR rəhbərliyini ciddi tənqid etdi. Azərbaycan KP MK-nın 1959-cu ilin iyulunda keçirilən XI plenumunda İ.D.Mustafayev vəzifəsindən azad edildi. V.Y.Axundov Azərbaycan KP MK-nın birinci katibi seçildi. **Vəli Yusif oğlu Axundov** (14.05.1916-1986) Bakıda anadan olub. Tibb alimi olaraq Azərbaycan SSR Elmlər Akademiyasının akademiki (1969) seçilmişdi. O, tibb işçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri (1946-1949), Azərbaycan SSR səhiyyə nazirinin müavini (1949-1952), AKP-də şöbə müdirinin müavini (1953-1954), Azərbaycan SSR səhiyyə naziri (1954-1958), AKP MK katibi (1958), Azərbaycan SSR Nazirlər Sovetinin sədri (1958-1959) işləmişdi.

Uğursuz islahatlar, Sov.İKP XXII (1961, oktyabr) qurultayında elan etdiyi yaxın gələcəkdə SSRİ-də kommunizm qurulacağı haqqında utopik ideyalar N.S.Xruşşovu cəmiyyətdə və partiyada hörmətdən salmışdı. Partiya elitasında onaqarşı müxalifət formalaşırdı. 1961-ci ildə qəbul olunmuş nizamnaməyə görə, partiyanın seçkili orqanlarına bir nəfərin dalbadal iki dəfədən çox seçilməsini qadağan edən maddə daxil edilməsi də rəhbər partiya vəzifəlilərinin ona qarşı birləşməsinə səbəb olmuşdu. Hakimiyyəti əldə saxlamaq üçün Xruşşov partiyanı parçalamaq, siyasi məsələlərin həllində təşkilatların birgə fəaliyyətini məhdudlaşdırmaq, onların diqqətini təsərrüfat məsələlərinə, islahatlara operativ rəhbərliyə yönəltmək istədi. Sov. İKP MK-nın 1962-ci il Noyabr plenumu rəhbər partiya orqanlarının istehsalat prinsipi üzrə yenidən təşkil edilməsini qərara aldı. Mərkəzi komitələrdə iki büro - sənaye, tikintiyə və kənd təsərrüfatına rəhbərlik üzrə bürolar yarandı. Azərbaycanda da AKP MK-ya bilavasitə tabe olan sənaye-istehsal, kolxoz-sovxoz istehsalat idarələri, şəhər, dağlıq rayon partiya komitələri

təşkil olundu. Başqa ictimai təşkilatlar da bu prinsip üzrə yenidən quruldu. Xruşşov partiya və dövlət nəzarətini birləşdirməkdə partiyanın nəzarət funksiyasını da xeyli zəiflətdi. Lakin onun xüsusən 1958-ci ildən, SSRİ Nazirlər Sovetinin sədri olduqdan sonra xeyli intensivləşən partiya aparatını zəiflətmək cəhdlərindən narazı qalan ali partiya və təsərrüfat rəhbərləri birləşdilər. Sov.İKP MK-nın 1964-cü il 14 Oktyabr plenumunda N.S.Xruşşov vəzifəsindən kənar edildi. L.İ.Brejnev Sov. İKP MK-nın birinci (1966-cı ildən Baş) katibi seçildi.

60-cı illərin ortalarında partiya, onunla birlikdə sovet, həmkarlar ittifaqları və komsomol orqanları təşkilatca yenidən ərazi prinsipi üzrə quruldu. Sov.İKP və respublika KP Mərkəzi Komitələrində bürolar birləşdirildi, kənd, rayon partiya komitələri bərpa olundu. İqtisadiyyata partiya rəhbərliyi gücləndirildi.

Milli dəyərlərə diqqət artdı. Bu işdə 1966-1967-ci illərdə AKP MK katibi vəzifəsində işləmiş Şıxəli Qurbanovun və onun həmfikirlərinin önəmli xidməti olmuşdu. 1966-cı ildə İranda yaşayan böyük Azərbaycan şairi Seyid Məhəmməd Hüseyn Şəhriyarın "Heydərbabaya salam" poeması Bakıda çap olundu. Mütərəqqi fikirli yaradıcı gənclər üçün 1967-ci ildə "Ulduz" jurnalının nəşrinə başlandı. Novruz bayramı "Bahar bayramı" adı ilə rəsmi şəkildə qeyd edildi. Ədəbiyyatda yeni milli motivlər, tənqidi ruh qüvvətləndi.

Milli-azadlıq uğrunda mübariz nəsil yetişməkdə idi. 60-cı illərin əvvəllərində Azərbaycan Dövlət Universitetinin azadfikirli tələbələrindən bir qrupu Əbülfəz Əliyevin rəhbərliyi ilə gizli siyasi mübarizəyə başlamışdılar. Onlar gizli özək təşkil edərək, üçlük qruplar yaradır və tələbə gəncləri azadlıq uğrunda mübariz ruhda tərbiyələndirməyə çalışırdılar.44

1962-ci il dekabrın 17-də 95 nəfərin iştirak etdiyi gizli yığıncaqda "Milli Azərbaycan Qərargahı" (MAQ) təşkil olundu. Onun sədri Oqtay Rəfili, sədr müavini Xudu Məmmədov seçildi. MAQ-ın rayonlarda şöbələri yaradıldı. Təşkilat üzvlərinin əksəriyyəti vəzifəli şəxslər idi. Başlıca məqsəd rəhbər vəzifələrdə azərbaycanlıların olmasına, respublika büdcəsinə ayırmaların Moskvada deyil, Bakıda həll olunmasına çalışmaq, milli oyanışa xidmət etmək idi. MAQ-çılar bir neçə mühüm vəzifəyə azərbaycanlı kadrların təyin edilməsinə nail oldular.

1964-cü ilin yazında Azərbaycanın Rusiyanın tərkibinə "daxil olması"nın 150 illiyi "bayram" edildi, bu, geniş ictimai-siyasi kampaniyaya çevrildi.

Azərbaycan tarixçilərindən bu "bayramın" keçirilməsinə zidd çıxanlar da oldu. 1969-cu ilin martında Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinin elmi şurasında çıxış edən tarixçi alimlər Z.M.Bünyadov, M.Ə.İsmayılov və Süleyman Əliyarov qeyd etdilər ki Azərbaycan XIX əsrin əvvəllərində Rusiyaya birləşməmişdir, onu çar Rusiyası zəbt etmişdir. Bu çıxışa görə onlar müəyyən müddət təqibə məruz qaldılar. Şair və yazıçıların, alimlərin çoxu öz əsərlərində "sətiraltı" fikirlər söyləməkdən uzağa getmirdilər. Lakin bu da təsirsiz qalmırdı. Bununla belə, Rusiya və başqa müttəfiq respublikalardakı kimi, Azərbaycanda dissident hərəkatı geniş inkişaf etməmişdi. O vaxt Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsində rəhbər vəzifələrdə çalışan, 1964-cü ildən bu komitənin sədr müavini, 1967-ci ildən isə sədri olmuş Heydər Əliyevin Azərbaycanın milli düşüncəli vətənpərvər ziyalılarının müdafiəsində mühüm xidmətləri olmuşdur.

60-cı illərin ortalarında Ermənistan SSR-də növbəti dəfə antiazərbaycanlı hərəkat qızışdı. 1965-ci il aprelin 23-də uydurma "erməni genosidi"nin 50 illiyi, cəllad Andronikin isə 100 illiyi Ermənistanda geniş qeyd edildi və bu da burada ata-baba torpaqlarında yaşayan azərbaycanlıların daha da sıxışdırılmasına yeni, güclü təkan verdi. DQMV-də erməni millətçiliyi açıq surətdə dərin kök salırdı. Azərbaycanlılar burada - öz torpaqlarında sıxışdırılırdı. Vilayətin azərbaycanlılar yaşayan məntəqələrinə kömək etmək məqsədilə 1967-ci ildə ayrılan vəsaitin Bakıda DQMV-nin rayonları üzrə konkret tələblər üzrə bölünüb təsdiq olunması cəhdinə erməni lobbisi ciddi müqavimət göstərdi. Həmin il Stepanakertdə bir neçə azərbaycanlı qətlə yetirildi. Mərkəzin təzyiqi ilə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1969 -cu il 7 may tarixli qərarı ilə sərhəd rayonlarında 2 min hektardan çox Azərbaycan torpağının Ermənistana verilməsi haqqında hələ 1938-ci il mayın 5-də qəbul olunmuş qərarı təsdiq etdi. Lakin az sonra Azərbaycan rəhbərliyinə gəlmiş Heydər Əliyev bu qərarın icrasına yol vermədi.46

**Ədəbiyyat**

1.Qaffarov T. Azərbaycan tarixi. 1920-1991. Bakı,1999
2.Azərbaycan tarixi VII cilddə, VII cild, B, 2003
3.Əliyev H. «1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında» Azərbaycan Respublikası prezidentinin fərmanı. 18 dekabr, 1997
4.Həsənli C. SSRİ-Türkiyə: Soyuq müharibənin sınaq meydanı. Bakı: 2005
5.Həsənli C. Azərbaycanda milli məsələ: siyasi rəhbərlik və ziyalılar (1954-1959). Bakı: 2008
6.Mir Cəfər Bağlırov xatirələrdə. Bakı: 2006
7.Исмаилов Э.Р. Власть и народ. Послевоенный сталинизм в Азербайджане. Баку: 2003
8. Исмаилов Э.Р. Азербайджан: 1953-1956 гг. Первые годы «от- тепели». Баку: 2006.
9. Гасанлы Дж. Хрущевская «оттепель» и национальный вопрос в Азербайджане (1954-1959). М.: 2009.

## AZƏRBAYCANLILARIN ERMƏNiSTAN SSR-dən TARiXi ETNiK ƏRAZiLƏRiNDƏN DEPORTASiYASI

**Plan:** 1.Deportasiyanı doğuran şərait və səbəblər.

2. SSRİ Nazirlər Sovetinın "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalisinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 1947-ci il 23 dekabr və 1948-ci il 10 mart və 1951-ci il 28 fevralı tarixli 605 saylı məxfi qərarı.

4. Deportasiyanın mərhələləri və aci nəticələri.

5.1948—1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında H.Əliyevin 18 dekabr 1997-ci il fərmanı.

Müharibədən sonrakı illərdə bütün ölkədə şovinist və yerli millətçilik siyasətinin güclənməsi xalqlar arasında tez-tez münaqişə və toqquşmalar, konfliktlər, ciddi təhlükəli problemlər yaradılmasında açıq təzahür edirdi. Moskva hakimiyyəti Qafqazda da Azərbaycan erməni, gürcü və başqa xalqları bir-birinə qarşı qoymaq və onlar üzərində hakim mövqeyini saxlamaq naminə milli münaqişə ocaqları yaratmaq siyasəti yürüdürdü. Bu məkrli siyasət, əsasən, qondarma "Dağlıq Qarabağ" konfliktinin süni surətdə kəskinləşdirilməsi məqsədi güdürdü. Moskvanın fitvası və havadarlığı ilə mərkəzdəki və xarici ölkələrin lobbisinə arxalanan erməni millətçiləri, kommunist - daşnaklar sonrakı illərdə müharibə, vaxtaşırı azərbaycanlıların Ermənistan SSR-dəki tarixi-etnik ərazilərindən sıxışdırılıb çıxarılması, birinci növbədə, Qarabağın qoparılıb Ermənistana

verilməsi tələbi ilə çıxış edirdilər. 40-cı illərdə Moskvanın, bilavasitə A.Mikoyanın təşəbbüsü ilə Ermənistanda partiya elitasının fəal iştirakı ilə gizli "Qarabağ hərəkatı", "Qarabağ komitəsi" yaradılmışdı. 1945-ci ilin payızında Ermənistan rəhbərliyi növbəti dəfə ÜİK(b)P MK qarşısında Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Ermənistana verilməsi məsələsini qaldırır. Ermənistan K(b)P MK və XKS-nin Stalinə müraciətində heç bir elmi, tarixi əsası olmadan Dağlıq Qarabağ ərazisinin guya iqtisadi cəhətdən daha çox Azərbaycan SSR-lə deyil, Ermənistan SSR-lə bağlı olduğunu sübut etməyə cəhd olunur. Məsələyə dərhal reaksiya verən Mərkəzi hökumətin nümayəndəsi ÜİK(b)P MK katibi G.M.Malenkov 1945-ci ildə noyabrın 28-də Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırova yazdığı məktubunda bu məsələ ilə bağlı məlumat verir və onun rəyini soruşur.16 M.C.Bağırov 1945-ci il 10 dekabr tarixdə ("tam məxfidir" qrifi ilə) ona cavab məktubu göndərir.17 Məktubda Ermənistanın Dağlıq Qarabağla bağlı irəli sürdüyü bütün iddiaların heç bir elmi, tarixi əsası olmadığı və Dağlıq Qarabağın tarixən Azərbaycan ərazisi olduğu tutarlı faktlarla sübut edilirdi.

Cavab məktubunda sovet hakimiyyəti illərində ilk dəfə Azərbaycan rəhbəri tarixi Azərbaycan torpaqları problemini qaldırır və burada Dağlıq Qarabağın Ermənistana güzəştə gediləcəyi təqdirdə müxtəlif vaxtlarda Ermənistana, Gürcüstana və Sovet Rusiyasına verilmiş bir çox tarixi ərazilərin Azərbaycan SSR-ə qaytarılmasını vacib hesab edir. Azərbaycan rəhbərliyinin məsələnin bu səpkidə müzakirə olunmasına razılıq verməsi ermənilərin planlarının pozulması ilə yanaşı, Mərkəzi hökumətə problemin bütün ölkə üçün sonsuz fəlakətlər yaradacağını anlatdı. Belə bir təhlükənin real olduğunu görən mərkəzi hökumət ermənilərin iddialarını rədd edərək məsələnin "arxivə verilməsini" tövsiyə etdi. Eyni zamanda Moskva Türkiyə ilə sərhəddə ermənilərin mövqeyini möhkəmləndirmək tədbirləri gördü. Hələ 1943-cü il noyabrın 28-dən dekabrın 1-dək SSRİ ABŞ və İngiltərənin iştirakı ilə keçirilən Tehran konfransında Sovet-İran münasibətləri müzakirə edilərkən, gələcəkdə "Böyük Ermənistan" dövləti yaratmaq xülyasında olan ermənilər əlverişli şəraitdən istifadə edərək, SSRİ xarici işlər naziri V.Molotova müraciət edib, İranda yaşayan ermənilərin SSRİ-yə köçürülməsinə icazə

istəmişdilər. V.Molotov məsələ ilə bağlı İ.Stalinlə danışdıqdan sonra onların Ermənistan SSR ərazisinə köçürülməsinə razılıq vermişdi. 1946-cı il oktyabrın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti xarici ölkələrdə yaşayan ermənilərin Ermənistan SSR ərazisinə köçürülməsi ilə bağlı Fərman verdi.19 Ermənilərin Ermənistan SSR-ə repartasiyası "Daşnaksutyun" partiyasının 1947-ci ilin iyununda keçirilmiş XIV konqresinin qəbul etdiyi qərarlarla bilavasitə bağlı idi. Bu qərarlarda isə repartasiyanın "azərbaycanlıların yaşadıqları torpaqların boşaldılması və Ermənistan sərhədlərinin genişləndirilməsi" şəraitində baş verdiyi iddia edilirdi. Bu işə Qriqoryan kilsəsi də xeyir-duasını vermişdi.

Beləliklə, azərbaycanlıların Ermənistan SSR ərazisindəki dədə-baba torpaqlarından qovulmasının növbəti mərhələsi başlandı. 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalisinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 saylı qərar verdi. SSRI Nazirlər Sovetinin 1948-ci il 10 mart tarixli "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" daha bir qərarı ilə bu işi həyata keçirmək üçün konkret tədbirlər planı müəyyən olundu. Bu qərara görə, 111 100 min azərbaycanlı 1948-1950-ci illərdə; 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min, 1950-ci ildə isə 50 min nəfər "könüllülük prinsipinə əsasən" Azərbaycana köçürülməli idi. Qərarın axırıncı, II maddəsində ayrıca göstərilirdi ki, Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki azərbaycanlı əhalinin köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililərdən, yaşayış evlərindən xaricdən gələn erməniləri yerləşdirmək üçün istifadə etsinlər. O zaman Ermənistan SSR-də 400 mindən artıq azərbaycanlı yaşayırdı. 1948-ci ildə Ermənistan SSR-dən mütəşəkkil surətdə Azərbaycan SSR-ə 1799 təsərrüfat, 7747 nəfər köçürüldü. 429 ailə (2834 nəfər) müxtəlif təzyiqlərə məruz qaldığına görə pərakəndə halda Azərbaycana gəlməyə məcbur olmuşdu. 1948-ci ilin payızınadək deportasiyaya məruz qalanların sayı 10.584 nəfər idi. Azərbaycan SSR və Ermənistan SSR rəhbərləri arasında əldə olunmuş razılaşmaya görə, 1949-cu ildə 15713 nəfər (5420 nəfəri yazda, 10293 nəfəri isə payızda) və 3818 təsərrüfat köçürülməli idi. Lakin SSRİ Nazirlər Soveti

Azərbaycan SSR və Ermənistan SSR hökumətləri arasında əldə edilmiş razılaşmanı təsdiq etmədi və SSRİ hökumətinin rəsmi nümayəndəsi S.Çeremuşin Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyevdən Ermənistan SSR-dən Azərbaycana əvvəlcədən müəyyənləşdirilmiş 40000 nəfər azərbaycanlının köçürülməsini tələb etdi.
Azərbaycan SSR Nazirlər Soveti çıxılmaz vəziyyətə düşdüyündən məsələnin həlli üçün SSRİ Nazirlər Soveti sədrinin müavini G.M.Malenkova müraciət edib bildirdi ki, bu qədər adamın köçürülməsi və yerləşdirilməsi üçün Azərbaycanın imkanı yoxdur. Müraciətdə 1949-1950-ci illər üçün əvvəllər müəyyən edilmiş köçürmə planlarına yenidən baxılması və "Ermənistan SSR-dən olan azərbaycanlı kolxozçuların və digər əhalinin 10 min nəfərinin 1949-cu ildə, 15 min nəfərinin isə 1950-ci ildə köçürülməsinə icazə verilməsi" xahiş edildi.
Deportasiya tədbirləri Ermənistanın 22 rayonunu, əsasən, Basarkeçər, Zəngibasar, Noyemberyan, Mikoyan, Dilican, Aştarxan, Kirovakan rayonlarını əhatə edirdi. Bu rayonlar əsasən azərbaycanlıların yığcam şəkildə, yaxud ermənilərlə qarışıq halda yaşadıqları dağlıq və dağətəyi rayonlar idi. Erməni millətçiləri, ilk növbədə, azərbaycanlıları bu rayonlardan qovub çıxarmağa çalışırdılar. Ermənistandan deportasiya olunmuş azərbaycanlılar Azərbaycan SSR-in Kür-Araz ovalığı və digər rayonlarında yerləşdirilərkən burada yaşayan ermənilər tərəfindən də təqib olunur və onlar barədə rəhbərliyə böhtan dolu məktub və teleqramlar göndərilirdi. Azərbaycan SSR Şamxor (indiki Şəmkir) rayon partiya və icra orqanlarında rəhbər vəzifə tutan ermənilər 150 nəfər azərbaycanlının öz təsərrüfatları ilə birlikdə rayondan sürgün edilməsi barədə qərarın qəbul edilməsinə nail olmuşdular.25 Ermənilərin Azərbaycanda bu özbaşınalığına respublikanın XDİN-də, partiya və sovet orqanlarında rəhbər vəzifə tutan Markaryan, Qriqoryan, Yemelyanov, Borşov və başqaları himayədarlıq edirdi. Onlar ermənilərin yığcam yaşadıqları DQMV və onun ətrafında yerləşən rayonlarda deportasiya olunanların yerləşdirilməsinə hər cür maneçilik törədir, M.C.Bağırova yalan və böhtanla dolu rəsmi arayışlar təqdim edirdilər. Köçkünlərin ermənilər tərəfindən sıxışdırılması barədə kollektiv imza ilə göndərilən ərizə və məktubları respublika Təhlükəsizlik Nazirliyinin rəhbəri

Yemelyanov qəsdən M.C.Bağırova təqdim etdiyi arayışda "millətçilik", "siyasi təxribat" kimi xarakterizə edirdi. 1949-cu ildə Ermənistandan Azərbaycanın Saatlı, Göyçay, Mirbəşir (indiki Tərtər), İmişli, Əli Bayramlı, Zərdab, Salyan, Kürdəmir, Xaldan, Sabirabad, Jdanov (indiki Beyləqan), Yevlax, Ucar, Gədəbəy və Bərdə rayonlarına 15276 adam köçürülmüşdü. 1950-ci il martın 14-də və avqustun 25-də Azərbaycan və Ermənistan respublikalarının Nazirlər Sovetləri həmin ilin yazında və payızında müvafiq olaraq Azərbaycana 3419 təsərrüfatın və 14361 nəfər adamın köçürülməsi barədə qərar qəbul etmişdilər.28 Lakin köçürülmə, daha doğrusu, mütəşəkkil deportasiya planı erməni millətçilərin istədikləri sürətlə həyata keçirilmirdi. Bu, qeyri-insani tədbirin planlaşdırılmış şəkildə həyata keçirilməsinə bir sıra obyektiv və subyektiv səbəblər mane olurdu. Deportasiya olunanların sosial və məişət problemləri lazımınca həll edilmirdi (respublikanın qısa müddətdə bu yerlərdə kifayət qədər mənzil tikmək imkanı yox idi). Yerlərdə buna süni maneələr də yaradılırdı. Bunun nəticəsi olaraq, 1950-ci ildə Azərbaycandan Ermənistana - öz keçmiş yaşayış yerlərinə qayıtma prosesi başlanmışdı. Köçkünlər içərisindən çıxılmaz vəziyyətə düşənlərin bəziləri əlacsız qalaraq Mərkəzi hökumətə şikayət və etiraz məktubları göndərirdilər. Lakin bu şikayət və etirazlar heç bir nəticə vermirdi.29 1950-ci ildə Ermənistandan Azərbaycana 2907 təsərrüfat və ya 12332 adam köçürülmüşdü. Bu, əvvəlki illərlə müqayisədə ən yüksək göstərici idi. Lakin erməni millətçiləri və onların mərkəzi hökumətdəki himayədarları SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr və 1948-ci il 10 mart tarixli qərarlarının yerinə yetirilməsi vəziyyətindən qəti narazı idilər. Onların təkidi ilə 1951-ci il fevralın 28-də SSRİ Nazirlər Soveti "1951-ci ildə köçürülmə planı haqqında" 605 saylı məxfi qərar qəbul etmişdi. Bu rəsmi sənəddə köçürmə prosesinin sürətləndirilməsi tələb olunurdu. Lakin görülən sərt inzibati tədbirlər də öz lazımi nəticəsini vermədi. Əksinə, hətta 1951-ci ildə erməni millətçilərinin istəyinin əksinə olaraq, köçürülənlərin geriyə qaytarılması halları çoxaldı. Belə ki, Ermənistan SSR Nazirlər Soveti yanında Köçürmə İdarəsinin rəisi 1951-ci mayın 27-də verdiyi məlumatda 36 azərbaycanlı ail geriyə qayıtdığını göstərirdi.

1952-53-cü illərdə Ermənistandan daha 3155 təsərrüfat və 1376 nəfər azərbaycanlı deportasiya edildi. Lakin geri qayıdanların sayı da artdı. 1954-cü ildə Azərbaycan SSR kənd təsərrüfatı nazirinin müavini M.Poladovun rəhbərliyi ilə Ermənistana ezam edilmiş xüsusi komissiya müəyyən etdi ki, köçürülənlərin geriyə qayıtmalarının başlıca səbəbi Azərbaycanın Kür-Araz ovalığında elementar yaşayış şəraitinin olmamasıdır. Bu səbəbdən də Azərbaycandan Ermənistana 1115 ailə geri qayıtmışdı. Geri qayıdanlar Ermənistanda qeydə alınmır və adi vətəndaş hüquqlarından məhrum edilirdilər. Deportasiya prosesi 1956-cı ilə qədər davam etdirildi. 1954-1956-cı illərdə 1316 təsərrüfat və 5876 nəfər Ermənistandan deportasiya olunmuşdu.31 Ümumiyyətlə, Ermənistan SSR-də etnik təmizləmənin bu mərhələsində 100 min nəfərdən çox azərbaycanlı zorla köçürülmüş və ya köçməyə məcbur edilmişdir. Onların hər üç nəfərindən biri yeni şəraitə, isti, quru iqlimə, məişət təminatsızlığına uyğunlaşa bilməyib, aclıq və xəstəlikdən həlak oldu.33

1948-1956-cı illərdə Ermənistan SSR-dən, öz tarixi etnik torpaqlarından deportasiya edilən azərbaycanlıların bu faciəsi hüquqi cəhətdən 1948-ci ildə BMT-nin İnsan Hüquqları Komissiyasının qəbul etdiyi qərarın II maddəsinə uyğun olaraq soyqırım və etnik təmizləmə kimi qiymətləndirilməlidir.

Zaqafqaziyada hökumətin yeritdiyi antiazərbaycan siyasətinin bir təzahürü də Ermənistan və Gürcüstandakı qədim Azərbaycan torpaqlarında toponimlərin özgələşdirilməsinə, azərbaycanlılara məxsus abidələrin məhv edilməsinə geniş

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən — min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948—1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur.

Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrki Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır.

Təəssüf ki, 1948—1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir.

Yuxarıda göstərilənləri nəzərə alaraq **qərara alıram:**

1. 1948—1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədi ilə aşağıdakı tərkibdə Dövlət Komissiyası yaradılsın:

**Dövlət Komissiyasının sədri**

Heydər **Əliyev** —Azərbaycan Respublikasının Prezidenti

**Dövlət Komissiyası sədrinin müavini**

Artur **Rasizadə** —Azərbaycan Respublikasının Baş naziri Dövlət Komissiyasının üzvləri

Ramiz **Mehdiyev** —Azərbaycan Respublikası Prezidenti İcra Aparatının rəhbəri

Vasif **Talıbov** —Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri

İzzət **Rüstəmov** —Azərbaycan Respublikası Baş nazirinin müavini

Elçin **Əfəndiyev** —Azərbaycan Respublikası Baş nazirinin müavini

Həsən **Həsənov** —Azərbaycan Respublikasının xarici işlər naziri

Namiq **Abbasov** —Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri

Ramil **Usubov** —Azərbaycan Respublikasının daxili işlər naziri

Eldar **Həsənov** —Azərbaycan Respublikasının Baş prokuroru

Südabə **Həsənova** —Azərbaycan Respublikası ədliyyə nazirinin birinci müavini

Xanlar **Hacıyev** —Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri

Sirus **Təbrizli** —Azərbaycan Respublikasının mətbuat və informasiya naziri

Vəfa **Quluzadə** —Azərbaycan Respublikasının xarici siyasət məsələləri üzrə Dövlət müşaviri

Hidayət **Orucov** —Azərbaycan Respublikasının milli siyasət məsələləri üzrə Dövlət müşaviri

Fatma **Abdullazadə** —Azərbaycan Respublikası Prezidenti İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri

Şahin **Əliyev** —Azərbaycan Respublikası Prezidenti İcra Aparatının Qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri

Fuad **Ələsgərov** —Azərbaycan Respublikası Prezidenti İcra Aparatının Dövlət-hüquq şöbəsinin müdiri

Yusif **Hümbətov** —Azərbaycan Respublikası Prezidenti İcra Aparatının Ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri

| | |
|---|---|
| Əli **Həsənov** | —Azərbaycan Respublikası Prezidenti İcra Aparatının İctimai-siyasi şöbəsinin müdiri |
| Rafael **Allahverdiyev** | —Bakı şəhəri İcra Hakimiyyətinin başçısı |
| Nizami **Xudiyev** | —Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri |
| Fərəməz **Maqsudov** | —Azərbaycan Elmlər Akademiyasının prezidenti |
| Anar **Rzayev** | —Azərbaycan Yazıçılar Birliyinin sədri |
| Cəmil **Quliyev** | —Azərbaycan Elmlər Akademiyası ictimai elmlər bölməsinin akademik-katibi əvəzi |
| İqrar **Əliyev** | —Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun direktoru |
| Budaq **Budaqov** | —Azərbaycan Elmlər Akademiyası Coğrafiya İnstitutunun direktoru |
| Ataxan **Paşayev** | —Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsinin rəisi |
| Yusif **Yusifov** | —N. Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin ümumi tarix kafedrasının müdiri |

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmanın icrası ilə bağlı məsələləri həll etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**

Bakı şəhəri, 18 dekabr 1997-ci il
№ 656

### Ədəbiyyat

1.Əliyev H.Ə. «1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında» Azərbaycan Respublikası prezidentinin fərmanı. 18 dekabr, 1997

**Cənubi Azərbaycan 1946-60-cı illərdə.Azərbaycan SSR XX əsrin 70-80-ci illərində.**

**Plan:**

1.Cənubi Azərbaycan "Ağ inqilab" illərində

2. Siyasi həyat. H.Ə.Əliyevin Azərbaycan SSR-ə birinci rəhbərlik dövrü.

3. Azərbaycan SSR-in sənayesi 70-80-ci illərdə.

4. 70-80-ci illərdə respublika iqtisadiyyatında kənd təsərrüfatının xüsusi çəkisinin artması.

5. Sosial-mədəni quruculuq.

1950-ci illərin sonu – 60-cı illərin əvvəllərində İranda sosial-iqtisadi və siyasi böhranın dərinləşməsi. Cənubi Azərbaycan «Ağ inqilab» illərində Cənubi Azərbaycandankı müasir sosial-iqtisadi və siyasi vəziyyətin ilkin şərtləri 60-70-cı illərdə feodalizmdən kapitalizmə keçid mərhələsində yarandı. İranın ən böyük aqrar rayonlarından biri olan Cənubi Azərbaycanda sosial-siyasi və iqtisadi böhran kəskinləşdi. Şah rejimi yaranmış təhlükənin qarşısını almaq üçün «yuxarıdan islahatlar keçirmək yolunu seçdi. Qan axıdılmadan həyata keçirilən bu islahatlar «ağ inqilab» adlandırıldı. Cənubi Azərbaycanda İranın digər rayonlarına nisbətən iri yarımfeodal torpaq mülkiyyəti geniş yayılmışdı. Burada sosial ziddiyyətlər daha da kəskinləşmişdi. Bütün bunlar islahatın Cənubi Azərbaycandan başlanmasını şərtləndirirdi. İran dövlət və hökumət rəhbərləri 1947-49-cu illərdəAzərbaycanda istədikləri şəxsəri güllələdilər, sürgun etdilər, onlara divan tutdular. Həmin illər İran qəzetləri yazırdı ki, Azərbaycanda görünməmiş bir qəhətlik, dərin bir iqtisadi böhran hökm sürür. Azərbaycanın bir sıra şəhərlərində aclığa qarşı kütləvi nümayişlər oldu. Təbrizin fabrik və zavodlarında fəhlə tətilləri baş verdi. Onlar əmək haqqının artırılmasına nail oldular. 1948-ci ilin payızında Azərbaycanın bir sıra kəndlərində kəndlilərlə mülkədarlar arasında münaqişələr baş verdi, nəticədə onlar məhsul bölgüsündə öz paylarının artırılmasına nail oldular. 24 oktyabr 1949-

cu il tarixdə 16-cı çağırış İran məclisinə seçkilər zamanı Milli Cəbhə yaradıldı. O, İngiltərə-İran Neft Şirkətinin milliləşdirilməsi uğrunda hərəkata rəhbərlik edirdi. Tərkibinə isə «İran partiyası», «İslam mücahidləri təşkilatı» və b. daxil idi. Cəbhə milli burjuaziyanın mənafeyini əks etdirirdi. İranda 1953-cü il avqustun 19-da Müsəddiq hökuməti devrilmiş, Milli Cəbhənin fəaliyyəti qadağan edilmişdi. Təşəbbüs yenə də ölkənin kapitalistcəsinə yüksəlməsi istiqamətini davam etdirən şahın əlinə keçmişdi. 1953-59-cu illərdə hakim dairələr hər vəchlə demokratiyanı boğmağa çalışır, aqrar çıxcışları, fəhlə tətillərini yatırır, yüzlərlə ziyalını işdən götütür, bir sıra mətbuat orqanlarını bağlayırdılar. 1957-ci ildə paytaxtda və bəzi rayonlarda hərbi vəziyətin ləğv edilməsi ilə yanaşı, SAVAK- təhlükəsizlik və məlumat təşkilatı yaradıldı. Monarxiyanın mövqelərinin möhkəmləndirilməsi tədbirləri görülürdü. 1955-ci ildə dövlət torpaqlarının bölgü və satışı üzrə qanun qəbul edildi. Yarımfeodal torpaq sahibliyi kökündən pozulur və ölkənin tarixi inkişafında yeni mərhələ açılırdı. ABŞ şahı inandırırdı ki, hakim zümrələrin iqtisadi və siyasi mövqeyni laxlatmadan sosial-iqtisadi islahatlar keçirsinlər. O, istiqraz və kreditlərlə köməyi davam etdirər. 1960-cı ilin oktyabrında şah bir müsahibəsində demişdi ki, mən ölkədə dəyişiklik etmək istəyirəm. Lakin inqilabsız, yuxarıdan başlayaraq. Qan tökmədən, «ağ inqilab». 1961-ci ilin payızında milli burjuaziyanı təmsil edən «Milli Cəbhə» yenidən fəallaşdı. Ölkədə siyasi mübarizə kəskinləşdi. İnkişaf üçün böyük imkanlara malik olmasına baxmayaraq, 60-cı illərin əvvəllərində Azərbaycan iqtisadi cəhətdən İranın geridə qalmış bölgələrindən biri idi. Şah burada inkişaf planını həyata keçirməyə çalışmır, bu çətinliyi «ölkənin şimaliqərbində» etnik və dil fərqlərinin mövcudluğu»nda görürdü. 1961-ci ilin yaz və yayında demokratik azadlıqlar uğ- runda tələbə hərəkatı başlandı. Milli siyasətə qayıdış, 20-ci məclisə azad seçkilər tələb edilirdi. 1962-ci ilin yanvarında Təbriz və Şirazda tələbə mitinqləri baş verdi. Malikanələr yandırılır, yerli hökumət dairələrinə qarşı hərəkat artırdı. Aydın oldu ki, sosial-iqtisadi strukturda əsaslı dönüş odmadan, ölkənin qarşısında duran problemi, iqtisadi və siyasi stabillik yaratmaq mümkün olmayacaq. Monarxiya ya siyasi aləmdən getməli, ya da burjua monarxiyasına çevrilməli idi. Aqrar islahat layihəsi.

İslahatlar proqramında ən vacibi aqrar islahat idi. Bu 1962-ci ilin 9 yanvarında qəbul edildi. İslahatlar üçün qanun layihələri 1963-cü ilin 26 yanvarında keçirilmiş referendumda təsdiq edildi. Aqrar islahatın birinci mərhələsinin (mart 1962-1963) həyata keçirilməsi 1962-ci il martın 2-də Marağada (Şərqi Azərbaycan) başlandı. Birinci mərhələ iri mülkədarların torpaq mülkiyyətçiliyinin bir kəndlə məhdudlaşdırılmasını, qalan torpaqların dövlət tərəfindən alınmasını və onların kəndliicarəçilərə satılmasını nəzərdə tuturdu. Bu mərhələ üzrə 1978- ci ilin əvvəlində Azərbaycanda cəmi 3444 kənd və 85 tarlanıntorpaqları 197 min icarəçi-kəndli arasında bölüşdürülmüşdü. İslahatın ikinci mərhələsi (1963-1969) üç şərtdən ibarət idi: 1) torpağı uzunmüddətli dəyişməz şərtlərlə kəndlilərə icarəyə vermək; 2) kəndli icarəçilərə razılaşma əsasında satmaq; 3) əvvəllər mövcud olmuş məhsul bölgüsündə mülkədar və kəndli paylarına uyğun olaraq torpağı icarədarlara satmaq. Lakin bu mərhələnin əsas xüsusiyəti ondan ibarət oldu ki, torpaq kəndlilərə uzun müddətə icarəyə verildi. Növbəti üçüncü mərhələyə görə (1969-1974) xırda və orta mülkədarların və özəl vəqflərin torpaqları rehtası on qat nəqd, yaxud 12 qat uzunmüddətli möhlətlə ödənilməsi şərti ilə satılmalı oldu. Azərbaycan kəndliləri islahatın üçüncü mərhələsi üzrə bütün ölkədə torpaq almış kəndlilərin 23,9%-ni təşkil edirdi. Cənubi Azərbaycan üzrə göstəricilər bir qədər şişirdilmişdi. Məsələn, göstəricilərdən belə çıxırdı ki, Şərqi Azərbaycan ostanında kənd sakinlərinin təqribən 83%-i islahata qatılıb. Ancaq nəzərə almalıyıq ki, torpaq sahələrini yalnız «zare» adlanan kəndli ailələri ala bilərdilər. Onların payları isə kənd əhalisinin yarısından çox deyildi. Ancaq aqrar islahatın sosial effekti partlamaq ərəfəsində olan kəndli həyəcanlarının qarşısını almaqdan ibarət oldu. İqtisadi nəticələr isə sosial nəticələrə nisbətən çox da böyük olmadı. Azərbaycan kənd təsərrüfatının əsas sahələri əkinçilik və heyvandarlıq idi. 60-70-ci illərdə bu struktur əsaslı şəkildə dəyişmədi. Sərmayənin kənd təsərrüfatından sənayeyə axını, yarımfeodal mülkədarların kapitalistlərə çevrilməsi, yəni aqrar islahatın təbii nəticəsi ölkənin mərkəzi bölgələrindən fərqli olaraq Azərbaycanda o qədər də böyük vüsət almadı.

XX yüzilliyin 60-cı illərinin sonuna yaxın Azərbaycanınsosial-iqtisadi həyatını dərin böhran bürüdüyü, olduqca mürəkkəb,ağır bir şəraitdə, respublikamızın iqtisadi inkişaf göstəricilərinə görə keçmiş Sovetlər Birliyində sonuncu yerdə olduğu bir zamanda, 1969-cu ilin iyulunda hakimiyyətə gələnHeydər Əliyev 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etmişdir.Uzun illərDövlət Təhlükəsizlik Komitəsində işləyən,1967-1969-cu illərdə bu orqana rəhbərlik edən Heydər Əliyevrespublikada idarəçiliyi gücləndirməyə, rüşvətxorluğa, korrupsiyaya qarşı barışmaz mübarizə aparmağa başladı. Heydər Əliyev mərkəzdəki nüfuzundan respublikanın sosial-iqtisadi,mədəni inkişafı üçün səmərəli istifadə etməyə çalışırdı.Heydər Əliyevin təşəbbüsü ilə 1969-cu il avqustun 5-dəAzərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin(Azərb.KP MK) plenumu oldu. Burada Azərbaycanın tarixindəilk dəfə olaraq respublikanın sosial-iqtisadi, siyasi və mədənihəyatı dərindən, hərtərəfli təhlil olundu, uzun illərdən bəri yığılıb qalmış problemlər müzakirə eldildi və çıxış yollarımüəyyənləşdirildi. Həmin vaxtdan da Azərbaycanda tənəzzüldəntərəqqiyə dönüş başladı. Cəmiyyətin keyfiyyətcə irəliyə, milli özünüdərkə, milli özünə qayıdışa dönüş mərhələsinin başlanğıcı qoyuldu. 1969-cu ildən respublikanın ictimai-siyasi, iqtisadi vəsosial-mədəni həyatında intibah dövrü başlandı. Az müddətdə respublikanın idarəçilik sistemi xeyli möhkəmləndirildi. Heydər Əliyev Sovetlər Birliyində, onun mərkəzi aparatında işgüzar,prinsipial bir dövlət xadimi kimi böyük nüfuz qazandı, o,fenomenal siyasi və dövlət xadiminə çevrildi. Onun Azərbaycana rəhbərlik etdiyi birinci mərhələ – 1969-1982-ciillər XX əsr Azərbaycanının ictimai-iqtisadi, siyasi və mədəni inkişaf tarixində ən parlaq dövr hesab edilir. Bu illərdə əldəedilmiş uğurlar, Heydər Əliyevin uzaqgörən siyasətinin düzgünlüyünü və həyatiliyini göstərir. 1969-1982-ci illərdə Azərbaycan SSR-də qazanılan nailiyyətlər müstəqil AzərbaycanRespublikasında hüquqi, dünyəvi və demokratik dövlət quruculuğu üçün mühüm təməl oldu.Heydər Əliyev kiçik fasilələrlə XX əsrin son otuz ilindəAzərbaycana rəhbərlik etmişdir (1969-1982-ci illər və 1993-2003-cü illərdə Azərbaycana rəhbərlik etmiş, 1982-1987-ci illərdə SSRİNazirlər Sovetinin birinci

müavini işləmiş, iyun 1990-1993-cü illərdə isə Naxçıvan MR Ali Məclisinin sədri, Azərbaycan Respublikası Milli Məclisinin sədr müavini olmuşdur).

Heydər Əliyev hakimiyyətə gəldiyi vaxtdan respublikanın bütün təşkilatlarını dövlət və əmək intizamınımöhkəmləndirməyə, respublikada mənəvi-psixoloji mühiti sağlamlaşdırmağa çağırırdı. O, Azərbaycan KP MK-nın plenumlarında, qurultaylarında, zona müşavirələrində və digər toplantılarda etdiyi məruzə və çıxışlarında, bir qayda olaraq,təsərrüfat və mədəni quruculuq məsələlərini təhlil edir,nöqsanları aşkarlayır, onları aradan qaldırmağın yollarınımüəyyənləşdirirdi. Bu illər Azərbaycanın iqtisadi, ictimai-siyasi həyatında dönüş başladı, respublikanın dinamik inkişafı üçün kompleks proqramlar hazırlandı.Azərbaycan Kommunist Partiyası XXVIII qurultayınınqəbul etdiyi qətnamədə deyilirdi: «Partiya, sovet və təsərrüfatorqanlarının fəaliyyətində yol vermiş böyük nöqsanlar, mədəniyyət və təsərrüfat quruculuğu işlərində, kadrların seçilməsində və yerləşdirilməsində respublikanın əvvəlki rəhbərliyi tərəfindən buraxılmış ciddi səhvlər nəticəsində respublika iqtisadiyyatı uzun müddət ləng, ittifaq üzrə orta səviyyədən xeyli geri qalan bir sürətlə inkişaf etmişdir, sənaye və kənd təsərrüfatı istehsalının tam bir sıra göstəriciləri üzrə Azərbaycan SSR ölkədə axırıncı yerlərdə olmuşdur». 1969-cu il avqust plenumunda, sonrakı plenum və qurultaylarda, müşavirələrdə Heydər Əliyevin çıxışlarında, nitqlərində respublikanın iqtisadi, siyasi həyatında mövcud olanvəziyyət təhlil edilmiş, rəhbərlik prinsiplərində ciddidəyişikliklər olunmuş, kadrlara qarşı tələbkarlıqgücləndirilmişdi.Tezliklə mərkəzdə böyük nüfuz qazanan, öz rəhbərlik prinsipləri ilə fərqlənən Heydər Əliyev 1976-cı ildə Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd və 1982-ci ildə Sov.İKP MK Siyasi Bürosuna üzv seçilmişdir.

**2. Azərbaycan SSR-in sənayesi 70-80-ci illərdə**

Heydər Əliyevin hakimiyyəti dövründə (1969-1982-ci illərdə) 250-dən çox zavod, fabrik, istehsal sexləri və digər istehsal müəssisələri istifadəyə verilmiş, Müasir istehsal sahələri yaradılmış, metallurgiya, radiotexnika elektrotexnika sahələri inkişaf etdirilmişdi. Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı nəticəsində yapon texnologiyası əsasında məişət kondisionerləri zavodu tikilib istifadəyə verilmişdir.

Bakı, Gəncə, Sumqayıt və digər şəhərlərdə yeni istehsal sahələri açılmış, abadlaşdırma aparılmışdı. 1977-ci ildə Dağlıq Qarabağ məsələsi yenidən qaldırılsa da, onun qarşısı alındı. Azərbaycan KP MK-nın 1969-cu və 1970-ci il avqust plenumlarında respublikada iş intizamı, iqtisadiyyatda yaranmı uzun sürən geriliyin, mövcud nöqsanların, qüsurların səbəbləri müzakirə edilmiş, onların aradan qaldırılmasının yolları açıqlanmışdı. Plenumlardan sonra Heydər Əliyevin rəhbərliyi altında respublika iqtisadiyyatının dinamik inkişafını təmin etmək üçün kompleks tədbirlər görülmüşdür. Respublika rəhbəri kimi Heydər Əliyev mərkəzdə olan nüfuzundan istifadə edərək Sov.İKP MK və SSRİ Nazirlər Soveti tərəfindən Azərbaycan SSR-in iqtisadi, sosial və mədəni həyatında köklü dəyişiklikləri, intensiv inkişafı təmin edən, respublika əhalisinin maddi həyat səviiyyəsinin yüksəlməsinə gətirib çıxaran bir sıra mühüm qərarların qəbuluna nail olmuşdu: 1) 1970-ci il iyulun 23-də «Azərbaycan SSR xalq təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında»; 1970-ci il iyulun 25-də «Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da inkişaf etdirmək tədbirləri haqqında»; 3) 1975-ci il iyulun 9-da «Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında»; 4) 1976-cı il iyulun 27-də «1976-1980-ci illərdə respublika sənayesinin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan KP MK-nın təkliflərinin nəzərdən keçirilməs nəticələri barəsində»; 5) 1979-cu il fevralın 22-də «Azərbaycan SSR-də kənd təsərrüfatını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında» və s. 70-ci illərin əvvəllərindən respublika sənayesinin inkişafında yeni mərhələ başladı. Sənayenin strukturunda əsaslı dəyişikliklər baş verdi. 1970-ci ildə sənaye məhsulu istehsalı 8,6 faiz artdı. Bu illərdə neft sənayesində uzun illərdən bəri yığılıbqalmış problemlər həll edilmiş, Azərbaycan neft sənayesinin inkişafı yeni mərhələyə daxil olmuşdu. Respublikada neft tariximizin son yüzilində 1 milyard ton neft çıxarılmışdı. Təkcə, 1971-ci ildə 18 milyon tondan çox neft hasil olunmuşdu. Geoloji kəşfiyyat işlərinin genişləndirilməsi nəticəsində üç yeni neft yatağı: Siyəzəndə Zəyli-Zeyvə, Cənubi Kür vadisində Kürsəngi, Muradxanlı yataqları kəşf olunmuşdu. Sov.İKP MK-nın 1971-ci il 5 yanvar tarixli «Neft sənayesində və geoloji kəşfiyyat təşkilatlarında

qabaqcıl qazma briqadalarının iş təcrübəsinin yayılması haqqında» qərarına uyğun olaraq, «Azneft»in və «Xəzərdənizneft»in işi təkmilləşdirilmişdir. 70-ci illərdə Azərbaycana yeni texnologiya və «Şelf2»,«Şelf-3», «Şelf-4», «Şelf-5» qazma qurğuları gətirildi. Bu, respublikada yeni neft sahələrinin açılmasına – «İstiqlal» və «Dədə Qorqud» qurğularının işə salınmasına səbəb oldu.Xəzərdə «28 aprel», «Bahar», «Azəri», «Günəşli» və digər zəngin neft və qaz kondensatı yataqları aşkar edildi. Sualtı neft kəməri çəkildi. Dənizdə qazma işləri yeni texnologiya əsasındadaha da təkmilləşdirildi. Dənizdə 2800-6500 metr dərinlikdə neft quyuları qazılmağa başlandı.Neft hasilatında azalmanın qarşısı xeyli alınmışdı.

1982-ci ildə Heydər Əliyev görkəmli, böyük iş təcrübəsinə malik, mərkəzdə böyük nüfuzu olan bir siyasi xadim kimi Sovetlər Birliyində yüksək vəzifəyə seçildi. SSRİ Ali Soveti Rəyasət Heyətinin 22 noyabr 1982-ci il tarixli qərarı ilə Heydər Əlirza oğlu Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi və 1987-ci il oktyabrın 21-ə kimi bu vəzifədə yüksək bacarıqla işlədi. 1987-ci il oktyabrın 21-də Sov.İKP MK-nın plenumu «Səhhətinə görə pensiyaya çıxması ilə əlaqədar Sov.İKP MK Siyasi Bürosunun üzvü vəzifəsindən azad edilməsi barədə
H.Ə.Əliyev yoldaşın xahişini təmin etmişdir».

**3. 70-80-ci illərdə respublika iqtisadiyyatında kənd təsərrüfatının xüsusi çəkisinin artması**

XX yüzilliyin 70-80-ci illərində respublikanın kəndtəsərrüfatında əsaslı dönüş yaranmış, bu sahəyə diqqət xeyli artmışdı.Respublika rəhbəri Heydər Əliyevin təşəbbüsü ilə
çağırılmış Azərbaycan KP MK-nın 1969-cu il avqust plenumunda iqtisadiyyatın başqa sahələrində olduğu kimi, kənd təsərrüfatında da yaranmış vəziyyət ciddi təhlil edilmiş,
geriliyin, nöqsanların səbəbləri aşkar edilmiş, mövcud vəziyyəti aradan qaldırmaq üçün yollar müəyyənləşdirilmiş, kompleks tədbirlər görülmüşdü.Azərbaycan SSR-də kənd təsərrüfatının inkişafında Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin 1970-ci ilin iyulunda«Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını inkişaf etdirmək

tədbirləri haqqında», 1975-ci ilin iyulunda qəbul etdiyi «Azərbaycan SSR-də kənd təsərrüfatını daha da intensivləşdirmək tədbirləri haqqında», 1979-cu ilin fevralında qəbul etdiyi «Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülük və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında» qərarlar mühüm rol oynamışdı. Bu qərarlarda respublikada kənd təsərrüfatının vəziyyəti hərtərəfli təhlil olunmuş, onun inkişaf perspektivləri müəyyənləşdirilmiş, əkinçilik və heyvandarlığın inkişafında mövcud olan nöqsanların aradan qaldırılması üçün tədbirlər planı hazırlanmış, kənd təsərrüfatının dinamik inkişafını təmin etmək məqsədilə intensivləşmənin tətbiqinə əsaslı vəsait qoyuluşunun artırılmasına xüsusi diqqət verilmişdi. 70-ci illərdə və 80-ci illərin birinci yarısında respublika rəhbəri Heydər Əliyevin fədakar əməyi nəticəsində respublikanın iqtisadiyyatında kənd təsərrüfatıınn xüsusi çəkisi artmış, kənd təsərrüfatında, o cümlədən bitkiçilikdə, tərəvəzçilikdə, bostançılıqda, əkinçilikdə, heyvandarlıqda uzun sürən geriliyə son qoyulmuş, kənd təsərrüfatının bütün sahələrində dinamik inkişafa nail olunmuş, həmçinin busahənin gələcək illərdə daha intensiv inkişafı üçün möhkəm qoyulmuşdu. 1969-1979-cu illərdə respublikanın kənd təsərrüfatında çox böyük irəliləyişlər baş vermişdi. Bu illərdə taxıl istehsalı 2,1 dəfə, pambıq istehsalı 2,5 dəfə, üzüm istehsalı 3,8 dəfə, tərəvəz istehsalı 2,4 dəfə, tütün istehsalı 2,1 dəfə, çay istehsalı ,1 dəfə artmışdı. Heydər Əliyevin prinsipial rəhbərliyi və iş təcrübəsi əsasında 1969-1982-ci illərdə İttifaq üzrə kənd təsərrüfatının ümumi məhsulunun 1,5-1,7 faizi respublikamızın payına düşürdü, hansı ki, bu rəqəm 60-cı illərdə 1 faiz idi. Kənd təsərrüfatının ümumi məhsulu 2 dəfədən çox artmış, ocümlədən taxılçılıqda məhsuldarlıq 48 faiz, pambıqçılıqda 29 faiz, üzümçülükdə 51 faiz, tərəvəzçilikdə 37 faiz, heyvandarlıqda 31 faiz yüksəlmişdi. 70-80-ci illərdə kənd təsərrüfatında pambıqçılığın, üzümçülüyün və taxılçılığın xüsusi çəkisi artmış, bu sahələrdə ixtisaslaşma və mərkəzləşdirmə həyata keçirilmiş və möhkəm maddi-texniki baza yaradılmışdır.Pambıqçılıqda 70-ci ilə qədər orta illik məhsul yığımı327,7 min ton olmuşdursa, 1971-1975-ci ildə bu rəqəm 440,8 in ton, 1981-1985-ci illərdə 653,8 min ton, 1976-1980-ci llərdə isə Heydər Əliyev tərəfindən yaradılan möhkəm madditexnik ibaza əsasında 706,7

min ton olmuşdu. Hər hektardan məhsuldarlıq 35 sentnerə çatmışdı. Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 1969-1982-ci illərdə pambıqçılığın ixtisaslaşdırılması, onun daha əlverişli təbii-iqlim şəraitinə uyğun rayonlarda yetişdirilməsi təmin edilmişdi. Hesablamalar göstərir ki, pambıqçılıq Bərdə, Ağcabədi, Sabirabad, Beyləqan, Göyçay, Ağdaş, Ağsu rayonlarında daha yaxşı inkişaf etmişdi. 1981-ci ildə respublikamızda 1 milyon 15 min 300 ton pambıq istehsal olunması pambıqçılığın ən gəlirli sahə olduğunu, Azərbaycanda pambıqçılığın yüksək inkişafını təmin etməyin mümkünlüyünü sübut etdi.Nəticədə Orta Asiya pambıqçıları ilə təcrübə mübadiləsi genişləndi. 1970-ci ildən başlayaraq 80-ci illərin ortalarına qədərrespublikada pambıq istehsalı ilbəil artaraq, pambıq istehsalı ən gəlirli sahəyə çevrilmişdi. 1971-1975-ci illərdə orta illik pambıq istehsalı 440,8 min ton, 1976-1980-ci illərdə 627,5 min ton və 1981-1985-ci illərdə 706,7 min ton təşkil etmişdir. Hər hektardan məhsuldarlıq 1966-1970-ci illərdə 16,0 sentner,
1971-1975-ci illərdə 21,6 sentner, 1976-1980-ci illərdə 30,3 sentner, 1981-1985-ci illərdə 37,1 sentner olmuşdur.

**4. Sosial-mədəni quruculuq**

70-80-ci illərdə Azərbaycanın iqtisadi inkişafı əhalinin sosial strukturunda ciddi dəyişikliklərə, əhalininsayının artmasına səbəb oldu.Belə ki,1970-ci ildəki 5117 min nəfərdən 1988-ci ildə 6917 min nəfərə çatmışdı.Şəhər əhalisi respublika əhalisinin ümumi sayının 54 faizini,kənd əhalisi isə 46 faizini təşkil edirdi. Müvafiq olaraq 1970-ci ildə kişilərin sayı əhalinin ümumi sayının 49 faizini, qadınlar isə 51 faizini təşkil edirdisə, bu rəqəm 1988-ci ilə qədər dəyişməmişdir. Respublika əhalisinin milli tərkibi 1989-cu ildə aşağıdakı kimi olmuşdur:

- azərbaycanlılar - 5805,0 min nəfər
- ruslar - 392,3 min nəfər
- ermənilər - 390,5 min nəfər
- ləzgilər - 171,4 min nəfər
- avarlar - 44,1 min nəfər
- ukraynalılar - 32,4 min nəfər

- tatarlar - 28,6 min nəfər
- yəhudilər - 25,3 min nəfər
- talışlar - 17,7 min nəfər
- türklər - 17,7 min nəfər
- gürcülər - 14,2 min nəfər
- kürdlər - 12,2 min nəfər
- tatlar - 10,2 min nəfər
- dağ yəhudiləri - 5,5 min nəfər
- udinlər - 6,1 min nəfər

1970-ci ildə respublikada doğulanların ümumi sayı 151 min nəfər idisə, bu rəqəm 1987-ci ildə 184,6 min nəfər olmuşdur. 1970-ci ildə əhalinin hər 1000 nəfərinə 6,8 nigah qeydə alınmışdır. Bu rəqəm 1980-ci ildə 9,8, 1987-ci ildə isə 9,9 təşkil etmişdir. Müvafiq olaraq, nigahın pozulması 1,3; 1,2;1,2 olmuşdur.**70-80-ci illərdə əhalinin təhsil səviyyəsi:** 1970-ci ildə

əhalinin hər 1000 nəfərindən 471 nəfəri ali və ya orta təhsilli idisə, 1979-cu ildə bu rəqəm 652 nəfər, 1986-cı ildə isə 741 nəfər təşkil edirdi. 70-80-ci illərdə respublika əhalisinin xalq təsərrüfatı sahələrində işləyən hissəsinin sayı 20,2 faiz artmışdı və onların 75,3 faizi maddi istehsal sahələrində çalışırdı. Qeyri-istehsal sahələrində çalışanların sayı 25,0 faizdən 26,1 faizə qalxmışdı. Xalq təsərrüfatında çalışan ali və orta ixtisas təhsilli mütəxəssislərin sayı artaraq 1970-ci ildəki 274 min nəfərdən 1987-ci ildə 625 min nəfərə çatmışdı. Onlardan ali təhsilli

mütəxəssislərin sayı 366 min nəfər, orta ixtias təhsillilərin sayı isə 129 min nəfər idi. 70-80-ci illərdə istehsal sahələrində işləyən ziyalılarınüçdə iki hissəsi sosial mənşəyinə görə fəhlələr və kəndliləriçərisindən çıxmışdı. 1970-ci ildə əhalinin ümumi sayındafəhlələrin sayı 51,5 faiz, qulluqçuların sayı 27,4 faiz və kolxozçuların sayı 20,6 faiz təşkil edirdisə, 1986-cı ildə

fəhlələrin sayı 26 faiz və kolxozçuların sayı 13 faiz olmuşdu. 70-80-ci illərdə əhalinin maddi rifah halı xeyli yaxşılaşmışdı. **70-80-ci illərdə respublika** 630 min yeni iş yeri açılmışdı

**Maarif və elm.**

XX əsrin 70-80-ci illərində Azərbaycanda elm və maarif sahəsində ciddi irəliliyişlər baş vermiş, təhsilin inkişafına diqqət xeyli güclənmişdi.1972-ci il avqustun 10-da Azərbaycan KP və Nazirlər Soveti «Gənclərin ümumi orta təhsilə keçməsinin başa çatması və ümumtəhsil məktəblərinin işinin daha da inkişaf etdirilməsi haqqında» qərar qəbul etmişdi. Qərarın icrası əsasında təkcə 1973-cü ildə respublikada 49 yeni məktəb binası tikilib istifadəyə verilmişdi. 1971-1975-ci illərdə Azərbaycanda 146.581 yerlik 254, o cümlədən kənd yerlərində 65.488 yerlik 173 məktəb binası tikilib istifadəyə verilmişdi. Qeyd olunan illərdə 23250 yerlik məktəbəqədər müəssisə, məktəblərin nəzdində 1780 yerlik internat binaları, müəllimlər üçün 1575 kvadrat metr yaşayış binası tikilmişdi. Bu illərdə məktəblər əyani və metodik vəsaitlərlə təmin olunmuş, kitabxana şəbəkələri genişləndirilmişdi. 70-80-ci illərdə tədrisin keyfiyyəti də əhəmiyyətli dərəcədə yaxşılaşmışdı. 1971-1975-ci illərdə 8 fənn üzrə kabinetlər təşkil olunmuşdu. 70-80-ci illərdə axşam və qiyabi təhsil məktəblərinin geniş şəbəkəsi yaradılmışdı. Orta və ali məktəblərin fəaliyyəti kökündən yaxşılaşdırılmış, tədrisin keyfiyyətinə diqqət artmışdı. 1975-1984-cü illərdə ümümtəhsil məktəblərinin şəbəkəsi xeyli genişləndirilmişdi. Respublikada fəaliyyət göstərən 4280 ümumtəhsil məktəbindən 3437-i, yaxud 76,1%-i kənd yerlərində yerləşirdi. 1982-ci ildə Bakı şəhərində 142 orta məktəb fəaliyyət göstərirdi. 70-80-ci illərdə aparılmış məktəb islahatı ixtisasların artırılmasına, tədrisin keyfiyyətinin yüksəldilməsinə, təlimtərbiyə işləri səviyyəsinin gücləndirilməsinə gətirib çıxardı. 70-ci illərdə və 80-ci illərin birinci yarısında Azərbaycanda təhsil sisteminin inkişafı ilə bağlı xeyli əhəmiyyətli tədbirlər keçirilmişdi. Nəticədə, respublikada təhsil sistemində 70-ci illərə qədər mövcud olan nöqsanların aradan qaldırılması sahəsində, inkişafında, əhalinin təhsil səviyyəsinin, işləyənlərin tərkibində ali və orta təhsillilərin xüsusi çəkisinin artmasında, təhsil ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsində, təhsil alanların hərtərəfli biliklərə yiyələnməsində, hazırlıqlı mütəxəssislərin hazırlanmasında böyük işlər görülmüş, əhəmiyyətli nailiyyətlər əldə edilmişdi.

# Ədəbiyyat

1. H.Ə.Əliyev. Sovet Azərbaycanı. Bakı, 1981
2. H.Ə.Əliyev. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. «Respublika» qəz., Bakı: 30 dekabr 2000
3. İ.H.Əliyev. «Heydər Əliyev və Azərbaycanın kənd təsərrüfatı». Bakı: 1997
4. Azərbaycanın iqtisadiyyatı. Bakı: 1988
5. Dulayeva H.T. Azərbaycan SSR-in kənd təsərrüfatı 60-80-ci illərdə.
6. Zeynalov İ.X. Azərbaycanın iqtisadi və sosial inkişafı (70-80-ci illərdə). Bakı: 1996
7. Zeynalov İ.X. Azərbaycanın sosial-iqtisadi inkişafı XX əsrin II yarısında. Bakı: Azərnəşr, 2004
8. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: 2004
9. XX əsr Azərbaycan tarixi. Bakı: 2004
10. Azərbaycan tarixi. 7 clddə, VII c., Bakı: Elm, 2003

## Sovet imperiyasının iflasdan qurtarmaq cəhdləri. “Yenidənqurma”.Dağlıq Qarabağ münaqişəsinin qızışdırılması.

1. **Sovet imperiyasının süqutunun daxili səbəbləri.**
2. **Sovet imperiyasının süqutunun xarici səbəbləri**

**3.“Yenidənqurma”siyasəti və onun iflası**

**4.Mərkəzin Qarabağ münaqişəsinin qızışdırılması**

Artıq 80-ci illərin ortalarında sovet ölkəsinin ictimai-siyasi, iqtisadi və mənəvi həyatında böhran yaranmışdı. Böhranlı vəziyyətin simptomları hələ 70-ci illərin ortalarından görünürdü, - elmi-texniki tərəqqi ləngiyirdi, sənayedə avadanlığın mənəvi aşınması, infrastrukturun zəifliyi, təbii ehtiyatlar hasilatının çətinləşməsi və bahalaşması, maddi ehtiyatlar qıtlığının meydana gəlməsi təzahür edirdi. Əmək məhsuldarlığının orta illik artımı 1965-1970-ci illərdəki 5,2 faizə qarşı 1981-1985-ci illərdə cəmi 3 faiz təşkil edirdi. Bu dövrdə istehsal olunan məhsulun orta illik artımı sənayedə 8,5 faizdən 3,1 faizə, kənd təsərrüfatında 4 faizdən 1,2 faizə, mal dövriyyəsi 8,2 faizdən 2,8 faizə, əsaslı vəsait qoyuluşu 7,6 faizdən 3,3 faizə enmişdi.

Böhrana əsas səbəb rəvan işləməsi üçün qüdrətli rəhbər tələb edən sosialist cəmiyyətinin uzun müddət, xüsusən 70-ci illərin ortalarından onu idarə edə biləcək, xüsusi keyfiyyətlərə sahib liderə malik olmaması idi. 1985-ci ildən sovet imperiyasına rəhbərlik edən Sov.İKP MK-nın Baş katibi M.S.Qorbaçov isə qurmağa yox, dağıtmağa çalışırdı. Sonralar, Türkiyənin Amerika Universitetindəki çıxışında o etiraf etmişdi: "Həyatının məqsədi kommunizmi məhv etmək olub".2 Belə bir şəxsiyyətin rəhbərlik etdiyi sosialist dövlətinin dağılması təbii idi.

60-cı illərdə ölkədə keçirilən islahatlar iflasa uğradı. Çünki faktiki olaraq köhnə ictimai-siyasi rejim toxunulmaz qalmışdı, effektli olmayan iqtisadiyyat, ekstensiv inkişaf modeli qalmaqda idi.

İctimai həyatın bütün sahələrinə partiya amirliyi gücləndikcə, bu təşkilatda mənəvi çürümə prosesi sürətlənirdi. Partiya özünə sosial dayaq yaratmaq üçün xalqları,

cəmiyyəti, kollektivləri, təşkilatları parçalayırdı. İqtidar tərəfdən dəstəklənən rəhbər elita - partiya-təsərrüfat "fəalları" əldə etdikləri imkanlardan sui-istifadə edərək varlanırdılar. Məkrli yolla faydalanan fırıldaqçılar "sosialist həyat tərzi" meyarlarına sığışmayan dəbdəbəli yaşayış və yığdıqlarından asudə bəhrələnmək naminə mövcud siyasi-ictimai sistemin dağılmasına biganə idilər.Hakim üsuli-idarənin mənəvi dayağı olan kommunist ideologiyası iflasa uğramaqda idi. Onun təbliğ etdiyi ehkamlarla qurulmuş cəmiyyət, "böyük gələcək" haqqında uydurma iddialarla həyat həqiqətləri arasında ziddiyyətin dərinləşməsi böhranın mühüm səbəblərindən biri idi. Xalq öz real vəziyyətini dərk edir, sovet imperiyasının ideologiya dayaqları sarsılırdı. Sovet respublikalarında milli özünüdərk, suveren hüquqların hakim-şovinist dairələr tərəfindən tapdalanmasına, respublikaların milli sərvətlərinin talan olunmasına etirazlar güclənməkdə idi.

Dövləti qanunlar deyil, partiya elitasının maraqları idarə edirdi. Sözdə elan olunmuş demokratik hüquq və azadlıqların real təminatı yox idi. İqtidar hüquqi nihilizmin dərinləşməsində maraqlı idi. Qanunsuzluq, ona qarşı mübarizənin səmərəsizliyi adamları siyasi həyata münasibətdə laqeydləşdirirdi. Sovet İttifaqının iflası mühüm xarici səbəblərlə də şərtlənirdi. Qərbdə "Bəla imperiyası" kimi damğalanan bu "super" dövlət iki sistem - kapitalist və sosialist sistemləri arasında çox böyük çətinliklə hərbi paritet yaratmağa nail olmuşdu. Lakin dünyanın demokratik dövlətləri ona qarşı qüvvələrini birləşdirirdilər. Ümumdünya antikommunizm liqasının fəaliyyəti genişlənmişdi. Beynəlxalq müsəlman dini mərkəzləri də bu liqaya qoşulmuşdu. Ümumdünya "İslam Liqası" 1976-cı ildə kommunizmə qarşı müqəddəs müharibə elan etmişdi. 70-ci illərin sonlarında təşkil olunmuş "İslam İnternasionalı" da SSRİ-də müsəlman antikommunist və antisovet qüvvələri birləşdirmək uğrunda mübarizə aparırdı.

70-ci illərin ortalarında SSRİ Şərqi Avropada orta mənzilli raketlər yerləşdirdi. Bu, mövcud strateji tarazlığı pozdu. 1979-cu ilin dekabrında sovet ordusu Əfqanıstana soxuldu.4 Nəticədə demokratik ölkələr tərəfindən artan sovet təhlükəsinə qarşı yeni hərbi proqramlar, o cümlədən ABŞ-ın "Ulduz müharibələri" proqramı hazırlandı. İqtisadi sanksiyalar tətbiq edildi. ABŞ SSRİ-yə taxıl ixracını

dayandırdı. SSRİ-nin isə bu tədbirlərə, xüsusən külli miqdarda vəsait tələb edən yeni proqramlara cavab verməyə imkanı yox idi.

Dünya dövlətlərinin mövcud satış və xammal bazarlarını, tranzit imkanlarını yeni real qüvvələrə müvafiq yenidən bölüşdürmək cəhdləri də SSRİ-nin iflasını sürətləndirirdi. Onu növbəti böhranlı vəziyyətdən qurtarmaq üçün 80-ci illərin ikinci yarısında cəhdlər göstərildi. Sovet İttifaqı Kommunist Partiyasına rəhbərliyi ələ keçirdikdən sonra həqiqi siyasi məqsədini eklektik ideoloji və dövlətçilik sistemi yaratmaq cəhdləri ilə pərdələyən M.S.Qorbaçov Mərkəzi Komitənin 1985-ci il Aprel plenumunda iqtisadi və sosial-mədəni tərəqqinin "sürətləndirmə konsepsiyası"nı irəli atdı.5 Elmi-texniki tərəqqini, cəmiyyətin maddi-texniki bazasını inkişaf etdirmək, istehsal münasibətlərini təkmilləşdirmək, bütün ictimai, siyasi və ideoloji təsisatlar sistemini fəallaşdırmaq, "insan amilinin rolunu yüksəltmək" üçün sözdə təşəbbüslər edildi. Əməyin təşkili, təsərrüfat hesabının tətbiqi, çoxukladlı iqtisadiyyatı, eləcə də icarə sistemini, kooperasiyanı inkişaf etdirmək, müxtəlif mülkiyyət formalarına əsaslanan təsərrüfatlara bərabər imkanlar yaratmaq haqqında qanun və qərarlar qəbul olundu. Lakin onların işləməsi üçün münasib şərait yaranmadı. Əvvəlki direktiv aktlar kimi, bu qanun və qərarlar da gözlənilən nəticələri vermədi. Təkpartiyalı siyasi sistem, partiya amirliyi ləğv olunmadan, respublikaların suveren hüquqlarını özlərinə qaytarmadan iqtisadiyyatı dirçəltmək mümkün deyildi.

"Yenidənqurma"nın elan olunmuş cəlbedici məqsədləri Azərbaycan xalqında, xüsusən ziyalılarda ümidlər doğurmuşdu. Xalq arasında demokratik ideyalar yayılırdı. Bundan narahat olan mərkəz mühüm geosiyasi dəyəri olan Azərbaycanı və deməli, bütün Cənubi Qafqazı əldə saxlamaq üçün yenidən uydurma "Dağlıq Qarabağ problemi"ni qızışdırdı. 1975-ci ildə Beyrutda özünü Akopyan kimi təqdim edən marksist dünyagörüşlü bir Suriya ermənisinin başçılığı ilə "Ermənistanı azad etmək üçün gizli ordu" - ASALA təşkil edilmişdi.17 O, sovet dövlətinin nəzarəti altında olan Fələstin Azadlıq Təşkilatının bazasında təlim keçən terrorçu bir təşkilat idi. Onunla yanaşı, "Erməni inqilabı ordusu", "Erməni genosidinə görə ədalət komandosu" və b. təşkilatlar da bu istiqamətdə fəaliyyət göstərirdilər.18

Erməni terrorçuları 1975-ci ildən başlayaraq dünyanın diqqətini yenidən "erməni məsələsi"nə cəlb etmək üçün 50 nəfərdən çox Türkiyə vətəndaşını, əsasən diplomatları qətlə yetirdilər. Özünü "əsas zərbə qrupu" hesab edən Amerika erməni təşkilatı müxtəlif beynəlxalq forumlarda terrorçuların siyasi tələblərini elan etməyə başladı. Erməni təşkilatları açıq bildirdilər ki, məqsəd Türkiyəyə "erməni genosidi" faktını etiraf etdirmək, onun ərazisində erməni dövləti yaratmaq, bu dövlətlə Ermənistan SSR-i birləşdirmək, ona Naxçıvanı, Axalkalaki və Dağlıq Qarabağı daxil etməkdir.11985-ci ildə Daşnak partiyasının Afinada keçirilmiş XXIII qurultayı erməniləri "Böyük Ermənistan" uğrunda mübarizəni yenidən genişləndirmək üçün yaranmış əlverişli şəraitdən səmərəli istifadə etməyə, qüvvələri birləşdirməyə çağırdı.24 Antitürk təbliğatı və terrora səfərbərlik daha da güclənmişdi. 1986-cı ildən Azərbaycanın Dağlıq Qarabağ bölgəsində erməni milli separatçılıq təbliğatı açıq və geniş xarakter almışdı.25 Moskva rəsmilərində antitürk əhvali-ruhiyyənin formalaşmasına Qorbaçovun yaxın əhatəsində olan "şahnazaryanlar", "aqanbekyanlar" mühüm təsir göstərirdi. Zori Balayan, S.Xanzadyan, B.Ulubabyan, S.Kaputikyan və başqalarının tarixi saxtalaşdıran, azərbaycanlıları təhqir edən qızışdırıcı "əsərləri" erməni millətçiliyinin daha davakar xarakter almasında, milli münaqişənin alovlanmasında müstəsna rol oynayırdı. Balayanın "İki od arasında", "Qəza", "Ocaq" kitabları "əzabkeş xalqa" daha emosional təsir göstərmişdi. "Qarabağ" komitəsinifəaliyyəti genişlənmişdi. Ermənistandan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi vacibliyini sübut etmək niyyəti ilə dünyanın 30-dan çox dövlətinə və beynəlxalq təşkilatlara 300 min erməninin imzası ilə müraciətnamələr göndərildi. 1987-ci ilin oktyabr ayında Heydər Əliyevin SSRİ rəhbərliyində tutduğu yüksək vəzifədən uzaqlaşdırılması ermənilərin öz niyyətlərini reallaşdırmaq ümidini artırdı. 1987-ci ilin oktyabrında Yerevanın Puşkin meydanında "Qarabağ" komitəsinin ilk açıq mitinqi keçirildi. Rəsmi Moskva 1987-ci ilin noyabrında Parisdə dövlət başçısının əsabələrindən biri olan akademik Abel Aqanbekyanın dili ilə Qarabağ hərəkatına müsbət münasibətini, qeyri-rəsmi olsa da, bütün dünyaya bildirməkdən çəkinmədi. Aqanbekyan "Humanite" qəzetinin 1987-ci il 18 noyabr tarixli sayında dərc

olunmuş müsahibəsində Dağlıq Qarabağın Ermənistana verilməsinin məqsədəuyğun olmasını və bu barədə dövlət başçısına təklif verdiyini bildirdi. Erməni hərəkatına bir qrup erməni millətçisi arxasından yenə kommunist-daşnaklar, DTK agentləri rəhbərlik edirdi. Moskvada ermənilərin "Milli müqəddəratı müstəqil təyin edilməsi birliyi" və "Siyasi məhbusların müdafiəsi üzrə erməni komitəsi" də bu istiqamətdə fəal iş aparırdı. "Qarabağ" komitəsinin Azərbaycanda, xüsusən Dağlıq Qarabağda uzun müddət gizli fəaliyyət göstərən yerli təşkilatı "Krunk" adı altında açıq fəal mübarizəyə başlamışdı, "Miatsum" (birləşmə) hərəkatı genişlənirdi. 1988-ci il martın 2-də "DQMV-nin Ermənistanla yenidən birləşdirilməsi uğrunda mübarizəsi başladı.1988-ci ildə Ermənistan SSR ərazisindən, öz dədə-baba yurdundan - 185 kənddən və başqa yaşayış məntəqələrindən 230 min azərbaycanlı qovuldu, onlara məxsus 31.000 ev, şəxsi təsərrüfat, 165 kolxoz və sovxozun əmlakı talandı, 214 nəfər öldürüldü, 1154 nəfər yaralandı, yüzlərlə adama işgəncə verildi, qız-gəlinlərin namusu təhqir olundu.

## Ədəbiyyat


1. Qaffarov T. Azərbaycanın ən yeni tarixi. XX əsrin sonları XXI əsrin əvvəlləri. Bakı: Gizo Enterprise, 2006
2.Azərbaycan tarixi. 7 cilddə, VII c., Bakı: Elm, 2003
3. Rəcəbli Q. Azərbaycan tarixi. Oçerklər.B, 2013
4. Ermənistan Respublikası: Terrorizm-Dövlət siyasətinin tərkib hissəsi kimi. Faktlar və rəqəmlər. Bakı, 2002
5. *Аракелов Р.* Нагорный Карабах: Виновники трагедии известны. Баку, 1991

**Azərbaycanda xalq hərəkatının başlanması. Mərkəzin Azərbaycanda demokratik hərəkatı boğmaq cəhdlər. 1990-ci il qanli yanvar hadisəsi**

**Plan:**

1. Xalq hərəkatının başlanmasının səbəbləri
2. Xalq hərəkatın istiqamət verən əsas təşkilatlar
3. Xalq hərəkatının əsas tələbləri
4. Moskvanın siyasi rəhbərliyi dəyişdirməsi, Xalq hərəkatının yeni dalğası

5.1990-ci il demokratik çixişlari və Moskvanin bu hərəkata yeni don geydirməsi

6.Ölkədə daxilində siyasi böhran rayonlarda(Clilabadda) “ xalq hökumətinin” yaranması.

7. 13 yanvar provakasiyası və Sovet ordusu tərəfindən Qanlı yanvar facıəsinin törədilməsi.

Uzun illər münasib fürsət gözləyən erməni millətçiləri yaranmış vəziyyətdən məharətlə istifadə edib, bu dəfə də Azərbaycanın hesabına öz torpaqlarını genişləndirmək məqsədi ilə fəaliyyətə başladılar. Lakin Azərbaycan Respublikasının Moskvaya sədaqətlə xidmət edən rəhbərliyi yaranmış yeni beynəlxalq şəraitdə qüvvələri düzgün qiymətləndirib, xalqı vahid ümummilli platforma ətrafında mübarizəyə qaldıra bilmədi. Onun bağışlanılmaz passivliyi və laqeydliyi nəticəsində Azərbaycanın suveren hüquqları tapdalandı. Ərazisində milli münaqişə ocağı alovlandırıldı, azərbaycanlılar öz dədə-baba torpaqlarında növbəti dəfə soyqırımına məruz qaldılar. Hadisələrin belə gedişi Azərbaycanda milli hərəkatın qalxmasına güclü təkan verdi. 1988-ci ilin əvvəllərindən ilk kütləvi etiraz çıxışları başlanmışdı. Hərəkat həmin ilin sonunadək, demək olar ki, kortəbii xarakter daşıyırdı. Cəmiyyətdə "Demokratiya və aşkarlıq" şüarı altında ədalət, humanizm, hüquqi dövlət, xüsusən milli suveren hüquqların qorunması haqqında fikirlər plüralizmi yaranmışdı. Yeni ictimai-siyasi təşkilatlar meydana gəlirdi. 1987-ci ilin axırlarında Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universiteti) yaradılmış "Yurd" təşkilatı, 1988-cı ilin baharından fəaliyyətə başlayan "Çənlibel", "Müstəqillər", "Qala , "Aşıq Ələsgər", "Ozan" cəmiyyətləri,

"Varlıq" komitəsi, "Azərbaycan Xalq Cəbhəsi"nin (AXC) təşəbbüs qrupu, "Bakı gənc alimlər klubu", "Bakı incəsənət mərkəzi" və başqa təşkilatlar bu hərəkata istiqamət verməyə çalışırdı. Lakin yeni yaranmış və təbii ki, siyasi təcrübəsi olmayan bu təşkilatları birləşdirib vahid istiqamətə, ümummilli məsələlərin həllinə yönəldən mütəşəkkil qüvvə yox idi. Xalq Azərbaycanı parçalamaq cəhdlərinə, ermənilərin Dağlıq Qarabağın Ermənistana verilməsi tələblərinə qarşı münasibətini əvvəllər Mərkəzi Komitəyə, ölkə və respublika rəhbərlərinə etiraz teleqramları, məktubları göndərməklə, imza toplamaqla bildirirdi.88 İlk etiraz mitinqi 1988-ci il fevralın 19-da Bakıda keçirildi. Martın 16-da Azərbaycan Elmlər Akademiyasında (indiki Azərbaycan Milli Elmlər Akademiyası) etiraz mitinqi təşkil olundu. Ermənistanda azərbaycanlıların soyqırımının kütləvi hal almasına qarşı mayın 16-da Dövlət Universiteti qarşısında "Yurd" təşkilatının fəal iştirakı ilə böyük mitinq keçirildi. Mitinqçilər şəhərin Lenin adına baş meydanına (indiki Azadlıq meydanı) istiqamət aldılar. Burada davam edən mitinqdə respublikanın görkəmli ziyalıları çıxış etdilər, xalqı və rəhbərləri respublikanın hüquqlarını müdafiə etməyə çağırdılar. Mitinqçilər Moskvadan və Azərbaycan rəhbərliyindən erməni millətçilərinin azğın hərəkətlərinə qanunu əsas götürməklə qəti cavab verilməsini tələb edirdilər. Respublikanın başqa şəhərlərində də mitinqlər keçirilirdi. Ermənipərəst siyasət yeridən, Moskvada sözü keçməyən respublika rəhbərləri xalqın ciddi narazılığını nümayiş etdirib ölkə başçılarına təsir göstərmək ümidində idilər. Buna görə də mitinqlərin keçirilməsinə inzibati orqanlar demək olar ki, mane olmurdu. Eyni zamanda tanınmış ziyalıları mitinq tribunalarına cəlb etməklə kortəbii etiraz hərəkatının böyüyüb mövcud rejimə, onun respublikadakı canişininə qarşı ümumxalq hərəkatına çevrilməsinə yol verməməyə çalışırdılar.

Moskva 1988-ci il mayın 21-də Azərbaycandakı canişinini dəyişdirib, Əbdürrəhman Xəlil oğlu Vəzirovu hakimiyyətə - Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin (AKP MK) birinci katibi vəzifəsinə gətirdi. Əbdürrəhman Vəzirov xalqa, onun milli mənafelərinə zidd siyasəti ilə Dağlıq Qarabağ məsələsində erməniləri öz xəbis niyyətlərini həyata keçirməyə daha da həvəsləndirdi. Moskvanın Dağlıq Qarabağdakı səlahiyyətli nümayəndəsi

A.Volskinin ermənipərəst siyasəti, xüsusən nadir Topxana meşəsində sənaye obyekti tikintisinə başlanması xəbəri bütün xalqı hiddətləndirdi. Noyabrın 15-də Dövlət Universiteti qarşısında, səhəri gün Elmlər Akademiyasının dəyirmi salonunda "Varlıq" cəmiyyəti və M.Ə.Sabir adına bağda "Yurd" təşkilatının təşəbbüsü ilə mitinqlər keçirildi. Xalq hərəkatının kortəbii mərhələsinin ən qızğın dövrü noyabrın 17-dən başlandı. Həmin gün səhər Universitet, Akademiya, Politexnik və İqtisad institutları qarşısından nümayişçi dəstələr milisin canlı maneələrini aşaraq, M.Ə.Sabir adına bağa, oradan isə şəhərin baş meydanına gəldilər. Meydanda mitinqçilərin tələbləri oxundu. Ermənistanın Azərbaycana qarşı təcavüzünün dayandırılması, Dağlıq Qarabağda antiazərbaycan siyasəti yeridən qurumun ləğv edilməsi, əks təqdirdə Ermənistana qarşı iqtisadi sanksiyalar tətbiq edilməsi, Azərbaycandan olan deputatların SSRİ Ali Soveti sessiyasında Ermənistanın təcavüzü ilə əlaqədar məsələ qaldırması başlıca tələblərdən idi. Bu tələblər Azərbaycan rəhbərliyini qane edirdi, lakin hökumət nümayəndələri mitinqi dayandırmağı tələb etdikdə mitinqçilər tələbləri yerinə yetirilməyincə meydanı tərk etməyəcəklərini bildirdilər. Burada "Moskvanın fitnələrinə son qoyulsun!", "Suverenlik!", "Azadlıq!" şüarları səslənməyə başlandı. Bundan Moskvaya təzyiq edib respublikalarda hakimiyyəti ələ keçirmək istəyən qüvvələr istifadə etməyə çalışırdılar. Bakının bəzi rayonlarında vəziyyət qəsdən gərginləşdirilir, xuliqanlıq hərəkətləri törədilirdi. Naxçıvanda dövlət orqanları binasına hücum edilmişdi, noyabrın 22-də Gəncədə əhali ilə ordu arasında qanlı toqquşma baş vermiş, 160 nəfər yaralanmış, üç əsgər və bir uşaq həlak olmuşdu. Noyabrın 24-də Bakı, Naxçıvan və Gəncə şəhərlərində xüsusi vəziyyət və komendant saatı tətbiq edildi. Xalq hərəkatının birinci - kortəbii mərhələsinin zirvəsi olan Meydan göstərdi ki, mitinq və nümayişlərlə mövcud problemi həll etmək olmaz, demokratikləşmə yolu ilə getmək, Moskvanın təyin etdiyi rəhbərlər əvəzinə demokratik yolla xalqın nümayəndələrini seçmək, xalq birliyini təmin etmək, respublikanın suveren hüquqlarının qorunmasına nail olmaq lazımdır. Xalqın mənafeyini yalnız onun istədiyi, ona etimad etdiyi lider müdafiə edə bilər.

Kommunist elitası içərisində kəskin, gurultulu çıxışları ilə xalqın etimadını qazanmaq və hakimiyyətə gəlmək istəyənlər də vardı. Xalq isə Azərbaycanın üzləşdiyi taleyüklü problemləri həll etməyə qadir siyasətçinin Heydər Əliyev olduğunu dərk edərək, onun yenidən respublikaya rəhbər təyin olunmasını arzulayırdı. Minlərlə adam mitinq və nümayişlərə, xüsusən münaqişə bölgələrində, Heydər Əliyevin portreti ilə çıxırdı.98 Təkcə Yevlax şəhərində 1988-ci ildə vətənpərvər gənclərin təşkil etdiyi nümayiş və izdihamlı mitinqdə 20 minədək adam iştirak etmişdi. Nümayişçilər Heydər Əliyevin yenidən hakimiyyətə qaytarılmasını tələb edirdilər. Mitinqin təşkilatçıları həbs olunmuş, izdiham ordu hissələrinin köməyi ilə dağıdılmışdı.99 Xalqı birləşdirib mübarizəni vahid istiqamətə yönəltmək məqsədi ilə bir qrup nüfuzlu ziyalının təşəbbüsü də Xudu Məmmədovun qəfil ölümü ilə (14 oktyabr 1988-ci il) boğuldu.

Xalq Azərbaycan SSR-in SSRİ daxilində iqtisadi və mədəni suverenliyi uğrunda mübarizə aparmağı, hüquqi dövlət, vətəndaş cəmiyyəti qurmağı proqram məqsədi elan edən, lakin kifayət qədər siyasi təcrübəsi olmayan liderlərin rəhbərliyi altında fəaliyyət göstərən AXC ətrafında birləşməyə başladı. 1989-cu il martın 13-də AXC təşəbbüs qrupu və "Varlıq" komitəsi arasında siyasi razılaşma əsasında AXC-nin Müvəqqəti Təşəbbüs Mərkəzi təşkil edildi. 1989-cu il iyulun 16-da Bakıda AXC-nin təsis konfransı keçirildi. Cəbhənin Proqram və Nizamnaməsi qəbul olundu. İdarə heyəti formalaşdı. Əbülfəz Elçibəy AXC-nin sədri seçildi. AXC demokratik - mərkəziyyət prinsipindən imtina etmişdi. Bu mitinqlərdə Azərbaycan SSR Ali Sovetinin növbədənkənar sessiyasını çağırmaq, sessiyada da AXC İdarə Heyətinin iştirakı ilə DQMV-də XİK-nin ləğv olunması məsələsinə baxmaq, suverenlik, iqtisadi müstəqillik, vətəndaşlıq haqqında qanunlar qəbul etmək, Bakı və başqa şəhərlərdə fövqəladə vəziyyəti ləğv etmək, AXC-ni rəsmi tanımaq və b. demokratik tələblər irəli sürülürdü. Ə.Vəzirov isə bu tələbləri qəbul etmədi. Avqustun 14-də Bakıda birgünlük, 21-22-də Bakı və Sumqayıtda ikigünlük xəbərdarlıq tətilləri keçirildi. Sentyabrın 2-də Bakı ümumşəhər tətilində tələblərə cavab verilməsə, sentyabrın 4-dən birhəftəlik ümummilli tətil başlanacağı elan olundu.Sentyabrın 6-da mitinqçilər öz tələblərinə respublika rəhbərliyinə "istefa"

tələbini də əlavə etdilər. Bundan sonra AXC və AKP MK arasında danışıqlar başlandı. Tələblərin ödənəcəyi barədə razılıq əldə olundu. Sentyabrın 13-də xüsusi saziş protokolu imzalandı.111 Sentyabrın 15-də Azərbaycan SSR Ali Sovetinin növbədənkənar sessiyası çağırıldı. Burada DQMV-də XİK-nin ləğvi, Azərbaycan SSR Konstitusiyasına respublikanın sərhədlərinə yalnız ümumxalq referendumu yolu ilə dəyişiklik etməyin mümkünlüyünü nəzərdə tutan əlavələr edilməsi, suverenlik, vətəndaşlıq və iqtisadi müstəqillik haqqında qanun layihələrinin geniş müzakirəyə verilməsi haqqında qərarlar qəbul edildi. Suverenlik haqqında qanun layihəsinin ümumxalq müzakirəsi keçirildi. Qanuna respublikada Azərbaycan SSR qanunlarının ittifaq qanunlarından üstünlüyü və onun SSRİ tərkibindən çıxmaq reqlamenti haqqında mühüm bəndlər daxil edildi. Ali Sovetin sentyabrın 23-də öz işini davam etdirən növbədənkənar sessiyası "Azərbaycan SSR-in suverenliyi haqqında" Konstitusiya qanununu qəbul etdi. Azərbaycan SSR Nazirlər Soveti 1989-cu il oktyabrın 5-də AXC-ni rəsmi qeydə aldı. AXC-nin bu vaxta qədər buraxılan bülleteni əvəzinə dekabrın 4-dən "Azadlıq" qəzetinin kütləvi tirajla nəşrinə başlandı. Dekabrın 31-də saat 12-də Araz çayı boyu 137 km Sovet-İran sərhədində həyəcanlar başlandı. Sərhəd qurğuları dağıdıldı.131 Hər iki tərəfdən sahildə toplanmış adamlar Arazı keçib görüşdülər. 1990-cı il yanvarın 7-də isə SSRİ-Türkiyə Respublikası sərhəddində həyəcanlar baş verdi.132 Yanvarın 18-də Biləsuvar və Cəlilabad rayonlarında sərhəd qurğuları dağıdıldı.1990-cı il yanvarın 11-də AXC Lənkəran şöbəsinin qərarı ilə gecə raykom, daxili işlər şöbəsi, rabitə qovşağı, mətbəə və digər dövlət müəssisələri mühasirəyə alındı, partiya komitəsinin, hökumət orqanlarının fəaliyyəti dayandırıldı. Müvəqqəti Müdafiə Komitəsi təsis olundu.134 209 hərbi birləşmələrin hücumlarının qarşısını almaq idi. Respublikanın rəhbərliyi də gəncləri MMŞ-nin köməyi ilə milis dəstələrinə cəlb edərək silahlandırıb cəbhəyə göndərməyə, müəssisələrdə fəhlə drujinaları təşkil etməyə çağırırdı. AXC-ni dağıtmaq, "demokratik hərəkatı" boğmaq üçün müvafiq vaxt yetişmişdi. Təhrikçilər fəallaşırdılar. Yanvarın 13-də Bakıda bir erməninin iki azərbaycanlını öldürməsinə cavab olaraq erməni talanları başlandı.138 56 nəfər öldürüldü, 112 nəfər xəsarət aldı. Talançı dəstələrin azğın

əməllərinə nə yerli hüquq mühafizə orqanları, nə də o zaman Bakıda olan SSRİ Daxili İşlər Nazirliyinin 12 minlik silahlı qüvvəsi mane olurdu.140 Onlar milli münaqişəyə qarışmamaq əmri almışdılar. Əhalinin köməyi ilə ermənilərin çoxu evlərdə, məscidlərdə, hərbi hissələrdə sığınacaq tapdı. Talanların qarşısı MMŞ özünümüdafiə dəstələrinin gücü ilə yanvarın 15-də, demək olar ki, alınmışdı. MMŞ dəstələri şəhərə nəzarət edirdilər.

1990-cı il yanvarın 13,15,16, 17 və 18-də Azərbaycan KPMK-nın büro iclaslarında respublikadakı vəziyyət müzakirə edilmiş, çıxış edənlər - Ə.Vəzirov, A.Mütəllibov, V.Polyaniçko, E.Qafarova, M.Məmmədov, V.Hüseynov və başqaları, habelə Bakıda olan Y.Primakov və yüksək rütbəli Moskva hərbçiləri güc tətbiq olunması vacibliyini bildirmişdilər. Etiraz edən və ya başqa təklif verən olmamışdı.

1990-cı il yanvarın 15-də Ə.Vəzirov Moskvaya göndərdiyi teleqramda tələb edir ki "Antisovet, antipartiya şüarları ilə mitinq edən ekstremistlərin liderləri dərhal məsuliyyətə cəlb edilməlidirlər. Bunun üçün hüquqi əsaslar vardır". Ertəsi gün Ə.Vəzirov yenə "ağalarına" teleqram vurub bildirir ki, müxalifətin əlində çoxlu silahın olması Azərbaycanda sosialist quruluşunun məhvinə gətirib çıxaracaq və buna görə də dərhal güc tətbiq olunmalıdır. Elə bu vaxt Azərbaycan SSR Nazirlər Sovetinin Sədri A.Mütəllibov Moskvaya teleqram vurmuşdu ki, respublikanın SSRİ güc nazirlikləri hərbi kontingentini qeyri-qanuni silahlı birləşmələri tərksilah etmək üçün əməliyyat keçirəcəkləri müddətdə yerləşdirmək və ərzaqla təmin etmək imkanı vardır.

Xalqa, demokratik qüvvələrə tutulacaq divana hüquqi don geyindirmək üçün fövqəladə vəziyyət elan olunması vacib idi. Ə.Vəzirov yanvarın 14-də AKP MK bürosunda müzakirə etdikdən sonra çağırdığı Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti iclasında "Azərbaycan SSR-in DQMV-də vəziyyətin normallaşdırılması sahəsində təxirəsalınmaz vəzifələr haqqında" qərar qəbul

1990-cı ilin mart ayında keçirilməsi nəzərdə tutulan seçkilərdə "demokratik qüvvələrin" hakimiyyətə gələcəyi şübhə doğurmurdu." Moskva demokratik

qüvvələrin hakimiyyətə gəlməsini suverenlik haqqında Azərbaycan SSR Konstitusiya qanununa ardıcıl əməl olunmasına, iqtisadi müstəqilliyin təmin edilməsinə imkanlar açılması kimi qiymətləndirirdi.

AXC liderlərinin 1989-cu ilin payızından başlayaraq düşünülməmiş addımlar atması, türkçülüyə meyllərini açıq ifadə etməsi də imperiya rəhbərlərini çox ciddi narahat edirdi. Mərkəz belə bir təşkilatın hakimiyyətə gəlməsinə heç vəchlə razılaşa bilmirdi. SSRİ Ali Soveti İttifaq Sovetinin sədri Y.Primakov Əbülfəz Elçibəyə verdiyi "Sizin məqsədiniz nədir?" sualına "Demokratik seçkilər keçirmək!" cavabı aldıqda demişdi: "Bundan sonra Sovet İttifaqından ayrılmağa bir pillə qalır".Mərkəz tərəfindən xalq hərəkatına dini məzmun vermək, onun meylini Türkiyədən, demokratik Qərbdən ayırıb İrana, islam fundamentalizminə bağlamaq cəhdləri də olmuşdu.121

Təcrübəsiz və hakimiyyətə can atan siyasi liderləri "radikallar"a və "liberallar"a bölüb xalq hərəkatını daxildən parçalamaq, seçkiləri fövqəladə vəziyyət, komendant saatı şəraitində keçirməklə yenə "kommunistlərin" qalib gəlməsinə nail olmaq üçün məkrli siyasət aparılırdı.

Xalqı radikallaşdırmaq, bəzi güzəştlərlə onu zorakı hərəkətlərə şirnikləndirmək əsas vasitə idi. Ə.Vəzirov AXC rəhbərləri ilə görüşündə açıqca demişdi; "Gücünüzü göstərin, sizinlə hesablaşaq". AXC İdarə Heyətində hakimiyyət uğrunda mübarizə aparan radikallar bu tələyə düşdülər. 1989-cu il oktyabrın 28-29-da keçirilmiş AXC Məclisinin birinci sessiyasında cəbhə daxilində "radikallar" və "liberallar" arasında ixtilaf bütün barışmazlığı ilə üzə çıxdı.123 "Radikallar" AXC İdarə Heyətinin "liberal" üzvlərini təslimçilikdə, xalqa xəyanətdə, qətiyyətsizlikdə təqsirləndirirdilər. Onlar AXC-nin yeni rəhbər orqanları seçiləcək fövqəladə konfransının keçirilməsini tələb edirdilər. Xalq cəbhəsinin bütövlüyünü qoruyub saxlamaq üçün "liberallar" müəyyən güzəştlərə getməyə məcbur oldular. 1989-cu il dekabrın 9-da AXC müşavirəsində İdarə Heyəti buraxıldı. Onun səlahiyyətlərini yerinə yetirən, əslində "radikallar"dan ibarət qəti Təşkilat Qrupu seçildi, "radikallar" daha da fəallaşdı. Onlar narazılığı artan xalq kütləsini öz ardınca apardı. Bir çox bölgələrdə əsl ikihakimiyyətlilik - kommunistlərin və cəbhəçilərin

hakimiyyəti yaranmışdı. AXC təşkilatlarında dövlət funksiyalarını yerinə yetirən strukturlar meydana gəlmişdi. Cəlilabadda 1989-cu il dekabrın 8-dən fasiləsiz mitinqlər, tətillər başlandı. İnzibati orqan işçiləri xalqın tərəfinə keçdi. Xalqın tələbi ilə raykomun 57 gün əvvəl təyin olunmuş birinci katibi istefa verdi. Yeni katib paytaxtdan göndərildi. Rayonda hakimiyyətə gəlmək istəyənlər yenidən adamları qızışdırdılar. Vəziyyəti nizama salmaq üçün dekabrın 27-də rayona gətirilən milis dəstələri həbslər keçirdi. Qəzəblənmiş əhali hücum edib raykomun, milisin binalarını dağıtdı, rəhbərləri döyüb qovdu. Toqquşmalarda 150-dən çox adam yaralandı. Dekabrın 29-da burada "Xalq hökuməti" adlandırılan hökumət fəaliyyətə başladı. Müvəqqəti Təşkilat Komitəsi və Milli Müdafiə Şurası yaradıldı. İnsanlar Cənubi Azərbaycanda, İran İslam Respublikasında yaşayan qan qardaşları, qohumları ilə mədəni və iqtisadi əlaqələri, gediş-gəlişi bərpa etmək tələbi ilə dəfələrlə rəhbər orqanlara müraciət etmişdi. Naxçıvan MSSR kimi aztorpaqlı respublikada 17 min kv.m münbit torpaq sahəsi sərhədlə tikanlı məftillər arasında qalmışdı. Bu zonadakı qədim qəbiristanlığa və ziyarətgaha getmək mümkün deyildi. Lakin vəziyyəti düzgün qiymətləndirməyən rəhbər dairələr tədbir görməyə tələsmirdilər. "Sərhəd hərəkatı" isə genişlənirdi. 1989-cu ilin dekabrında Naxçıvan MSSR-də sərhəd boyu 9 minə qədər adam toplanmış, çadırlar qurulmuş, tonqallar qalanmışdı. Xalq cəbhəsi dekabrın 23-də sərhəd dəstəsinin komandirinə ultimatum göndərib dekabrın 31-dək sərhəddən adamların müəyyən qaydalarla keçməsinə, qohum-qardaşları ilə əlaqə saxlamasına imkan yaratmasını tələb etdi. Lakin razılıq əldə olunmadı.İmperiyanın rəhbərliyi haqq-ədalətin bərqərar edilməsi uğrunda səsini qaldıran xalqa divan tutmağa hazırlaşırdı. Sərhədlərin pozulması bəhanəsi də onun planlaşdırdığı qanlı qırğına bəraət ola bilərdi. Buna görə də sərhədçilərə müqavimət göstərməmək əmri verilmişdi. Dekabrın 31-də saat 12-də Araz çayı boyu 137 km Sovet-İran sərhədində həyəcanlar başlandı. Sərhəd qurğuları dağıdıldı. Hər iki tərəfdən sahildə toplanmış adamlar Arazı keçib görüşdülər. 1990-cı il yanvarın 7-də isə SSRİ-Türkiyə Respublikası sərhəddində həyəcanlar baş verdi.132 Yanvarın 18-də Biləsuvar və Cəlilabad rayonlarında sərhəd qurğuları dağıdıldı.

1990-cı il yanvarın 11-də AXC Lənkəran şöbəsinin qərarı ilə gecə raykom, daxili işlər şöbəsi, rabitə qovşağı, mətbəə və digər dövlət müəssisələri mühasirəyə alındı, partiya komitəsinin, hökumət orqanlarının fəaliyyəti dayandırıldı. Müvəqqəti Müdafiə Komitəsi təsis olundu.Bütün bunlar hakimiyyət böhranının, Moskva canişininin respublikadakı hadisələrə nəzarəti tam itirməsinin təzahürü idi. Bununla barışa bilməyən mərkəz 1990-cı il yanvarın əvvəllərindən Azərbaycanda müxtəlif qoşun hissələri, cəza dəstələri yerləşdirdi. SSRİ müdafiə naziri D.Yazov gizlicə Gəncəyə gəlmiş, vəziyyətlə tanış olmuş və respublika rəhbərliyinin də təklifləri nəzərə alınmaqla "Tayfun" adlı qanlı əməliyyat planı hazırlamışdı. Erməni millətçilərinin təhrikçilik hərəkətləri, Azərbaycanın sərhəd kəndlərinə, DQMV-də azərbaycanlılar yaşayan kəndlərə silahlı basqınlar isə getdikcə artırdı. Bu hadisələrə müxtəlif vasitələrlə şərait yaradan Moskva öz istəyinə nail olmuşdu. Siyasiləşmiş insanların çoxu AXC-nin 1990-cı il yanvarın 6-7-də keçirilmiş konfransında yeni seçilmiş İdarə Heyətində üstünlük təşkil edən "liberallar"ın deyil, "radikallar"ın ardınca gedirdi. Yanvarın 12-də "radikallar" Milli Müdafiə Şurası (MMŞ) təşkil etdilər.136 Məqsəd mövcud özünümüdafiə dəstələrini birləşdirmək, yeni hərbi dəstələr yaratmaq və erməni hərbi birləşmələrin hücumlarının qarşısını almaq idi. Respublikanın rəhbərliyi də gəncləri MMŞ-nin köməyi ilə milis dəstələrinə cəlb edərək silahlandırıb cəbhəyə göndərməyə, müəssisələrdə fəhlə drujinaları təşkil etməyə çağırırdı. AXC-ni dağıtmaq, "demokratik hərəkatı" boğmaq üçün müvafiq vaxt yetişmişdi. Təhrikçilər fəallaşırdılar. Yanvarın 13-də Bakıda bir erməninin iki azərbaycanlını öldürməsinə cavab olaraq erməni talanları başlandı.138 56 nəfər öldürüldü, 112 nəfər xəsarət aldı.139 Talançı dəstələrin azğın əməllərinə nə yerli hüquq mühafizə orqanları, nə də o zaman Bakıda olan SSRİ Daxili İşlər Nazirliyinin 12 minlik silahlı qüvvəsi mane olurdu.140 Onlar milli münaqişəyə qarışmamaq əmri almışdılar.

Əhalinin köməyi ilə ermənilərin çoxu evlərdə, məscidlərdə, hərbi hissələrdə sığınacaq tapdı. Talanların qarşısı MMŞ özünümüdafiə dəstələrinin gücü ilə yanvarın 15-də, demək olar ki, alınmışdı. MMŞ dəstələri şəhərə nəzarət edirdilər. 1990-cı il yanvarın 13,15,16, 17 və 18-də Azərbaycan KPMK-nın büro iclaslarında

respublikadakı vəziyyət müzakirə edilmiş, çıxış edənlər - Ə.Vəzirov, A.Mütəllibov, V.Polyaniçko, E.Qafarova, M.Məmmədov, V.Hüseynov və başqaları, habelə Bakıda olan Y.Primakov və yüksək rütbəli Moskva hərbçiləri güc tətbiq olunması vacibliyini bildirmişdilər. Etiraz edən və ya başqa təklif verən olmamışdı.

1990-cı il yanvarın 15-də Ə.Vəzirov Moskvaya göndərdiyi teleqramda tələb edir ki "Antisovet, antipartiya şüarları ilə mitinq edən ekstremistlərin liderləri dərhal məsuliyyətə cəlb edilməlidirlər. Bunun üçün hüquqi əsaslar vardır". Ertəsi gün Ə.Vəzirov yenə "ağalarına" teleqram vurub bildirir ki, müxalifətin əlində çoxlu silahın olması Azərbaycanda sosialist quruluşunun məhvinə gətirib çıxaracaq və buna görə də dərhal güc tətbiq olunmalıdır. Elə bu vaxt Azərbaycan SSR Nazirlər Sovetinin Sədri A.Mütəllibov Moskvaya teleqram vurmuşdu ki, respublikanın SSRİ güc nazirlikləri hərbi kontingentini qeyri-qanuni silahlı birləşmələri tərksilah etmək üçün əməliyyat keçirəcəkləri müddətdə yerləşdirmək və ərzaqla təmin etmək imkanı vardır.Xalqa, demokratik qüvvələrə tutulacaq divana hüquqi don geyindirmək üçün fövqəladə vəziyyət elan olunması vacib idi. Ə.Vəzirov yanvarın 14-də AKP MK bürosunda müzakirə etdikdən sonra çağırdığı Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti iclasında "Azərbaycan SSR-in DQMV-də vəziyyətin normallaşdırılması sahəsində təxirəsalınmaz vəzifələr haqqında" qərar qəbul edilməsinə nail oldu. Qərarda DQMV və zəruri olarsa, ona bitişik rayonlarda və sərhəd boyunca fövqəladə vəziyyət elan olunması və mərkəzdən lazımi köməklik göstərilməsi üçün SSRİ Ali Soveti Rəyasət Heyətinə müraciət olunması nəzərdə tutulurdu.145 Azərbaycan Ali Soveti Rəyasət Heyətinin müraciətinə əsasən SSRİ Ali Soveti Rəyasət Heyəti yanvarın 15-də "DQMV və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında" fərman verdi.146 Azərbaycan SSR Ali Sovetinə təklif edildi ki, Bakı və Gəncə şəhərlərində, eləcə də başqa yaşayış məntəqələrində qadağan saatları tətbiq edilməsi də daxil olmaqla hər cür lazımi tədbirlər görsün.

Respublika hökuməti iflic vəziyyətində idi. Respublika Dövlət Təhlükəsizlik Komitəsinin sədri Moskvaya göndərdiyi şifrəli teleqramlarda bildirirdi ki,

respublika xaos vəziyyətindədir, qiyam ərəfəsindədir, qətiyyətli tədbirlər görülməsə, Azərbaycan əldən gedə bilər.147 İmperiya buradakı hakimiyyət böhranından, bəzi ölkələrdə olduğu kimi, Bakıda da Sovet hakimiyyətinin devriləcəyindən, beləliklə, Azərbaycanı itirəcəyindən qorxub Bakı ətrafına əlavə qoşun hissələri, ağır texnika gətirməyə başladı.148 MMŞ-nin təşəbbüsü ilə şəhərin girəcəklərində və Bakı qarnizonu hissələrinin ətrafında əhali yük, minik maşınlarını, avtobus və trolleybusları yan-yana düzüb barrikadalar qurdu, piketlər təşkil etdi. Yollarda 26 maneə yaradıldı. Şəhərdəki qoşun hissələrinin, o cümlədən Salyan kazarmalarının yolu kəsildi.149

Bakının hərbi komandanlığı, buna heç bir ehtiyac olmadığı halda, xalqa tutulacaq divana cavab olaraq adamların rusdilli əhaliyə, ilk növbədə hərbçi ailələrinə zərər yetirəcəyindən qorxub onları Azərbaycandan çıxarmağa başladı.150

Rəsmi Moskvanın Bakıya göndərdiyi emissarları - SSRİ Ali Soveti İttifaqlar Sovetinin sədri Y.Primakov və Sov.İKP MK katibi A.Girenkonun AXC-nin "liberal" və "radikal" qanadları nümayəndələri ilə ayrı-ayrılıqda görüşləri müsbət nəticə vermədi.Yanvarın 17-dən AKP MK binası qarşısında izdihamlı mitinq başlandı, ümumi tətil elan olundu. Tələb edildi ki, Moskva Ermənistanın Azərbaycana ərazi iddialarına qəti son qoysun, imperiyanın Bakıya və ətrafına yığdığı qoşunlar Dağlıq Qarabağa və daim erməni basqınlarına məruz qalan sərhəd bölgələrinə göndərilsin.152

Mitinqçilər xalqa xəyanətdə təqsirkar bildikləri respublika partiya, sovet və hökumət başçıları üçün simvolik dar ağacları düzəltmişdilər. Onlar AKP MK birinci katibi vəzifəsinə öz namizədlərini irəli sürürdülər. Xalqın Moskvanın təyin etdiyi canişini istefaya göndərmək, yerinə öz nümayəndəsini gətirmək tələbi qəti rədd edildi. A.Girenko açıqca bildirdi ki, respublika rəhbərliyini Sov.İPK MK deyil, kütlənin dəyişməsi yolverilməzdir.

Mərkəz Naxçıvanda da xalqa divan tutmaq məqsədi ilə fövqəladə vəziyyət elan edilməsi üçün təzyiqlər göstərirdi. Yanvarın 18-də Şərur rayonu Kərki kəndinin işğalı vəziyyəti daha da gərginləşdirdi. Xalqın tələbi ilə yanvarın 19-da Naxçıvan MSSR Ali Soveti Muxtar Respublikanın SSRİ tərkibindən çıxması haqqında qərar

qəbul etdi. Məqsəd Azərbaycanda baş verən hadisələrə, sovet ordusunun qanlı əməllərinə dünya ictimaiyyətinin diqqətini cəlb etmək idi və bu, müəyyən rol oynaya bildi. 1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti yanvarın 20-də saat 00-dan "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verdi.155 Xalqı qəfildən yaxalamaq, ona divan tutmaq, qırğın törətmək üçün qoşunlardan istifadə ediləcəyi, aman verilməyəcəyi, habelə ən başlıcası fövqəladə vəziyyətin elan olunacağı vaxt gizli saxlanıldı. Fövqəladə vəziyyət və komendant saatı vaxtının elan edilməsi qanlı planları poza bilərdi. Buna görə də AXC İdarə Heyəti komendant saatı tətbiq olunduğu təqdirdə orduya müqavimət göstərmədən piketləri götürmək haqqında qərar qəbul etmişdi. Lakin "radikallar" adamlara "silah, kömək gələcək" - deyə yalan vədlər verir, barrikadaları axıradək tərk etməməyə çağırırdılar. Piketçilər imperiyanın və respublikanın səlahiyyətli nümayəndələrinin ordunun şəhərə girməyəcəyi haqqında dəfələrlə təkrar etdikləri vədlərə inanmışdılar. Xalqa məlumat verilməsin deyə yanvarın 19-da saat 19.27-də Azərbaycan Televiziyasının enerji bloku partladılaraq sıradan çıxarılmışdı. Fövqəladə vəziyyətin yanvarın 20-də, saat 00-dan başlanmasına göstəriş verildiyinə baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21-dən ilk olaraq Türkan-Qala tərəfdən şəhərə yeridildi.158 "Bakı əməliyyatı"na SSRİ müdafiə naziri D.Yazov şəxsən rəhbərlik edirdi. Bakı qarnizonu qoşunları, gətirilən hərbi hissələr, hərbi gəmilərdən desant, xüsusi cəza dəstələri hücuma keçdi. Ağır hərbi texnika çox asanlıqla barrikadaları dağıtdı. Əsgərlər gözyaşardıcı qazdan istifadə edir, əliyalın adamlara avtomat silahlardan güclü atəş açırdılar. Qaçıb sığınacaqlarda gizlənənlər tanklar üzərindəki projektorların köməyi ilə axtarılıb tapılır, güllələbaran edilirdilər. Hərbçilər təsadüfən yola çıxanları, yaşayış evlərini, təcili yardım maşınlarını, şəhər nəqliyyatını atəşə tutur, yaralıları öldürür, meyitləri yandırır, təhqir edir, adamları tankların tırtılları altına salıb əzabla öldürür, eybəcər hala salırdılar. Şəhərin küçələri öldürülmüş, yaralanmış adamların, qocaların, qadınların, uşaqların qanına qərq olmuşdu. Əsgərlər tibb müəssisələrini mühasirəyə alaraq yaralı mülki şəxslərin buraya gətirilməsinə, habelə tibbi heyətin yaralılara köməyə getməsinə mane olurdular. Rəsmi məlumatlara görə, Bakıya və

başqa yaşayış məntəqələrinə sovet ordusunun hücumu vaxtı 131 nəfər, o cümlədən 117 azərbaycanlı, 6 rus, 3 yəhudi, 3 tatar öldürülmüş, 744 nəfər yaralanmış, 400 nəfər həbs edilmiş, 4 nəfər itkin düşmüşdür. Evlərə, ictimai və şəxsi nəqliyyat vasitələrinə, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi.

Fövqəladə vəziyyət haqqında fərman artıq iş işdən keçəndən sonra, yanvarın 20-də saat 7-də elan olunmuşdu. Azərbaycan xalqı fövqəladə vəziyyət şəraitində partizan müharibəsi aparmaq kimi avantürist çağırışları rədd etdi, qarşıya mövcud reallıqlar daxilində həll edilməsi mümkün olan məsələlər qoymağa, mübarizəni dinc siyasi vasitələrlə davam etdirməyə başladı. Azərbaycanda yüksək vəzifə sahibi olanlar xalqa kömək etmək, ona arxa durmaq əvəzinə kürsülərini qorumaq naminə qaçıb gizləndilər. Bir sıra qabaqcıl ziyalı yanvarın 20-də Elmlər Akademiyasında etiraz mitinqi keçirdi. Ziyalıların səsini boğmaq, onları qorxutmaq üçün bu mitinqin iştirakçısı olan üç görkəmli alim, professor Sumqayıta, mitinqə gedərkən yolda tankın altına salınıb məhv edildi.

Gərginliyi bir qədər yatırmaq üçün hərbi hökumət həmin gün radio ilə Azərbaycan SSR Ali Soveti sədrinin Bakıda fövqəladə vəziyyət elan olunmasına və şəhərə qoşun yeridilməsinə qarşı etiraz bəyanatının yayılmasına icazə verdi. Xalq deputatları şair Bəxtiyar Vahabzadə, yazıçılar Anar və Elçin Ali Sovet Sədrindən fövqəladə sessiya çağırılmasını, hadisəyə qiymət verilməsini tələb etdilər. B.Vahabzadə radio ilə xalq deputatlarına müraciət etdi. Yanvarın 21-də deputatların üçdə birinin təşəbbüsü ilə Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyası keçirildi. Moskvanın hakimiyyət uğrunda didişən kommunist rəhbərlərindən kimi birinci katib təyin edəcəyini gözləyən yüksək vəzifə sahibləri bu sessiyanın işində, demək olar ki, iştirak etmədilər, hətta onu "qeyri-qanuni yığıncaq" adlandırdılar.Sessiya baş vermiş faciəyə siyasi qiymət verməyə çalışdı. Onu törədən ölkə və respublika rəhbərlərinə qəti etiraz bildirildi.

## Ədəbiyyat

1.Qaffarov T. Azərbaycan tarixi: XX əsrin 80- 90-cı illəri. Bakı: Mütərcim, 1997
2. Qaffarov T Azərbaycan Respublikası 1991-2001. Əsrə bərabər on il.Bakı 2001

3. Qaffarov T. Azərbaycanın ən yeni tarixi. XX əsrin sonları XXI əsrin əvvəlləri. Bakı: Gizo Enterprise, 2006
4..Azərbaycan tarixi VII clilddə, VII cild, B, 2003
5. Черный январь. Баку, 1990,

## H.Əliyevin İkinci dəfə hakimiyyətə gəlməsi. Siyasi sabitlik , milli dövlətçiliyin möhkəmləndirilməsi

**Plan :** 1.H.Əliyevin ölkə rəhbərliyinə gəlməsi ərəfəsindəki siyasi vəziyyət
2.H.Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsi üçün atılan addımlar
3.Milli qurtuluş hərəkatı. Siyasi sabitlik , milli dövlətçiliyin möhkəmləndirilməsi

Xalq böyük fəlakətin yaxınlaşdığını hiss edirdi. Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş imperiyapərəst qüvvələr və onların əlaltıları iqtidarın səriştəsizliyindən məharətlə istifadə edərək ölkəni parçalamağa, vətəndaş müharibəsi törətməyə çalışırdılar. Xalqın qabaqcıl qüvvələrinin başçılığı ilə ölkədə Qurtuluş hərəkatı başlandı. Hərəkatın carçıları Heydər Əliyevin ətrafında sıx birləşərək onu ümumxalq mübarizəsi səviyyəsinə qaldırdılar. Ölkənin mütərəqqi şəxsiyyətləri, ziyalıları, qabaqcıl, sadə əmək adamları dəfələrlə Naxçıvana, Heydər Əliyevin yanına gedib Vətənin xilası naminə ondan yenidən böyük siyasətə qayıtmasını xahiş etdilər.1 Heydər Əliyevin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyasının yaranması xalqın çox hissəsinin respublikamızı düşdüyü vəziyyətdən çıxarmaq üçün və artıq mövcud olan partiyalara və təşkilatlara inamları olmadıqlarına görə yeni bir partiyanın yaranması ilə əlaqədar ayrı-ayrılıqda fikirlərinin, arzularının cəmləşməsi və nəhayət, formalaşması nəticəsində olmuşdur. Bir adam, bir qrup adam yox, Azərbaycanın, demək olar ki, bir çox bölgələrində - Bakıda, başqa böyük şəhərlərdə, rayonlarda, yaşayış məntəqələrində ayrı-ayrı adamlar bir-biri ilə əlaqəsi olmadan belə bir fikrə gəlmişdilər. "Əlincə" Cəmiyyətinin nəşr etdirdiyi "Səs" qəzetində çap olunmuş "Heydər bəyi biz çağırmalıyıq!" adlı müraciət ölkədə böyük əks-səda doğurmuşdu. Azərbaycanın demək olar ki, bütün bölgələrində aparılmış ictimai rəy sorğularının nəticələri, Yeni Azərbaycan Partiyasının (YAP) Təşkilat Komitəsinə daxil olan minlərlə

şifahi yazılı təklif diktə edirdi ki, yeni partiyaya rəhbərlik etməyə qadir yeganə şəxs Heydər Əliyevdir. Naxçıvan blokada şəraitində, gedib-gəlmək böyük problem olsa da, adamlar dəstə-dəstə ora gedir, Heydər Əliyevə müraciət edirdilər ki, Bakıya, böyük siyasətə qayıtsın. Lakin Heydər Əliyev bu fikirdə deyildi. O, bütün müraciətlərə ehtiramla yanaşır, lakin təklifdən imtina edirdi. Heydər Əliyev belə bir gərgin şəraitdə yeni müxalif qüvvə yaratmaq istəmirdi. Azərbaycanın 91 nəfər tanınmış ziyalısı 1992-ci il oktyabrın 16-da "Səs" qəzeti vasitəsilə Heydər Əliyevə "Azərbaycan Sizin sözünüzü gözləyir" - deyə müraciət etdi. Bu tarixi sənəddə ölkədə yaranmış ağır siyasi, iqtisadi, mənəvi durumun mövcud iqtidarın səriştəsiz, kobud, zora arxalanan siyasəti nəticəsində gündən-günə dərinləşməsi, belə vəziyyətdən demokratik yolla xilas olmaq üçün xalqın bu işə rəhbərlik etməyə qadir yeganə şəxsin – Heydər Əliyevin başçılığı altında Yeni Azərbaycan Partiyasında təşkilatlanmaq arzusu öz əksini tapmışdı. Heydər Əliyev Azərbaycan ziyalılarının müraciətinə 24 oktyabr 1992-ci il tarixli cavabında mövcud ictimai-siyasi durumu dərindən təhlil etdi, cəmiyyətin bütün qüvvələrini birləşdirməklə yaranmış ağır vəziyyətdən çıxış yollarını göstərdi, Azərbaycanın müharibə vəziyyətindən çıxması, Qarabağ probleminin tezliklə həll olunması, sosial-iqtisadi böhranın aradan qaldırılması, düzgün kadr siyasəti aparılması, səriştəli kadrlardan səmərəli istifadə olunması, respublikada qanunların aliliyinin təmin edilməsi, demokratiyanın ardıcıl inkişafı, siyasi plüralizmə, insan azadlığına şərait yaradılması, yeni, müstəqil dövlət quruculuğu prosesinə vətəndaşların hamısının, əhalinin bütün təbəqələrinin cəlb olunması, heç bir məhdudiyyət qoyulmaması, Azərbaycanın parçalanmasına yönəldilmiş meyllərin qarşısının qətiyyətlə, sivil, demokratik yollarla alınması, dövlətin bütövlüyünün demokratik prinsiplər əsasında qorunub saxlanılması və inkişaf etdirilməsi vacibliyini qeyd etdi. O bildirdi ki, Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə bir partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər". Yeni Azərbaycan Partiyasının təsis konfransını Bakıda keçirməyə imkan vermədilər. Konfrans 1992-ci il noyabrın 21-də, şaxtalı bir gündə

Naxçıvanda keçirildi. Müxtəlif bölgələrdən təşəbbüs qruplarının 550-dən çox nümayəndəsinin iştirak etdiyi konfrans YAP-ın təsis olunması haqqında qərar qəbul etdi. Partiyanın Heydər Əliyev tərəfindən hazırlanmış Proqram və Nizamnaməsi müzakirə olunub qəbul edildi. Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi. Təşkilatın rəhbər orqanları formalaşdırıldı.Partiyanın 1992-ci il 21 noyabr tarixli bəyanatında qeyd olunurdu ki, bu partiyanın başlıca proqram məqsədi dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyü, sivilizasiyalı demokratik hüquqi dövlət, möhkəm əmin- amanlıq və ictimai həmrəylik, sabit və sosial istiqamətli iqtisadiyyat yaratmaqdan, geniş demokratik islahatlar həyata keçirmək uğrunda mübarizə aparmaqdan ibarətdir. "Bizim şüarımız müxalifət naminə müxalifət ola bilməz! Bizim prinsipimiz konstruktivlikdir".8 Partiyanın sıraları sürətlə artırdı. Lakin o, iqtidara birdən-birə gələ bilmədi. Heydər Əliyev təkcə YAP-ın deyil, bütün Azərbaycan xalqının lideri idi. O öz məsləhətləri ilə xalqı yaxınlaşmaqda olan daha böyük fəlakətlərdən qurtarmaq üçün iqtidara yol göstərməyə çalışırdı. Uzun müddət bu məsləhətlərə məhəl  qoymayıb səriştəsiz siyasəti ilə ölkəni parçalanmaq, vətəndaş müharibəsi həddinə gətirmiş iqtidar başlanmış təhlükəli proseslərin qarşısını almaqda gücsüzlüyünü görüb son anda kömək üçün Heydər Əliyevə müraciət etdi. Prezident Elçibəyin dəfələrlə təkidli dəvətlərindən sonra Heydər Əliyev 1993-cü il iyunun 9-da hökumətin onun ardınca göndərdiyi təyyarə ilə Bakıya gəldi. Heydər Əliyev genişlənmək təhlükəsi olan vətəndaş müharibəsini dayandırmaq üçün ağıllı, düşünülmüş siyasi tədbirlər həyata keçirdi. O, iyunun 13-14-də Gəncə şəhərində hərbi müxalifətlə danışıqlar apardı, mövcud siyasi böhrandan çıxış yollarını müəyyənləşdirdi. İyunun 15-də Azərbaycan Respublikası Milli Məclisinin fövqəladə sessiyası Heydər Əliyevi Ali Sovetin sədri seçdi. Bu gün Azərbaycanın müasir dövr tarixinə "Qurtuluş Günü" kimi daxil oldu. Sonralar - 1997-ci ilin iyununda Milli Məclis bu günü "Milli Qurtuluş Günü" kimi bayram elan etdi. 1992-ci ilin 15 iyunu - Üçüncü Azərbaycan Respublikasının həyatında baş verən bu əlamətdar hadisə Azərbaycan tarixində yeni bir dövrün başlanğıcı oldu. Siyasi bacarıqsızlığı ilə ölkəni vətəndaş müharibəsi, siyasi pərakəndəlik həddinə gətirib çıxarmış, iqtisadi və sosial

problemləri daha da mürəkkəbləşdirmiş AXC - Müsavat iqtidarı komandası özü hakimiyyətə dəvət etdiyi Heydər Əliyevə bu mürəkkəb problemləri aradan qaldırmaqda köməkçi olmaqdansa, müxalifətə keçdi: bir çoxu qaçıb gizləndi, bəziləri fəaliyyətlərini "dondurdu". Siyasi gərginliyə tab gətirə bilməyən, şəxsi təhlükəsizliyindən qorxan, baş götürüb qaçmaqla guya paytaxtda qardaş qırğınının qarşısını almağa çalışan prezident Elçibəy iyunun 17-dən 18-nə keçən gecə Bakını gizlicə tərk edib Naxçıvan MR-in Ordubad rayonuna - doğulduğu Kələki kəndinə getdi və ölkəni bu ucqar dağ kəndindən idarə etmək iddiasında olduğunu bildirdi.14 Milli Məclis qaçqın prezidentə geri qayıdıb ölkəyə belə bir mürəkkəb şəraitdə lazımi səviyyədə rəhbərlik etməyi dönə-dönə təklif etsə də, hər dəfə faktik olaraq rədd cavabı aldı. İyunun 24-də Milli Məclis respublika prezidentinin səlahiyyətlərini Ali Sovetin sədri Heydər Əliyevə həvalə etdi.
Vətəndaş müharibəsini dayandırmaq məqsədilə Heydər Əliyev heç bir siyasi idarəçilik bacarığı olmayan, xarici dövlətin xüsusi orqanlarının və revanş almaq istəyən qüvvələrin əlində oyuncağa çevrilmiş, lakin real silahlı gücə malik S.Hüseynovu öz sayıq nəzarəti altında baş nazir vəzifəsinə təyin etdi. Güc nazirliklərinə rəhbərlik ona tapşırıldı. Heydər Əliyev iqtidarında yüksək vəzifələr tutsa da, öz məqsədinə nail ola bilməyəcəyini dərk edən S.Hüseynov qərargahı Gəncədə yerləşən Səhra Cəbhə İdarəsi yaratdı. Burada R.Qazıyev və iyunun 15-də Lənkəranda hakimiyyəti hərbi hissələrin köməyi ilə devirmiş, cənub bölgəsinə faktiki rəhbərlik edən Ə.Hümbətovla birgə dövlət başçısını hakimiyyətdən əl çəkməyə məcbur etmək planlarını həyata keçirməyə cəhd etdi. 1993-cü ilin yayı və payızında hərbi müxalifətin cinayətkar satqınlığı nəticəsində Azərbaycanın ərazi bütövlüyünə yeni zərbələr endirildi. Ermənistanın hərbi qüvvələri Azərbaycandakı siyasi böhrandan istifadə edib iyunun əvvəllərindən başlayaraq güclü hücuma keçdi. Hərbi qiyam vaxtı Ağdam cəbhəsindən həm AXC-Müsavat iqtidarına, həm də S.Hüseynova tabe xeyli canlı qüvvə və hərbi texnika çıxarılmışdı.17 Daxili qoşun hissələri Bakının "surətçi"lərdən müdafiəsinə keçirmişdi. İyunun 25-dən 26-na keçən gecə milli silahlı qüvvələr Ağdam cəbhəsindən çıxarıldı. Cəbhə yerli özünümüdafiə taburlarının ümidinə qaldı. İyulun əvvəllərində S.Hüseynova sadiq

709 saylı hərbi hissə Ağdama daxil oldu. S.Hüseynov Ağdamı düşmənə, özünün dediyi kimi, "əlborcu verməklə" ölkədə siyasi vəziyyəti daha daçağırılmışdı.18 Düşmən bundan istifadə edib Ağdamın Qarqar çayı və Sayıbalı kəndinə qədər ərazisini ələ gərginləşdirmək, Heydər Əliyevi hakimiyyətdən kənarlaşdırmaq istəyirdi. Döyüşlərin bütün ağırlıqlarını çəkmiş özünümüdafiə taburları döyüş mövqelərindən çıxarıldı. Ağdam şəhəri düşmən tərəfindən intensiv atəşə tutularkən "surətçilər" heç bir cavab tədbiri görmədilər. Düşmən sürətlə irəlilədi. Malıbəylidə ağır döyüşlər getdi. Asif Məhərrəmovun başçılıq etdiyi özünümüdafiə taburu iyulun 22-23-də bütün günü və gecəni düşmənlə əlbəyaxa vuruşdu, lakin heç bir kömək almadığından geri çəkilməyə məcbur oldu. İyulun 23-də səhər əsasən özünümüdafiə taburlarının gücü ilə 43 gün düşmənlə qanlı döyüşlər aparmış Ağdam şəhəri işğal olundu. S.Hüseynov Gəncədə bəyanat verib bildirdi ki, o, "xalq və dövlət taleyinin həll edilməsi məsələsini" öz üzərinə götürür. Ə.Hümbətov bu bəyanatı alqışladı.

Cənub bölgələrində separatçılıq edən qüvvələrlə münasibəti sivil qaydada nizama salmaq istəyən Heydər Əliyev Ə.Hümbətovla görüşməyi qərara aldı. Bu görüşdə "səlahiyyətim avtomatımdır" -deyən Hümbətov davakar-ultimativ iddialar irəli sürdü. S.Hüseynova geniş səlahiyyətlər verilməsini, Ali Sovetin sessiyasını çağırıb A.Mütəllibovu öz vəzifəsinə qaytarmağı tələb etdi və qəti rədd cavabı aldı. 1993-cü il avqustun 7-də respublikanın cənub bölgələrində üzdəniraq "Talış Muğan Respublikası" (TMR) yaradıldığı elan olundu. "Hökumət" təşkil edildi. Rusiya, İran və Belarus dövlətlərinə, BMT-yə müraciət edib bu qondarma qurumu tanımağı xahiş etdilər. Təbii ki, cavab almadılar. Yerlərdə baş verən kortəbii mitinqlərdə əhali Ə.Hümbətovun silahlı quldur dəstəsinin ləğv olunmasını, qondarma "TMR"-i tanımadığını bəyan edirdi. Heydər Əliyev xalqın dəstəyinə arxalanaraq məsələni dinc vasitələrlə həll etməyə üstünlük verdi. Avqustun 13-də o, bu bölgədən olan xalq deputatları, tanınmış ziyalılar və ağsaqqallarla görüşdü. Onlar "hümbətovçulara" qarşı qəti tədbirlər görülməsini tələb etdilər. Avqustun 17-də Milli Məclis Lənkəran hadisələrinə siyasi qiymət verdi, onu Azərbaycanın müstəqilliyinə qarşı qüvvələrin siyasi oyunu kimi ifşa etdi. S.Hüseynov avqustun

18-19-da Gəncədə Ə.Hümbətovu dost kimi qəbul edib möhkəm dayanmağı məsləhət gördüyü vaxt cənub rayonları əhalisinin etiraz hərəkatı genişlənirdi. Xalqın və dövlət qüvvələrinin birliyi sayəsində avqustun 23-də separatçılar dövlətin gücü ilə məğlub edildilər. Ə. Hümbətov qaçdı, "TMR" ləğv olundu.

Satqınların və köhnə iqtidara sadiq hərbi hissələrin təxribatı nəticəsində avqustun 18-də Cəbrayıl, 23-də Füzuli, 31-də Qubadlı rayonları işğal olundu. Mühasirəyə düşmüş Zəngilan rayonu oktyabrın 29-30-da düşmən əlinə keçdi. Ölkənin müstəqilliyinə qənim kəsilmiş, xaricdən idarə olunan qüvvələrin hakimiyyəti ələ almaq üçün heç nədən çəkinmədiyini görən xalq Heydər Əliyevin ətrafında daha sıx birləşməyə başladı. Milli Məclisin qərarı ilə 1993-cü il avqustun 29-da prezident Ə.Elçibəyə etimad haqqında referendum keçirildi. Referendumda iştirak edənlərin 97,5 faizi prezidentə etimadsızlıq göstərdi. 1993-cü il oktyabrın 3-də Azərbaycan xalqı Heydər Əliyevi alternativ əsasla, səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçdi.

Prezident Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin ardıcıl və dönməz olduğunu təsdiqləyən uğurlu daxili və xarici siyasəti düşmənləri ciddi narahat edirdi. Onlar paytaxtda və respublikanın digər iri yaşayış məntəqələrində siyasi sabitliyi pozmaq üçün hər vasitəyə əl atırdılar. Bakı metropolitenində yanğın və partlayışlar törədilir, Prezidentə sui-qəsd təşəbbüsləri, dövlət çevrilişinə cəhdlər göstərilirdi. 1993-cü il sentyabrın ortalarında S.Hüseynov, Ə.Hümbətov və R.Qazıyev qüvvələrini birləşdirib Bakıya hücum etmək, Heydər Əliyevi hakimiyyətdən salmaq planı hazırlamışdılar. Respublikanın qərb rayonlarında qeyri-rəsmi hərbi qruplar yaradılmışdı. Murovdağ, Goranboy və Gədəbəy bölgələrindən 50-yə qədər, Lənkərandan 8 zirehli texnika və canlı qüvvə Gəncə ətrafındakı meşələrdə yerləşdirilmiş və fürsət gözləməkdə idi. S.Hüseynov Gəncədə və Yevlaxda öz əlaltılarının müşavirəsini keçirmiş, çevrilişə hazırlıq tədbirlərini müzakirə etmişdi.28 Baş nazir və onun tərəfdarları ölkədə narazılıq salmaq üçün digər təxribatlara da əl atır, ərzaq təchizatında süni gərginlik yaradır, inflyasiyanı dərinləşdirən tədbirlər görürdülər. Cəmiyyətdə vahimə yaratmaq üçün 1994-cü il sentyabrın 21-dən 22-nə keçən gecə Təhlükəsizlik Nazirliyi istintaq

təcridxanasından dövlətə qarşı cinayətlərdə ittiham olunan bir neçə cinayətkar qaçırıldı. Sentyabrın 29-da daha bir neçə cinayət aktı törədildi. Ali Sovet sədrinin müavini A.Cəlilov və Prezident yanında Xüsusi İdarə rəisi Ş.Rəhimov qətlə yetirildilər.29 Xüsusi Təyinatlı Polis Dəstəsinin əvvəllər müəyyən hərbi xidmətləri olsa da, pozucu qüvvələrin təsiri ilə artıq cinayət yoluna düşmüş 30-a qədər "döyüşçüsü" oktyabrın 2-də Respublika Prokurorluğu binasına soxuldu.30 Daxili işlər nazirinin müavini Rövşən Cavadov 40 nəfərlik silahlı dəstə ilə nazirliyin binasına hücum edib dəf olunduqdan sonra prokurorluğun binasına, qardaşının rəhbərlik etdiyi dəstəyə köməyə gəldi. Prezident Heydər Əliyevin apardığı danışıqlar nəticəsində Cavadov qardaşları öz tərəfdarları ilə prokurorluğun binasını tərk etdilər. Bu, hərbi qiyam cəhdinin başlanğıcı idi. Oktyabrın 4-də Gəncədə S.Hüseynovun tərəfdarlarından ibarət 300-ə yaxın silahlı adam şəhər İcra Hakimiyyəti binasını və başqa strateji obyektləri ələ keçirdi. Bu zaman paytaxtda iki hərbi hissənin əsgərləri artilleriya qurğularını Prezident sarayı, Ali Sovet və Müdafiə Nazirliyi binalarına tuşlayıb əmrə müntəzir dayanmışdılar. Oktyabrın 4-dən 5-ə keçən gecə Prezident H.Əliyev Azərbaycanın müstəqil dövlətçiliyini müdafiə etmək üçün radio və televiziya ilə xalqa müraciət etdi.32 Onun çağırışı ilə, gecə yarısı olmasına baxmayaraq, qısa bir vaxtda on minlərlə adam Prezident sarayı qarşısına toplaşdı.33 Qiyamçılar Prezident sarayına hücuma cəsarət etmədilər. Prezidentin həyata keçirdiyi tədbirlər qiyamçılara qüvvələrini birləşdirməyə imkan vermədi. Gəncədə qiyam yatırıldı. Vəziyyətin dəyişdiyini görən Cavadov qardaşları Prezidenti müdafiə etdiklərini bildirdilər. Xalq oktyabrın 5-də Bakının Azadlıq meydanında təşkil olunmuş izdihamlı ümumxalq mitinqində qanuni Prezidenti dəstəklədiyini bir daha nümayiş etdirdi. Qiyam və dövlət çevrilişi qəsdində günahkar olan S.Hüseynov hakimiyyətdən kənarlaşdırıldı, Azərbaycandan Rusiyaya qaçdı. 1996-cı ildə isə Rusiyada həbs olunub respublikaya gətirildi və məhkum edildi. Düşmənlərin, xarici kəşfiyyat orqanlarının əlində oyuncaq olan hakimiyyət hərisləri yenə də öz niyyətlərindən əl çəkmirdilər. 1994-cü il dekabrın 4-də "Azərbaycana xidmət" vəqfi tərkibində "Azərbaycan Strateji Araşdırmalar Mərkəzi" adlı təşkilat yaradılmışdı.37 Bu

təşkilat ölkədə siyasi müxalifətlə hərbi müxalifəti birləşdirib dövlət çevrilişi etməyi, qanuni Prezidenti fiziki cəhətdən məhv edib A.Mütəllibov, Ə.Elçibəy və başqalarının təmsil olunduğu "Dövlət Şurası" yaratmağı planlaşdırmışdı. Mərkəzin işində "Müsavat" və "Doğru yol" partiyalarının nümayəndələri də fəallıq göstərirdilər. Bu vaxt AXC və ona yaxın qüvvələr də xeyli fəallaşmışdılar. Martın 12-dən 13-nə keçən gecə Ağstafa və Qazaxda Xüsusi Təyinatlı Polis Dəstəsi əməkdaşları (omonçular) qiyam qaldırıb dövlət idarələrini zəbt etdilər.39 Martın 15-də omonçular Bakıda Nizami rayon polis idarəsinə silahlı basqın etdilər və dəf olundular. Prezidentin 16 mart tarixli fərmanı ilə Xüsusi Təyinatlı Polis Dəstəsi ləğv edildi və onun Bakıdakı əməkdaşlarından silahı könüllü təhvil verib, "8-ci km" qəsəbəsindəki bazalarını tərk etmək tələb olundu.40 Cavadov qardaşları Prezidentin münaqişəni dinc yolla həll etmək istəyinə məhəl qoymadılar. Onlar bazada toplanmış silahlıları dörd hücum qrupuna bölüb, martın 16-dan 17-nə keçən gecə Prezident sarayı, Dövlət Teleradio Şirkəti və Daxili İşlər Nazirliyi binalarını tutmaq üçün həmlə ilə mühasirəni yarıb şəhərə çıxmağa çalışdılar. İqtidarın fövqəladə tədbirləri, hökumət qüvvələrinin çevik hərbi əməliyyatları nəticəsində dövlət çevrilişi cəhdi bu dəfə də baş tutmadı. Sonralar da qanuni hakimiyyəti devirmək, Prezidenti fiziki cəhətdən məhv etmək və başqa siyasi terror cəhdləri baş verdi və hər dəfə respublikanın hüquq-mühafizə orqanları tərəfindən qətiyyətlə dəf edi Xalq respublikanın dövlət müstəqilliyinin təminatçısı olan Prezident Heydər Əliyevi dəstəklədi, siyasi yetkinlik, dövlətçilik prinsiplərinə sədaqət nümayiş etdirdi.

## Ədəbiyyat:


1.Azərbaycan tarixi VII cilddə, VII-cild.B, 2003
2. Qaffarov T Azərbaycan Respublikası 1991-2001. Əsrə bərabər on il.Bakı 2001
3. Qaffarov T. Azərbaycanın ən yeni tarixi. XX əsrin sonları XXI əsrin əvvəlləri. Bakı: Gizo Enterprise, 2006
4. Azərbaycanın Milli Ensiklopediyası, Bakı 2007
5..*Əliyev H.* Müstəqilliyimiz əbədidir. III cild, Bakı, 1997
6.*Əliyev H.* Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət. "Respublika" qəzeti, 20 dekabr 2000-ci il.
7.Əliyev H. Azərbaycan nefti dünya siyasətində. Bakı: Azərnəşr, 1997
8. Əliyev H. Müstəqilliyimiz əbədidir. 17-ci kitab. Bakı: Azənəşr, 2006

9.Əliyev H. Müstəqilliyimiz əbədidir. 18-ci kitab. Bakı: Azənəşr, 2006
10. *Nadirov A.* Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri. Bakı, 2001
11.H.V.İsakov Heydər Əliyevin hüquqi dövlət quruculuğu Xalq Cümhuriyyəti demokratik ənənələrinin davamıdır. Tarix İnstitutunun elmi əsərləri, 38-ci cild,Bakı,2011

**H.Əliyevin uğurlu iqtisadi islahatları (Özəlləşdirmə, torpaq islahatı, maliyyə islahatı, sahibkarlığın inkişafına dəstək)**

Plan : 1. Müstəqilliyin ilk illərində iqtisadi vəziyyət.

2. İqtisadiyyatda struktur dəyişiklikləri

3.Maliyyə, vergi islahatları

4.Özəlləşdirmə

5..Aqrar islahat. Kənddə sahibkarlığın inkiÇafı**.**

**1.** SSRİ-də 80-ci illərin ikinci yarısında başlanan siyasi proseslər müttəfiq respublikaların, o cümlədən Azərbaycanın da iqtisadiyyatına və sosial-mədəni həyatına ağır zərbələr vurdu. İstehsal azalır, iqtisadi tənəzzül dərinləşirdi. Respublikaların iqtisadi əlaqələri pozulmuşdu, müqavilə öhdəliklərinə əməl olunmurdu. Azərbaycan iqtisadiyyatının xammal və materiallara tələbatı cəmi 40 faiz ödənilirdi. Müəssisələrin istehsal gücündən yalnız 25-30 faiz istifadə olunurdu. Sumqayıt boru-prokat zavodunun altı marten sobasında iş dayandırılmışdı.1 Demək olar ki, bütün sahələrdə əsas istehsal vasitələri mənəvi və fiziki cəhətdən köhnəlmişdi. Respublikada sənayenin aparıcı sahəsi olan neft sənayesində vəziyyət ağır idi. Mədənlərdə 4000-dən çox neft quyusunda hasilat dayanmışdı. Qazma dəzgahlarının 80 faizi işləmirdi. 1992-ci ildə 11, 1996-cı ildə isə cəmi 9 milyon ton neft çıxarılmışdı.2 Mövcud perspektivli dəniz yataqlarının istismarına başlanması üçün xeyli investisiya tələb olunurdu

İqtisadiyyata Ermənistanın Azərbaycana qarşı təcavüzkar müharibəsi ciddi ziyan vurmuşdu. Respublika gəlirinin üçdə birini müharibəyə xərcləməyə məcbur idi. Onun ərazisinin dörddə bir hissəsində döyüş əməliyyatları getmişdi. Bir milyon hektar kənd təsərrüfatı sahəsi, 72 min hektardan artıq əkin sahəsi, 34 min hektar üzümlük, 65 min baş qaramal, 240 min baş davar, 173 sənaye obyekti, 122 tikinti təşkilatı, 200-dən çox faydalı qazıntı yataqları, dörd qızıl, üç civə, iki qranit, iki

mərmər, on mineral su mədəni, dörd daş karxanası, beş müxtəlif inşaat materialları yatağı, 250000 hektar meşə sahəsi, o cümlədən Zəngilan çinar meşəsi düşmən əlinə keçmişdi. 60000-dən çox şəxsi təsərrüfat, yüzlərlə sənaye müəssisəsi, kolxoz və sovxoz dağıdılmışdı.4

**2.İqtisadiyyatda struktur dəyiĢiklikləri.** Prezident Heydər Əliyev tez bir zamanda dövlət intizamını gücləndirib, siyasi sabitliyin yaranmasına nail oldu və iqtisadi tənəzzülün qarşısını almaq üçün ciddi tədbirlər görməyə başladı. Bazar iqtisadiyyatının formalaşmasına münasib şərait yaratmaq məqsədilə qanun, fərman və qərarlar qəbul edildi. Ölkənin iqtisadiyyatında struktur dəyişiklikləri getdikcə dərinləşirdi. Onun başlıca istiqamətləri dövlət mülkiyyətinin özəlləşdirilməsi, aqrar islahatların həyata keçirilməsi və sahibkarlığın inkişaf etdirilməsi idi. 1995-ci il sentyabrın 29-da Qanunla təsdiqlənmiş "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsi Dövlət Proqramı", "Sahibkarlıq fəaliyyəti haqqında", "Müəssisələr haqqında", "Səhmdar cəmiyyətləri haqqında", "Auditor xidməti haqqında" qanunlar, "Dövlət müəssisələrinin səhmdar cəmiyyətlərinə çevrilməsi haqqında Əsasnamə" və başqa mühüm hüquqi aktlar qəbul edilmişdi. Sahibkarlığın inkişafı üçün Milli Fond təsis olunmuşdu. "Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi", yerlərdə sahibkarlığı inkişaf mərkəzləri, "Kiçik və Orta Sahibkarlığı İnkişaf Agentliyi", "Xarici İnvestisiyalar Mərkəzi", "İqtisadi və Biznes İnformasiya Mərkəzi" "Azərbaycan Respublikası Auditorlar Palatası" yaradılmışdı.

**3.**Maliyyə-vergi sistemi təkmilləşdirildi. Burada ağırlıq mərkəzi istehsal üzərindən götürülüb istehlak üzərinə qoyuldu. Əvvəllər əmək haqqı məhsulun maya dəyərinə daxil olunmur, mənfəətdən verilirdi və buna görə də əmək haqqından əlavə 35 faiz kooperativ vergi tutulurdu. 1996-cı ilin sentyabr ayından əlavə vergi 50 faiz azaldıldı, 1997-ci ilin əvvəllərindən isə tamamilə ləğv edildi. Müəssisələrə ümumi vergi təzyiqi xeyli azaldı. Fiziki şəxslərdən tutulan vergilərin yuxarı dərəcəsi 55 faizdən 40 faizə endirildi, onların gəlirinin vergi tutulmayan hissəsi isə 40 min manatdan 60 min manata qaldırıldı. Eyni zamanda xarici iqtisadi əlaqələri

fəallaşdırmaq üçün gömrük rüsumları 30-40 faizdən 15 faizə endirildi. Nəticədə vergi və rüsumlardan büdcəyə gəlir 2 dəfəyə qədər artdı.2001-ci il yanvarın 1-dən ölkədə vahid vergi qanunvericiliyi tətbiq olundu /Vergi Məcəlləsində mülkiyyət formasından və təşkilat-hüquqi statusundan asılı olmayaraq, bütün vergi ödəyiciləri üçün eyni vergiqoyma siyasəti həyata keçirildi. Yerli və xarici iş adamları eyni vergiləri ödəyərək eyni imtiyazlara, güzəştlərə . Əlavə dəyər vergisinin dərəcəsi 20 faizdən 18 faizə endirildi. Fiziki şəxslərdən gəlir vergisinin maksimum həddi 40 faizdən 35 faizə (bu dərəcələr inkişaf etmiş ölkələrin əksəriyyətindəkindən aşağıdır) düşdü.31 2002-ci ilin noyabr ayından 62 yerli vergi idarəsi ləğv olunub, əvəzinə 12 ərazi vergi idarəsi təşkil edildi. 1997-ci ildən dövlət büdcəsi xərclərinin səmərəli təşkili, iqtisadi idarəetmədə şəffaf mexanizmlər yaratmaq üçün maliyyə işləri xəzinədarlıq sistemi üzrə qurulmağa başlandı. Baş və yerli xəzinədarlıq orqanları təşkil edildi. İstehsalı inkişaf etdirmək üçün respublikanın kifayət qədər investisiya imkanları yox idi. Xarici kapitalı cəlb etmək məqsədilə "açıq qapı" siyasəti yeridilməyə başlandı. Xarici investorlara və kreditorlara təminat verən, onları müdafiə edən qanunlar qəbul olundu. Gömrük vergiləri sərbəstləşdirildi və aşağı salındı. Xarici sərmayələrə immunitet haqqında Qanun qəbul edildi. Fiziki və ya hüquqi şəxslər, respublikada qanunların dəyişdirilməsindən asılı olmayaraq, on il müddətində investisiyanı qoyduğu şərtlərlə işlətmək hüququ aldı. Xarici səhmdarların gəlirlərinin repartasiya olunması haqqında da Qanun qəbul olundu. Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Beynəlxalq İnkişaf Assosiasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı ilə əməkdaşlıq yaradıldı. Bu, Azərbaycan Respublikasının maliyyə-bank sistemini dünya standartlarına uyğunlaşdırdı.34 Prezident 1994-cü il aprelin 5-də xarici ticarəti sərbəstləşdirmək haqqında Fərman verdi.26 Xarici iqtisadi əlaqələr liberallaşdırıldı, həm fiziki, həm də hüquqi şəxslərə azad surətdə xarici ticarət hüququ verildi. 1997-ci ilin yanvarında respublikada ixrac vergisi ləğv olundu. 1994-cü ilin may ayında respublikanın maliyyə vəziyyətini yaxşılaşdırmaq üçün qəti addımlar atıldı. 1994-cü ilin əvvəllərindən milli valyuta - manat respublika ərazisində yeganə ödəniş vasitəsi elan olundu. Prezidentin 14 may 1994-cü il

Fərmanı ilə kredit siyasəti ciddiləşdirildi. Banklararası valyuta birjasının işi nizama salındı.27 1995-ci ilin fevral ayında prezident ilk radikal addım atıb valyuta bazarının təşkili haqqında Fərman verdi, bundan sonra valyuta ehtiyatları bazar vasitəsilə tənzimlənməyə başlandı. Beynəlxalq Valyuta Fondu və Ümumdünya Bankı ilə müqavilələr bağlandı. Azərbaycan Avropa Yenidənqurma və İnkişaf Bankına qoşuldu. Büdcə kəsirinin artmasına yol verilmədi. Nəticədə 1995-ci ildə inflyasiya 85 faizə endi. 1996-cı ildə inflyasiya cəmi 6,7 faiz oldu. Onun səviyyəsi 2000-ci ildə cəmi 2 faiz, 2001-ci ildə isə 1,5 faiz idi.28 Manatın dollara nisbətən dəyəri möhkəmləndi, istehlak mallarının qiymətləri artmadı, əksinə, azalması müşahidə olundu.29 İnflyasiyanın cilovlanması mühüm makroiqtisadi göstərici kimi iqtisadi tərəqqiyə, investorların cəlb olunmasına münasib imkanlar açırdı. 1996-cı ilin ortalarında Prezident daha bir yeni ciddi iqtisadi addım atdı - Beynəlxalq maliyyə təşkilatlarının ayırdığı kreditlər ölkədə iqtisadi struktur dəyişikliklərinə, mühüm iqtisadi tədbirlərin həyata keçirilməsinə kömək etdi. Təkcə 1995-ci ildə Dünya Bankı Azərbaycana reabilitasiya layihəsi üçün 65 milyon dollar kredit ayırdı. Prezidentin Fərmanı ilə 1999-cu ilin dekabrında "Azərbaycan Dövlət Neft Fondu" təsis olundu

**4**..1993-cü ildə respublikada cəmi 300, 1997-ci ildə isə artıq 60 min özəl müəssisə vardı.

Kiçik dövlət müəssisələrinin özəlləşdirilməsi 1997-ci ilin martında artıq başa çatmışdı. 10174 kiçik müəssisə özəl mülkiyyətə, əsasən, əmək kollektivi üzvlərinə satılmışdı. İri və orta müəssisələrin özəlləşdirilməsi səhmdar cəmiyyətləri yaradılması yolu ilə həyata keçirilirdi. Belə sənaye müəssisələrinin səhmləri 1997-ci il martın 1-dən əhaliyə paylanan ümumi mülkiyyət bölgüsündən hər kəsə düşən hissənin ifadəsi olan 7 milyon 500 mindən çox hər biri 4 çekdən ibarət paya dəyişdirildi. 1998-ci ilin sonlarında Prezidentin Fərmanına əsasən müharibə və Çernobıl əlillərinə, onların ailələrinə əlavə özəlləşdirmə payları verildi. Özəlləşən müəssisələrin göstəriciləri hərracdan azı iki həftə qabaq mətbuatda dərc olunurdu. Səhmlərin 15 faizi əmək kollektivi üzvlərinə güzəştlə nağd pula satılır, 50 faizi isə çeklərə dəyişdirilirdi. Dövlət Əmlak Komitəsi çeklərin hərracı üçün Respublika

Hərrac Mərkəzi təşkil etmişdi. Çekləri toplayıb səmərəli yerləşdirmək, əldə ediləcək dividentləri bölüşdürmək üçün çek investisiya fondları yaradılmışdı. 2002-ci ilin oktyabr ayınadək 36,2 minə qədər kiçik dövlət müəssisəsi, müəssisə obyekti və avadanlığı, o cümlədən 9,5 mindən çox məişət xidməti, 2797 ticarət, 773 ictimai iaşə müəssisəsi, 552 yanacaqdoldurma məntəqəsi, 570-ə qədər çörək ticarəti və çörəkbişirmə obyekti, 700 sənaye, 120 kənd təsərrüfatı müəssisəsi, 337 tikinti təşkilatı, 181 yarımçıq tikinti, 14,7 mindən çox nəqliyyat müəssisəsi və vasitəsi, 119 aptek, 1,3 mindən çox qeyri-yaşayış obyekti və s. özəlləşdirilmişdi. 1463 orta və iri dövlət müəssisəsi səhmdar cəmiyyətinə çevrilmişdi. 100 mindən çox vətəndaş səhmdar, 140 mindən çox adam əmlak sahibi idi. 331,3 min mənzil-özəlləşdirilməsi nəzərdə tutulan mənzillərin 52,8 faizə qədəri xüsusi mülkiyyətə verilmişdi. verilmişdi. 2002-ci ilin əvvəllərinə qədər çeklərin cəmi təqribən 10 faizi dövriyyədən çıxmışdı. Qalan çeklər qara bazarda əvvəllər 100 dollara, sonralar isə 4 dollardan da ucuz (təqribən 20 min manata) qiymətə satılmış, bir hissəsi xarici qrupların əlində toplanmışdı.118 Bunu nəzərə alaraq strateji özəlləşməyə başlamazdan əvvəl ölkənin və vətəndaşların maraqlarını qorumaq üçün 2000-ci ilin martında çek dövriyyəsinin tənzimlənməsinə istiqamətləndirilmiş qaydalar müəyyən edildi. Mövcud vəziyyətin öyrənilməsi və nəzərə alınması üçün 400-dən çox çekə sahib olanların çekləri Qiymətli Kağızlar üzrə Dövlət Komitəsində qeydə alındı.119

2000-ci il avqustun 10-da özəlləşdirmənin İkinci Dövlət Proqramı qəbul edildi. Özəlləşdirmənin daha səmərəli formaları tətbiq olunmağa başlandı. "Bakelektroqaynaq" Səhmdar Cəmiyyəti, Siyəzən broyler fabriki və s. üzrə investisiya müsabiqələri təşkil olundu. Strateji müəssisələrin özəlləşdirilməsi üçün maliyyə məsləhətçiliyi üzrə tenderlər keçirildi. Bir çox iri müəssisələr, o cümlədən "Azərbaycan-alüminium", "Bakelektrik-şəbəkə", "Siyəzən-broyler" və s. özəlləşdirildi.12001-ci ilin payızınadək artıq respublikada dövlət müəssisələri bazasında 1275 səhmdar cəmiyyəti yaradılmışdı. Kənd Təsərrüfatı Nazirliyi üzrə 248, "Azəravtonəqliyyat" Dövlət Konsemi üzrə 101, "Xidmət" Dövlət Konsemi üzrə 95, Ticarət Nazirliyi üzrə 86, "Taxıl məhsulları" Dövlət Şirkəti üzrə 62,

"Azəryeyintisənaye" Dövlət Şirkəti üzrə 55, "Xalq üçün mallar" Dövlət Konserni üzrə 47, "Azərsənayetikinti" Dövlət Şirkəti üzrə 29, "Azərquşsənaye" Dövlət Şirkəti üzrə 32, "Sənaye-ticarət" Dövlət Konserni üzrə 31, "Azərkəndtikinti" Dövlət Şirkəti üzrə 22, Dövlət Neft Şirkəti üzrə 17, "Azərbalıq" Dövlət Konserni üzrə 10 müəssisə, səhiyyə üzrə 18, rabitə üzrə 9, metallurgiya üzrə 10, mənzil-kommunal təsərrüfatı üzrə 4 belə təşkilat vardı

5. **Aqrar islahatlar. Kənddə sahibkarlığın inkiÇafı.** İqtisadiyyatda struktur dəyişikliklərinin mühüm istiqamətlərindən biri də torpaq islahatının həyata keçirilməsi idi. İlk vaxtlar kənd təsərrüfatında sahibkarlıq çox ləng inkişaf edirdi. 1992-ci ildə 320, 1995-ci ilin əvvəllərində isə 830 müstəqil və kollektiv fermer təsərrüfatı vardı.12

1995-ci ilin fevral ayında "Aqrar islahatların əsasları" və "Kolxoz və sovxozların islahatı haqqında" qanunlar qəbul edildi.126 Bu mühüm qanunların həyata keçirilməsi ilk növbədə torpağa mülkiyyət münasibətlərinin yenidən müəyyənləşdirilməsindən çox asılı idi. 1995-ci ilin mart ayında "Dövlət Aqrar İslahatı Komissiyası" yaradıldı.127

1996-cı il iyulun 16-da ölkənin aqrar sektorunda radikal bir addım atıldı. Prezident Heydər Əliyevin rəhbərliyi altında hazırlanan, onun təfəkkürünün vəsiyasi iradəsinin məhsulu olan "Torpaq islahatı haqqında" Qanun qəbul edildi.128 Bu qanuna görə, bütün postsovet respublikalarından fərqli olaraq, torpaq sosial ədalət prinsipinə əsasən kənddə yaşayan vətəndaşların xüsusi mülkiyyətinə pulsuz verildi. Respublikanın vahid torpaq fondu əsasında üç - dövlət, bələdiyyə və xüsusi torpaq mülkiyyəti forması müəyyən olundu. Kənd təsərrüfatı torpaqlarının 22 faizi - 1 milyon 911 min hektarı xüsusi mülkiyyətə, 45 faizi dövlət mülkiyyətinə, 33 faizi isə bələdiyyə mülkiyyətinə verildi.129 Qanunun icrası üçün Prezident Fərman imzaladı. "Dövlət torpaqları haqqında", "Torpaq vergisi haqqında" qanunlar, normativ aktlar qəbul olundu. 1999-cu il martın 12-də "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" və "Torpaq icarəsi haqqında", həmin il iyulun 18-də "Torpaq bazarı haqqında" qanunlar verildi. Bütün rayonlarda

torpaq istifadəçilər üzrə inventarlaşdırıldı və iqtisadi cəhətdən qiymətləndirildi. Özəl qurumların tələbatını təmin etmək üçün 1996-cı ilin iyul ayında Aqrar kredit kassaları təşkil olundu. Prezident Heydər Əliyev "Aqrar sahədə islahatların sürətləndirilməsinə dairDövlət Proqramı"nı təsdiq etdi.1Kənd təsərrüfatı müəssisələrinin 2,9 milyard manatlıqdan artıq əmlakının 2,1 milyard manatlığının özəlləşdirilməsi nəzərdə tutulurdu. 2001-ci ilin əvvəllərində 1 milyon 329 min 285 ha torpaq özəlləşdirilmiş, kənddə yaşayan 830 min ailədən 818 mini (3 milyon 238 min adam) torpaq payını almışdı

.2002-ci il avqustun 27-də Prezidentin sərəncamı ilə Prezident yanında Sahibkarlar Şurası yaradıldı. Prezident Fərmanı ilə "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondu haqqında Əsasnamə" təsdiq olundu.97

"Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi Proqramı (1997-2000-ci illər)" hazırlandı və qəbul olundu. 2002-ci ilin yayında "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)" təsdiq edildi.98 Müəssisələrin dövlət qeydiyyatı işi sadələşdirildi, zonalar üzrə qeydiyyat mərkəzləri yaradıldı.99

2002-ci ilin sentyabr ayında Prezidentin Fərmanı ilə lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 240-dan 30-a endirildi və lisenziyaların fəaliyyət müddəti 5 ilə qaldırıldı.100 2002-ci il sentyabrın 10-da Azərbaycan Prezidentinin sahibkarlığın inkişafı üçün əlverişli iqtisadi və hüquqi şərait yaratmaq məqsədilə "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" fərmanı verildi.101 Həmin il sentyabrın 28-də "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" Prezident Fərmanı imzalandı. Hüquq-mühafizə orqanlarının (məhkəmədən başqa) sahibkarlıq subyektlərinə müdaxilələri qadağan edildi. DİN-in İqtisadiyyatda Cinayətkarlıqla Mübarizə İdarəsi ləğv olundu.102

Kiçik və orta sahibkarlığın inkişafına kömək üçün dövlət qarşıdakı üç ilə 250 milyard manat vəsait ayırdı.103 Bu məqsədlə 2002-ci ilin oktyabr ayında Dünya Bankının Maliyyə Korporasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, Qara dəniz Ticarət və İnkişaf Bankı və s. maliyyə qurumları birlikdə Azərbaycan

Mikromaliyyə Bankı təşkil etdilər. Respublikada sahibkarlığın inkişafına beynəlxalq iqtisadi təşkilatlar da köməklik göstərirdilər. BMT-nin İnkişaf Proqramı sənaye komplekslərinin inkişafı, yoxsulluğun aradan qaldırılması, qaçqın və köçkünlərin yerləşdirilməsi, işlə təmin olunması, həyat səviyyəsinin yüksəldilməsi, ekoloji vəziyyətin yaxşılaşdırılması və başqa layihələrin hazırlanması və maliyyələşdirilməsində iştirak edirdi. Avropa Birliyi İqtisadi Komissiyası TASİS Texniki Yardım Proqramı respublika iqtisadiyyatında struktur dəyişiklikləri, sahibkarlığın inkişafı, xüsusən kənd təsərrüfatında islahatların aparılmasına investisiyalar cəlb olunması, Avropa-Qafqaz-Asiya ticarət, nəqliyyat əlaqələrinin inkişafına kömək üçün layihələr hazırlanmasında fəal iştirak edirdi. Bu proqram dairəsində KOSİA-SMEDA təşkilatı, habelə "Türk Sənaye İş Adamları Birliyi", "Türk İş Birliyi İnkişaf Agentliyi" respublikada sahibkarlığın inkişafına yardım göstərirdilər

İqtisadi dirçəliş ölkənin maliyyə vəziyyətini xeyli yaxşılaşdırdı. 1996-2002-ci illərdə Azərbaycan Respublikasının dövlət büdcəsinin gəlirləri 2,2 dəfə artmışdı. 2003-cü ildə dövlət büdcəsi 1 milyard 200 milyon dollar həcmində (1994-cü ildəkindən 17 dəfə çox) müəyyən edilmişdi.170 Dövlət büdcəsinin kəsiri durmadan azalırdı: 1996-cı ildə o, cəmi 3 faiz 2001-ci ildə isə 0,1 faiz təşkil etmişdi.

Ölkənin valyuta ehtiyatları 2002-ci ildə 1 milyard 374 milyon dollara çatmışdı ki, bu da 1993-cü ildəkinə nisbətən 103 dəfədən çox idi. 2014-cü ilin noyabrına Ölkənin valyuta ehtiyatları 54 mld təşkil edir.

## Ədəbiyyat:


1.Azərbaycan tarixi 7 cilddə, VII-cild.B, 2003

2. Qaffarov T Azərbaycan Respublikası 1991-2001. Əsrə bərabər on il.Bakı 2001

3. Qaffarov T. Azərbaycanın ən yeni tarixi. XX əsrin sonları XXI əsrin əvvəlləri. Bakı: Gizo Enterprise, 2006

6.*Əliyev H.* Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət. "Respublika" qəzeti, 20 dekabr 2000-ci il.

7.Əliyev H. Azərbaycan nefti dünya siyasətində. Bakı: Azərnəşr, 1997

*8.* Əliyev H. Müstəqilliyimiz əbədidir. 17-ci kitab. Bakı: Azənəşr, 2006

9.Əliyev H. Müstəqilliyimiz əbədidir. 18-ci kitab. Bakı: Azənəşr, 2006

10. *Nadirov A.* Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri. Bakı, 2001

11. İsakov H. Heydər Əliyevin neft və ipək yolu strategiyası. Dövlət quruculuğu. İctimai- siyasi jurnal, Bakı, 2007

40. İsakov H. Heydər Əliyevin iqtisadi siyasətində «İpək yolu” strategiyası. Qərb Universitetinin Elmi xəbərləri, №2, Bakı, 2013

41. İsakov H.  Heydər Əliyev "Tarixi ipək yolu"nun bərpasının təşəbbüskarıdır. Dirçəliş XXI əsr, № 178/179, Bakı, 2013

## Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası.Qarabağ müharibəsi. Siyasi böhranın dərinləşməsi

**Plan:**

1.Müstəqillik ərəfəsində ölkədə vəziyyət.

2. Azərbaycan Respublikasının dövlət müstəqilliyi və onun dünya dövlətləri tərəfindən tanınması

3.Qrabağ müharibəsi, ölkədə siyasi böhranın dərinləşməsi

Tarixin bu məsuliyyətli dövründə Azərbaycan Xalq Cəbhəsi artıq xalqa rəhbərlik edə bilmədi. Onun başçıları siyasi naşılıq göstərərək, hakimiyyəti bölüşdürmək barədə iqtidarla sövdələşməyə başladılar və xalq içərisində nüfuzlarını itirdilər. Bir qrup ziyalının müraciətindən "təsirlənən" iqtidar və AXC liderləri mayın 17-də görüşüb Məşvərət Şurası yaratdılar. Azərbaycan SSR Ali Sovetinin sessiyası mayın 18-də Məşvərət Şurasında əvvəlcədən əldə olunmuş razılığa əsasən, müxalifətin maneəsinə rast gəlmədən prezident vəzifəsi təsis etdi və Ayaz Mütəllibovu respublikanın prezidenti seçdi. Ayaz Mütəllibov Moskvaya - Heydər Əliyevə xəbər göndərib bildirmişdi ki, onun qayıdışı ilə "Azərbaycanda böyük qarışıqlıqlar baş verə bilər". Bakı hava limanında Heydər Əliyevi qarşılayacaq şəxslərdən biri, görkəmli naşir Xanbabayev 1990-cı il mayın 30-da qətlə yetirildi.
Ən yüksək dairələrdən edilən xəbərdarlıqlara baxmayaraq, tarixin bu məsuliyyətli və çətin dövründə xalqı ilə bir olmağı, ona kömək etməyi vacib bilən Heydər Əliyev 1990-cı il iyulun 20-də təyyarə ilə Bakıya qayıtdı. Xalq bu gəlişi böyük ümid və sevinclə qarşıladı. Şəhəri gəzərkən Heydər Əliyevin ətrafına yüzlərlə adam toplaşırdı. Lakin iqtidar o qədər təşvişə düşmüşdü ki, bir qrup əlaltısının, habelə ondan hakimiyyət bölgüsü gözləyən bəzi sol müxalif qüvvələrin iştirakı ilə təyyarə meydanında piket təşkil etdirmişdi.İki gündən sonra - iyulun 22-də Heydər Əliyev Naxçıvana getdi. Həmin gün o, Naxçıvanın Azadlıq meydanında 80 mindən çox adamın iştirakı ilə keçirilən izdihamlı mitinqə dəvət olundu və orada çıxış etdi.

Xalqın respublikanın müxtəlif bölgələrindən gəlmiş nümayəndələri ilə görüşlər keçirdi, onları müstəqillik uğrunda axıradək mübariz olmağa çağırdı. O, Azərbaycan xalq deputatlığına namizəd irəli sürüldüyü Nehrəm seçki dairəsi seçiciləri ilə görüşündə demişdi: "Azərbaycan Respublikasının milli dövlət kimi inkişaf etməsi indi əsas məsələdir. Bunun üçün Azərbaycan tam müstəqil, azad olmalıdır.  Heydər Əliyevin təşəbbüsü və siyasi iradəsi ilə Naxçıvan MR Ali Məclisi 1991-ci il martın 14-də referendumda iştirak etməmək haqqında qərar qəbul etdi.emokratik respublika olmalıdır... Bütün bu vəzifələri Yeni İttifaq müqaviləsi hazırlanmış və mətbuatda dərc edilmişdi. Azərbaycan rəhbərliyi bu layihənin hazırlanmasının iştirakçısı olmuş və SSRİ Ali Sovetinin sessiyasında onu müdafiə etmişdi.18 Heydər Əliyev respublika başçılarının bu mövqeyini Naxçıvan MR Ali Məclisinin 14 yanvar 1991-ci il tarixli sessiyasında kəskin tənqid etdi, göstərdi ki, Azərbaycan üçün bu müqaviləyə girmək, ona müsbət rəy bildirmək xalqımızın qarşısında cinayət etmək deməkdir. "Əgər bizim respublikamız həqiqətən milli dirçəliş yoluna çıxıbsa və bu yolla getmək istəyirsə, onda hansı ittifaq birliyindən söhbət gedə bilər? Burada təyin etmək lazımdır, bizim respublikamız hansı yolla gedəcəkdir?"19 Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 7 mart tarixli sessiyasında Heydər Əliyev SSRİ-nin saxlanmasına münasibət bildirilməsi üçün təşkili nəzərdə tutulan Ümumittifaq referendumunda iştirak etməyin əleyhinə çıxdı. "Mən yeni İttifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin, heç bir şərt qoymadan, tam əleyhinəyəm... Azərbaycanın tam istiqlaliyyət, azadlıq, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdarıyam...1990-cı il noyabrın 17-də Naxçıvan MSSR parlamentinin Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyası Muxtar Respublikanın adından "sovet sosialist" sözlərinin götürülməsi, Azərbaycan Cümhuriyyətinin üçrəngli, ay-ulduzlu bayrağının Dövlət Bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırılması haqqında tarixi qərarlar qəbul etdi.

Demokratik qüvvələrin tələbi ilə 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası bir sıra tarixi qərarlar qəbul etdi. Dövlətin adı dəyişdirilib

"Azərbaycan Respublikası" adlandırıldı. Azərbaycan Cümhuriyyətinin bayrağı Dövlət Bayrağı kimi təsdiq olunduAzərbaycan Respublikası Ali Sovetinin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyası 1991-ci il avqustun 30-da saat 13.30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi haqqında bəyanat - "Azadlıq Bəyannaməsi" qəbul etdi. Naxçıvan MR Ali Məclisi 1991-ci il sentyabrın 3-də dəfələrlə namizədliyini geri götürməsinə baxmayaraq, Heydər Əliyevi xalqın təkidli tələbi ilə Ali Məclisin sədri seçdi.qəbul olunmasını xeyli yubatdı. Nəhayət, 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" yekdilliklə qəbul edildi.

Noyabrın 20-də Yuxarı Qarabağda Xocavənd kəndinin düşmən tərəfindən ələ keçirilib vandalizmə məruz qalması ilə əlaqədar vəziyyətlə yerində tanış olan respublikanın bir neçə yüksək vəzifəli şəxsini, o cümlədən Dövlət katibini, daxili işlər nazirini, Baş prokuroru, habelə SSRİ Müdafiə Nazirliyi nümayəndələrini, Rusiya və Qazaxıstan müşahidəçilərini Ağdama gətirən vertolyotun vurulub salınması respublikada siyasi vəziyyəti daha da gərginləşdirdi.

1992-ci il mayın 27-də Milli Məclis Azərbaycan Respublikasının Dövlət Himnini (musiqisi Üzeyir Hacıbəyovun, sözləri Əhməd Cavadındır), 1993-cü il fevralın 23-də isə üçrəngli dairəvi qalxan üzərində, içində alov olan səkkizguşəli ulduz təsvirli Dövlət Gerbini təsdiq etdi.8 Azərbaycan Respublikasının dövlət müstəqilliyini qısa bir müddətdə dünya dövlətlərinin böyük əksəriyyəti tanımışdı. Onu ilk olaraq 1991-ci il noyabrın 9-da Türkiyə Respublikası, sonra Rumıniya (11 dekabr 1991-ci il), Pakistan (13 dekabr 1991-ci il), İsveçrə (23 dekabr 1991-ci il), İran İslam Respublikası (25 dekabr 1991-ci il), ABŞ (23 yanvar 1992-ci il), Rusiya Federasiyası (10 aprel 1992-ci il - 109-cu dövlət olaraq) və başqa dövlətlər tanıdı. 1993-cü ildə Azərbaycanın dövlət müstəqilliyini artıq 116 dövlət tanımış, 70 xarici dövlət ilə Azərbaycan arasında diplomatik əlaqələr yaradılmışdı.84 Azərbaycan Respublikası 14 beynəlxalq təşkilata üzv qəbul edilmişdi. O, 1991-ci il dekabrın 8-də İslam Konfransı Təşkilatına, 1992-ci ilin fevralında İran, Türkiyə və Pakistan dövlətlərinin daxil olduğu İqtisadi Əməkdaşlıq Təşkilatına üzv oldu. 1992-ci il

iyulun 8-də Azərbaycan Respublikası Ümumavropa təhlükəsizlik və əməkdaşlıq proseslərini tənzimləyən Helsinki müşavirəsinin 1976-cı il Yekun aktına, 1992-ci il iyulun 10-da Helsinki Yekun sənədinə tərəfdar çıxdı, 1992-ci il yanvarın 20-də Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinə (ATƏM-ə) qoşuldu.86 1992-ci il martın 2-də Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatına (BMT-yə) üzv qəbul olundu, bu təşkilatın qəbul və təsdiq etdiyi bir çox mühüm beynəlxalq konvensiya və paktlara imza atdı. 1992-cı il iyunun 25-də Azərbaycan Qara dəniz hövzəsində iqtisadi əməkdaşlıq haqqında Bəyannamə imzalayan 11 dövlətdən biri oldu. Azərbaycanın bir çox ölkələrdə, o cümlədən Türkiyə, ABŞ, İran, Almaniya, Fransa, Böyük Britaniya və İrlandiya Krallığında səfirlikləri açıldı. Azərbaycan Respublikası başqa dövlətlərlə öz münasibətlərini dövlətlərin suveren bərabərliyi əsasında qurdu. Zor işlətməmək, dövlət sərhədlərinin toxunulmazlığı, mübahisələri dinc yolla nizama salmaq, başqa dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini əsas götürdü. Xalqların bərabərliyini və başqa xalqların hüququnu pozmursa, onların öz müqəddəratını təyin etmək hüququnu tanıdı.

Belə bir şəraitdə Ermənistan və Dağlıq Qarabağdakı erməni silahlı quldurları əvvəl sovet, MDB, sonra isə rus hərbi qüvvələrinin köməyi ilə Dağlıq Qarabağda irimiqyaslı hərbi əməliyyatlar keçirmiş, bir sıra əlverişli strateji mövqelər tutmuş, azərbaycanlıları buradan qovub çıxarmağa başlamışdılar/. Erməni silahlı dəstələri 1991-ci il sentyabrın ortalarında Yuxarı Qarabağda yerləşən sovet ordusu hissələri şəxsi heyətinin və döyüş texnikasının köməyi ilə azərbaycanlıları öz torpaqlarından qovub çıxarmağa, kəndləri yandırıb viran qoymağa başladılar. Sentyabrın 14-18-də düşmən hücum edib Goranboy bölgəsində Erkeç, Manaşid, Buzqov, Baş Qışlaq kəndlərini yenidən ələ keçirdi.90 Son damla qanınadək döyüşən igidlərin fədakarlığına baxmayaraq, pis silahlanmış, bir-birilə əlaqəsi zəif olan yerli özünümüdafiə dəstələri ilə güclü hücumların qarşısını almaq mümkün deyildi. Düşmən oktyabrın 28-də Tuğ, 31-də Salaketin kəndlərini ələ keçirib yandırdı. Noyabrın 19-da güclü artilleriya atəşindən sonra ermənilər müdafiəçilərin müqavimətini qırıb Xocavənd qəsəbəsini tutdular. Erməni faşistləri iki sakini, o cümlədən bir yaşlı körpəni diri-diri yandırdılar. Noyabrın 20-də Zamzur, 23-də

Əmiranlar kəndləri zəbt edildi. 1991-ci il sentyabrın 29-da paritet əsasında iqtidar və müxalifəti təmsil edən 8 nəfərdən ibarət Milli Müdafiə Şurası yaradıldı. Milli Müdafiə Şurasının müxalifətdən olan üzvlərinin silahlı hissələr yaratmaq, hərbi hissələri öz nəzarəti altına almaq cəhdləri aydın olduqda Respublikanın prezidenti 1992-ci il yanvarın 3-də bu qurumun buraxılması haqqında Fərman verdi. Dövlət Müdafiə Komitəsi təsis edildi.102 Siyasi qüvvələrin təsiri güclü olan təzə yaranmış ikinci tabur itaətsizlik göstərdiyi üçün 1992-ci il yanvarın 10-da buraxıldı.
Müxalifətin tələbi ilə parlament hökumətə ordu yaratmağa üç ay vaxt vermişdi. Ə.Elçibəy respublika prezidentinə "Qarabağ məsələsini həll etmək üçün 20-25 gün" vaxt verilməsini tələb edirdi. Müdafiə Nazirliyini ələ keçirmək və hərbi hissələrin gücündən istifadə edib hakimiyyətə gəlmək istəyən "liderlər" bu nazirliyə hərbçinin deyil, mülki şəxsin rəhbər təyin olunmasını tələb edir, piketlər keçirilirdi.Xocalı faciəsi respublikada siyasi gərginliyi daha da artırdı. Martın 3-dən Prezident sarayı qarşısında "istefa" tələbi ilə piket keçirildi. İqtidar Ali Sovetin sessiyasını çağırmağa məcbur oldu. Martın 5-də fövqəladə sessiya keçirən Ali Sovetin binası qarşısında izdihamlı mitinq başlandı. Sessiyada Ali Sovetin sədri Elmira Qafarova istefa verdi. Onun yerinə deputat Yaqub Məmmədov seçildi.124 İqtidar bu dəyişikliklərlə qarşıdurmanı zəiflətdi. Demblokdan olan 26 deputat A.Mütəllibovun Respublika Konstitusiyasını və qanunlarını pozduğuna görə prezident vəzifəsindən götürülməsi haqqında qərar layihəsi təqdim etdi. A.Mütəllibov sessiya tribunasından xalqı açıqca hədələməyə başladı. Axşam parlament binasını mühasirəyə almış mitinqçilər, xüsusən qadınlar deputatlara və iqtidara daha təsirli təzyiq göstərmək üçün binanın bütün giriş və çıxışlarını tutdular. Gecə yarısı MDB-nin Bakıdakı 5-ci ordusunun hissələri mitinqi dağıtmaq üçün parlament binasına doğru hərəkətə başladı. Bundan xəbər tutan Demblokdan olan deputatlar və Ali Sovetin yeni sədri vətəndaş qırğını başlamağın yolverilməzliyini bildirib buna qəti etiraz etdilər. Martın 6-da parlament qarşısındakı mitinq daha izdihamlı idi. Mitinqçilər tərəfindən prezidentin saat 14-dək istefa verməsi tələbi ultimatum şəklində tərtib olunub parlamentə göndərildi. A.Mütəllibov istefa verməyə məcbu oldu.

Nazirlər Kabineti buraxıldı. Onun sədri Həsən Həsənova yeni kabinet təşkil etmək tapşırıldı. Yeni Dövlət Müdafiə Komitəsi təşkil olundu. Yaqub Məmmədov ölkədə siyasi sabitlik yaratmaq üçün martın ikinci yarısında bütün siyasi qüvvələrə müraciət edib onları birliyə, əməkdaşlığa çağırdı. Müxalifət və iqtidar arasında danışıqlar başlandı. Lakin nəzərdə tutulduğu kimi, koalision hökumət yaratmaq mümkün olmadı.128 Ölkədə "əsil hərc-mərclik dövrü başlandı".129 Bu vəziyyət hakimiyyəti ələ keçirməyə səy edən qüvvələrin fəallaşmasına, gərginliyin artmasına səbəb oldu. Ali Sovet 1992-ci il iyunun 7-nə yeni prezident seçkiləri təyin etdi. Azərbaycanda nüfuzunu gücləndirməyə çalışan qüvvələrin mübarizəsi kəskinləşmişdi. Azərbaycanın Türkiyə Respublikası ilə yaxınlaşması Rusiyanı narahat edirdi. 1992-ci il yanvarın 24-də Türkiyə və Azərbaycan respublikaları arasında danışıqlar zamanı dostluq, əməkdaşlıq və mehriban qonşuluq haqqında müqavilə imzalanmışdı.131 Cənubi Qafqazda nüfuzuna xələl gələcəyindən təşvişə düşən Rusiya Azərbaycana təzyiqini artırdı: ermənilər martın 12-də Tərtər, Qazax, Tovuz, Ağdam, Cəbrayıl və Füzuli istiqamətlərində güclü hücuma başladılar.132 Yaqub Məmmədov martın sonunda mətbuatda açıq elan etdi ki, "Rusiya Ermənistanın köməyi ilə Azərbaycana təzyiq göstərməyə cəhd edir", "Müharibəni yalnız Yeltsin dayandıra bilər".Azərbaycan Respublikasına qarşı informasiya blokadasının yarılması, Dağlıq Qarabağ probleminə dair həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın dünya siyasətində, dünya dövlətləri arasında özünə layiq yer tutması, beynəlxalq münasibətlərin ümumbəşəri dəyərlər əsasında inkişafına kömək etməsi, Cənubi Qafqazda başqa dövlətlərin Dağlıq Qarabağ münaqişəsinin həllində də maraqlı olması, respublikanın ərazi bütövlüyünün sülh, danışıqlar yolu ilə təmin edilməsi istiqamətində Prezident Heydər Əliyevin başçılığı ilə gərgin və səmərəli iş aparıldı. Heydər Əliyev diplomatiyası beynəlxalq münasibətlər sistemində yaranmış dəyişikliklər, qloballaşma meylləri, dövlətlərin Cənubi Qafqaz regionundakı siyasi və iqtisadi maraqlarının Azərbaycanın maraqları ilə mümkün qədər uzlaşdırılması kimi praqmatik əsaslar üzərində quruldu. Azərbaycan Prezidenti 68 ölkənin prezidenti, hökumət başçısı ilə görüşlər keçirdi.71 Azərbaycan üzv olduğu beynəlxalq

təşkilatların sessiyalarında, zirvə toplantılarında iştirak etdi. 2000-ci il sentyabrın 6-da BMT Baş Məclisində, 2001-ci il yanvarın 25-də Avropa Şurası Parlament Assambleyasında Heydər Əliyev mövcud şəraitdə müstəqillik əldə etmiş dövlətlərə münasibətdə aydın hiss olunan ikili standartlarla yanaşmanın yolverilməzliyini, qloballaşmaya töhfələrini verən ölkələrə texnoloji yardım göstərilməsi, mədəniyyətlərin toqquşması təhlükəsini aradan qaldırmaq üçün demokratiya və bazar iqtisadiyyatının inkişafında ayrı-ayrı xalqların mentalitetinin nəzərə alınması vacibliyini qeyd etmişdi. 1993-cü il sentyabrın 24-də Azərbaycan Respublikası MDB-yə daxil oldu. 1996-1997-ci illərdə Azərbaycan-Gürcüstan və Azərbaycan-Ukrayna arasında strateji əməkdaşlıq haqqında sazişlər bağlandı. 1997-ci ilin oktyabrında Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova respublikalarının başçıları öz aralarında əməkdaşlıq haqqında kommünike imzaladılar. Noyabrın 25-də Bakıda "GUAM" bloku təşkilini bəyan edən rəsmi protokol imzalandı. Bu ölkələrin NATO və ATƏT çərçivəsində, habelə öz aralarında siyasi, hərbi və iqtisadi sahələrdə mövqelərini əlaqələndirməyə imkan verən strateji partnyorluğa hüquqi əsas yarandı.76 1999-cu il aprelin 4-də Vaşinqtonda GUAM təşkilatına üzv olan dövlətlərin prezidentlərinin görüşündə Özbəkistan Respublikası da bu təşkilata qəbul edildi. GUAM bundan sonra GUÖAM adlandırılmağa başlandı. Heydər Əliyev təşkilatın sədri seçildi. GUÖAM-ın icraçı katibliyinin yaradılması qərara alındı.77 Belə bir birliyin təşkili Rusiyanı olduqca narahat edirdi. Vəziyyəti 1999-cu ilin martında MDB dövlətləri başçılarının zirvə toplantısında Azərbaycan, Gürcüstan, Moldova və Özbəkistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi müddətinin uzadılmasına razılıq verməməsi daha da gərginləşdirdi.78 Rusiya bu dövlətlərə münasibətini xeyli yumşaltmağa istiqamətlənən addımlar atdı. Bununla əlaqədar sonralar - 2001-ci il iyunun 6-7-də Yaltada GUÖAM təşkilatı başçılarının görüşündə qəbul olunmuş "Yalta Xartiyası"nda yaradılan bu təşkilatın iqtisadi sahələrdə əməkdaşlığa üstünlük verəcəyi elan edildi.

Heydər Əliyev ATƏT-in 1999-cu il noyabrın 18-də İstanbul zirvə toplantısında "Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktı" təsis edilməsi təşəbbüsü ilə çıxış etdi. Bu paktda dövlətlərarası münasibətlərin, habelə münaqişələrin aradan

qaldırılmasının prinsipial əsasları təsbit edilməli idi. Ona əsasən regiondan xarici hərbi qüvvələr çıxarılmalı, Cənubi Qafqazı bölən ayırıcı xətlər aradan qaldırılmalı, təcavüzə, etnik təmizləmələrə, separatizmə son qoyulmalı, ikili standartlara yol verilməməli idi.80 Lakin Rusiya Ermənistan vasitəsilə bu planın həyata keçməsinə ciddi mane oldu. 2001-ci ilin əvvəllərində RF prezidenti Rusiyanın da iştirak etdiyi "Qafqaz dördlüyü" yaradılması təklifini irəli sürdü. Mayın sonlarında Rusiya, Azərbaycan, rmənistan və Gürcüstan prezidentlərinin Minskdə görüşü keçirildi, belə bir birliyin yaranması məsələləri müzakirə edildi.
Azərbaycan Respublikası 1992-ci ildə NATO-nun Şimali Atlantika Əməkdaşlıq Şurasına (1997-ci ildən bu şura Avropa-Atlantika Tərəfdaşlıq Şurası - AATŞ adlanır) qoşuldu. 1994-cü ilin yanvar ayında Azərbaycan NATO-nun Avropa və dünyada sülhün, əmin-amanlığın bərqərar olunmasına xidmət edən "Sülh Naminə Tərəfdaşlıq" Proqramına qəbul edildi. Həmin il mayın 4-də Prezident Heydər Əliyev bu proqramın Çərçivə sənədini imzaladı.82 NATO-nun və AATŞ-ın üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 1997-ci ilin iyul ayında keçirilən zirvə toplantısında Prezident Heydər Əliyev NATO-nun baş katibi ilə görüşdü və bu təşkilatla Azərbaycan arasında əməkdaşlığın genişlənməsi məsələləri müzakirə edildi. NATO-nun və Avropa-Atlantika Tərəfdaşlıq Şurası üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 1997-ci ilin iyul ayında keçirilən Madrid zirvə toplantısının qəbul etdiyi sənədlərdə NATO-nun tərəfdaş dövlətlərin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığına təminat verdiyi, onun strukturunda olan dövlətlərin bir-birinə qarşı güc işlətmək, hədə-qorxu gəlmək hüququna malik olmadığı bildirildi. Bunlar Azərbaycanın haqq işinin müdafiəsi sahəsində böyük əhəmiyyətə malik idi. Azərbaycan dövləti hərbi inkişafının perspektivləri məsələlərində NATO ilə sıx əməkdaşlığa istiqamətləndi.83 Azərbaycanın hərbi hissəsi Kosovoda və Əfqanıstanda sülhməramlı qüvvələrin keçirdiyi əməliyyatlarda iştirak etdi.84 2002-ci il noyabrın 18-də NATO Parlament Assambleyasının İstanbulda keçirilən iclasında Azərbaycan Respublikası NATO PA-na assosiativ üzv qəbul olundu.85 AATŞ-ın 2002-ci il noyabrın 22-də Praqada keçirilmiş zirvə görüşündə Prezident

Heydər Əliyev bu təşkilat və Azərbaycanın onda iştirakının əhəmiyyəti haqqında belə demişdi: "Dünya son dərəcə mürəkkəb bir dövr yaşayır. Beynəlxalq terrorizm bəzi dövlətlərin dəstəyindən istifadə edərək dünya nizamına qarşı hərəkət edir, ekstremizm, təcavüzkar millətçilik və davakar separatizm ideologiyası əsasında yeni qarşıdurma xətləri yaratmağa çalışır, sərhədləri yenidən bölməyə, dəyişməyə cəhd göstərir. Beynəlxalq sistemin ümumi təhlükəyə qarşı səmərəli mübarizə aparmaq qabiliyyəti ciddi sınağa çəkilir. 11 sentyabr faciəsindən dərhal sonra Avroatlantika birliyi antiterror koalisiyası yaratdı və Azərbaycan ilk gündən bu koalisiyaya qoşuldu. Biz bu gün də başqa ölkələr və beynəlxalq təşkilatlarla birlikdə bu təhlükələrə qarşı əlimizdən gələni edirik". BMT-nin Baş katibi Butrus-Butrus Qali Azərbaycana gəlib respublika ilə daha yaxındantanış oldu. Azərbaycana qarşı informasiya blokadası yarıldı. Prezident Heydər Əliyev 1994-cü ilin sentyabrında, 1995-ci ilin oktyabrında, 2000-ci ilin sentyabrında BMT Baş məclisinin sessiyaları tribunalarından Azərbaycan həqiqətlərini bütün dünyaya bəyan etdi, bu ölkənin sülhsevər, humanist, demokratik dəyərləri üstün tutduğunu göstərdi. Ölkənin xarici siyasət kursunda 1993-cü ilin yayından Türkiyə Respublikası ilə münasibətlərdə keyfiyyətcə ciddi dəyişikliklər edildi. Bu dost və qardaş ölkə Azərbaycanın ən etibarlı siyasi müttəfiqi, bərabərhüquqlu iqtisadi tərəf müqabili oldu. Türkiyə Ermənistanı təcavüzkar bir dövlət kimi tanımış, Dağlıq Qarabağ məsələsi ədalətlə həll olunmayınca onunla heç bir əlaqə saxlamayacağını elan etmişdi. Azərbaycan-Türkiyə münasibətləri həm də dünyada və bölgədə sülhün, əmin-amanlığın bərqərar olması işinə xidmət edirdi.88 2001-ci il iyulun 23-də Xəzər dənizinin mübahisəli sularında Azərbaycan gəmilərinə İran təyyarələrinin hücum cəhdini Türkiyə qəti etirazla qarşıladı. Ankara bütün dünyaya bildirdi ki, "Azərbaycana əl qaldıran qarşısında Türkiyəni görəcək!"

Azərbaycan İran İslam Respublikası ilə də hər iki tərəf üçün faydalı normal siyasi-iqtisadi və mədəni münasibətlər qurdu. İran dövləti Ermənistanın Azərbaycana təcavüz etdiyini bildirsə də, onunla hərtərəfli münasibətlər yaratmışdı. Bu qonşu müsəlman dövləti Azərbaycana qarşı münasibətlərində tam səmimi olmadığını göstərirdi. İran Azərbaycanı özünün təhlükəsizlik zonası elan etmişdi. 2001-ci il

iyulun 23-də İran mübahisəli hesab etdiyi sulardan Azərbaycan gəmilərinin çıxarılması haqqında nota verdikdən sonra hərbi təyyarələrini havaya qaldırmışdı. Azərbaycan buna cavab tədbiri gördü. Münaqişə dinc yolla nizama salındı.

Azərbaycan Prezidenti Heydər Əliyevin İran Respublikasına səfəri zamanı - 20 may 2002-ci ildə imzalanmış "Azərbaycan Respublikası ilə İran Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında" müqavilə iki dövlət arasında münasibətlərin nizamlanmasına istiqamətləndirilmişdi.91

Qonşu Gürcüstan Respublikası ilə əlaqələr çox önəmli idi. 1996-cı ilin mart ayında Prezident Heydər Əliyev Gürcüstana rəsmi səfər etdi. İki ölkə arasında dostluq və əməkdaşlıq haqqında sənəd imzalandı. Bu, qonşu ölkədə yaşayan azərbaycanlılara qarşı münasibətin xeyli yaxşılaşmasına səbəb oldu. İki ölkənin bütün sahələrdə strateji əməkdaşlığı başlandı. Azərbaycanın xarici siyasətində ABŞ, Böyük Britaniya, Çin, Yaponiya, Fransa, Almaniya, İtaliya kimi iri dövlətlərlə münasibətlər mühüm yer tuturdu. Bu ölkələrlə tərəfdaşlıq prinsiplərinə əsaslanan qarşılıqlı əlaqələr yaradılmışdı. Azərbaycan Qərblə Şərqin qovşağında bərpa olunan qədim İpək Yolunun mərkəzində mühüm yer tuturdu. Dünyada nüfuzlu Çin Xalq Respublikası və Yaponiya kimi Şərq dövlətləri ilə siyasi və iqtisadi əməkdaşlıq respublikanın xarici siyasətində uğurlu addımlar olmuşdu. Pakistan dövləti ilə dostluq və əməkdaşlıq münasibətləri daha da inkişaf etdirilirdi. İsrail dövləti ilə də əməkdaşlıq genişlənməkdə idi. XXI əsrin əvvəllərində Azərbaycan Respublikası artıq 137 ölkə ilə diplomatik əlaqələr yaratmışdı. Azərbaycanda 63 (24-ü bilavasitə Bakıda) ölkənin səfirliyi fəaliyyət göstərirdi. Azərbaycanın 21 ölkədə səfirliyi, baş konsulluğu və daimi nümayəndəliyi vardı.

1996-cı ilin aprelində Azərbaycan ilə Avropa Şurası (AŞ) və onun üzvü olan dövlətlər arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş imzalandı.98 Həmin ilin iyununda Azərbaycan Respublikası AŞ Parlament Assambleyasında "xüsusi dəvət olunmuş qonaq" statusu aldı.99 Prezident Heydər Əliyevin 1996-cı ilin iyunu və 1998-ci ilin yanvarında Azərbaycan Respublikası ilə AŞ arasında əməkdaşlığın dərinləşdirilməsi tədbirləri haqqında sərəncamları mövcud əlaqələri xeyli intensivləşdirdi.100 Aparılan böyük təşkilatçılıq işi, respublikada həyata keçirilən

demokratik ruhlu siyasi və iqtisadi islahatların səmərəli nəticələri Azərbaycanı AŞ-yə daha da yaxınlaşdırdı. 2001-ci il yanvarın 25-də Azərbaycan Respublikası Avropa Şurasına tam hüquqlu üzv qəbul olundu.101 Millət vəkili İlham Əliyevin başçılıq etdiyi Azərbaycan parlamentinin AŞ-də nümayəndə heyəti bu təşkilatda səmərəli fəaliyyət göstərməyə başladı. Öz işgüzarlığı ilə Avropa Şurasında böyük nüfuz qazanmış İlham Əliyev iki ildən sonra - 2003-cü il yanvarın 27-də bu təşkilatın Parlament Assambleyası sədrinin müavini və büro üzvü seçildi.101a Belə bir diqqətə səbəb həm də, Beynəlxalq Venesiya Komissiyasının sədri Puetro Aqounin qeyd etdiyi kimi, Azərbaycanda aparılan islahatların Avropada razılıqla qarşılanması olmuşdu.101b Bu təşkilatda Azərbaycan nümayəndə heyətinin əsas məqsədi Ermənistanın təcavüzkar kimi tanınmasına nail olmaq və onu işğal etdiyi əraziləri qaytarmağa məcbur etmək idi.101v 2001-ci il aprelin 24-də Azərbaycan nümayəndə heyəti AŞ tribunasından Ermənistanın azərbaycanlılara qarşı soyqırım siyasəti yeritdiyini, işğal olunmuş Azərbaycan ərazilərində, o cümlədən Dağlıq Qarabağda narkotik maddələr istehsal və ixrac etdiyini, bu vasitə ilə əldə olunan vəsaitlə ordu saxladığını, terrorçu dəstələr yaradıb onlara təlim verdiyini əsaslandırılmış şəkildə bütün dünyaya bəyan etdi. May ayında AŞ Nazirlər Komitəsinin 108-ci sessiyası konsensusla Azərbaycanın təşəbbüsü ilə Avropa dövlətlərinin, o cümlədən Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən xüsusi kommünike qəbul etdi.102 İyun ayında AŞ Parlament Assambleyası sessiyasında İlham Əliyev Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində tarix və mədəniyyət abidələrini dağıtmasını, təbiətin amansızcasına korlanmasına şərait yaradılmasını faktlarla ifşa etdi. AŞ Nazirlər Komitəsinə müraciət edildi ki, Ermənistanın AŞ prinsiplərinə zidd olaraq Azərbaycanın ərazi bütövlüyünü tanımamasına münasibət bildirilsin. Bu müraciət 43 ölkə nümayəndəsinin iştirakı ilə müzakirə edildi. Nazirlər Komitəsinin bununla bağlı qərarında qeyd olunurdu: "...Xalqların öz müqəddəratını təyin etmək hüququna... dövlətlərin ərazi bütövlüyünə dair normalara uyğun olaraq hörmət edilməlidir.

...Torpaq əldə etmək məqsədilə gücdən istifadə qəbuledilməzdir və ondan irəli gələn heç bir nəticə qanuni tanına bilməz".

AŞ Parlament Assambleyasının 2001-ci il 25 sentyabr tarixli iclasında İlham Əliyev erməni terrorizmini, Ermənistanın Azərbaycana qarşı keçirdiyi terror və soyqırım siyasətində terrorçu ASALA təşkilatının fəal iştirak etdiyini, törədilmiş 32 terror aktı nəticəsində 2000 adam öldürüldüyünü, on minlərlə adamın yaralandığını bildirdi. Terroru dəstəkləyən Ermənistan dövlətini ifşa etdi.104 İlyarım ərzində Avropa Şurası Parlament Assambleyasında Ermənistanın terrorçu dövlət adlandırıldığı 12 sənəd (bunlara üst-üstə AŞPA-nın 300 deputatı imza atmışdır) qəbul olundu. 2002-ci il sentyabrın 26-da AŞPA-nın sessiyasında müzakirə edilən Azərbaycan haqqında məruzədə ilk dəfə bu təşkilatın çox vacib sənədində açıq-aydın bildirilir ki, Azərbaycanın torpaqları işğal olunubdur. Ermənistan Azərbaycana qarşı təcavüz edibdir və bu işğal nəticəsində Azərbaycanın bir milyondan artıq qaçqını vardır.

Bəzən AŞ-ın ikili standartlardan çıxış edərək Azərbaycana verdiyi ədalətsiz tövsiyələrə də respublikada diqqətlə yanaşılır, beynəlxalq ictimaiyyətə mövcud problemlərin həqiqi mahiyyəti haqqında doğru məlumat çatdırılırdı. 2002-ci il yanvarın 24-də AŞ Parlament Assambleyası Azərbaycandakı qeyri-dövlət hüquq müdafiə təşkilatlarının təqdimatına əsasən "siyasi məhbus" hesab etdiyi şəxslərin, xüsusi olaraq R.Qazıyevin, S.Hüseynovun və Ə.Hümbətovun azad edilməsi və ya işlərinə yenidən baxılması təklifini verdi. Bununla əlaqədar həmin şəxslərin işlərinə yenidən baxılması haqqında Respublika Baş prokurorunun hələ 2001-ci il dekabrın 26-da qəbul etdiyi qərarın icrası sürətləndirildi106 (lakin konkret cinayət əməli ilə əlaqədar həbs olunmuş bu şəxslərin işində siyasi motivlər aşkar edilmədi). Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əməkdaşlığı daha da genişlənirdi. 2002-ci ildə Avropa İttifaqı ilə "Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi"nin (1992-ci ildə bağlanıb) yerinə yetirilməsinə dair milli proqram hazırlanmışdı. Bu əlaqələrin respublikanın inkişafına böyük təsiri vardı. Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin Brüsseldə 25-26 fevral 2002-ci ildə keçirilmiş iclasında qeyd edildiyi kimi, "siyasi, iqtisadi, hüquqi islahatların aparılması Azərbaycanın Avropaya inteqrasiyası üçün yeni perspektivlər açır.

2002-ci il oktyabrın 2-də Azərbaycan Respublikası BMT-nin "İqtisadi və Sosial urasına" üzv seçildi.Azərbaycan Respublikası Prezidentinin dövlət müstəqilliyinin dönməzliyi istiqamətində ardıcıl siyasəti imperiyapərəst qüvvələrin bütün təzyiqlərini qətiyyətlə rədd etdi. Rusiya 1994-cü ilin axırlarından Azərbaycana dəmir, şose və dəniz yollarını bağlamaq kimi ciddi iqtisadi sanksiyalar tətbiq etməsinə, Ermənistana 1994-1996-cı illərdə-atəşkəs şəraitində ümumi dəyəri 1 milyard dollardan çox olan 84 ədəd T-72 markalı tank, 50 ədəd piyadalar üçün RDM-2 döyüş maşını, 8 ədəd R-17 uzaqmənzilli raket kompleksi, "OCA" zenit kompleksi üçün 40 raket, 349 raketlə birlikdə 27 ədəd "Kruq" raket-zenit kompleksi, 40 ədəd "İqla" səyyar raket kompleksi, 18 ədəd reaktiv "Qrad" qurğusu, 1000-ə qədər "Strela-2" və "Strela-3" raketləri, 1998-ci ilin sonlarında MİQ-29 təyyarələri, C-300 raketləri, külli miqdarda başqa silah və sursat verməsinə, Ermənistanda öz hərbi bazalarını yerləşdirməsinə və onları daim modernləşdirməsinə, Rusiya-İran-Ermənistan strateji əməkdaşlıq xətti yaratmasına baxmayaraq,109 Azərbaycanı qorxuda, tutduğu müstəqillik yolundan döndərə bilmədi. Azərbaycan və Türkiyə respublikaları 1997-ci ilin may ayında strateji əməkdaşlığı daha da dərinləşdirmək haqqında müqavilə imzaladılar. Azərbaycanın qəti mövqeyi dövlətlərin ona münasibətinin getdikcə dəyişməsinə, sağlamlaşmasına səbəb oldu. 1997-ci il iyulun 3-də Moskvada Rusiya Federasiyası və Azərbaycan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə imzalandı.111 1997-ci il avqustun 29-da Rusiya ilə Ermənistan arasında da "Dostluq, əməkdaşlıq, qarşılıqlı yardım haqqında" yeni müqavilə bağlandı. Bu sənəddə hərbi vəziyyət yaranarkən Rusiyanın rəsmi surətdə Ermənistan tərəfində çıxış edəcəyi bəyan olunurdu.112 Azərbaycanda narazılıq yaratdığını görən Rusiyanın yüksək vəzifəli şəxsləri, habelə Xarici İşlər Nazirliyi xüsusi nota ilə bu sənədin Azərbaycan Respublikasına qarşı çevrilmədiyini bildirdilər. Azərbaycan Prezidenti Heydər Əliyev MDB dövlət başçılarının 1997-ci il oktyabr, 1999-cu il mart və sonrakı zirvə görüşlərində bu müqavilənin Azərbaycana qarşı təhlükə yaradan bəndlərinin ləğv olunmasını tələb etdi.113 2001-ci ilin may ayında Bakıda səfərdə olan RF hərbi naziri rəsmi surətdə elan etdi ki, Ermənistan və Azərbaycan

arasında silahlı münaqişə olarsa, Rusiya neytral qalacaqdır. Rusiya Federasiyasının prezidenti V.Putin Azərbaycan prezidentinin dəvəti ilə 2001-ci il yanvar ayının 9-da Bakıya rəsmi səfərə gəldi. Ölkələr arasında münasibətlərin inkişaf etdirilməsinə istiqamətləndirilmiş tədbirlər görülməsi barədə razılıqlar əldə olundu. V.Putin Azərbaycan və Gürcüstanın bölgədə Rusiyanın iştirak etmədiyi siyasi birliklərə qoşulmasının qarşısını almaq üçün "Qafqaz dördlüyü" (Rusiya, Azərbaycan, Gürcüstan və Ermənistan) yaradılması təşəbbüsünü irəli sürdü. "Bakı Bəyannaməsi" imzalandı. Prezident V.Putin RF-ni rezident Heydər Əliyevin qeyd etdiyi kimi, Azərbaycan diplomatiyasında Avropa istiqaməti yaxınlaşmasında 2002-ci ilin oktyabr ayında millət vəkili, ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyevin ABŞ-ın vitse-prezidenti Riçard Çeyni, dövlət katibinin birinci müavini Riçard Armitac, ABŞ prezidentinin Milli Təhlükəsizlik məsələləri üzrə müşavirinin müavini Stiven Hedi, müdafiə, energetika, maliyyə, ticarət nazirliklərinin, habelə Beynəlxalq Valyuta Fondunun, Dünya Bankının rəhbərləri ilə görüşü və əməkdaşlığı genişləndirmək üçün səyləri daha da artırmağın vacibliyinə dair fikir mübadiləsi, Con Hopkins Universitetinin Mərkəzi Asiya və Qafqaz Araşdırmaları İnstitutunda "Cənubi Qafqaz və Xəzər bölgəsi: Bakıdan baxış" mövzusunda çıxışı, Zbiqnev Bjezinski, Madlen Olbrayt, Vrent Skoutroft və b. görkəmli siyasətçilərlə görüşü mühüm əhəmiyyət kəsb etdi.123 V.Skoutroft bu görüşdən sonra demişdi: "...Mən Azərbaycanın gələcəyinə nikbin baxıram. İlham Əliyev bizə güclü siyasətçi təsiri bağışlayır". Prezident Heydər Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mümkün qədər qan tökülmədən, qırğın və dağıntılara yol vermədən, dinc vasitələrlə həll etmək xətti götürdü. O, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT - 1994-cü il Budapeşt sammitindən sonra ATƏM belə adlanır) Minsk qrupunun fəaliyyətinin xeyli canlanmasına, ona nəzarət edən və üzv dövlətlərin münaqişənin həllinə və regionda sabitlik yaradılmasına marağının artmasına nail oldu. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Heydər Əliyevin bütün ölkələrin dövlət başçıları ilə görüşlərində əsas mövzulardan biri olmuşdu. 1993-2000-ci illərdə Heydər Əliyev bu məsələni ABŞ rəhbərliyi ilə 18, Fransa rəhbərliyi ilə 16, Rusiya rəhbərliyi ilə

28, Türkiyə rəhbərliyi ilə 78 dəfə müzakirə etmiş, problemin həlli yollarını araşdırmışdı. BMT-dəki çıxışlarında, NATO-nun, İslam Konfransı Təşkilatının, Türkdilli dövlət başçılarının sammitlərində, MDB dövlət başçılarının, demək olar ki, bütün görüşlərində Heydər Əliyev bu məsələyə toxunmuş, onun həllinin regionda və dünyada siyasi, iqtisadi, beynəlxalq münasibətlərin inkişafına geniş imkanlar açacağını vurğulamışdı.125 Bütün bu fəaliyyətin nəticəsi olaraq dünya ictimaiyyəti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həqiqi mahiyyətini anlaya bildi. 2001-ci il sentyabrın ortalarında Ermənistanda olmuş Avropa Şurasının Parlament Assambleyasının sədri Lord Rossel Conston açıqca bildirmişdi: "Beynəlxalq ictimaiyyətdə belə bir rəy formalaşıb ki, Ermənistan Dağlıq Qarabağı işğal edib".

Prezident Heydər Əliyev bu illərdə ATƏT rəhbərliyi və onun Minsk qrupunun təmsilçiləri ilə 130-dan çox görüş keçirdi.127 ATƏT-in 1994-cü ilin dekabrında Budapeşt, habelə 1996-cı ilin dekabrında Lissabon sammitləri Dağlıq Qarabağ münaqişəsinin Minsk qrupu vasitəsilə ədalətli, beynəlxalq prinsiplərə əsaslanaraq həllinin vacibliyini təsdiq etdi. Budapeşt sammiti Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan və Ermənistan arasında gələcəkdə bağlanacaq sazişdən sonra regiona daxil olub, silahlı münaqişənin nəticələrini aradan qaldıracaq çoxmilli beynəlxalq qüvvələr yaradılacağı haqqında qərar qəbul etdi. Minsk qrupu həmsədrləri təsisatı yaradıldı. Bu, vasitəçilərin fəaliyyətində əlaqəsizliyi, paralelliyi aradan qaldırdı.128 Burada iki il sonra keçirilmiş Lissabon sammitində Prezident Heydər Əliyevin siyasi uzaqgörənliyi və iradəsi sayəsində Azərbaycanın mövqeyi dünyanın 53 dövləti tərəfindən tanındı və müdafiə olundu. Sammitin yekun qərarının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllolunma prinsipləri haqqında təklif edilən bəndinə Ermənistan prezidenti razı olmadığı üçün Heydər Əliyev zirvə toplantısı iştirakçılarının bu məsələ ilə bağlı münasibətlərinin ifadəsi olan bir sənəd qəbul etdirmək məqsədilə yalnız yekdilliklə qəbul oluna biləcək Yekun Aktına bütövlükdə imza atmaqdan imtina etdi. Nəticədə ATƏT-in fəaliyyətdə olan sədrinin 54 üzv dövlətdən 53-ü (Ermənistan etiraz etmişdi)

**Heydər Əliyevin uğurlu xarici siyasəti**

**Plan:**

1. Heydər Əliyevin diplomatic blokadanı aradan qaldırması sahəsində fəaliyyəti.
2. Azərbaycanın beynəlxalq təşkilatlara üzv olması
3. Heydər Əliyevin xarici siyasətində Qrabağ problemi

Azərbaycan Respublikasına qarşı informasiya blokadasının yarılması, Dağlıq Qarabağ probleminə dair həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın dünya siyasətində, dünya dövlətləri arasında özünə layiq yer tutması, beynəlxalq münasibətlərin ümumbəşəri dəyərlər əsasında inkişafına kömək etməsi, Cənubi Qafqazda başqa dövlətlərin Dağlıq Qarabağ münaqişəsinin həllində də maraqlı olması, respublikanın ərazi bütövlüyünün sülh, danışıqlar yolu ilə təmin edilməsi istiqamətində Prezident Heydər Əliyevin başçılığı ilə gərgin və səmərəli iş aparıldı. Heydər Əliyev diplomatiyası beynəlxalq münasibətlər sistemində yaranmış dəyişikliklər, qloballaşma meylləri, dövlətlərin Cənubi Qafqaz regionundakı siyasi və iqtisadi maraqlarının Azərbaycanın maraqları ilə mümkün qədər uzlaşdırılması kimi praqmatik əsaslar üzərində quruldu. Azərbaycan Prezidenti 68 ölkənin prezidenti, hökumət başçısı ilə görüşlər keçirdi.71 Azərbaycan üzv olduğu beynəlxalq təşkilatların sessiyalarında, zirvə toplantılarında iştirak etdi. 2000-ci il sentyabrın 6-da BMT Baş Məclisində, 2001-ci il yanvarın 25-də Avropa Şurası Parlament Assambleyasında Heydər Əliyev mövcud şəraitdə müstəqillik əldə etmiş dövlətlərə münasibətdə aydın hiss olunan ikili standartlarla yanaşmanın yolverilməzliyini, qloballaşmaya töhfələrini verən ölkələrə texnoloji yardım göstərilməsi, mədəniyyətlərin toqquşması təhlükəsini aradan qaldırmaq üçün demokratiya və bazar iqtisadiyyatının inkişafında ayrı-ayrı xalqların mentalitetinin nəzərə alınması vacibliyini qeyd etmişdi.

1993-cü il sentyabrın 24-də Azərbaycan Respublikası MDB-yə daxil oldu. MDB-yə daxil olan dövlətlərlə ikitərəfli əlaqələrin möhkəmlənməsinə diqqət artırılmışdı. 1993-cü ilin sonlarına qədər Azərbaycanla kəskin münasibətlərə malik olan Mərkəzi Asiya respublikaları ilə əlaqələr yeni forma və vasitələrlə köklü

surətdə yenidən qurulurdu. Birlik üzvlərinə RF tərəfindən ikili münasibət MDB daxilində dövlətlərin ayrılıqda birliklər təşkil etməsinə səbəb olurdu. 1996-1997-ci illərdə Azərbaycan-Gürcüstan və Azərbaycan-Ukrayna arasında strateji əməkdaşlıq haqqında sazişlər bağlandı. 1997-ci ilin oktyabrında Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova respublikalarının başçıları öz aralarında əməkdaşlıq haqqında kommünike imzaladılar. Noyabrın 25-də Bakıda "GUAM" bloku təşkilini bəyan edən rəsmi protokol imzalandı. Bu ölkələrin NATO və ATƏT çərçivəsində, habelə öz aralarında siyasi, hərbi və iqtisadi sahələrdə mövqelərini əlaqələndirməyə imkan verən strateji partnyorluğa hüquqi əsas yarandı.76 1999-cu il aprelin 4-də Vaşinqtonda GUAM təşkilatına üzv olan dövlətlərin prezidentlərinin görüşündə Özbəkistan Respublikası da bu təşkilata qəbul edildi. GUAM bundan sonra GUÖAM adlandırılmağa başlandı. Heydər Əliyev təşkilatın sədri seçildi. GUÖAM-ın icraçı katibliyinin yaradılması qərara alındı. Belə bir birliyin təşkili Rusiyanı olduqca narahat edirdi. Vəziyyəti 1999-cu ilin martında MDB dövlətləri başçılarının zirvə toplantısında Azərbaycan, Gürcüstan, Moldova və Özbəkistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi müddətinin uzadılmasına razılıq verməməsi daha da gərginləşdirdi. Rusiya bu dövlətlərə münasibətini xeyli yumşaltmağa istiqamətlənən addımlar atdı. Bununla əlaqədar sonralar - 2001-ci il iyunun 6-7-də Yaltada GUÖAM təşkilatı başçılarının görüşündə qəbul olunmuş "Yalta Xartiyası"nda yaradılan bu təşkilatın iqtisadi sahələrdə əməkdaşlığa üstünlük verəcəyi elan edildi. Heydər Əliyev ATƏT-in 1999-cu il noyabrın 18-də İstanbul zirvə toplantısında "Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktı" təsis edilməsi təşəbbüsü ilə çıxış etdi. Bu paktda dövlətlərarası münasibətlərin, habelə münaqişələrin aradan qaldırılmasının prinsipial əsasları təsbit edilməli idi. Ona əsasən regiondan xarici hərbi qüvvələr çıxarılmalı, Cənubi Qafqazı bölən ayırıcı xətlər aradan qaldırılmalı, təcavüzə, etnik təmizləmələrə, separatizmə son qoyulmalı, ikili standartlara yol verilməməli idi.80 Lakin Rusiya Ermənistan vasitəsilə bu planın həyata keçməsinə ciddi mane oldu. 2001-ci ilin əvvəllərində RF prezidenti Rusiyanın da iştirak etdiyi "Qafqaz dördlüyü" yaradılması təklifini irəli sürdü. Mayın sonlarında Rusiya, Azərbaycan, Ermənistan və Gürcüstan

prezidentlərinin Minskdə görüşü oldu._Azərbaycan Respublikası 1992-ci ildə NATO-nun Şimali Atlantika Əməkdaşlıq Şurasına (1997-ci ildən bu şura Avropa-Atlantika Tərəfdaşlıq Şurası - AATŞ adlanır) qoşuldu. 1994-cü ilin yanvar ayında Azərbaycan NATO-nun Avropa və dünyada sülhün, əmin-amanlığın bərqərar olunmasına xidmət edən "Sülh Naminə Tərəfdaşlıq" Proqramına qəbul edildi. Həmin il mayın 4-də Prezident Heydər Əliyev bu proqramın Çərçivə sənədini imzaladı. Azərbaycan dövləti hərbi inkişafının perspektivləri məsələlərində NATO ilə sıx əməkdaşlığa istiqamətləndi. Azərbaycanın hərbi hissəsi Kosovoda və Əfqanıstanda sülhməramlı qüvvələrin keçirdiyi əməliyyatlarda iştirak etdi. 2002-ci il noyabrın 18-də NATO Parlament Assambleyasının İstanbulda keçirilən iclasında Azərbaycan Respublikası NATO PA-na assosiativ üzv qəbul olundu. 2001-ci il 11 sentyabr faciəsindən dərhal sonra Avroatlantika birliyi antiterror koalisiyası yaratdı və Azərbaycan ilk gündən bu koalisiyaya qoşuldu.

Ölkənin xarici siyasət kursunda 1993-cü ilin yayından Türkiyə Respublikası ilə münasibətlərdə keyfiyyətcə ciddi dəyişikliklər edildi. Bu dost və qardaş ölkə Azərbaycanın ən etibarlı siyasi müttəfiqi, bərabərhüquqlu iqtisadi tərəf müqabili oldu. Türkiyə Ermənistanı təcavüzkar bir dövlət kimi tanımış, Dağlıq Qarabağ məsələsi ədalətlə həll olunmayınca onunla heç bir əlaqə saxlamayacağını elan etmişdi. Azərbaycan-Türkiyə münasibətləri həm də dünyada və bölgədə sülhün, əmin-amanlığın bərqərar olması işinə xidmət edirdi. 2001-ci il iyulun 23-də Xəzər dənizinin mübahisəli sularında Azərbaycan gəmilərinə İran təyyarələrinin hücum cəhdini Türkiyə qəti etirazla qarşıladı. Ankara bütün dünyaya bildirdi ki, "Azərbaycana əl qaldıran qarşısında Türkiyəni görəcək!" Azərbaycan Prezidenti Heydər Əliyevin İran Respublikasına səfəri zamanı - 20 may 2002-ci ildə imzalanmış "Azərbaycan Respublikası ilə İran Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında" müqavilə iki dövlət arasında münasibətlərin nizamlanmasına istiqamətləndirilmişdi.

Qonşu Gürcüstan Respublikası ilə əlaqələr çox önəmli idi. 1996-cı ilin mart ayında Prezident Heydər Əliyev Gürcüstana rəsmi səfər etdi. İki ölkə arasında dostluq və əməkdaşlıq haqqında sənəd imzalandı. Bu, qonşu ölkədə yaşayan

azərbaycanlılara qarşı münasibətin xeyli yaxşılaşmasına səbəb oldu. İki ölkənin bütün sahələrdə strateji əməkdaşlığı başlandı.

Azərbaycanın xarici siyasətində ABŞ, Böyük Britaniya, Çin, Yaponiya, Fransa, Almaniya, İtaliya kimi iri dövlətlərlə münasibətlər mühüm yer tuturdu. Bu ölkələrlə tərəfdaşlıq prinsiplərinə əsaslanan qarşılıqlı əlaqələr yaradılmışdı. Prezident Heydər Əliyevin qeyd etdiyi kimi, Azərbaycan diplomatiyasında İngiltərə və Avropanın digər nüfuzlu dövlətləri ilə sabit bərabərhüquqlu əməkdaşlıq münasibətləri qurulmuşdu. Azərbaycan Qərblə Şərqin qovşağında bərpa olunan qədim İpək Yolunun mərkəzində mühüm yer tuturdu. Dünyada nüfuzlu Çin Xalq Respublikası və Yaponiya kimi Şərq dövlətləri ilə siyasi və iqtisadi əməkdaşlıq respublikanın xarici siyasətində uğurlu addımlar olmuşdu.

Pakistan dövləti ilə dostluq və əməkdaşlıq münasibətləri daha da inkişaf etdirilirdi. İsrail dövləti ilə də əməkdaşlıq genişlənməkdə idi.

XXI əsrin əvvəllərində Azərbaycan Respublikası artıq 137 ölkə ilə diplomatik əlaqələr yaratmışdı. Azərbaycanda 63 (24-ü bilavasitə Bakıda) ölkənin səfirliyi fəaliyyət göstərirdi. Azərbaycanın 21 ölkədə səfirliyi, baş konsulluğu və daimi nümayəndəliyi vardı Aparılan böyük təşkilatçılıq işi, respublikada həyata keçirilən demokratik ruhlu siyasi və iqtisadi islahatların səmərəli nəticələri Azərbaycanı AŞ-yə daha da yaxınlaşdırdı. 2001-ci il yanvarın 25-də Azərbaycan Respublikası Avropa Şurasına tam hüquqlu üzv qəbul olundu. Millət vəkili İlham Əliyevin başçılıq etdiyi Azərbaycan parlamentinin AŞ-də nümayəndə heyəti bu təşkilatda səmərəli fəaliyyət göstərməyə başladı. Öz işgüzarlığı ilə Avropa Şurasında böyük nüfuz qazanmış İlham Əliyev iki ildən sonra - 2003-cü il yanvarın 27-də bu təşkilatın Parlament Assambleyası sədrinin müavini və büro üzvü seçildi. Əliyev erməni terrorizmini, Ermənistanın Azərbaycana qarşı keçirdiyi terror və soyqırım siyasətində terrorçu ASALA təşkilatının fəal iştirak etdiyini, törədilmiş 32 terror aktı nəticəsində 2000 adam öldürüldüyünü, on minlərlə adamın yaralandığını bildirdi. Terroru dəstəkləyən Ermənistan dövlətini ifşa etdi.İlyarım ərzində Avropa Şurası Parlament Assambleyasında Ermənistanın terrorçu dövlət adlandırıldığı 12 sənəd (bunlara üst-üstə AŞPA-nın 300 deputatı imza atmışdır) qəbul olundu

Azərbaycan Respublikası Prezidentinin dövlət müstəqilliyinin dönməzliyi istiqamətində ardıcıl siyasəti imperiyapərəst qüvvələrin bütün təzyiqlərini qətiyyətlə rədd etdi. Rusiya 1994-cü ilin axırlarından Azərbaycana dəmir, şose və dəniz yollarını bağlamaq kimi ciddi iqtisadi sanksiyalar tətbiq etməsinə, Ermənistana 1994-1996-cı illərdə-atəşkəs şəraitində ümumi dəyəri 1 milyard dollardan çox olan 84 ədəd T-72 markalı tank, 50 ədəd piyadalar üçün RDM-2 döyüş maşını, 8 ədəd R-17 uzaqmənzilli raket kompleksi, "OCA" zenit kompleksi üçün 40 raket, 349 raketlə birlikdə 27 ədəd "Kruq" raket-zenit kompleksi, 40 ədəd "İqla" səyyar raket kompleksi, 18 ədəd reaktiv "Qrad" qurğusu, 1000-ə qədər "Strela-2" və "Strela-3" raketləri, 1998-ci ilin sonlarında MİQ-29 təyyarələri, C-300 raketləri, külli miqdarda başqa silah və sursat verməsinə, Ermənistanda öz hərbi bazalarını yerləşdirməsinə və onları daim modernləşdirməsinə, Rusiya-İran-Ermənistan strateji əməkdaşlıq xətti yaratmasına baxmayaraq, Azərbaycanı qorxuda, tutduğu müstəqillik yolundan döndərə bilmədi.

Azərbaycan və Türkiyə respublikaları 1997-ci ilin may ayında strateji əməkdaşlığı daha da dərinləşdirmək haqqında müqavilə imzaladılar.

Rusiya Federasiyasının prezidenti V.Putin Azərbaycan prezidentinin dəvəti ilə 2001-ci il yanvar ayının 9-da Bakıya rəsmi səfərə gəldi. Ölkələr arasında münasibətlərin inkişaf etdirilməsinə istiqamətləndirilmiş tədbirlər görülməsi barədə razılıqlar əldə olundu. V.Putin Azərbaycan və Gürcüstanın bölgədə Rusiyanın iştirak etmədiyi siyasi birliklərə qoşulmasının qarşısını almaq üçün "Qafqaz dördlüyü" (Rusiya, Azərbaycan, Gürcüstan və Ermənistan) yaradılması təşəbbüsünü irəli sürdü. "Bakı Bəyannaməsi" imzalandı.

Prezident Heydər Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mümkün qədər qan tökülmədən, qırğın və dağıntılara yol vermədən, dinc vasitələrlə həll etmək xətti götürdü. O, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT - 1994-cü il Budapeşt sammitindən sonra ATƏM belə adlanır) Minsk qrupunun fəaliyyətinin xeyli canlanmasına, ona nəzarət edən və üzv dövlətlərin münaqişənin həllinə və regionda sabitlik yaradılmasına marağının artmasına nail oldu. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ

münaqişəsi Heydər Əliyevin bütün ölkələrin dövlət başçıları ilə görüşlərində əsas mövzulardan biri olmuşdu. 1993-2000-ci illərdə Heydər Əliyev bu məsələni ABŞ rəhbərliyi ilə 18, Fransa rəhbərliyi ilə 16, Rusiya rəhbərliyi ilə 28, Türkiyə rəhbərliyi ilə 78 dəfə müzakirə etmiş, problemin həlli yollarını araşdırmışdı. BMT-dəki çıxışlarında, NATO-nun, İslam Konfransı Təşkilatının, Türkdilli dövlət başçılarının sammitlərində, MDB dövlət başçılarının, demək olar ki, bütün görüşlərində Heydər Əliyev bu məsələyə toxunmuş, onun həllinin regionda və dünyada siyasi, iqtisadi, beynəlxalq münasibətlərin inkişafına geniş imkanlar açacağını vurğulamışdı Bütün bu fəaliyyətin nəticəsi olaraq dünya ictimaiyyəti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həqiqi mahiyyətini anlaya bildi. 2001-ci il sentyabrın ortalarında Ermənistanda olmuş Avropa Şurasının Parlament Assambleyasının sədri Lord Rossel Conston açıqca bildirmiş "Beynəlxalq ictimaiyyətdə belə bir rəy formalaşıb ki, Ermənistan Dağlıq Qarabağı işğal edib".126 Prezident Heydər Əliyev bu illərdə ATƏT rəhbərliyi və onun Minsk qrupunun təmsilçiləri ilə 130-dan çox görüş keçirdi.127 ATƏT-in 1994-cü ilin dekabrında Budapeşt, habelə 1996-cı ilin dekabrında Lissabon sammitləri Dağlıq Qarabağ münaqişəsinin Minsk qrupu vasitəsilə ədalətli, beynəlxalq prinsiplərə əsaslanaraq həllinin vacibliyini təsdiq etdi. Budapeşt sammiti Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan və Ermənistan arasında gələcəkdə bağlanacaq sazişdən sonra regiona daxil olub, silahlı münaqişənin nəticələrini aradan qaldıracaq çoxmilli beynəlxalq qüvvələr yaradılacağı haqqında qərar qəbul etdi. Minsk qrupu həmsədrləri təsisatı yaradıldı. Bu, vasitəçilərin fəaliyyətində əlaqəsizliyi, paralelliyi aradan qaldırdı.Burada iki il sonra keçirilmiş Lissabon sammitində Prezident Heydər Əliyevin siyasi uzaqgörənliyi və iradəsi sayəsində Azərbaycanın mövqeyi dünyanın 53 dövləti tərəfindən tanındı və müdafiə olundu.

Ədəbiyyat

1. Azərbaycan tarixi VII cilddə, VII-cild.B, 2003
2.Qaffarov T. Azərbaycan tarixi: XX əsrin 80- 90-cı illəri. Bakı: Mütərcim, 1997
3 *Sultanov O.* XX əsrin 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə. Bakı, 1995
4. *Аракелов Р.* Нагорный Карабах: Виновники трагедии известны. Баку, 1991
5.Xocalı faciəsi barədə deputat-istintaq komissiyasının tərtib etdiyi məruzənin mətni. Bax: "Mühakimə", 1995, №5-9; Ходжалы, Хроника геноцида. Баку, 1993

6. Məmmədova H. Xocalı, Bakı 2003
7. События вокруг НКАО в кривом зеркале фальсификаторов. Сборник документов. Баку, 1989

## Şuşa və Laçının erməni hərbi birləşmələri tərəfindən işğalı

**Plan : 1. İşğal ərəfəsində Şuşada vəziyyət.**

**2.Erməni hərbi birləşmələri tərəfindən Şuşanın işğalı.**

**3. Şuşanın işğalından sonraçı vəziyyət, hakimiyyət dəyişikliyi.**

**4. Laçının işğalı.Naxçıvanda vəziyyət, H.Əliyevin düşmən təcavüzünün qarşısının alınması sahəsində fəaliyyəti.**

Şuşanın müdafiəsinin olduqca böyük hərbi strateji və mənəvi-siyasi əhəmiyyəti vardı. Şəhər uzun müddət mühasirədə qalmışdı. Güclü hücum gözlənilirdi. MDB-nin 366-cı alayının 180 hərbi mütəxəssisinin 90 ağır hərbi texnika ilə ermənilər tərəfə keçməsi məlum idi. Alay Gürcüstana köçürülərkən çoxlu hərbi texnika erməni hərbi hissələrinə təhvil verilmişdi. Şuşanm müdafiəsində isə cəmi 24 ağır hərbi texnika dururdu. Hərbi rabitə lazımi vəziyyətdə deyildi. Şəxsi heyətin hazırlıq səviyyəsi, nizam-intizam aşağı idi. Şəhərin müdafiə qabiliyyətini yüksəltmək üçün əməli iş, demək olar ki, görülməmişdi. Əksinə, şəhəri qorumalı olan silahlı qüvvələr arasında ziddiyyət daha da dərinləşmiş, parçalanma baş vermişdi. Şəhərdə kimin - şəhər milis şöbəsi rəisinin, yoxsa buradakı Azərbaycan Qarabağı könüllü müdafiə taburu komandirinin üstün səlahiyyətə malik olması aydın deyildi. Bu iki qüvvə arasındakı çəkişmə respublikada hakimiyyəti ələ keçirməyə çalışan Müdafiə və Daxili İşlər Nazirliyinin kəskin mübarizəsinin təzahürü idi. 1992-ci il martın 12-də Dövlət Müdafiə Komitəsində Şuşadakı vəziyyət müzakirə edildi. Aprelin 26-da buradakı bütün hərbi qüvvələr ümumi komandanlığa tabe edildi. Lakin vəziyyət dəyişmədi. Bunun üçün heç cəhd də göstərilmədi. İqtidar iki güc nazirliyi rəhbərliyinin yaxınlaşmasını özünə qarşı təhlükə hesab edirdi.

Respublikanın başçısı məsuliyyətli bir vaxtda diqqəti yayındırmaq üçün məharətlə qurulmuş diplomatik tələyə düşdü. İranın vasitəçiliyi ilə Ermənistanla danışıqlar aparılırdı. Arxayınçılıq yaranmışdı. Minalanmış sahələr zərərsizləşdirilmiş, xeyli döyüşçü qısa müddətli məzuniyyətə buraxılmışdı. Şuşa taburu ştatında 1500-ə yaxın döyüşçü olduğu halda, hücum günü şəhərdə cəmi 500 döyüşçü vardı.147 200 könüllü əsgər silahı ilə şəhəri tərk etmişdi. Hərbi texnikanın "Qrad" qurğularının şəhərdən çıxarılmasına başlanmışdı. Xüsusi milis taburunun döyüşçüləri mayın 4-də Şuşanı tərk edib, Böyük Kirsdə mövqe tutmuşdular. Mayın 7-dən 8-nə keçən gecə düşmən şəhəri güclü artilleriya atəşinə tutdu. Hücumda 80 T-72 tankı, 6000-ə yaxın döyüşçü, o cümlədən xarici muzdlular iştirak edirdi. Səhərə yaxın şəhər ətrafındakı postların əksəriyyəti tutulmuşdu, yalnız bəzi mövqelərdə milli qüvvələr düşmənə qarşı qəhrəmancasına vuruşurdular. Düşmənin üç tankı səhərə yaxın şəhərə soxuldu. Azərbaycan ordusunun 533 saylı tankı onlardan birini vurub sıradan çıxardı, o biri tanklar geri qayıtdılar. "Qayabaşı" adlanan yerdə mövqe tutmuş əsgərlər son nəfəsədək vuruşurdular. 40 nəfər şəhid oldu. Digər müdafiə dəstələri axşama qədər müqavimət göstərdilər. Lakin onlara kömək gəlmədi. Axşama yaxın köməyə göndərilmiş vertolyot isə səhvən şəhərin müdafiəçilərinin mövqeyini atəşə tutdu, piyadalar üçün döyüş maşınını məhv etdi. Axşam qalan 30-40 müdafiəçi də şəhəri tərk etdi.Döyüşlərdə şəhərin 155 müdafiəçisi şəhid oldu, 167 nəfər yaralandı, 20 nəfər itkin düşdü. Şuşanın süqutu ilə erməni faşistləri tərəfindən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin işğalı başa çatdı. Şuşanın süqutu, milli hərbi hissələrin Laçını tərk etməyə başlaması respublikada siyasi vəziyyəti daha da gərginləşdirdi. Bunun əsas səbəbi faktiki olaraq hakimiyyət uğrunda mübarizə aparan tərəflərin satqın hərəkətləri idi. Artıq iş-işdən keçəndən sonra - mayın 9-da AXC sədri Ə.Elçibəy və digər siyasi qüvvələrin kütləvi-siyasi tədbirləri dayandırmaq, birliyə çağırışları daldan atılan daş kimi gərəksiz oldu. Hakimiyyət çəkişmələrində iştirak edən, demək olar ki, bütün tərəflər öz silahlı qüvvəleriniBakıya gətirmişdilər. Ayaz Mütəllibov Bakıda yerləşən 295 saylı rus diviziyasına, onun zirehli texnikasına, özünün təşkil etdiyi "Qardaşlıq" və "Tövbə" təşkilatlarının silahlı dəstələrinə arxalanırdı. Rəhim

Qazıyev də burada özünə tabe dəstələrini yerləşdirmişdi. AXC döyüş mövqelərindən öz silahlı dəstələrini, "Milli qurtuluş" və "Lənkəran" taburlarını və başqa qüvvələri çıxarıb paytaxta gətirmişdi. Bakıda müxtəlif dəstələrin əlində 40 minə qədər avtomat və pulemyot vardı.pulemyot vardı.

Mütəllibovçu qüvvələr ilk təşəbbüsü ələ aldılar. Hələ mayın 3-dən onlar Ali Sovetin binası qarşısında gecə-gündüz piket keçirib liderlərinin yenidən vəzifəyə qaytarılması tələbini irəli sürürdülər.154 Mayın 12-də piketçilərin bir qrupu müqavimətə rast gəlmədən Milli Şuranın iclas salonuna soxulub şura üzvlərini silahla hədələyərək, Ali Sovetin sessiyasını çağırmağı tələb etdi. 26 nəfər şura üzvü sessiya çağırılmasına səs verdi. Mayın 13-də milli təhlükəsizlik naziri İ.Hüseynov televiziya ilə çıxış edib mövcud böhrandan çıxmaq üçün ölkədə nizam-intizamın möhkəmləndirilməsini, başqa sözlə, diktatura yaradılmasını vacib hesab etdiyini bildirdi.

Mayın 14-də Ali Sovetin sessiyası azlıqda qalan Demblokun etirazına baxmayaraq, Ayaz Mütəllibovu vəzifəsinə qaytardı. A.Mütəllibov elə həmin saat respublikada fövqəladə vəziyyət tətbiq etmək, siyasi azadlıqları məhdudlaşdırmaq haqqında Fərman verdi. Milli Şura buraxıldı. Prezident seçkiləri ləğv edildi.

AXC Bakıdakı silahlı qüvvələrinə, döyüş bölgələrində hadisələrə təsir etmək imkanlarına arxalanaraq hakimiyyət uğrunda qəti döyüşə girdi. Onun qərargahı ətrafında yüzlərlə insan, silahlı dəstələr toplaşmışdı. AXC rəhbərliyi Mütəllibovun Konstitusiyaya zidd rejimini tanımamağa çağırdı. Bütün müxalif qüvvələr bu çağırışa qoşuldu. Naxçıvan, Gəncə, Şəki və başqa şəhərlərdə də Mütəllibov rejiminə itaətsizlik göstərildi. İnzibati orqanların fövqəladə rejim yaratmaq cəhdləri bəzən hətta silahlı müqavimətlə dəf olunurdu. Mütəllibovun arxalandığı qoşun hissələri Bakıda ona qarşı dayanan qüvvələrin gücünü, mütəllibovçuların acizliyini görüb neytral qaldılar. Bundan başqa, Rusiya Naxçıvan MR-ə erməni hücumları ilə əlaqədar Türkiyənin ciddi reaksiya verdiyi bir vaxtda Bakıdakı hadisələrə açıq fəal təsir göstərməkdən çəkindi. Mayın 15-də AXC qərargahı qarşısında mitinq keçirildi. Ölkədə baş verən Konstitusiyaya zidd proseslərə qarşı Heydər Əliyevin bəyanatı burada dəfələrlə səsləndirildi. A.Mütəllibov AXC rəhbərliyini danışığa

dəvət etdi. Lakin cavab olaraq ondan saat 16-dək dövlət hakimiyyəti iddiasından rəsmi əl çəkmək və prezident iqamətgahını tərk etmək tələb olundu. Vaxt tamam olanda AXC fəalları silahlı qüvvələrin, zirehli texnikanın müşayiəti ilə parlamentAtışmada bir nəfər öldü, üç nəfər yaralandı. Parlamentin, Dövlət Teleradio Şirkətinin binaları, az sonra Prezident sarayı və başqa strateji obyektlər zəbt olundu. A.Mütəllibov gizlicə Rusiyaya qaçdı.

Fürsətdən istifadə etməyə çalışan müdafiə naziri Rəhim Qazıyev mayın 16-da Milli Şurada respublikada hərbi diktatura yaradılmasını bütün hakimiyyətin Müdafiə Nazirliyinə verilməsini tələb etdi. Hazırlanmış plana görə o, mayın 18-də "diktator" elan olunmalı idi. Onun mərasimdə oxuyacağı nitqin mətni də artıq tərtib edilmişdi. Lakin hadisələri idarə edən qüvvələr Şuşanın süqutu ilə həmişə "Şuşa getsə, başıma güllə çaxaram!" deyən Rəhim Qazıyevin siyasi karyerasına böyük zərbə dəydiyini görürdülər.

AXC hakimiyyəti ələ almaq üçün hətta vətəndaş müharibəsinə getməyə hazır idi. AXC-nin hakimiyyətə gəlişinə hadisələri idarə edən bütün tərəflər razılaşdılar. Xalqın fikri ilə maraqlanan isə yox idi. AXC hakimiyyətə gəlişini legitimləşdirmək istəyirdi. Ali Sovetin 14 may qərarlarının qəbulu zamanı kvorum olmadığını sübuta yetirməyə çalışan komissiyanın rəyini parlamentin sədri qəbul etmək istəmir, kompromis tərəfdarlarının xeyrinə siyasi güzəştlər əldə etməyə çalışırdı. Yaranmış böhrandan çıxmaq üçün mayın 16-17-də tərəflər arasında sövdələşmə oldu. Koalision hökumət yaradılması və İsa Qəmbərovun Ali Sovet sədrliyinə namizəd göstərilməsi qərara alındı.

Ali Sovetin mayın 18-də keçirilmiş sessiyasında qeyd olundu ki, mayın 14-də parlamentin qəbul etdiyi qərarlar qanuni deyildir. Ali Sovetin sədri Yaqub Məmmədovun istefası qəbul edildi. Bu vəzifəyə, bir qrup deputatın təkidli tələbi ilə İsa Qəmbərovla yanaşı, Heydər Əliyevin də namizədliyi irəli sürüldü. Lakin razılıq almaq üçün guya onunla telefon əlaqəsi yaratmaq mümkün olmadı. İsa Qəmbərov Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Yeni seçkilərə qədər prezident səlahiyyətlərini yerinə yetirmək ona həvalə olundu. Ali Sovetin Milli

Şurası "Milli Məclis" adlandırıldı və parlament səlahiyyətləri ona verildi. Koalision hökumətə, əsasən, AXC və keçmiş kommunistlər daxil idi.

Bakıda hakimiyyət davası getdiyi vaxt silahlı qüvvələrin Laçından çıxarılmasından istifadə edən düşmən mayın 18-də Laçını işğal etdi. Dağlıq Qarabağ separatçıları ilə Ermənistan arasında birbaşa əlaqə - dəhliz yarandı.

İnsanlar AXC-nin nəyin hesabına və necə hakimiyyətə gəldiyini, əksər liderlərinin məqsədinin yalnız bundan ibarət olduğunu anlayıb ondan daha çox uzaqlaşdılar.

Azərbaycan xalqı həmin günlərdə Naxçıvan MR-dəki hadisələri, Heydər Əliyevin xalqı, ordunu səfərbər etməsini, düşünülmüş diplomatik tədbirlər görməklə düşmənin güclü hücumlarının qarşısını uğurla almasını böyük ümid və həyəcanla izləyirdi. 1992-ci il may ayının əvvəllərində Naxçıvan MR-də, Azərbaycanın Ermənistanla sərhədlərində gərginlik yenidən artmışdı. Düşmən Şuşa və Laçının işğalı zamanı Ermənistan hərbi hissələrinə arxadan, Naxçıvan tərəfdən hücum olacağından ehtiyatlanaraq oradakı hərbi hissələrin başını qatmaq, həm də Azərbaycanda yaranmış xaosdan bəhrələnərək yeni torpaqlar ələ keçirmək niyyətində idi. Mayın 18-də Muxtar Respublikanın Sədərək, Günnüt, Havuş, Yuxarı Buzqov, Şada, Biçənək və s. kəndlərinə güclü hücumlar başlandı. Erməni faşistləri hətta zəhərli kimyəvi silahdan istifadə edirdilər. Sədərəkdə qanlı döyüşlər 40 gün davam etdi. Naxçıvanlılar qəhrəmanlıqla vuruşurdular. Xeyli ölən və yaralanan vardı. Kəndlər dağılmışdı. On minlərlə insan çadırlarda, meşələrdə ağır şəraitdə yaşamağa məcbur olmuşdu.

Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev erməni təcavüzünün qarşısını almaqda diplomatik vasitələrdən geniş istifadə etdi. Hələ martın 23-də onun Türkiyəyə səfəri zamanı baş bakan Süleyman Dəmirəl bütün dünyaya bəyan etmişdi ki, Naxçıvan MR-in statusunda bir dəyişiklik meydana gələrsə, mövcud müqaviləyə əsasən Türkiyə öz sözünü deyəcəkdir.167 Mayın 18-də gecə Türkiyə Nazirlər Kabineti toplanıb geniş bəyanat qəbul etdi. Türkiyə rəhbərlərinin və Heydər Əliyevin birgə səyləri sayəsində erməni təcavüzkarlarının niyyəti dünya ictimaiyyətinə çatdırıldı. 57 dövlət bu təcavüzü pislədi. NATO xüsusi bəyanat verdi.168 Rusiya burada geri çəkilməyə məcbur oldu. MDB Birləşmiş Silahlı

Qüvvələrinin Baş komandanı marşal Şapoşnikovun qeyd etdiyi kimi, Türkiyənin Naxçıvana kömək etməsi Üçüncü dünya müharibəsinə gətirib çıxara bilərdi.169 Mayın 24-də Ermənistanın təklifi ilə danışıqlar başlandı və sabitlik təmin edildi. Fürsətdən istifadə etməyə çalışan müdafiə naziri Rəhim Qazıyev mayın 16-da Milli Şurada respublikada hərbi diktatura yaradılmasını bütün hakimiyyətin Müdafiə Nazirliyinə verilməsini tələb etdi. Hazırlanmış plana görə o, mayın 18-də "diktator" elan olunmalı idi. Onun mərasimdə oxuyacağı nitqin mətni də artıq tərtib edilmişdi.161 Lakin hadisələri idarə edən qüvvələr Şuşanın süqutu ilə həmişə "Şuşa getsə, başıma güllə çaxaram!" deyən Rəhim Qazıyevin siyasi karyerasına böyük zərbə dəydiyini görürdülər. AXC hakimiyyəti ələ almaq üçün hətta vətəndaş müharibəsinə getməyə hazır idi. AXC-nin hakimiyyətə gəlişinə hadisələri idarə edən bütün tərəflər razılaşdılar. Xalqın fikri ilə maraqlanan isə yox idi.

### Ədəbiyyat


1.baycan tarixi VII cilddə, VII-cild.B, 2003

2.Qaffarov T. Azərbaycan tarixi: XX əsrin 80- 90-cı illəri. Bakı: Mütərcim, 1997

3 *Sultanov O.* XX əsrin 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə. Bakı, 1995

4. *Аракелов Р.* Нагорный Карабах: Виновники трагедии известны. Баку, 1991

5.Xocalı faciəsi barədə deputat-istintaq komissiyasının tərtib etdiyi məruzənin mətni. Bax: "Mühakimə", 1995, №5-9; Ходжалы, Хроника геноцида. Баку, 1993

6. Məmmədova H. Xocalı, Bakı 2003

7. События вокруг НКАО в кривом зеркале фальсификаторов. Сборник документов. Баку, 1989

**H.Əliyevin uğurlu iqtisadi islahatları (Özəlləşdirmə, torpaq islahatı, maliyyə islahatı, sahibkarlığın inkişafına dəstək)**

Plan : 1. Müstəqilliyin ilk illərində iqtisadi vəziyyət.
2. İqtisadiyyatda struktur dəyişiklikləri
3.Maliyyə, vergi islahatları
4.Özəlləşdirmə
5..Aqrar islahat. Kənddə sahibkarlığın inkiÇafı.

**1.** SSRİ-də 80-ci illərin ikinci yarısında başlanan siyasi proseslər müttəfiq respublikaların, o cümlədən Azərbaycanın da iqtisadiyyatına və sosial-mədəni həyatına ağır zərbələr vurdu. İstehsal azalır, iqtisadi tənəzzül dərinləşirdi. Respublikaların iqtisadi əlaqələri pozulmuşdu, müqavilə öhdəliklərinə əməl olunmurdu. Azərbaycan iqtisadiyyatının xammal və materiallara tələbatı cəmi 40 faiz ödənilirdi. Müəssisələrin istehsal gücündən yalnız 25-30 faiz istifadə olunurdu. Sumqayıt boru-prokat zavodunun altı marten sobasında iş dayandırılmışdı.1 Demək olar ki, bütün sahələrdə əsas istehsal vasitələri mənəvi və fiziki cəhətdən köhnəlmişdi. Respublikada sənayenin aparıcı sahəsi olan neft sənayesində vəziyyət ağır idi. Mədənlərdə 4000-dən çox neft quyusunda hasilat dayanmışdı. Qazma dəzgahlarının 80 faizi işləmirdi. 1992-ci ildə 11, 1996-cı ildə isə cəmi 9 milyon ton neft çıxarılmışdı.2 Mövcud perspektivli dəniz yataqlarının istismarına başlanması üçün xeyli investisiya tələb olunurdu

İqtisadiyyata Ermənistanın Azərbaycana qarşı təcavüzkar müharibəsi ciddi ziyan vurmuşdu. Respublika gəlirinin üçdə birini müharibəyə xərcləməyə məcbur idi. Onun ərazisinin dörddə bir hissəsində döyüş əməliyyatları getmişdi. Bir milyon hektar kənd təsərrüfatı sahəsi, 72 min hektardan artıq əkin sahəsi, 34 min hektar üzümlük, 65 min baş qaramal, 240 min baş davar, 173 sənaye obyekti, 122 tikinti təşkilatı, 200-dən çox faydalı qazıntı yataqları, dörd qızıl, üç civə, iki qranit, iki

mərmər, on mineral su mədəni, dörd daş karxanası, beş müxtəlif inşaat materialları yatağı, 250000 hektar meşə sahəsi, o cümlədən Zəngilan çinar meşəsi düşmən əlinə keçmişdi. 60000-dən çox şəxsi təsərrüfat, yüzlərlə sənaye müəssisəsi, kolxoz və sovxoz dağıdılmışdı.4

**2.İqtisadiyyatda struktur dəyiĢiklikləri.** Prezident Heydər Əliyev tez bir zamanda dövlət intizamını gücləndirib, siyasi sabitliyin yaranmasına nail oldu və iqtisadi tənəzzülün qarşısını almaq üçün ciddi tədbirlər görməyə başladı. Bazar iqtisadiyyatının formalaşmasına münasib şərait yaratmaq məqsədilə qanun, fərman və qərarlar qəbul edildi. Ölkənin iqtisadiyyatında struktur dəyişiklikləri getdikcə dərinləşirdi. Onun başlıca istiqamətləri dövlət mülkiyyətinin özəlləşdirilməsi, aqrar islahatların həyata keçirilməsi və sahibkarlığın inkişaf etdirilməsi idi. 1995-ci il sentyabrın 29-da Qanunla təsdiqlənmiş "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsi Dövlət Proqramı", "Sahibkarlıq fəaliyyəti haqqında", "Müəssisələr haqqında", "Səhmdar cəmiyyətləri haqqında", "Auditor xidməti haqqında" qanunlar, "Dövlət müəssisələrinin səhmdar cəmiyyətlərinə çevrilməsi haqqında Əsasnamə" və başqa mühüm hüquqi aktlar qəbul edilmişdi. Sahibkarlığın inkişafı üçün Milli Fond təsis olunmuşdu. "Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi", yerlərdə sahibkarlığı inkişaf mərkəzləri, "Kiçik və Orta Sahibkarlığı İnkişaf Agentliyi", "Xarici İnvestisiyalar Mərkəzi", "İqtisadi və Biznes İnformasiya Mərkəzi" "Azərbaycan Respublikası Auditorlar Palatası" yaradılmışdı.

**3**.Maliyyə-vergi sistemi təkmilləşdirildi. Burada ağırlıq mərkəzi istehsal üzərindən götürülüb istehlak üzərinə qoyuldu. Əvvəllər əmək haqqı məhsulun maya dəyərinə daxil olunmur, mənfəətdən verilirdi və buna görə də əmək haqqından əlavə 35 faiz kooperativ vergi tutulurdu. 1996-cı ilin sentyabr ayından əlavə vergi 50 faiz azaldıldı, 1997-ci ilin əvvəllərindən isə tamamilə ləğv edildi. Müəssisələrə ümumi vergi təzyiqi xeyli azaldı. Fiziki şəxslərdən tutulan vergilərin yuxarı dərəcəsi 55 faizdən 40 faizə endirildi, onların gəlirinin vergi tutulmayan hissəsi isə 40 min manatdan 60 min manata qaldırıldı. Eyni zamanda xarici iqtisadi əlaqələri

fəallaşdırmaq üçün gömrük rüsumları 30-40 faizdən 15 faizə endirildi. Nəticədə vergi və rüsumlardan büdcəyə gəlir 2 dəfəyə qədər artdı.2001-ci il yanvarın 1-dən ölkədə vahid vergi qanunvericiliyi tətbiq olundu /Vergi Məcəlləsində mülkiyyət formasından və təşkilat-hüquqi statusundan asılı olmayaraq, bütün vergi ödəyiciləri üçün eyni vergiqoyma siyasəti həyata keçirildi. Yerli və xarici iş adamları eyni vergiləri ödəyərək eyni imtiyazlara, güzəştlərə . Əlavə dəyər vergisinin dərəcəsi 20 faizdən 18 faizə endirildi. Fiziki şəxslərdən gəlir vergisinin maksimum həddi 40 faizdən 35 faizə (bu dərəcələr inkişaf etmiş ölkələrin əksəriyyətindəkindən aşağıdır) düşdü.31 2002-ci ilin noyabr ayından 62 yerli vergi idarəsi ləğv olunub, əvəzinə 12 ərazi vergi idarəsi təşkil edildi. 1997-ci ildən dövlət büdcəsi xərclərinin səmərəli təşkili, iqtisadi idarəetmədə şəffaf mexanizmlər yaratmaq üçün maliyyə işləri xəzinədarlıq sistemi üzrə qurulmağa başlandı. Baş və yerli xəzinədarlıq orqanları təşkil edildi. İstehsalı inkişaf etdirmək üçün respublikanın kifayət qədər investisiya imkanları yox idi. Xarici kapitalı cəlb etmək məqsədilə "açıq qapı" siyasəti yeridilməyə başlandı. Xarici investorlara və kreditorlara təminat verən, onları müdafiə edən qanunlar qəbul olundu. Gömrük vergiləri sərbəstləşdirildi və aşağı salındı. Xarici sərmayələrə immunitet haqqında Qanun qəbul edildi. Fiziki və ya hüquqi şəxslər, respublikada qanunların dəyişdirilməsindən asılı olmayaraq, on il müddətində investisiyanı qoyduğu şərtlərlə işlətmək hüququ aldı. Xarici səhmdarların gəlirlərinin repartasiya olunması haqqında da Qanun qəbul olundu. Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Beynəlxalq İnkişaf Assosiasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı ilə əməkdaşlıq yaradıldı. Bu, Azərbaycan Respublikasının maliyyə-bank sistemini dünya standartlarına uyğunlaşdırdı.34 Prezident 1994-cü il aprelin 5-də xarici ticarəti sərbəstləşdirmək haqqında Fərman verdi.26 Xarici iqtisadi əlaqələr liberallaşdırıldı, həm fiziki, həm də hüquqi şəxslərə azad surətdə xarici ticarət hüququ verildi. 1997-ci ilin yanvarında respublikada ixrac vergisi ləğv olundu. 1994-cü ilin may ayında respublikanın maliyyə vəziyyətini yaxşılaşdırmaq üçün qəti addımlar atıldı. 1994-cü ilin əvvəllərindən milli valyuta - manat respublika ərazisində yeganə ödəniş vasitəsi elan olundu. Prezidentin 14 may 1994-cü il

Fərmanı ilə kredit siyasəti ciddiləşdirildi. Banklararası valyuta birjasının işi nizama salındı.27 1995-ci ilin fevral ayında prezident ilk radikal addım atıb valyuta bazarının təşkili haqqında Fərman verdi, bundan sonra valyuta ehtiyatları bazar vasitəsilə tənzimlənməyə başlandı. Beynəlxalq Valyuta Fondu və Ümumdünya Bankı ilə müqavilələr bağlandı. Azərbaycan Avropa Yenidənqurma və İnkişaf Bankına qoşuldu. Büdcə kəsirinin artmasına yol verilmədi. Nəticədə 1995-ci ildə inflyasiya 85 faizə endi. 1996-cı ildə inflyasiya cəmi 6,7 faiz oldu. Onun səviyyəsi 2000-ci ildə cəmi 2 faiz, 2001-ci ildə isə 1,5 faiz idi.28 Manatın dollara nisbətən dəyəri möhkəmləndi, istehlak mallarının qiymətləri artmadı, əksinə, azalması müşahidə olundu.29 İnflyasiyanın cilovlanması mühüm makroiqtisadi göstərici kimi iqtisadi tərəqqiyə, investorların cəlb olunmasına münasib imkanlar açırdı. 1996-cı ilin ortalarında Prezident daha bir yeni ciddi iqtisadi addım atdı - Beynəlxalq maliyyə təşkilatlarının ayırdığı kreditlər ölkədə iqtisadi struktur dəyişikliklərinə, mühüm iqtisadi tədbirlərin həyata keçirilməsinə kömək etdi. Təkcə 1995-ci ildə Dünya Bankı Azərbaycana reabilitasiya layihəsi üçün 65 milyon dollar kredit ayırdı. Prezidentin Fərmanı ilə 1999-cu ilin dekabrında "Azərbaycan Dövlət Neft Fondu" təsis olundu

**4**..1993-cü ildə respublikada cəmi 300, 1997-ci ildə isə artıq 60 min özəl müəssisə vardı.

Kiçik dövlət müəssisələrinin özəlləşdirilməsi 1997-ci ilin martında artıq başa çatmışdı. 10174 kiçik müəssisə özəl mülkiyyətə, əsasən, əmək kollektivi üzvlərinə satılmışdı. İri və orta müəssisələrin özəlləşdirilməsi səhmdar cəmiyyətləri yaradılması yolu ilə həyata keçirilirdi. Belə sənaye müəssisələrinin səhmləri 1997-ci il martın 1-dən əhaliyə paylanan ümumi mülkiyyət bölgüsündən hər kəsə düşən hissənin ifadəsi olan 7 milyon 500 mindən çox hər biri 4 çekdən ibarət paya dəyişdirildi. 1998-ci ilin sonlarında Prezidentin Fərmanına əsasən müharibə və Çernobıl əlillərinə, onların ailələrinə əlavə özəlləşdirmə payları verildi. Özəlləşən müəssisələrin göstəriciləri hərracdan azı iki həftə qabaq mətbuatda dərc olunurdu. Səhmlərin 15 faizi əmək kollektivi üzvlərinə güzəştlə nağd pula satılır, 50 faizi isə çeklərə dəyişdirilirdi. Dövlət Əmlak Komitəsi çeklərin hərracı üçün Respublika

Hərrac Mərkəzi təşkil etmişdi. Çekləri toplayıb səmərəli yerləşdirmək, əldə ediləcək dividentləri bölüşdürmək üçün çek investisiya fondları yaradılmışdı. 2002-ci ilin oktyabr ayınadək 36,2 minə qədər kiçik dövlət müəssisəsi, müəssisə obyekti və avadanlığı, o cümlədən 9,5 mindən çox məişət xidməti, 2797 ticarət, 773 ictimai iaşə müəssisəsi, 552 yanacaqdoldurma məntəqəsi, 570-ə qədər çörək ticarəti və çörəkbişirmə obyekti, 700 sənaye, 120 kənd təsərrüfatı müəssisəsi, 337 tikinti təşkilatı, 181 yarımçıq tikinti, 14,7 mindən çox nəqliyyat müəssisəsi və vasitəsi, 119 aptek, 1,3 mindən çox qeyri-yaşayış obyekti və s. özəlləşdirilmişdi. 1463 orta və iri dövlət müəssisəsi səhmdar cəmiyyətinə çevrilmişdi. 100 mindən çox vətəndaş səhmdar, 140 mindən çox adam əmlak sahibi idi. 331,3 min mənzil-özəlləşdirilməsi nəzərdə tutulan mənzillərin 52,8 faizə qədəri xüsusi mülkiyyətə verilmişdi. verilmişdi. 2002-ci ilin əvvəllərinə qədər çeklərin cəmi təqribən 10 faizi dövriyyədən çıxmışdı. Qalan çeklər qara bazarda əvvəllər 100 dollara, sonralar isə 4 dollardan da ucuz (təqribən 20 min manata) qiymətə satılmış, bir hissəsi xarici qrupların əlində toplanmışdı.118 Bunu nəzərə alaraq strateji özəlləşməyə başlamazdan əvvəl ölkənin və vətəndaşların maraqlarını qorumaq üçün 2000-ci ilin martında çek dövriyyəsinin tənzimlənməsinə istiqamətləndirilmiş qaydalar müəyyən edildi. Mövcud vəziyyətin öyrənilməsi və nəzərə alınması üçün 400-dən çox çekə sahib olanların çekləri Qiymətli Kağızlar üzrə Dövlət Komitəsində qeydə alındı.119

2000-ci il avqustun 10-da özəlləşdirmənin İkinci Dövlət Proqramı qəbul edildi. Özəlləşdirmənin daha səmərəli formaları tətbiq olunmağa başlandı. "Bakelektroqaynaq" Səhmdar Cəmiyyəti, Siyəzən broyler fabriki və s. üzrə investisiya müsabiqələri təşkil olundu. Strateji müəssisələrin özəlləşdirilməsi üçün maliyyə məsləhətçiliyi üzrə tenderlər keçirildi. Bir çox iri müəssisələr, o cümlədən "Azərbaycan-alüminium", "Bakelektrik-şəbəkə", "Siyəzən-broyler" və s. özəlləşdirildi.12001-ci ilin payızınadək artıq respublikada dövlət müəssisələri bazasında 1275 səhmdar cəmiyyəti yaradılmışdı. Kənd Təsərrüfatı Nazirliyi üzrə 248, "Azəravtonəqliyyat" Dövlət Konsemi üzrə 101, "Xidmət" Dövlət Konsemi üzrə 95, Ticarət Nazirliyi üzrə 86, "Taxıl məhsulları" Dövlət Şirkəti üzrə 62,

"Azəryeyintisənaye" Dövlət Şirkəti üzrə 55, "Xalq üçün mallar" Dövlət Konserni üzrə 47, "Azərsənayetikinti" Dövlət Şirkəti üzrə 29, "Azərquşsənaye" Dövlət Şirkəti üzrə 32, "Sənaye-ticarət" Dövlət Konserni üzrə 31, "Azərkəndtikinti" Dövlət Şirkəti üzrə 22, Dövlət Neft Şirkəti üzrə 17, "Azərbalıq" Dövlət Konserni üzrə 10 müəssisə, səhiyyə üzrə 18, rabitə üzrə 9, metallurgiya üzrə 10, mənzil-kommunal təsərrüfatı üzrə 4 belə təşkilat vardı

5. **Aqrar islahatlar. Kənddə sahibkarlığın inkiÇafı.** İqtisadiyyatda struktur dəyişikliklərinin mühüm istiqamətlərindən biri də torpaq islahatının həyata keçirilməsi idi. İlk vaxtlar kənd təsərrüfatında sahibkarlıq çox ləng inkişaf edirdi. 1992-ci ildə 320, 1995-ci ilin əvvəllərində isə 830 müstəqil və kollektiv fermer təsərrüfatı vardı. 1995-ci ilin fevral ayında "Aqrar islahatların əsasları" və "Kolxoz və sovxozların islahatı haqqında" qanunlar qəbul edildi.126 Bu mühüm qanunların həyata keçirilməsi ilk növbədə torpağa mülkiyyət münasibətlərinin yenidən müəyyənləşdirilməsindən çox asılı idi. 1995-ci ilin mart ayında "Dövlət Aqrar İslahatı Komissiyası" yaradıldı. 1996-cı il iyulun 16-da ölkənin aqrar sektorunda radikal bir addım atıldı. Prezident Heydər Əliyevin rəhbərliyi altında hazırlanan, onun təfəkkürünün vəsiyasi iradəsinin məhsulu olan "Torpaq islahatı haqqında" Qanun qəbul edildi.128 Bu qanuna görə, bütün postsovet respublikalarından fərqli olaraq, torpaq sosial ədalət prinsipinə əsasən kənddə yaşayan vətəndaşların xüsusi mülkiyyətinə pulsuz verildi. Respublikanın vahid torpaq fondu əsasında üç - dövlət, bələdiyyə və xüsusi torpaq mülkiyyəti forması müəyyən olundu. Kənd təsərrüfatı torpaqlarının 22 faizi - 1 milyon 911 min hektarı xüsusi mülkiyyətə, 45 faizi dövlət mülkiyyətinə, 33 faizi isə bələdiyyə mülkiyyətinə verildi.129 Qanunun icrası üçün Prezident Fərman imzaladı. "Dövlət torpaqları haqqında", "Torpaq vergisi haqqında" qanunlar, normativ aktlar qəbul olundu. 1999-cu il martın 12-də "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" və "Torpaq icarəsi haqqında", həmin il iyulun 18-də "Torpaq bazarı haqqında" qanunlar verildi. Bütün rayonlarda torpaq istifadəçilər üzrə inventarlaşdırıldı və iqtisadi cəhətdən qiymətləndirildi. Özəl qurumların tələbatını təmin etmək üçün 1996-cı ilin iyul ayında Aqrar kredit kassaları təşkil olundu. Prezident Heydər

Əliyev "Aqrar sahədə islahatların sürətləndirilməsinə dairDövlət Proqramı"nı təsdiq etdi.1Kənd təsərrüfatı müəssisələrinin 2,9 milyard manatlıqdan artıq əmlakının 2,1 milyard manatlığının özəlləşdirilməsi nəzərdə tutulurdu. 2001-ci ilin əvvəllərində 1 milyon 329 min 285 ha torpaq özəlləşdirilmiş, kənddə yaşayan 830 min ailədən 818 mini (3 milyon 238 min adam) torpaq payını almışdı
.2002-ci il avqustun 27-də Prezidentin sərəncamı ilə Prezident yanında Sahibkarlar Şurası yaradıldı. Prezident Fərmanı ilə "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondu haqqında Əsasnamə" təsdiq olundu.97
"Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi Proqramı (1997-2000-ci illər)" hazırlandı və qəbul olundu. 2002-ci ilin yayında "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)" təsdiq edildi.98 Müəssisələrin dövlət qeydiyyatı işi sadələşdirildi, zonalar üzrə qeydiyyat mərkəzləri yaradıldı.
2002-ci ilin sentyabr ayında Prezidentin Fərmanı ilə lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 240-dan 30-a endirildi və lisenziyaların fəaliyyət müddəti 5 ilə qaldırıldı.100 2002-ci il sentyabrın 10-da Azərbaycan Prezidentinin sahibkarlığın inkişafı üçün əlverişli iqtisadi və hüquqi şərait yaratmaq məqsədilə "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" fərmanı verildi.101 Həmin il sentyabrın 28-də "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" Prezident Fərmanı imzalandı. Hüquq-mühafizə orqanlarının (məhkəmədən başqa) sahibkarlıq subyektlərinə müdaxilələri qadağan edildi. DİN-in İqtisadiyyatda Cinayətkarlıqla Mübarizə İdarəsi ləğv olundu.
Kiçik və orta sahibkarlığın inkişafına kömək üçün dövlət qarşıdakı üç ilə 250 milyard manat vəsait ayırdı.103 Bu məqsədlə 2002-ci ilin oktyabr ayında Dünya Bankının Maliyyə Korporasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, Qara dəniz Ticarət və İnkişaf Bankı və s. maliyyə qurumları birlikdə Azərbaycan Mikromaliyyə Bankı təşkil etdilər. Respublikada sahibkarlığın inkişafına beynəlxalq iqtisadi təşkilatlar da köməklik göstərirdilər. BMT-nin İnkişaf Proqramı sənaye komplekslərinin inkişafı, yoxsulluğun aradan qaldırılması, qaçqın və

köçkünlərin yerləşdirilməsi, işlə təmin olunması, həyat səviyyəsinin yüksəldilməsi, ekoloji vəziyyətin yaxşılaşdırılması və başqa layihələrin hazırlanması və maliyyələşdirilməsində iştirak edirdi. Avropa Birliyi İqtisadi Komissiyası TASİS Texniki Yardım Proqramı respublika iqtisadiyyatında struktur dəyişiklikləri, sahibkarlığın inkişafı, xüsusən kənd təsərrüfatında islahatların aparılmasına investisiyalar cəlb olunması, Avropa-Qafqaz-Asiya ticarət, nəqliyyat əlaqələrinin inkişafına kömək üçün layihələr hazırlanmasında fəal iştirak edirdi. Bu proqram dairəsində KOSİA-SMEDA təşkilatı, habelə "Türk Sənaye İş Adamları Birliyi", "Türk İş Birliyi İnkişaf Agentliyi" respublikada sahibkarlığın inkişafına yardım göstərirdilər

İqtisadi dirçəliş ölkənin maliyyə vəziyyətini xeyli yaxşılaşdırdı. 1996-2002-ci illərdə Azərbaycan Respublikasının dövlət büdcəsinin gəlirləri 2,2 dəfə artmışdı. 2003-cü ildə dövlət büdcəsi 1 milyard 200 milyon dollar həcmində (1994-cü ildəkindən 17 dəfə çox) müəyyən edilmişdi.170 Dövlət büdcəsinin kəsiri durmadan azalırdı: 1996-cı ildə o, cəmi 3 faiz 2001-ci ildə isə 0,1 faiz təşkil etmişdi.

Ölkənin valyuta ehtiyatları 2002-ci ildə 1 milyard 374 milyon dollara çatmışdı ki, bu da 1993-cü ildəkinə nisbətən 103 dəfədən çox idi. 2014-cü ilin noyabrına Ölkənin valyuta ehtiyatları 54 mld təşkil edir.

## ƏDƏBİYYAT


1.Azərbaycan tarixi VII cilddə, VII-cild.B, 2003
2.Qaffarov T. Azərbaycan tarixi: XX əsrin 80- 90-cı illəri. Bakı: Mütərcim, 1997
3. Qaffarov T Azərbaycan Respublikası, 1991-2001. Əsrə bərabər on il.Bakı 2001
4. Qaffarov T. Azərbaycanın ən yeni tarixi. XX əsrin sonları XXI əsrin əvvəlləri. Bakı: Gizo Enterprise, 2006
5. *Arakelov R.* Naqornıy Karabax: Vinovniki traqedii izvestnı. Baku, 1991
6. Çernıy ənvarğ. Baku, 1990,
7. Ermənistan Respublikası: Terrorizm-Dövlət siyasətinin tərkib hissəsi kimi. Faktlar və rəqəmlər. Bakı, 2002
8.Sobıtiə vokruq NKAO v krivom zerkale falğsifikatorov. Sbornik dokumentov. Baku, 1989

**Mövzu: Heydər Əliyevin neft və ipək yolu strategiyası.H.Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğu.**

Plan : 1.Azərbaycan neftinin tarixi haqqında.
2.Neft strategiyasının zəruriliyi və əhəmiyyəti.
3. Neft strategiyasının reallaşdırılmasında H.Əliyevin xidmətləri.
4. Qədim ipək yolu və Azərbaycanın orada yeri.
5. İpək yolu strategiyasının zəruriliyi və əhəmiyyəti. H.Əliyevin "Tarixi ipək yolunun bərpasında xidmətləri.
6. Hüquqi dövlət anlayışı və əsas cəhətləri.
7.H.Əliyevin rəhbərliyi altında Azərbaycanda hüquqi dövlət quruculuğu.

Keçən mühazirəmizdə biz H.Əliyevin uğurlu iqtisadi islahatları məsələsinə toxunduq. İqtisadiyyatda struktur dğyişikliyi, maliyyə islahatı, özəlləşmə, topaq islahatı, sahibkarlığın inkişafına qayğı kimi məsələlərə aydınlıq gətirildi. Bu gun isə biz H.Əliyevin iqtisadi siyasətində mühüm yer tutan neft və ipək yolu strategiyası, vətəndaş cəmiyyətinin qurulmasında mühüm rol oynayan hüquqi dövlət quruculuğu məsələsindən danışacağıq.Bu mövzunu aşagğdakı Plan əsasında öyrənəcəyik.(Bax: Plan)

I.Azərbaycan qədim neft diyarı olmuşdur. Azərbaycan neftinin tarixi kökləri qədim dövrlərə gedib çıxır. IX əsr ərəb səyyahı Əhməd Əl Bəluriri, X əsr ərəb tarixçısı Əl-Məsudi,XIII əsr İtalyan səyyahı Marko Polo, XVII əsr Alman diplomatı Adam Oleari, XVII Türk cəyyahı Övliyyə Çələbi Azərbaycan nefti, onun Orta Asiya,Hindistan və Türkiyəyə daşınması və əldə edilən gəlirlər barədə məlumat verirdilər.

Azərbaycan neftinin inkişafında mühüm bir mərhələ XIX əsrin əvvəllərinə aiddir. 1803-cü ildə Bakı sakini Qasımbəy Mansurbəyov Bibiheybətdə dənizdə sahildən 12 və 30 m aralı iki neft quyusu qazmış sahildən 30 m aralı quyudan neft çıxmışdı. 1948-ci ildə isə Balaxahı və Bibiheybətdə mexaniki üsulla neft quyusu qazılmış, neft çıxarılmışdı. Bu quyular sutkada 700 pud neft verirdi. Əvvəllər nefti arabalarla taxta çəlləkdə, sonralar dəmir çəlləklərdə daşıyırdılar. Azərbaycanda neft sənayesi İltizam sistemi ləğv edildi. Neft verən torpaqlar auksion (müzayidə)

yolu ilə satıldı.O zaman Balaxanıda 15, Bibiheybətdə 2 sahə satıldı. Azərbaycanın neft milyonçuları olan H.Z.Tağiyev, Ş.Əsədullayev, M.Hağiyev, M.Muxtarov kimi neft milyonçuları yarandı.Tağıyev sonralar neft mədənlərini İngilislərə 5 mln manata satdı. Toxuculuq fabriki tikdirdi, 10 gəmisi olan Kaspi şirkətinə sahib oldu. Rusiyada sənayesində neftə olan tələ batın artması yeni-yeni quyuların qazılmasına, neftlə bağlı sənye sahələrinin yaranmasına səbəb oldu. 1859-cu ildə rus səyeçisi Kokore ilk neftayırma zavodunu tikdirdi. 1863-cü ildə Cavad Məlik belə zavod tikdirdi. 1870-ci ildə Bakıda 15 neftayırma zavodu vardı. XIX əsrin 70-80-cı illərində xarici kapitalın Azərbaycana axını başladı.Rus kapitalisti Kokorev,Qubonin,Şibayev,İngilis Vişau,Fransız Rotşild,İcvençin Nobel qardaşları Bakıya gəldilər. 1878-ci ildə Balaxanı ilə neft zavodları arasında 12 km boru çəkildi.Nobel qardaşları İsveçdə dünyada ilk neft daşıyan "Zərdüşt" tankeri inşa etdirib Bakıya gətirdi. M.Muxtarov 3 belə tanker aldı. 1883-cü ildə neftin Avropaya daşıması üçün Bakı-Batum dəmir yolu çəkildi.

Sovet dövründə Azərbaycan neft sənayesi inkişaf etsə də lakin xalqın milli sərvətinə çevrilə bilmədi. Qara qızılın sahibi sovet dövləti oldu. Hətta II dünya müharibəsində faşizm üzərində qələbədə Azərbaycan nefti mühüm rol oynadı. Belə ki, müharibə illlərində sovetlər ittifaqında çıxarılan 11o mln ton neftin 75 mln tonunu Aəzrbaycan vermişdi. Sovet hakimiyyəti illərində Azərbaycanın akad.Y.Məmmədəliyev, Sabit Orucov, Fərman Salmanov, Süleyman Vəzirov,Azad Mirzəcanzadə kimi neft mütəxəssisləri yetişdi. Sabit Orucov SSRİ Qaz sənayesi naziri, Fərman Salmanov SSRİ Gelogiya cənayesi nazirinin müavini, Süleyman Vəzirov 1954-cü ildə Azərbaycan Neft sənayesi naziri olmuşdur. Fərman Salmanov Qərbi Sibirdə 100-dən çox neft quyusunun kəşfində rolu olmuş, ömrünün 50 ilini Rusiya neft və qaz sənayesinin inkişafına həsr etmiş, SSRİ EA-nın müxbir üzvü, 160-dan çox monoqrafiyanın, elmi əsərin müəllifi olmuşdur. Azərbaycanı Sovetlər İttifaqının neft akademiyası adlanırdı.Müstəqillik dövrünün neft strtegiyasına toxunmazdan əvvəl görək strategiya nədir? Strategiya Yunan sözü "Strateqos" sözündən olub "Stratos" ordu "eqos" isə idarəetmə mənasnı veriri.İqtisadiyyata hərb elmindən daxil olmuşdur. Başqa sözlə desək

“Strategiya”qarşıya qoyulmuş mühüm vəzifənin həyata keçirilməsi üçün hazırlanmış ali proqrqmdır.Neft strategiyası dövlət müstəqilliyimizin məhsulu, ümümmilli lider H.Əliyevin uzaqgörən iqtisadi strategiyasının tərkib hissəsidir. Dövlət müstəqilliyimizin ilk illərində ölkənin iqtisadi vəziyyəti ağır idi. Ümumi daxili məhsul hər il orta hesabla 18-20 %, sənaye məhsulu 20-25 %, kənd təsərrüfatə məhsulu 7-10% aşağı düşmüşdü. Sənayenin aparıcı sahəsi olan neft sənayesində vəziyyət daha ağır idi. Qazıma qdəzgahlarının 80%-i işləmirdi. Perspektivli neft yataqlarının istismarı üçün xeyli investisiya lazım idi, büdcə isə boş idi. Belə bir şəraitdə ikinci dəfə Azərbaycanda hakimiyyətə gəlmiş H.Əliyev Azərbaycan Respublikası iqtisadiyyatının böhrandan çıxarılması, inkişaf etdirilməsi, neft sənayesinin dirçəldilməsi, müasir texnologiyalar əsasında yenidən qurulması üçün Azərbaycanın yeni dövlət neft strategiyası hazırlandı və uğurla həyata keçirilməyə başlandı. Bu, Azərbaycan neft sənayesində yeni eranın başlanğıcı idi. Neft sənayesinə investisiya və yeni texnologiyalar cəlb etmək, respublikaya sərfəli şərtlərlə xarici neft şirkətləri ilə müqavilələr bağlamaq üçün danışıqlar aparılması Azərbaycan Dövlət Neft Şirkətinə (ADNŞ) tapşırıldı. Danışıqlar qrupuna neft və beynəlxalq əlaqələr üzrə görkəmli mütəxəssislər daxil edildi. Bu qrupun fəaliyyətində İlham Əliyevin, Xoşbəxt Yusifzadənin, Natiq Əliyevin rolu xüsusən səmərəli oldu. Lakin daxili və xarici qüvvələr neft strategiyasının reallaşmasına mane olurdular. Daxili müxalif qüvvələr iddia edirdilər ki, neft gələcək nəsillərə saxlanlımalıdır, ondan indi istifadə etmək olmaz. Yaxın şimal qonşumuz Rusiya Federasiyası da bu siyasətə qısqanclıqla yanaşır belə bir tezis irəli sürüldü ki, Xəzər dənizi bütün Xəzəryanı ölkələr üçün ümumidir və onu milli sektorlara bölmək olmaz. Buna görə də Azərbaycan birtərəfli qaydada xarici şirkətlərlə neft müqavilələri bağlaya bilməz. Diplomatik notalar, bəyanatlar verilirdi. Xarici şirkətlər belə fikirdə idilər ki, müqavilə Xəzər dənizinin statusu həll ediləndən sonra qüvvəyə minməlidir. Lakin Heydər Əliyevin qətiyyəti və düzgün siyasəti nəticəsində bütün bu maneələr aradan qaldırıdı. Azərbaycan hökuməti tərəfindən Vaşinqtona ezam edilmiş ADNŞ-in birinci vitse-prezidenti

İlham Əliyev ABŞ-da Energetika Nazirliyi rəhbərləri ilə səmərəli danışıqlar apardı ABŞ  hökumətinin iqtisadi və siyasi dəstəyinin alaraq geri döndü.

1994-cü il sentyabrın 20-də Bakının "Gülüstan" 9 ölkənin  11 neft şirkəti ilə Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının bir hissəsinin birgə işlədilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında 30 illik saziş imzalandı.

Saziş 1994-cü il dekabrın 12-də Milli Məclisdə ratifikasiya olundu. "Əsrin müqaviləsi" adını alan müqavilənin şərtlərinə  görə neft sənayesinə investisiyanın 80 %-ni konsorsium, xarici şirkətlər, 20%-ni Azərbaycan tərəfi ödəməli idi. Proqnozlara görə 710 mln ton neft çixarilmali idi .Pay bölgüsündə isə əldə edilən gəliri 80%-i Azərbaycana,20%-i isə xarici şirkətlərin payına düşməli idi.Çıxan səmt qazının isə hamısı Azərbaycana çatmalı idi. Müqavilənin reallaşmasında ABŞ-ın "EKSON", "AMOKO", "YUNOKAL", "MOBİL" və "PENZOYL", Böyük Britaniyanın"Britiş Petrolium", Yaponiyanın "İTOÇİ", "MİTSUPİ", Norveçin "STATOYL", Səudiyyə Ərəbistanının "DELTA", Rusiyanın "LUKOYL", Fransanın "ELF AQİTEN", "TOTAL", İtaliyanın "ACİP" kimi dünyada ən qabaqcıl neft şirkətləri iştirak etdi. Əsrin müqaviləsi 4 dildə yazılmış və 400 səhifə həcmində idi. Əsrin müqaviləsinin ilkin mərhələsi üçün 30 mld dollar qoyulmalı idi. Azərbaycan 14 il ərzində, yəni 2008-ci ilə kimi investisiya borclarını tam ödədikdən sonra əldə edilən gəlirləri artdı.

Bu işə mane olmaq üçün xarici qüvvələrin dəstəyi ilə 1994-cü ilin oktyabrinda və 1995-ci ilin martında  ölkədə dövlət çevrilişi, Prezidentə qarşı terror cəhdləri törədildi. Lakin Azərbaycan Prezidenti H.Əliyevin siyasi iradəsi, qətiyyəti və müdrikliyi sayəsində bu maneələr müvəffəqiyyətlə aradan qaldırıldı. Ölkədə xarici sərmayələr qoyuluşu üçün ən vacib şərt-siyasi sabitlik yaradıldı.

Neft strategiyasının reallaşdırılması üçün sonrakı illərdə yeni-yeni neft müqavilələri imzalandı.

1996-cı il noyabrın 10-da Xəzərin yeni aşkar olunmuş "Qarabağ" strukturunda və ona bitişik ərazilərdə kəşfiyyat aparılması, yataqların işlədilməsi və çıxarılan neftin bölüşdürülməsi haqqında Rusiya, İtaliya, ABŞ şirkətləri ilə dəyəri 1,7 mld

dollar olan **2 saylı saziş imzalandı.** Müqavilədən əldə olunan daxili gəlirin 65-80 faizinin Azərbaycana çatacağı razılaşdırıldı.

1996-cı il iyunun 4-də Xəzərin "Şahdəniz" yatağının birgə işlədilməsi haqqında ADNŞ ilə Böyük Britaniya, Norveç, Türkiyə, Rusiya, Fransa və İranın neft şirkətləri ilə dəyəri 4 mld **olan 3 saylı müqavilə imzaladılar. Bu müqaviləyə görə də ümumi gəlirin 80 faizi Azərbaycana** çatacaqdı. Burada dərinliyi 6,5 min m olan quyular qazıldı və nadir qaz-kondensat yatağı kəşf edildi. Qərb ekspertlərinin fikrincə, çox böyük qaz ehtiyatı olan bu yatağın kəşf edilməsi ilə Azərbaycan təkcə neft deyil, həm də qaz "kralına" çevrildi. Dövlət Azərbaycan qaz sənayesinin inkişafı strategiyasını hazırlamağa, onun dünya bazarına çıxarılması yollarını müəyyənləşdirməyə başladı.

1996-cı il dekabrın 14-də Xəzərdə "Dan ulduzu" və "Əşrəfi" yataqlarının birgə işlədilməsi üzrə ABŞ, Səudiyyə Ərəbistanı və Yaponiya şirkətləri ilə dəyəri 2 mld olan **4 saylı müqavilə** imzalandı.

1997-ci il yanvarın 13-də "Lənkəran-dəniz" və "Talış-dəniz" yataqlarının birgə istismarı üzrə Fransa neft şirkətləri ilə ADNŞ arasında dəyəri 2 mld olan **5 saylı** müqavilə bağlandı.

1997-ci il iyunun 4-də Moskvada SOCAR ilə “Yalama” yatağının birgə işlədilməsi üzrə dəyəri 1,5 mld olan **6 saylı** müqavilə imzalandı.

1997-ci il avqustun 1-də Vaşinqtonda - "Ağ Ev"də ABŞ-ın qabaqcıl neft şirkətləri ilə ADNŞ arasında Xəzər dənizinin Azərbaycan sektorundakı "Abşeron", "Naxçıvan", "Oğuz" və "İnam" neft yataqlarında birgə iş barədə dəyəri 2 mld olan 25 illik 7- 8-9 saylı müqavilə imzalandı.

1997-ci il sentyabrın 26-da Romada “Acip” şirkəti ilə SOCAR arasında “Kürdaşı” şirkəti arasında dəyəri 2, 5 mld olan **10 saylı** müqavilə imzalandı.

1998-ci ilin iyunun 2-də ABŞ-ın”UNİON-Texas”neft şirkəti və Çin şirkəti ilə “Qobustan” yataqlarının işlənməsinə dair, dəyəri 900 mln dollar olan **11 saylı** müqavilə imzalandı.

1998-ci ilin iyulunda B.Britaniyanın "BP" şirkəti İLƏ SOCAR arasında dəyəri 3,5 mld olan " İnam" yataqlarında birgə işlənməsi üzrə dəyəri 3,5 mld ola 12 saylı müqavilə imzalandı.

1998-ci ilin iyulunda həmçinin ABŞ-ın "Exson Mobil", B.Britaniyanın "BP" şirkəti ilə SOCAR arasında "Araz-Alov-Şərq" və "Muradxanli" şirkəti ilə dəyəri 10 mld dollar olan 13-14 saylı müqavilə imzalandı.

1998-ci ilin dekabrın 15-də Bakının 100 km-də "Kürsəngi-Qarabaği" yataqlarında birgə işlənməsi üzrə"Frontera Recouters Corporation" şirkəti ilə SOCAR arasında dəyəri 1 mld olan 15 saylı müqavilə imzalandı.

1998-ci il dekabrın 25-də SOCAR ilə Yaponoyanın"İTOÇİ",şirkəti arasında "Atəşgah" strukturunun işlənməsinə dair, dəyəri 2, 5 mld dollar olan 16 saylı müqavilə imzalandı.

1999-cu il aprelin 21-də H. Əliyevin Vaşinqtona səfəri zamanı "Exson Mobil", "Moncrief" şirkəti İLƏ SOSAR arasında "Zəfər-Marşal" və "Lerik " yataqlarının işlənməsinə dair 17-18-19 saylı müqavilə imzalandı. Bu müqavilələrin dəyəri 2 ml dollar idi.

2000-ci il sentyabrıba ABŞ-ın "Moncrief" şirkəti ilə "Kəluməddin- Mişovda" yataqlarının işlənməsi üzrə dəyəri 1 mld dollar olan **20-ci müqavilə** imzalandı.

2001-ci ilin yanvarın 9-da Zığ və Hövsan yataqları üzrə Rusiyanın LUKOYL şirkəti ilə dəyəri 250 mln dollar olan **21-ci müqavilə** imzalandı.

2003-cü il iyulun 4-də Bakıda " Shengil-oil" şirkəti ilə SOCAR arasında **22-ci müqavilə** imzalandı

2004-cü ilin iyulunda SOCAR ilə "Nobl Skay LTD" şirkəti "Qaraçuxur" yatağının işlənməsinə dair i dəyəri 220 mln olan dollar olan **23-cü müqavilə** imzalanıb.

2004-cü iin oktyabrın 29-da "SOCAR" ilə "Azen-oyl" şirkəti arasında"Binəqədi" yatağının işlənməsinə dair i dəyəri 618 mln dollar olan **24-cü müqavilə** imzalanıb.

2004-cü iiin noyabrın 5-də "Caspian Energi Croup" şirkəti ilə "Kurovdağ" yataqlarının işlənməsinə dair dəyəri 300 mln dollar olan **25-ci müqavilə** imzalandı.

2005-ci il 16 avqustda “Suraxanı” yataqlarının işlənməsinə dair “SOCAR” ilə “Rafi-oyl” şirkəti arasında dəyəri 409 mln olan **26-cı müqavilə** imzalandı.

2006-cı ilin noyabrında “SOCAR” ilə “Rusneft” ” şirkəti arasında “ZIĞ-Hövsan” yataqlarının işlənməsinə dair d dəyəri 150 mln dollar olan 27-ci neft müqaviləsi imzalandı.

Ümumiyyətlə, 1994-2006-cı illərdə ADNŞ 14 ölkənin 32 neft şirkəti ilə 27 müqavilə imzaladı. 2001-ci ildə bu şirkətlərə servis xidməti göstərən 400-ə qədər xarici şirkət fəaliyyətdə idi. Bu müqavilələr çərçivəsində Azərbaycana 60 milyard dollar həcmində investisiya qoyulması nəzərdə tutulurdu. Bu müddətdə xarici neft şirkətləri müqavilələr üzrə işlərin həyata keçirilməsi üçün 6 milyard dollara qədər investisiya qoymuşdu.

1995-ci ilin aprelində "Əsrin müqaviləsi"ni reallaşdırmaq üçün yerli və xarici şirkətlərlə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) yaradıldı.

Neft strategiyasının reallaşdırılmasında neft terminallarının da böyük rolu olmuşdur. 1997-ciildə Bakının 45 km cənubunda Səngəçal qəsəbəsində **sutkada 1,2 mln barrel neft**, 25,5 mln kub qaz nəql etmə gücü olan terminal istifadəyə verildi. Terminal dəniz yataqlarından hasil olunmuş neft və qazı qəbul edir, texnoloji emaldan keçirir, nasoslarla çənlərə vuru və sonra isə dünya bazarlarına nəqli üçün kəmərlərə vuru. 1998-ci ilin yanvarın 4-də isə Bakının 50 km Şimal şərqində Dübəndi qəsaəbəsində **sutkada 196 min barrel, ildə 10 mln ton neft ixrac edən** terminal istismara verildi.

Neft strategiyasının reallaşdırılmasında neft ixrac kəmərlərinin çəkilməsi də mühüm əhəmiyyət kəsb edirdi. Bu istiqamətdə işlər aparıldı. Belə ki 1997-ci il oktyabrın 25-də uzunluğu **1400 km olan"Şimal" kəməri Bakı-Novorossiysk, sutkada 100 000 barel neft nəql etmə gqücündə olan, 1999-cu ildə isə uzunluğu 833 km,sutkada 155 000 barrel neft nəql etmə gqücündə olan qərb kəməri Bakı-Supsa istismara verildi,** 2002-ci ilin senyyabrın 18-də BTC əsas ixrac kəmərinin özülü qoyulmuş, 2006-ci ilin mayinda istismara verildi.

Göründüyü kimi neft sənayesi infrastrukturu yenidən quruldu. "Bakı" elmi-tədqiqat gəmisi modernləşdirilib dünyada ən mükəmməl geofiziki tədqiqat

gəmilərindən birinə çevrildi. "Xəzərdənizneft" yarımdalğa qazma qurğusu yenidən quruldu, "Dədə Qorqud" adı ilə ikinci həyatına başladı. "Şelf-5" qazma qurğusu əsaslı şəkildə yenidən quruldu, müasir avadanlıqla təchiz olunaraq, dünyada ən böyük üzən qazma qurğularından birinə çevrildi və 1998-ci ilin sentyabrında "İstiqlal" adı ilə istifadəyə verildi. Xəzər Gəmiqayırma müştərək müəssisəsində 1998-ci ilin iyul ayından 2000-ci ilin avqust ayınadək dənizin 7620 m-dək dərin yerlərində neft quyuları qazmağa imkan verən "Qurtuluş" adlı ən müasir çoxfunksiyalı özüqalxan qazma qurğusu yaradıldı. 2002-ci ilin yayında "Azəri", "Çıraq" və "Günəşli" yatağında ən yeni texnologiya üzrə Xəzərdə ilk dəfə qazma qurğularının altı üçün sualtı qazma dayaq tavası quraşdırıldı. Tofiq İsmayılov adına dalğıc, "Azərbaycan", İsrafil Hüseynov adına kran gəmiləri təmir edilib yeni avadanlıqla təchiz olundular. Dənizdə "Çıraq-1" platforması beynəlxalq standartlara uyğun, Qərb texnologiyası əsasında yenidən quruldu. Bu platformadan sahilədək 120 m dərinlikdə 176 km neft, Neft daşlarına 48 km qaz kəmərləri çəkildi. 1994-cü ildən başlayaraq hər ilin iyun ayında Bakıda xarici firma və şirkətlərin iştirak etdiyi ənənəvi Beynəlxalq neft-qaz sərgisi təşkil olunurdu. 4000 nəfərdən çox azərbaycanlı mütəxəssis dünyanın ən qabaqcıl neft şirkətləri bazasında yeni texnologiya və iş metodlarına yiyələnmişdi. 2001-ci ildə hasilat və servis şirkətlərində 10 mindən çox Azərbaycan vətəndaşı işləyirdi. Bakı neftçilərinin böyük təcrübəsi yüksək qiymətləndirilir və ondan səmərəli istifadə olunurdu. Neft şirkətlərinin beynəlxalq tenderlərdə bağladığı müqavilələrin 20 faizdən çoxu Azərbaycan müəssisələrinin və onların xarici tərəf müqabilləri ilə birgə yaratdıqları müəssisələrin payına düşürdü.

1997-ci il noyabrın 12-də "Əsrin müqaviləsi" üzrə neftin hasilatına başlanıldı. Bu hadisə Bakıda böyük təntənə ilə qeyd edildi. Bu müqavilə üzrə əsas işlərin birinci fazasının başlanması üçün Xəzər dənizindən Aralıq dənizinə qədər uzanan, ildə 50 milyon ton neft nəql edə biləcək, uzunluğu 1760 km olacaq iridiametrli Bakı-Tibilisi-Ceyhan əsas neft ixrac kəmərinin tikintisi haqqında saziş əldə olunması vacib idi. 1998-ci ilin mayında müqavilə hazırlanması üçün işçi qrup yaradılmışdı. Həmin il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan,

Qazaxıstan və Özbəkistan prezidentlərinin və ABŞ energetika nazirinin imzaladıqları bəyanat bu kəmər üzrə danışıqlara təkan verdi.

1999-cu il noyabrın 18-də İstanbulda "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan Respublikası və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas boru kəməri vasitəsilə nəql edilməsinə dair" saziş imzalandı. Bu zaman Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və ABŞ-ın dövlət başçıları tərəfindən verilən "İstanbul Bəyannaməsi" layihənin yüksək səviyyədə dəstəkləndiyinə sübut oldu.

Bu sazişin hazırlanmasına da ciddi maneələr törədilirdi. Şirkətlərin bəziləri kənardan təsirlər nəticəsində belə bir kəmərə ehtiyac olacağına skeptikcəsinə yanaşırdılar. Qoyulacaq investisiyalar haqqında da müxtəlif fikirlər vardı. Lakin Azərbaycan Prezidentinin müdrik siyasəti sayəsində bütün bu maneələr dəf edildi. 2002-ci il avqustun 1-də bu kəmərin tikilməsi və idarə edilməsi üçün BTCKO (Bakı-Tbilisi-Ceyhan) şirkəti təsis edildi.74 2002-ci il sentyabrın 18-də kəmərin təməli qoyuldu. Bu münasibətlə təntənələrdə iştirak etmək üçün Türkiyə Respublikasının prezidenti Əhməd Necdət Sezər, Gürcüstan Respublikasının prezidenti Eduard Şevardnadze, ABŞ-ın energetika naziri Spenser Abrham Bakıya gəlmişdilər. 3 milyard dollara qədər dəyəri olan bu kəmərin sahibi Azərbaycan Dövlət Neft Şirkəti (25 faiz), Böyük Britaniyanın BiPi (30,1 faiz), ABŞ-ın Yunokal (8,9 faiz), Konoko-Filips (2,5 faiz), Norveçin Statoyl (8,72 faiz), Türkiyənin Türkiyə Petrolları (6,53 faiz), Yaponiyanın İtoçi (3,4 faiz) və İnpeks (2,5 faiz), Səudiyyə Ərəbistanının Delta Hess (2,36 faiz), İtaliyanın Epi (5 faiz) və Fransanın Total Elna Elf (5 faiz) şirkətləri idi.

2001-ci il avqustun 30-da "Əsrin müqaviləsi" üzrə əsas işlərin birinci, mühüm fazasına başlanıldı.

Həyata keçirilən tədbirlər sayəsində respublikanın neft sənayesi dirçəldi və sürətlə inkişaf etməyə başladı. 2002-ci ildə ölkədə 15,3 milyon ton neft hasil edildi.Neft müqaviləsi gəlir gətirməyə başladı. Neft strategiyasının uğuru idi ki, əgər 1991-ci ildə 9 mln- 2010-cu ildə 50 mln ton net, 1991-ci ildə 6 mld qaz- 2010-cu ildə 26 mld kub qz hasil edilmişdi.

Prezidentin Fərmanı ilə 1999-cu ilin dekabrında "Azərbaycan Dövlət Neft Fondu" təsis olundu. Respublika Prezidentinin 2001-ci il 27 dekabr sərəncamı ilə bu fondun Müşahidə Şurası təşkil edildi. 2003-cü ildə fondda 730 mln dollar, 2015-ci ildə 54 mld, 2016-cı ili yanvarın 1 –nə 33,4 mld vəsait vardı. Neft fondunda taransferlər belə olmuşdu: 1) Oğuz –Qəbələ su kəmərinin tikintisinə; 2)Qaçqın şəhərciyinin salınmasına 1 mln ; 3)BTC əsas ixrac kəmərinin çəkilməsinə 387 mln ; 4) 2007-2015-ci gənclərin xaricdə təhsil almasina 93 mln, 5) Bakı-Tbilisi-Kars dəmi yolunun çəkilməsinə 485,7 mln: 6) 534,5 mln Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasına və dövlər büdcəsinə transferlər olmuşdur. Təkcə 2010-cu ildə 5 mld 915 mln manta transfer edilmişdir.

2007-ci ildə ildə 20 mld kub qqaz nəql etmə gücündə, 98 km uzunluğu olan Bakı-Tbilisi Ərzurum qaz kəməri istifadəyə verildi.(Dəyəri 1 mld olan).

H.Əliyev neft strategiyasının zəruruliyini qeyd edərək demişdir : “ 1) Yeni sənaye sahələrinin yaradılması,2) Yeni iş yerlərinin açılması, 3)Mühüm social-iqtisadi layihələrin həyata keçirilməsi, 4) Xalqın firavanlığının yüksəldilməsi, 6) Dövlətçiliyimizin iqtisadi və siyası cəhətdən möhkəmləndirilməsi deməkdir.

| İllər üzrə neft hasilatı | Xam neft hasilatı (mln ton) |
|---|---|
| 2000 | 14,1 |
| 2001 | 14,8 |
| 2003 | 15,3 |
| 2004 | 15,544 |
| 2005 | 22,214 |
| 2006 | 32,268 |
| 2007 | 42,597 |
| 2008 | 44,514 |
| 2009 | 50,415 |
| 2010 | 50,8 |

Hazırda neft strategiyası ölkə başçısı İ.Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan dünyanın 33 ölkəsinə neft ixarac edir. Gürcüstanda SOCAR brendi ilə 100 YDM,Ukraynada 30, Rumıniyada 14, İsveçdə 1 YDM fəaliyyət göstərir. Azərbaycan dünyanın nəhənc layihələri olan dəyəri 45 mld olan Cənub qaz dəhlizi-TANAP, Tap layihələrinin həyata keçirilməsində iştirak edir. 2016-cı ildə əsası qoyulmuş Tanap layihəsi 2018-ci ildə başa çatacaq. Türkiyəyə 6 mld, 2020-ci ildə Avropaya 10 mld qaz verməli Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında iştirak edir. Azərbaycan hazırda Cənubi Qafqazın ÜDM-nun 70-%-ni istehsal edir. 2015-cil Davos iqtisadi forumunun dünya ölkələrinin iqtisadi reytinqində BMT-nin 193 ölkəsi arasında 40-cı yeri tutmuşdur.

Azərbaycan Respublikası iqtisadiyyatının dirçəldilməsinə və inkişafına Avropa Birliyi "Traceca" proqramı üzrə AVROPA-QAFQAZ-ASİYA nəqliyyat kommunikasiyasının - "Yeni İpək Yolu"nun işə düşməsi də əhəmiyyətli təsir göstərirdi. 1993-cü ilin may ayında Avropa Birliyinin təşəbbüsü ilə bu istiqamətdə nəqliyyat dəhlizinin açılması barədə 8 ölkənin, o cümlədən Azərbaycanın iştirakı ilə "Brüssel Bəyannaməsi" qəbul olunmuşdu. 1996-cı il mayın 13-də Azərbaycan, Gürcüstan, Türkmənistan və Özbəkistan respublikaları arasında tranzit yük daşınmasının tənzimlənməsi sahəsində əməkdaşlıq və dəmiryol nəqliyyatı fəaliyyətinin əlaqələndirilməsi haqqında Sarahs (Türkmənistandadır) sazişləri imzalandı.85 1996-cı ilin dekabrında Odessada Azərbaycan, Gürcüstan və Ukrayna respublikaları başçılarının Avrasiya nəqliyyat dəhlizi yaradılması haqqında saziş imzalaması da bu işə qüvvətli təkan oldu.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi ölkəmizin iqtisadi qüdrətinin yüksəldilməsini, regional və beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsini, dünya birliyinə daha geniş şəkildə inteqrasiyanı həyati zərurətə çevirdi. SSRİ-nin dağılması nəticəsində pozulmuş iqtisadi, xüsusi ilə də nəqliyyat əlaqələrinin bərpa edilməsi və yeni əsaslarla təşkil edilməsi mühüm və təxirəsalınmaz vəzifələrdən biri kimi xüsusi əhəmiyyət kəsb etməyə başladı. Bu işdə Avropa Komissiyasının hazırladığı və ölkə rəhbərliyinin iqtisadi inkişaf strategiyasında mühüm yer tutan «Tarixi

İpək yolu»nun bərpası, «Avropa-Qafqaz-Asiya» (TRASEKA) nəqliyyat dəhlizi layihəsinin həyata keçirilməsi mühüm rol oynadı.

Ümummilli liderimiz Heydər Əliyev məqsədyönlü və kompleks tədbirlər həyata keçirməklə «Tarixi İpək yolu»nun bərpası ideyasını xəyaldan reallığa çevirdi. Bu nəhəng layihənin gerçəkləşdirilməsi nəticəsində ölkəmizin geostrateji və geosiyasi əhəmiyyəti daha da artmış, Azərbaycan Şərqlə-Qərb arasında strateji körpü rolunu oynayan əlverişli tranzit əhəmiyyətli dövlətlərdən birinə çevrilmişdir.

«Tarixi İpək yolu»nun bərpası prosesinin həyata keçirilməsində mühüm mərhələ 1993-cü il may ayının 3-7-də Avropa Birliyinin təşəbbüsü ilə Brüsseldə çağırılmış konfransla başlandı. Konfransda 5 Mərkəzi Asiya - Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan, Tacikistan və 3 Qafqaz respublikası - Azərbaycan, Gürcüstan və Ermənistanın nəqliyyat və ticarət nazirləri iştirak etdilər. Adları çəkilən ölkələr üçün «TRASEKA» proqramı və «Brüssel bəyənnaməsi» qəbul olundu. Proqramın əsas məqsədi aşağıdakılar elan edildi:

- Müstəqillik əldə etmiş ölkələrin Avropa və Dünya bazarına alternativ nəqliyyat marşrutu ilə çıxışını təmin etməklə onlara iqtisadi və siyasi yardım göstərmək;
- TRASEKA proqramı iştirakçısı olan ölkələr arasında regional əməkdaşlığın genişlənməsinə kömək göstərmək;
- TRASEKA layihələrinin reallaşdırılması işinə maksimum dərəcədə beynəlxaq maliyyə qurumlarının - Avropa Yenidənqurma və İnkişaf Bankının, Dünya Bankının cəlb edilməsinə nail olmaq;
- «Avropa-Qafqaz-Asiya» nəqliyyat dəhlizinin Transavropa şəbəkəsi ilə inteqrasiysına kömək etmək (1).

Konfransda Azərbaycan tərəfindən çıxış edən milli əlaqələndirici akademik Ziyad Səmədzadə qeyd etmişdi ki, müstəqillik əldə etmiş ölkələrin bazar iqtisadiyyatına uyğunlaşması, dünya iqtisadi sisteminə inteqrasiyası inkişaf etmiş nəqliyyat şəbəkəsi olmadan mümkün deyildir. Bu baxımdan TRASEKA proqramı böyük əhəmiyyətə malikdir. Azərbaycan Şərqlə-Qərb arasında əlverişli coğrafi məkanda yerləşən, zəngin sərvətləri olan əhəmiyyətli

bir ölkədir. Azərbaycan nümayəndəsi çıxışında, həmçinin proqramın reallaşdırılması baxımından mövcud olan çətinliklərə toxunmuş, nəqliyyat sahəsində özəl bölmənin yenicə yarandığını, mövcud yolların dünya standartlarına cavab vermədiyini, dövlətin maliyyə imkanlarının zəif olduğunu, Qarabağ münaqişəsinin davam etdiyini bildirmişdir. O, 1993-1995-ci illər üçün TRASEKA dəhlizinin fəaliyyətində mühüm rol oynayan Bakı dəniz limanının yenidən qurulması üçün 7,5 mlrd. manat, avtomagistralların yenidən qurulması üçün 85,6 mlrd. manat, yeni yol texnikasının alınması üçün 36 mlrd. manat, hava nəqliyyatı ilə tranzit yüklərin daşınmasının təşkili üçün 25 mlrd. manatın lazım olduğunu qeyd etmişdir(2,653-659).

«Tarixi İpək yolu»nun bərpası istiqamətində həyata keçirilən növbəti addımlardan biri 1996-cı ilin mayında Azərbaycan, Gürcüstan, Türkmənistan və Özbəkistan dövlət başçılarının iştirakı ilə Türkmənistanın Sərəxs şəhərində tranzit yükdaşımanın tənzimlənməsi, dəmir yolu nəqliyyatının əlaqələndirilməsi haqqında sazişin imzalanması oldu.Sazişdə dövlətlərarası yükdaşımaların hüquqi və tarif əsasları, tranzit daşımalarına maksimum kömək göstərilməsi, tariflərin 50 % həcmində azaldılması, yüklərin maneəsiz keçirilməsi, qorunması kimi mühüm məsələlər öz əksini tapmışdır( 3).

TRASEKA proqramının reallaşdırılması istiqamətində həyata keçirilən uğurlu işlərdən biri də, 1996-cı ilin dekabrında Odessada Azərbaycan, Gurcüstan, Ukrayna dövlət başçılarının Avrasiya nəqliyyat dəhlizinin yaradılması haqqında sazişi imzalamaları oldu (4). 1997-ci ilin sentyabrında Azərbaycan Prezidenti Heydər Əliyev və Gürcüstan Prezidenti Eduard Şevardnadzenin görüşündə növbəti ildə Qafqazda Prezidentlər səviyyəsində konfrans çağırılması təşəbbüsü irəli sürüldü. Bu razılaşmaya uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin 17 iyun 1998-ci il tarixli 830 saylı sərəncamı ilə Bakıda «Tarixi İpək yolu»nun bərpası üzrə beynəlxalq konfrans çağırılması qərara alındı (5).

Yeni İ pək yolunun yaradılması istiqamətində atılan addımlardan ən mühümü 1998-ci il sentyabrın 7-də Bakıda «Tarixi İpək yolu»nun bərpasına dair beynəlxalq konfransın keçirilməsi oldu. 9 ölkənin – Azərbaycan,

Gürcüstan, Özbəkistan, Ukrayna, Qırğızıstan, Moldova, Rumıniya, Türkiyə, Bolqarıstan dövlət başçılarının, 13 beynəlxalq təşkilatı n və 32 dövlətin nümayəndələrinin iştirak etdiyi konfransın mühüm nəticələrindən biri Avropa İttifaqının TRASEKA proqramı əsasında «Avropa-Qafqaz-Asiya» nəqliyyat dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında «Çoxtərəfli Əsas Saziş və onun beynəlxalq ticarət gəmiçiliyi, gömrük proseduru və sənədlərin işlənməsi üzrə texniki əlavələr haqqında» sənədin imzalanması, həmçinin «Bakı Bəyannaməsinin» qəbul edilməsi oldu (6). Saziş Bakı konfransında iştirak edən 13 dövlətin - Azərbaycan, Gürcüstan, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan,Türkmənistan, Tacikistan, Rumıniya, Moldova, Ukrayna, Bolqarıstan və Türkiyənin dövlət və hökumət başçıları tərəfindən imzalanmışdır (7). Konfransda BMT, ATƏT, Avropa Birliyi, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, MDB, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam Bankı və digər beynəlxalq təşkilatların nümayəndələri iştirak etmişdir.

Azərbaycanın konfransda əldə etdiyi çox mühüm nəticələrdən biri də ondan ibarət idi ki, qəbul olunmuş sazişə ölkə Prezidenti Heydər Əliyevin təkidi ilə düzəliş edilmiş və göstərilmişdir ki, əgər Ermənistan başlanğıc tranzit və ya qurtarıcı ərazi olsa nəqliyyatla bağlı saziş və ona edilmiş texniki əlavələrin bütün müddəaları Azərbaycana tətbiq oluna bilməz. Yəni, Ermənistan de-fakto TRASEKA proqramından çıxarıldı(9).

Çoxtərəfli əsas sazişin VII bölməsinin 9-cu maddəsinin tələbinə uyğun olaraq 2000-ci ilin martın 10-11-də Gürcüstanda keçirilmiş konfransda TRASEKA Hökumətlərarası Komitəsinin Daimi Katibliyinin Bakıda açılması qərara alındı. 2001-ci ilin fevralın 21-də Daimi Katibliyin Bakıda rəsmi açılışı oldu. Açılışda Prezident Heydər Əliyev, İsveçin xarici işlər naziri, Avropa İttifaqında sədrlik edən ölkənin təmsilçisi xanım Anna Lind, Avropa İttifaqının Baş katibi, Ümumi Xarici və Təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Havyer Salano və Avropa Şurasının xarici əlaqələr üzrə Komissarı Kristofer Patten iştirak etmişdir. Mərasimdə çıxış edən ölkə Prezidenti Heydər Əliyev Avropa İttifaqı tərəfindən görülən və TRASEKA

proqramının həyata keçirilməsinə yönəlmiş işləri yüksək qiymətləndirmiş, eyni zamanda Azərbaycan Respublikası tərəfindən bunun gələcəkdə görüləcək böyük işlərin başlanğıcı hesab etmişdir(7). Həmin ilin iyul ayından Bakıda TRASEKA Daimi Katibliyində ekspert qrupu fəaliyyətə başlamışdır(10).

Belə bir cəhəti də qeyd etmək lazımdır ki, əgər 1993-1995-ci illərdə həyata keçirilən layihələr başlıca olaraq Qara dəniz və Xəzər dənizi regionlarında əlaqələrin möhkəmlənməsinə yönəlmiş və regional xarakter daşıyırdısa, 1998-ci ildə Beynəlxalq Bakı konfransında «Çoxtərəfli Əsas Sazişin» imzalanması ilə «TRASEKA» proqramı Avrasiya ölkələri arasında nəqliyyat sahəsində çoxtərəfli əməkdaşlığa çevrilmişdir (126, 1998, №4, s.71). Bununla «TRASEKA» proqramı nəinki regional, həmçinin beynəlxalq əhəmiyyət kəsb etmişdir. Təsadüfi deyil ki, Heydər Əliyev «Tarixi İpək yolu»nun bərpası üzrə beynəlxalq Bakı konfransının qərarlarının yerinə yetirilməsi ilə əlaqədar tədbirlər haqqında» 26 oktyabr 1998-ci il tarixli sərəncamında bu konfransın mühüm əhəmiyyətini xüsusi qeyd edərək demişdir: «İpək yolunun bərpası üzrə keçirilmiş beynəlxalq konfrans və burada imzalanmış sənədlər böyük siyasi, iqtisadi əhəmiyyət kəsb edərək «Avropa-Qafqaz-Asiya» nəqliyyat dəhlizində yerləşən ölkələrin inkişafı, onların təbii ehtiyatlarının mənimsənilməsi, iqtisadi potensialından daha səmərəli istifadə olunması, ticarətin və iqtisadi əməkdaşlığın genişlənməsi üçün etibarlı zəmin yaradır.Tarixi İpək yolunun bərpası üzrə aparılan işlər Azərbaycan Respublikasının dünya birliyi ölkələri ilə inteqrasiyasının daha da gücləndirilməsinə xidmət edir» ( 8).

Heydər Əliyev «Tarixi ipək yolu»nun bərpası prosesinitəşkil etməklə yanaşı bu prosesin öyrənilməsini, onu ictimaiyyətə çatdırılmasını da bir vəzifə olaraq alimlər qarşısında qoymuşdur. Bununla əlaqədar o 1998-ci il sentyabr ayının 10-da Prezident aparatındakı çıxışında demişdir» …Bizim alimlərimiz, tədqiqatçılarımız bu sahədə çox iş görə bilərlər, bu məsələni dərindən təhlil və tədqiq edə bilərlər, onun mazhiyyəti və mənası ictimaiyyətə çatdırılımalıdır və bu istiqamətdə mütəmadi iş aparılmalıdır(6).

Heydər Əliyevin ipək yolunun bərpası sahəsindəki xidmətlərinin məntiqi nəticəsi idi ki, o «İpək yolu» Fondu İdarə heyətinin yekdil qərarı ilə «İpək yolu» Fondunun fəxri sədri seçilmişdir(11).

Bərpa olunan tarixi ipək yolunun təhlükəsizliyi məsələsi də Heydər Əliyevin diqqət mərkəzində olmuşdur.Bu baxımdan 2002-ci ilin aprelində Türkiyənin Trabzon şəhərində keçirilən zirvə görüşü mühüm əhəmiyyət kəsb etmişdir. Görüşdə nəqliyyat və enerji dəhlizlərinin təhlükəsizliyinin təmin edilməsi sahəsində Türkiyə,Azərbaycan Gürcüstan rəhbərliyi razılığa gəlmişlər.(12).2003-cü ilin iyul ayının 23-də isə bu barədə müvafiq saziş imzalanmışdır.

Heydər Əliyevin Türk xalqlarının birliyini möhkəmləndirmək səyləri 1993-cü ildən başlayaraq keçirilən «Türk dövlətlərinin və toplumlarının dostluq, qardaşlıq qurultayları» ilə yanaşı «Traseka» proqramı sərçivəsində genişlənən inteqrasiya proseslərinin də türk dövlətlərinin iqtisadi, siyasi və mənəvi birliyinin möhkəmləndirilməsində böyük rolu olmuşdur. Bu baxımdan türkdilli ölkələrin dövlət başçılarının sammitləri, xüsusilə 1998-ci il iyul ayının 9-da Qazaxıstanın Astana şəhərində və 2000-ci ilin aproelində Bakı da keçirilmişTürk respublikaları dövlət başçılarının VI zirvə toplantısı diqqəti cəlb edir. Bu toplantıda «İpək yolu»nun əhəmiyyəti xüsusi qeyd edilmiş və göstərilmişdir ki, bu yol Türk xalqlarının ticarət-iqtisadi, mədəni-humanitar və siyasi-diplomatik baxımdan birləşdirir(13). «Traseka» nəqliyyat dəhlizində genişlənən iqtisadi əlaqələr bu proqramma qoşulmuş türkdilli ölkələrlə aparılan iqtisadi əlaqələrin dinamikası da bunu bir daha sübut edir. Belə ki, təkcə 2002-ci ildə Türkiyə ilə 156218,7 min dollarlıq idxal, 83396,5 min dollarlıq ixrac, Qazaxıstanla 1410,2 min dollarlıq idxal,3830,3 min dollarlıq ixrac, türkmənistanla 119778,4 min dollarlıq idxal,8667,1 min dollarlıq ixrac,Qırğızıstanla 678,6 min dollarlıq idxal, 1102,2 min dollarlıq ixrac əməliyyatları aparılmışdır(denominasiyaya qədərki kursla) (14).2007-ci ilin noyabr ayının 17-20-də Bakıda keçirilmiş türk dövlətləri və təşkilatlarınınXI dostluq və qardaşlıq qurultayı bu əlaqələrin uğurla davam etdiyini bir daha sübut etmişdir. Ölkə rəhbərliyinin «Tarixi ipək yolu»nun bərpasında əsas məqsədləri bunlar olmuşdur:

1. Bölgədə yerləşən ölkələrin ticarət-iqtisadi əlaqələrinin inkişaf etdirilməsi;
2.Nəqliyyat əlaqələrinin inkişaf etdirilməsi, yük və sərnişinlərin beynəlxalq daşınmasının həyata keçirildməsi;
3.Tranzit daşımaları üçün əlverişli şəraitin yaradılması;
4.Yükdaşıma müddətinin qısaldılması;
5.Nəqliyyat sahəsində müvafiq siyasətin hazırlanması;
6.Daşıma tarifləri və güzəştlərin müəyyən edilməsi;
7.Müxtəlif nəqliyyat növləri arasında əlaqələrin tənzimlənməsi;
8.Yük və sərnişin daşımaları üzrə beynəlxalq və daxili tariflər sahəsində uyğunlaşdırılmış siyasətin aparılması;
9.Çoxmodallı(birləşmiş) daşımaların təşkil olunması üzrə uyğunlaşdırılmış fəaliyyət proqramının işlənib hazırlanması(15).

Göründüyü kimi «Yeni ipək yolu» nun yaradılması Ümummilli liderimiz Heydər Əliyevin uzaq görən uğurlu iqtisadi strategiyasının tərkib hissəsi olaraq respublikamızın sosia-iqtisadi inkişafında, dövlətçiliyimizin iqtisadi və siyasi cəhətdən möhkəmləndirilməsində yeni bir tarixi mərhələ açmışdır. Ölkəmizin geostrateji və geosiyasi əhəmiyyəti daha da artmış,Azərbaycan Şərqlə-Qərb arasında strateji körpü rolunu oynayan əlverişli tranzit əhəmiyyətli dövlətlərdən birinə, regionun isə lider dövlətinə çevrilmiş, regional və beynəlxalq nəqliyyat-iqtisadi əlaqələr genişlənmiş, infrastruktur sahələrinin beynəlxalq standartlara uyğun yenidən qurulması istiqamçətində mühüm tədbirlər həyata keçirilmiş, elmi,mədəni dəyərlərin mübadiləsi, turizmin inkişafı, xalqların bir-birinə yaxınlaşması, ölkəmizin dünyada tanınması, regionda sabitliyin, əmin-amanlığın yaradılması üçün geniş imkanlar açmışdır.

**Hüquqi dövlət ideyası qədim dünyada meydana gəlmiş, XIX əsrdə isə Almaniyada elmə gətirilmişdir. Onun mahiyyəti konstitusiyalı və inzibati hakimiyyət orqanlarının** hüquqa tabe olması, onların üzərində hüquqi nəzarətin olmasıdır. Hüquqi dövlət anlayışı dövlətlə bütün sosial birliklərin, o cümlədən ayrı-ayrı fərdlərin hüquqa hörmət etməsini, ona münasibətdə bərabər vəziyyətdə olduğunu göstərir. Hüquqi dövlət qanunun aliliyi, vətəndaş hüquqlarının müdafiəsi, dövlət hakimiyyəti həddinin müəyyən edilməsi,

hakimiyyət bölgüsü, konstitusiya nəzarətinin olması, məhkəmə və qanun qarşısında hamının bərabərliyi, dövlətin vətəndaşlar, vətəndaşların dövlət qaşısında məsuliyyəti kimi prinsiplərə söykənir.

Ölkəmiz ikinci dəfə müstəqillik əldə etdikdən sonra ölkə prezidenti Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın sivil dövlətçilik tarixində mühüm yer tutmuş Azərbaycan Xalq Cümhuriyyətinin demokratik ənənələri uğurla davam etdirilməyə başladı. Heydər Əliyev hələ 1990-cı ildə Naxçıvana rəhbərlik etdiyi ilk dövrdə Cümhuriyyət ənənələrinin davamı kimi müstəqilliyin ilk addımlarını atmışdı. Muxtar respublikanın adından «sovet» və « sosialist» sözləri çıxarılmış, Naxçıvan Ali soveti «Ali Məclis» adlandırılmış, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilmiş, Kommunist partiyasının yerli orqanlarının fəaliyyəti dayandırılmış, SSRİ-nin saxlanılması barədə referendumdan imtina edilmişdi(2,s.305).

1993-cü ildən sonrakı dövrdə Heydər Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycan respublikasının qurulması, möhkəmləndirilməsi, Xalq Cümhuriyyəti demokratik ənənələrinin yeni məzmunda - hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin formalaşdırılması istiqamətində davam etdirilmiş, bu istiqamətdə xeyli iş görülmüşdür. Heydər Əliyevin sədrliyi altında Azərbaycan Respublikasının ilk Milli Konstitusiyası qəbul edilmiş. Əsas Qanunda İnsan hüquq və azadlıqlarına geniş yer verilmiş, Qanunun 159 maddəsindən üçdə biri, başqa sözlə desək 48-i insan hüquq və azadlıqları məsələsinə həsr olunmuşdu.

1995-ci ilin noyabrın 12-də Müstəqil Azərbaycan Respublikasının parlamentinə mojaritar və proporsional sistemlə ilk seçkilər keçirildi. Azərbaycan parlamenti dünyanın qabaqcıl ölkələri qanunverici orqanlarının təcrübəsini öyrənməyə başladı. Bu təcrübə əsasında siyasi, iqtisadi, hüquqi, demokratik islahatlar həyata keçirildi. Qanunların sivil dünya dövlətlərinin hüquqi dövlət quruculuğu ənənələrinə, beynəlxalq hüquq normalarına, Avropa Şurası və dünyanın demokratik təsisatlarının tələblərinə uyğun hazırlanması

üçün 1996-cı ilin fevral ayında Azərbaycan Respublikası Prezidenti yanında xüsusi «Hüquqi islahatlar Komissiyası» yaradıldı.

Siyasi və  və iqtisadi islahatlarla əlaqədar hüquqi aktların insan hüquqları və müdafiəsi haqqında Avropa Konvensiyasına uyğunluğu baxımından Avropa Şurasında ekspetiza olunması respublikada demokratik cəmiyyət quruculuğuna təsirli kömək etdi.

1998-ci il iyunun 18-də «İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı» təsdiq olundu. 1998-ci ilin fevral ayında  Azərbaycan prezidenti Heydər Əliyev «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi  sahəsində tədbirlər haqqında»  fərman verdi. Bu sahədə həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq üçün Azərbaycan  Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutu yaradıldı. İnsan hüquqlarının təmin olunmasının hüquqi mexanizmi yaradılmağa başladı. «Kütləvi informasiya vasitələri haqqında», «Dini etiqad azadlığı haqqında», «Ölkədən getmək və ölkəyə gəlmək haqqında», «Sərbəst toplaşmaq azadlığı haqqında» və digər qanunlar qəbul edildi 1998-ci ilin oktyabr ayında «Vətəndaşlıq haqqında» yeni qanun qəbul olundu.

Heydər Əliyevin Azərbaycana ikinci dəfə rəhbərlik etdiyi illərdə Azərbaycan Respublikası  təkcə insan hüquqları ilə bağlı 29 beynəlxalq konvensiyaya qoşuldu. 1998-ci il avqustun 18-də Azərbaycan hökuməti ilə BMT arasında «İnsan hüquqları və demokratiyanın dəstəklənməsi və müdafiəsi sahəsində birgə layihə haqqında memorandum» imzalandı.

Hüquqi dövlət quruculuğu prosesində ölkə rəhbərliyinin diqqət mərkəzində olan məsələlərdən biri də mətbuat azadlığının genişləndirilməsi idi. Bununla əlaqədar 1998-ci il avqustun 6-da ölkə başçısı tərəfindən «Azərbaycan Respublikasında söz, fikir, mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında» fərman  verildi. Mətbuatda və digər informasiya vsitələrində dövlət sirrini qoruyan idarə senzura ləğv olundu.

1995-ci ilin may ayından respublikada  əfetmə institutu fəaliyyətə başladı. 2000-ci ilin əvvəllərinə dək olan dövr ərzində 60 mindən çox adam cəzalardan tam və ya qismən azad edildi. 2001-ci ilin fevral ayında verilmiş amnistiya aktı

ilə isə 8,5 min çox şəxs məhkumluqdan azad edildi(10). 1995-2003-cü illər ərzində ölkə başçısı tərəfindən 30 əfv fərmanı izalandı.

Ölkədə Məhkəmə - hüquq islahatları həyata keçirilməyə başladı. 2000-ci ilin aprel ayından respublikada hakimlərin imtahandan keçməsi institutu tətbiq olundu. Ölkənin qanunverici orqanı 1995-2000-ci illərdə 70-dən çox qanun hazırlayıb qəbul etdi. 2002-ci ilin sentyabr ayından Azərbaycanda üçpilləli məhkəmə sistemi formalaşdı. Yeni instansiya- apelyasiya məhkəməsi yarandı

Hüquqi dövlət quruculuğu prosesində qanunların Konstitusiya müddəalarına uyğunluğuna nəzarət funksiyasını həyata keçirən Konstitusiya Məhkəməsinin olması da mühüm əhəmiyyət kəsb edirdi. Bununla əlaqədar 1997-ci ilin oktyabr ayında «Konstitusiya Məhkəməsi haqqında» qanun qəbul edildi, 1998-ci ildə isə Konstitusiya Məhkəməsi fəaliyyətə başladı.

Ölkədə demokratik dövlət quruculuğunun aparılması kriminogen vəziyyətin aradan qaldırılmasını tələb edirdi. Bununla əlaqədar həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində 1993- 1998-ci illərdə 6500-dən çox cinayətçar qrup zərərsizləşdirildi, 14 000-dən çox odlu silah yığıldı. Odlu silahla törədilən cinayətlərin sayı 4 dəfə azaldı.2002-ci ilin avqustun 24-də Konstitusiyaya edilmiş dəyişikliklərlə hər bir vətəndaşın Konstitusiya Məhkəməsinə müraciət etməsi hüququ təmin edildi.

Azərbaycan Şərqdə ölüm cəzasını ləğv etmiş ilk respublika oldu. 1993-cü ildən ölüm cəzasına faktiki moratorium qoyuldu. 1996-cı ildə Prezident Heydər Əliyev Cinayət Məcəlləsinin 21-ci maddəsindən ölüm cəzasını götürmək təşəbbüsünü irəli sürdü. Qadınlara və 65 yaşından yuxarı kişilərə ölüm cəzası qadağan edildi. 1998-ci ilin fevral ayından isə ölkə başçısının təşəbbüsü ilə respublikada ölüm hökmü tamamilə ləğv olundu.

Hüquqi-demokratik dövlət qurculuğu prosesi ölkədə çoxpartiyalı sistemin fəaliyyətini zəruri edirdi. Ölkə rəhbərliyinin səyi ilə çoxpartiyalı sistemin fəaliyyəti təmin olundu. Belə ki, 1998-ci ildə Azərbaycanda 32 siyasi partiya 1000 çox ictimai birlik fəaliyyət göstərirdi.

Heydər Əliyev qadın hüquqlarının da genişləndirilməsinə öz töhfəsini verdi. 1995-ci ilin ortalarında Azərbaycan Respublikası «Qadın hüquqlarının pozulmasının bütün təzahürlərinin aradan qaldırılması haqqında» BMT Konvensiyasına qoşuldu. Həmin ilin oktyabrında «Azərbaycan Qadınlar Cəmiyyəti» «Ümumdünya Qadınlar Cəmiyyətinə» üzv qəbul olundu. 1998-ci ilin yanvarında isə ölkə başçısının fərmanı ilə «Qadın problemləri üzrə Dövlət Komitəsi» yaradıldı.Nəcib cinsin nümayəndələri dövlət idarəçiliyində geniş təmsil olunmağa başladılar.2001-ci ildə 41-ə yaxın qadın təşkilatı fəaliyyət göstərirdi. Bunların sırasında «Sevil qadınlar cəmiyyətini», « Qadın və İnkişaf Mərkəzini», «Dilarə Əliyeva adına Qadın Hüquqlarının Müdafiə Cəmiyyətini», «Bakı Qadınlar Assosiasiyasını», «Əsgər Anaları Cəmiyyətini» və digərlərinin adını qeyd etmək olar.

Demokratik hüquqi dövlət quruculuğu prosesi gənclərə olan qayğının artırılmasını da əsas məsələ kimi qarşıya qoymuşdu. Nəzərə alsaq ki, gənclər ölkə əhəalisinin 66 %-ni təşkil edir, onda bu məsələnin dövlət siyasətinin həyata keçirilməsində böyük əhəmiyyətini qeyd etmək olar. Gənclərə olan qayğının artırılması, onların, fiziki, mənəvi, intellektual səviyyəsinin yüksəldilməsi, dövlət quruculuğunda fəal iştirakının təmin edilməsi məqsədilə ölkə başçısı 1996-cı ildə xüsusi fərman verdi, 1999-cu il iyulun 29-da isə «Dövlət gənclər siyasəti haqqında» qanun və «Dövlət Proqramı» qəbul olundu. Respublika Gənclər Təşkilatı Milli şurası yaradıldı. Bu təşkilat «Avropa Gənclər Forumuna», «Dünya Türk Gənclər Birliyinə» üzv qəbul olundu.

Cəmiyyət həyatında plüarizmin inkişafına, mətbuat azadlığına qayğı artırıldı. 2002-ci il oktyabrın 5-də Milli Televiziya və Radio Şurası yaradıldı. Respublikada «Azərbaycan İnsan hüquqları və Demokratiya Komitəsi», «Azərbaycan Demokratiya Fondu», «Ruh jurnalistləri müdafiə fondu» və başqa ictimai təşkilatlar fəaliyyət göstərməyə başlamışdı.

Demokratik cəmiyyət əhalinin bütün təbəqələrinin o, cümlədən uşaqların hüquqnlarına qayğı ilə yanaşılmasını tələb edirdi. Bununla əlaqədar 1998-ci il mayın 19-da ölkə başçısı tərəfindən « Uşaq hüquqları haqqında» qanun və

«Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması haqqında Dövlət Proqramı» qəbul edildi. BMT-nin YUNİSEF uşaq təşkilatı ilə birgə çətin şəraitdə yaşayan uşaqların problemlərinin həllinə dair layihələrin həyata keçirilməsinə başlanıldı.

Demokratik cəmiyyətin mühüm elementi kimi yerli özünüidarə orqanı olan Bələdiyyələr formalaşmağa başladı. Ölkə başçısının fərmanı ilə «Bələdiyyələrə sekçilər haqqında», «Bələdəiyyələrin statusu haqqında» qanunlar qəbul edildi. 1999-cu ilin dekabr ayında Azərbaycan Respublikasında ilk Bələdiyyə seçkiləri keçirildi. Azərbaycan Respublikası «Yerli özünüidarə haqqında» Avropa Xartiyasına qoşuldu.

2001-ci il ilin dekabrında Azərbaycan Respublikasının Milli Məclisi «İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında» Konvensiyanın 1,4,6,7 saylı protokollarını təsdiq etmək və «Azərbaycan Respublikasında insan hüquqları üzrə müvəkkil Ambudsman haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanununu qəbul etdi

Göründüyü kimi Heydər Əliyevin ikinci dəfə Azərbaycana rəhbərlik etdiyi dövr sivil dövlətçilik tariximizdə mühüm yeri tutmuş Azərbaycan Xalq Cümhuriyyətinin demokratik dövlətçilik ənənələrinin davam etdirilməsi və onun yeni məzmun alması, hüquqi dövlət quruculuğu prosesi kəsb etməsi ilə əlamətdar olmuşdur. Ölkədə qanunun aliliyi, hakimiyyət bölgüsü təmin olunmuş, insan hüquq və azadlıqlarına geniş yer verilmiş, ilk milli Konstitusiya qəbul olunmuş, Konstitusiya Məhkəməsi və İnsan hüquqları üzrə müvəkkil Ambudsman institutu fəaliyyətə başlamış, cəmiyyətdə çox partiyalı sistemin fəaliyyəti, mətbuat azadlığı, plüarizm təmin edilmiş, ölüm hökmü, senzura ləğv edilmiş, məhkəmə-hüquq islahatları keçirilmiş, Azərbaycan Respublikası bir çox beynəlxalq Konvensiya və Sazişlərə qoşulmuş, milli ordu yaradılmışdır. Bütün bu görülən tədbirlər sayəsində müstəqil dövlətimiz iqtisadi və siyasi cəhətdən möhkəmləndirilmiş, əhalinin sosial müdafiəsi təmin edilmiş, ölkəmiz dünyada tanınmış, regionun lider dövlətinə çevrilmiş, qlobal enerji və nəqliyyat layihələrində fəal iştirak etmiş, müasir dünyanın qlobal

problemlərinin həllində, o cümlədən avropanın enerji təhlükəsizliyinin təmin edilməsində yaxından iştirak etməyə başlamışdır.

**Ədəbiyyat**


1.Azərbaycan tarixi 7 cilddə, VII-cild.B, 2003,s.403-410

2. Qaffarov T Azərbaycan Respublikası 1991-2001. Əsrə bərabər on il.Bakı 2001,s.212-219

3. Qaffarov T. Azərbaycanın ən yeni tarixi. XX əsrin sonları XXI əsrin əvvəlləri. Bakı: Gizo Enterprise, 2006,s.28-42

*4.Əliyev H.* Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət. "Respublika" qəzeti, 20 dekabr 2000-ci il.

5.Əliyev H. Azərbaycan nefti dünya siyasətində. Bakı: Azərnəşr, 1997,s.34-56

6. Əliyev H. Müstəqilliyimiz əbədidir. 17-ci kitab. Bakı: Azənəşr, 2006,s.27-35

7.Əliyev H. Müstəqilliyimiz əbədidir. 18-ci kitab. Bakı: Azənəşr, 2006,s.18-27

8. *Nadirov A.* Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri. Bakı, 2001,s.44-56

9. İsakov H. Heydər Əliyevin neft və ipək yolu strategiyası. Dövlət quruculuğu. İctimai- siyasi jurnal, Bakı, 2007 , s. 39-43

10. İsakov H. Heydər Əliyevin iqtisadi siyasətində «İpək yolu" strategiyası. Qərb Universitetinin Elmi xəbərləri, №2, Bakı, 2013,s.71-78

11. İsakov H. Heydər Əliyev "Tarixi ipək yolu"nun bərpasının təşəbbüskarıdır. Dirçəliş XXI əsr, № 178/179, Bakı, 2013,s.272-277

12. İsakov H. Heydər Əliyevin hüquqi dövlət quruculuğu Xalq Cümhuriyyəti demokratik ənənələrinin davamıdır. Tarix İnstitutunun elmi əsərləri, 38-ci cild,Bakı,2011,s.402-406

13. Azərbaycan tarixi. 11-ci sinif dərsliyi.Bakı, 2000,s.321-323

14. Şirinzadə N Neft həqiqətlər və müəmmalar.Bakı, 2011,s.135-16 2

## İ. Əliyevin rəhbərliyi altında Azərbaycan Respubliksı yol-nəqliyyat kompleksinin inkişaf etdirilməsi.

**Plan:**

**1.** İ.Əliyevin Azərbaycan Respubliksı yol-nəqliyyat kompleksinin inkişaf etdirilməsi ilə əlaqədar qərarları

2.Daxili invesisiya hesabına görülən işlər.

3.Xarici investisiya hesabına görülən işlər.

Azərbaycan respublikasının xalq təsərrüfatı kompleksinin inkişafında, dünya iqtisadiyyatına inteqrasiyasında, tranzit ölkəyə çevrilməsində, transkontinental yük dövriyyəsinin formalaşdırılmasında yerini müəyyən edən ən mühüm amillərdən biri də inkişaf etmiş yol-nəqliyyat kompleksinin olmasıdır**.** Bu məsələyə vaxtilə ciddi diqqət yetirən Heydər Əliyev qeyd etmişdir ki, «Yol iqtisadiyyat, mədəniyyət bir sözlə həyat deməkdir». Bu baxımdan Şərqlə Qərbi birləşdirən «İpək yolu»nun bərpasında avtomobil yolları da mühüm əhəmiyyət kəsb edir. Hazırda respublikamızda ümumi uzunluğu 22134 km olan avtomobil yolları vardır. Bu yolların 1684 km-i beynəlxalq magistrallar, 2669 km-i respublika əhəmiyyətli, 13 min km-i yerli əhəmiyyətli, 1, 5 min km-i Bakı şəhərinin ərazisində olan, 3, 3 min km-i isə rayon ərazilərində olan yollardır (179, 13. 03. 2008). Bunların da 92, 3 %-i, yəni 22053 km-i möhkəm örtüklü yollardır. Körpülərin ümumi sayı isə 1201-dir.

Son illərdə ölkədəki sürətli iqtisadi inkişafla bağlı ölkə başçısı İlham Əliyevin bu sahənin inkişafına diqqəti daha da artmışdır. Belə ki, Respublika Prezidentinin 12 oktyabr 2006-cı il tarixli «Avtomobil yolları sahəsində məqsədli büdcə fondunun yaradılması haqqında» sərəncamı, «Azərbaycan respublikasının yol-nəqliyyat kompleksində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında» 22 fevral 2007-ci il tarixli sərəncamı, 4784 km-lik yolun Nəqliyyat Nazirliyinin balansına verilməsi, respublika avtomobil yolları şəbəkəsinin inkişafına həsr

olunmuş 12 mart 2008-ci il tarixli müşavirə, yol-nəqliyyat kompleksinin inkişafı üçün ayrılan vəsaitlərin daha da artırılması buna misal ola bilər. Belə ki, bu məqsədlə ayrılan vəsaitin həcmi 2004-cü ildə 16, 3 mln manat olmuşdursa, 2006-cı ildə 50 mln manata, 2007-ci ildə 130 mln

**Daxili investisiya hesabına:**

2013-cü ildə respublika əhəmiyyətli Qəbələ - Ağdaş, Oğuz - Qəbələ və Ağstafa - Poylu - Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomobil yollarınm yenidən qurulması avtomobil yoliarının yenidən qurulması, Bakı -Quba - Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 177-ci km-də Qurudərə üzərində körpünün tikintisi layihələri başa çatdırılmış, Gəndob - Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun tikintisi layihələri üzrə tikinti işləri davam etdirilmişdir.

Yerli əhəmiyyətli Qəbələ - Küsnət - Laza avtomobil yolunun yenidən quralması layihəsi başa çatdırılmış, Qusar - Əniğ - Ləzə 4 zolaqlı avtomobil yolunun 10 km-lik hissəsinin və körpünün, Xocasən - Lökbatan, Cəlilabad - Yardımlı avtomobil yollarmm tikintisi, İsmayıllı - Lahıc, Zərdab - Mollakənd, Şamaxı - Göylər Çöl - Padar, Şəki - Qax - Zaqatala yolunun Şəki - Qax sahəsinin əsaslı təmiri layihələri üzrə tikinti işləri davam etdirilmiş, Salyan-Şirvan, Quba-Qonaqkənd avtomobil yollarının tikintisinə başlanılmışdır.

Şəki - Qax - Zaqatala yolunun Şəki - Qax sahəsində 13 ədəd körpünün, Şəmkir-Gədəbəy avtomobil yolunun 42-ci kilometrində Çolpan çay üzərində körpünün bərpası, R-8 (5km) - Dilman - Xatman avtomobil yolunun və yolun 1-ci kilometrində Ağsuçay çayı üzəıində qəza vəziyyətinə düşmüş körpünün yerində yeni körpünün tikintisi, Quba şəhərini Qırmızı qəsəbə ilə birləşdirmək üçün Qudyalçay çayı üzərində körpünün tikintisi və mövcud tağlı körpünüı bəıpası layihələri başa çatdırılmış, Bakı - Quba - Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 6-11-ci km hissəsinin yenidən qurulması, R-9 (127 km) - Baş Daşağıl avtomobil yolunun 10-cu km-də Daşağıl çayı üzərində yerləşən körpünün

qəzalı vəziyyətə düşməsi ilə əlaqədar köpünün su istiqamətləndirici qurğularının tikintisi layihələri üzrə tikinti işləri davam etdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə 2013 - cü il 14 avqust tarixdə ümumi uzunluğu 42 km olan Qaraməryəm - İsmayıllı - Şəki avtoııobil yolunun Qəbələ-Oğuz sahəsinin ( 75-112 lcm ) və Oğuz şəhərinə giriş yolunun, 16 avqustda Şəlci - Qax-Zaqatala avtomobil yolunun Şəki-Qax hissəsində Qax şəhər ətrafı avtomobil yolunun və Kürmük çayı üzərində körpülərin, 10 sentyabrda Şəmkir-Gədəbəy avtomobil yolunun 42-ci kilometrində Çolpan çay üzərində körpünün, 18 sentyabrda ümumi uzunluğu 12 km olan Quba-Qusar avtomobil yolunun və bu yolda Qudyalçay üzərində beş aşırımlı körpünün, Quba şəhərini Qırmızı qəsəbə ilə birləşdirmək üçün Qudyalçay çayı üzərində bərpa olunmuş mövcud tağlı körpünün açılışı olmuşdur. Bunlardan əlavə 2013-cü il 22 aprel tarixində Bakı - Quba - Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 161-ci km-də Ağçay üzərində körpünün açılışı olmuşdur.

Azərbaycaıı Respublikası Prezidentinin Bakı şəhərində yeni körpülərin yeraltı və yer üstü keçidlərin çox mərtəbəli avtomobil dayanacaqların tikilməsi, nıövcud yol qurğularının təmiri və yenidən qurulması məqsədi ilə imzaladığı “Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2008 -2013-cü illər üçün əlavə Tədbirlər Planının təsdiq edilməsi haqqında” 2008-ci il 08 iyul tarixli 2930 nömrəli sərəncamına əsasən 17 ədəd yeni yol qovşağının, 75 ədəd piyada keçidinin, yeni çox cərgəli avtomobil yollarının, çox mərtəbəli avtomobil dayanacaqların tikilməsi və mövcud yol qovşaqlarının təmiri nəzərdə tutulmuşdur. Ziya Bünyadov prospektində yol infrastrukturunun yenidən qurulması layihəsi çərçivəsində prospekt ilə Müzəffər Nərimanov, Əhməd Rəcəbli və Böyük Şor küçələrinin kəsişmələrindəki, Əbdül Vahab Salamzadə, Alı Mustafayev və Hüseynbala Əliyev küçələrinin birləşməsindəki yol qovşaqlarının və uzunluğu 9 kilometr olan Ziya Bünyadov prospektinin tikintisi işləri davam etdirilmişdir. Prospektdə 4 ədəd yerüstü piyada keçidinin tikintisinə başlanılmışdır.Qələbə meydanında (Gənclik metro stansiyası) tunellərin, Neftçilər

prospekti ilə Sərdar Səfərov küçəsinin və Babək prospekti ilə Kamran Əfkari küçəsinin kəsişməsində, Binəqədi qəsəbəsində 179 nömrəli məktəbin qarşısında inşa edilən piyada keçidlərinin tikintisi başa çatdırılmış, Azərbaycan Respublikasının Prezidentinin iştirakı ilə 2013-cü il 02 sentyabr tarixində Qələbə meydanında (Gənclik metro stansiyası) yol qovşağınn açılışı olmuşdur. Heydər Əliyev prospektində Şəfa stadionunun qarşısında maşın və piyada üçün yeraltı keçid qovşağının, Babək prospekti ilə Telnov küçəsinin kəsişməsində yeraltı, Ziya Bünyadov və Atatürk prospektlərinin kəsişməsində yerüstü piyada keçidlərinin tikintisi işləri davam etdirilmişdir. Buzovna - Mərdəkan - Qala avtomobil yolunun Buzovna - Mərdəkan hissəsinin, Zığ dairəsi - Heydər Əliyev Hava Limanı avtomobil yolundan Qala stansiyasına gedən avtomobil yolunun tikintisi və Zabrat - Maştağa - Buzovna və Zabrat - Kürdəxanı - Pirşağı avtomobil yollarınm I texniki dərəcəli standartlara uyğun yenidən qurulması layihələri başa çatdırılmış, Heydər Əliyev Hava Limam - Mərdəkan dairəsi - Bilgəh - Novxanı - Sumqayıt avtomobil yolunun 8 cərgəli hərəkət üçün yenidən qurulması, Buzovna - Mərdəkan - Qala, Heydər Əliyev Beynəlxalq Aeroportu- Mərdəkan - Bilgəh yolu ( 24 - cü km ) - Qala - Pirallahı avtomobil yollarmın tikintisi, Pirallahı qəsəbəsini sahillə birləşdirən avtomobil yolunun dəniz suyu ilə yuyulmasıınn qarşısının alınması, yol üzərində avtomobil körpüsünün tikintisi və yol boyunca sahilbərkitmə işlərinin aparılması layihələrinin icrası davam etdirilmişdir. Həsən Əliyev kiiçəsindən Ziya Bünyadov küçəsinə paralel olaraq Koroğlu metro stansiyasına qədər yolun, Böyükşor gölü ərazisində inşa olunan stadionun ətrafında yolların, tunellərin və piyada keçidlərinin, Nobel prospektinə paralel dənizkənarı 8 hərəkət zolaqlı yeni bulvar yolunun və Bakı - Ələt yolunun 4-6 kilometr hissəsinin ( Beynəlxalq Su İdman Növləri Mərkəzi tikilən sahədə) tikintisi layihələrinin icrasına başlanılmışdır. Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə may ayının 26-da Buzovna - Mərdəkan - Qala avtomobil yolunun Buzovna - Mərdəkan hissəsinin, iyul ayının 25-də Zığ dairəsi - Heydər Əliyev Beynəlxalq Hava Limanı avtomagistralının 13-cü kilometrindən Qala qəsəbəsinə gedən yolun, avqust ayının 12-də Sabunçu - Zabrat - Maştağa - Buzovna, dekabr ayının 26-da Zabrat -

Kürdəxanı - Pirşağı avtomobil yolunun açılışı olmuşdur. Bu dövr ərzində **39** ədəd yeni körpü tikilib istismara verilmiş, **23** ədəd körpü təmir olunmuşdur.

**Xarici investisiya ilə maliyyələşdirilən Layihələr haqqında məlumat**

Avropa Birliyi TRASEKA proqramına uyğun olaraq digər infrastruktur sahələri ilə yanaşı, avtomobil yollarının da yenidən qurulmasını həyata keçirməyə başlamışdır. Bu baxımdan «İpək yolu»nun keçdiyi marşrutlar xüsusi diqqət mərkəzində saxlanılmışdır. Bakı-Ələt-Hacıqabul-Kürdəmir və Gürcüstan sərhədinə qədər olan beynəlxalq dərəcəli avtomagistral «İpək yolu»nun keçdiyi sahədir, ümumi uzunluğu 503 km-dir. Bakı-Ələt avtomobil yolunun yeni tikilmiş 4-8 km-lik və yenidənqurulmuş 8-14 km-lik hissəsinin inşası 2010-cu ilin ikinci yarısında, dəqiq desək noyabrın 8-də başa çatmışdır. Uzunluğu 45, 6 km- olan Ələt–Hacıqabul yolu tikinti layihəsinə görə birinci dərəcəli 4 zolaqlı olması nəzərdə tutulmuşdur. İşə 2000-ci ilin noyabrın 15-dən başlanılmış, 2004-cü ilin fevralın 28-də istismar üçün təhvil verilmişdir**( 13, 1mln İslAM Banki, 18,7 mln Küveyt fondu)**

«İpək yolu» boyunca respublikamızın ərazisindən keçən vacib avtomagistral seqmentinin bir hissəsini də Hacıqabul-Kürdəmir yolu təşkil edir. Onun uzunluğu 85, 6 km-dir. Yolun 75 km-lik 2 zolaqlı hissəsi 2007-ci ildə, yolun qalan 11, 6 km-lik hissəsi, o cümlədən Kürdəmir dairəvi hissəsinin tikintisi 2008-ci ilin avqustun 27-də başa **çatmışdır (31, 5 mln AYİB).**

«İpək yolu»nun keçdiyi avtomagistralın bir hissəsi də Kürdəmir-Ucar avtomobil yoludur. Bu yolun uzunluğu 46, 2 km-dir, Yolun 46, 2 km-lik 2 zolaqlı hissəsinin tikintisinə 2008-ci ilin iyununda başlanmış və 2010-cu ilin dekabrın 31-də başa çatmışdır (15, 6 MLN **AYİB).**.

«İpək yolu»nun keçdiyi avtomagistralın mühüm bir hissəsini də Ucar-Yevlax avtomobil yolu təşkil edir. Yolun uzunluğu 53, 0 km-dir, Yolun tikintisinə 2007-ci ildə başlanmış və 2009-cu ilin noyabr ayının 19-da yolun açılışı **olmuşdur (10 mln İslam bankı, 46 mln Səudiyyə İnk fondu).**

«İpək yolu»nun əhəmiyyətli bir hissəsini də Yevlax-Gəncə avtomobil yolu təşkil edir. Yolun bütün hissəsinin uzunluğu 88, 8 km-dir. Layihəyə görə burada əsaslı bərpa işləri aparılmalıdır. Bərpa işləri 2010-cu ilin dekabrına başa çatsa da, rəngləmə işləri, işıqlandırma sistemlərinin təmin edilməsi ilə əlaqədar yolun tam açılışı 2011-ci ilin mayın 30-na nəzərdə tutulmuşdur (.

«Yeni ipək yolu»nun bir hissəsini də uzunluğu 94 km olan Gəncə-Qazax avtomobil yolu təşkil edir. 2 zolaqlı olan bu yol 2006-cı ilin noyabrın 6-da istismara verilmişdir Layihəyə görə uzunluğu 10 km olan Tovuz dairəvi avtomobil yolunun tikintisi üçün torpaq sahələrinin alınması və kompensasiyaların verilməsi üçün Azərbaycan hökuməti tərəfindən tədbirlər görülmüş və yuxarıda qeyd edildiyi kimi, inşaat işləri 2008-ci ilin dekabr ayının ortalarına başa **çatmışdır (40 mln Dünya bankı).**

«İpək yolu»nun mühüm hissələrindən biri də Qazax-Gürcüstan sərhəddi boyunca uzunluğu 38 km olan avtomobil yoludur. İnşaat işlərinin 2009-cu ilin birinci rübündə başa çatdırılması nəzərdə tutulsa da, yolun tikintisi 2010-cu il aprelin 27-də başa çatmışdır (40).

«İpək yolu»nun mühüm tərkib hissələrindən biri də uzunluğu 21, 5 km olan Layihə üç hissədən ibarətdir. Layihənin başa çatması 2009-cü ilin I rübü üçün nəzərdə tutulsa da (179, 13. III. 2008), layihənin birinci və ikinci hissəsinin icrası 2010-cu il noyabrın 8-də başa çatmış, smeta dəyəri 80 mln dollar təşkil etmişdir. Layihənin üçüncü hissəsinin icrasının isə ilin sonuna başa çatmişdir.

## H.Əliyev siyasətinin layiqli davamçısı

H.Əliyevi layiqli varisi İ.Əliyev **1982-ci ildə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirmişdir. Orada elmi-pedaqoci fəaliyyətə başlamış (1982), aspirant, müəllim olmuşdur. Tarix elmləri namizədidir (1985). 1991-ci ildən Moskvada "Oriyent" şirkətinin baş direktoru işləmiş, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin xarici iqtisadi əlaqələr üzrə vitse-prezidenti (1994-cü ildən) və birinci vitse-prezidenti (1997-ci ildən), Azərbaycan Respublikasının baş naziri (2003)** vəzifəsində çalışmışdır. Azərbaycan dövlətçiliyinin qorunub saxlanılması və yeni Azərbaycanın qurulmasında Heydər Əliyevin ən yaxın silahdaşı olmuşdur.

1.BTC əsas ixrac kəmərinin işə düiməsi, Tarixi ipək yolunun bərpası istiqamətində yol- nəqliyyat kompleksinin yenidən qurulması və paytaxda yeni körpülərin və keçidlərin tikilməsi;

2.Regionların sosial-iqtisadi inkişafına dair (2004-2008) və (2009-2013-cü il) (2014 -2018) dövlət proqramlarının qəbul edilməsi;

3.Regionlarda yeni müasir tipli xəstəxanaların tikilməsi, diaqnostika mərkəzlərinin salınması;

4.Regionların qazlaşdırılması

5.Yeni yolların salınması. Xüsusilə İssık-Xınalıq kimi çətin keçilən yolların salınması.

6.Paytaxta Oğuz-Qəbələ su kəmərinin çəkilməsi. Rayonlarda su təmizləyici qurğuların quraşdırılması.Təkcə 2011-ci ildə 32 kənddə modul tipli sutəmizləyici qurğu istifadəyə verilmiş, 50 minə yaxın əhali, hansı ki, təmizlənməmiş sudan istifadə edir, təmiz su içir.

7.Sahibkarlara dövlət dəstəyinin artırılması. Təkcə2012-ci ildə - sahibkarlara güzəştli şərtlərlə 200 milyon manat kreditlər verilmişdir.2013-də 400 milyon verilməsi nəzərdə tutulmuşdur.

**8.** İnflyasiyanı 7,9 faizə enmişdir;

9. 73 qaçqın şəhərciyi salınmiş, 45 olimpiya kompleksi tikilmişdir.Daha 8-i tikilir.Daha 5-nin özülü qoyulacaq.

10. Uğurlu sosial siyasət nəticəsində yoxsulluq səviyyəsi 2000-ci ildəki 49 faizdən 2011-ci ildə 7,6 faizə, 2013-də 6% qədər azalmış, əmək haqqı və pensiyalar dəfələrlə artırılmışdır.

**10. Ölkəmizin enerji və ərzaq təhlükəsizliyi təmin edilmişdir,**

11.Azərbaycan gənclərinin xaricdə təhsil almasına (2007-2015-ci illərdə) dövlət proqramı qəbul olunmuş, 5000 gəncin təhsil alması,

12.1 mln iş yerləri açılmişdir. 2012-ci ildə ÜDM 2,2 % , qeyri neft sektorunda artım 9,7 %, Kənd təsər. artim. 6% olub.2012-ci ildə ölkə iqtisadiyyatına 22 mld investisiya qoyulmuşdur ki, bunun da 13 mld-ı xarici unvestisiyadır.Dovos iqtisadi forumu məlumatına görə Azzərbaycan dünya ölkələri arasında rəqabət qabiliyyətinə görə 46-cı,MDB-də isə 1-ci yerdə durur.

13.Şimal Qərb bölgəsində zəlzələdən mənzilləri dağılmış (2012 MAY- 3000 min mənzil )Zaqatala və Balakəndə yeni mənzillərin tikilməsi

14. 2 0 11-ci ildə real ÜDM 2003-cu illə muqayisədə 3 dəfə artmış,
15. Son 8 ildə olkənin strateji valyuta ehtiyatları 22 dəfədən cox artaraq 2012-ci ilin yekunlarına əsasən 46 milyard ABŞ dollara,2013-cü ildə isə 50mld dollara catmışdır ki, bu da xarici dovlət borcunu təxminən 10 dəfə ustələyir. Bu gün isə valyuta ehtiyatları 48 mld-a bərabərdir.
16. Səhiyyəyə ayrılan budcə vəsaiti son 10 il ərzində 10 dəfədən

cox artaraq hazırda 650 milyon manatı kecmişdir. Son 10 il ərzində böyük əksəriyyəti respublikanın bolgələrində **olan 400-dən artıq tibb muəssisəsinin** tikintisi və ya əsaslı təmiri həyata kecirilmiş, tibb muəssisələrinin hamısı muasir texnika və avadanlıqla təchiz edilmişdir.

17., Təhsil sahəsinə ayrılan budcə vəsaitlərinin umumi həcmi 2003-cu illə muqayisədə 5 dəfədən cox artaraq 2011-ci ildə 1,5 milyard manat təşkil etmişdir. 2004-cu ildə hər 1063 şagirdə bir kompyuter duşduyu halda, hazırda hər 20 şagirdə bir kompyuter nisbəti təmin olunmuşdur. “Xalq kompyuteri” layihəsi çərcivəsində 10 mindən cox muəllim kompyuterlə təmin olunmuş, 1200 təhsil muəssisəsi internet şəbəkəsinə qoşulmuş, inzibati, pedaqoji və texniki heyət əhatə olunmaqla 75 min nəfər muvafiq treninqlərdən kecərək İKT bacarıqlarına yiyələnmişdir. Muxtəlif fənlər uzrə elektron tədris resursları hazırlanıb məktəblərə verilmiş, 20 məktəbdə “elektron məktəb” layihəsi həyata kecirilməyə başlanmışdır.

18.Azərbaycan Respublikası Dunya İqtisadi Forumunun “Qlobal Rəqabətlilik Hesabatı”nda Mustəqil Dovlətlər Birliyi və regionolkələri arasında lider movqeyinə yuksəlmişdir.

19. İKT sahəsində Cənubi Qafqazın lider dövlətinə çevrilmişdir.İqtisadi və hərbi gücü baxımında da Cənubi Qafqazın lider dövlətidir. 2013-cü il İKT ili elan edilmişdir.2013-cü ilin fevralın Azərbaycanın ilk süni peyki buraxılmış, Azərbaycan kosmos sənayesinin inkişaf etdiyi ölkəyə çevrilmişdir.

**20. Bu gun Azərbaycan kapital idxal edən ölkədən kapital ixrac edən ölkəyə çevrilmişdir(Türkiyəyə,Gürcüstan,Ukrayna)**

**21 Azərbaycanda bu gun 55 siyasi partiya dovlət qeydiyyatından kecmişdir ki, onlardan 11-i parlamentdə təmsil olunur.**

22.Hazırda olkədə vətəndaş cəmiyyəti coşqun inkişaf dövrünü yaşayır. Azərbaycanda **insan huquqları, təhsil, səhiyyə, mədəniyyət, iqtisadiyyat, sosial məsələlər,ekologiya, gender və digər sahələrə aid 2700-dən artıq QHT dovlət qeydiyyatından kecmişdir və onların sayı durmadan artır.** Son 10 il ərzində QHT-lərin yaradılması və onların imkanlarından səmərəli istifadə edilməsini nəzərdə tutan qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində muhum addımlar atılmış, QHT-lərin maliyyə mənbələrinə cıxışı ucun zəruri huquqi muhit təmin edilmişdir. Bununla yanaşı, bu gun Azərbaycan Respublikasında qabaqcıl dunya standartlarına uyğun azad, pluralist mətbuat formalaşmaqdadır.

23.Hazırda 60-a yaxın dovlət proqramı, strategiya və konsepsiya fəaliyyətdədir ki, bunlar da olkəmizin ictimai həyatının butun sahələrinin inkişaf etdirilməsində muhum əhəmiyyətə malikdir.
**24.2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsil almasına dair Dövlət proqramı hazırlanmışdır.Bu müddətdə 5 min gəncin xaricdə təhsil alması nəzərdə tutulmuşdur.**

Tam əminliklə demək olar ki, Azərbaycanda artıq kecid dövru başa catmışdır. **2009-cu ildə qlobal iqtisadi bohran şəraitində belə Azərbaycan iqtisadiyyatı dünya miqyasında rəqabətqabiliyyətliliyinə görə 46-cı yerdədir**. Əminəm ki, gələcək illərdə bizim yerimiz daha da yüksək olacaqdır.

*** Ölkəmiz TRASEKA,İnogeyt,Kars- Axalkalaki, TANAP(Trans Anadolu qaz kəməri) Tap ( Trans Avroatlantik)kimi iri layihələrin reallaşdırılmasında iştirak edir. 2014-cü ilin sentyabr;n 20-də TANAP (Cənub qaz dəhlizi layihəsinin təməl qoyma mərasimi keçirilmişdi) Bu layihə əsrin ən böyük layıhələrindən biridir.**
* 2012-də 20 min qaçqın mənzillə təmin edilmişdir.

*Təkcə 2012-ci ildə 127 000 ailə social təyinatlı vəsait almışdır
* 2012-ci ildə yoxsulluq 7,9 %-dən 6 %-ə enmiş, əhalinin pul gəlirləri 9 mld artmışdır.
*2013-də AZ-nın dövlət büdcəsi 20 mld, hərbi büdcəsi 3,7 mld olmuşdur.

* 2013 fevralın 15-də 1-ci peyk, 2016-da 2-ci peyk orbitə çıxarılacaq.Az-n 1-ci peykin 20%-ni özü istifadə edəcək, qalan hissəni icarəyə verəcək.

İlham Əliyev, Heydər Əliyevin Azərbaycan **xalqının milli-mənəvi dəyərlərinin** qorunub saxlanılması və daha da inkişaf etdirilməsi kursunu uğurla həyata keçirir. Onun "**Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamları** (2004,12 yanvar), Milli Ensiklopediyanın nəşrinə rəhbərliyi şəxsən öz üzərinə götürməsi və bununla bağlı imzaladığı sərəncamlar, alimlərə elmi dərəcələrə görə verilən əlavə əmək haqqını, tələbələr, magistrlər və aspirantların təqaüdlərini dəfələrlə artırması milli-mənəvi və ümumbəşəri dəyərlərə dövlət qayğısının parlaq təzahürləridir.

**Beynəlxalq münasibətlər, xarici siyasət**

1. Bu gun Azərbaycan dünyanın 160 dövləti ilə diplomatik əlaqə saxlayir, 58 ölkədə səfirlik və konsulluqlar fəliyyət göstərir.

2.2001-ci ildə Avropa Şurasına üzv olmuş. 2006-cı ildə Avropanın yeni qonşuluq siyasətinə qoşulmuş, bu gün Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında iştirak edir.

**3.Azərbaycan 2011-ci ilin oktyabında BMT 155 dövlətin dəstəyi ilə BMT-nin qeyri daimi üzvü seçilmiş( 15 üzvdən biri)**

4.Bu gun Azərbaycan dünyanın nüfuzlu təşkilatı olan BMT, ATƏT, Avropa Şurası, NATO-nun sülh naminə əməkdaşlıq, İslam konfransı təşkilatı ilə, regional təşkilatlardan Qara dəniz Əməkdaşkıq təşkilatı,QUAM- la əməkdailiq edir.

5.BMT işğal olunmuş ərazilərlə bağli 822, 853, 874, 884 saylı qətnamə qəbul etmiş, Avropa Şurasının 14/16 saylı və İslam konfransı təşkilatının qərarları olmuşdur.

6. Bu gun Azərbaycan dünyanın idman və mədəniyyət ölkəsi kimi tanınır. 2012-ci il dekabrın 8 –də Romada 48 dövlətdən 38-İ 20 15-ci ildəAvropa olimpiya oyunlarının Azərbaycanda kecirilməsinə dair qərar qəbul etmişdir. Azərbaycan **Olimpiya oyunlarının yekunlarına görə Azərbaycan dünya miqyasında 30-cu, Avropada 15-ci, müsəlman aləmində isə 3-cü yerdə durur**.

7. **2011-ci ildə Avrovijn musiqi festivalının qalibi olmuş,** 2012-ci ildə Avrovijn musiqi festivalına ev sahibliyi etmişdir.

8. Pakistan, Meksika ,ABŞ-ın 12 ştatı Xocalı soyqrımını tanımışdır.
9. **Bu gun dünyanın 60 ölkəsində Azərbaycanın 300 diaspor təşkilatı uğurla fəaliyyət göstərir.**

10. **Azərbaycan MUĞAMI YUNESKO-nun qeyri mədəni irsi siyahısına salınmışdır.**

11. Bu gun Azərbaycan dünya əhəmiyyətli toplantılara ev sahibliyi edir. 2009-cu il oktyabrın 13-14-də, mədəniyyət ili çərçivəsində dünyanın 45-dən çox ölkəsindən, eləcə də İSESCO, İRSİKA, Avropa Şurası, TÜRKSOY və digər təşkilatlardan 200-dən çox nümayəndənin iştirakı ilə respublikamızda İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransı keçirilmişdir. "Bakı - İslam Mədəniyyətinin Paytaxtı- "elan edilmişdir.2011-ci il aprelin 7-də Bakıda 20 ölkədən 435 qonağın, o cümlədən Avropa Şurası Parlament Assambleyası, İSESCO, Dünya İctimai Forumu, UNESCO və BMT rəsmilərinin iştirakı ilə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir.

12. 2011-ci il oktyabrın 10-11-də Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Dmitri Medvedevin təşəbbüsü və himayəsi ilə "XXI əsr: ümidlər və çağırışlar" devizi altında keçirilən Birinci Bakı Beynəlxalq Humanitar Forumunun əhəmiyyətini xüsusi vurğulamalıyıq. **İlham Əliyev müəllifi Heydər Əliyev olan neft strategiyasının hazırlanmasında, bu siyasətin dünya meydanında uğur qazanmasında və gerçəkləşdirilməsində, həmin sahədə müxtəlif layihələrin hazırlanmasında, çox çətin diplomatik tapşırıqların yerinə yetirilməsində fəal iştirak etmiş, ölkəyə investisiya axınında mühüm rol oynamışdır. Onun ölkədə iqtisadi islahatların həyata keçirilməsində, müstəqil Azərbaycanın xarici ölkələrlə iqtisadi və mədəni əlaqələrinin genişlənməsində, xüsusilə neft-qaz yataqlarınının birgə işlənməsinə dair dünyanın qabaqcıl neft şirkətləri ilə tarixi müqavilələrin, o cümlədən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri haqqında müqavilənin bağlanması və reallaşdırılmasında, ümumiyyətlə, Azərbaycan Respublikasının dünyaya inteqrasiyasında mühüm xidmətləri vardır.** İlham Əliyevin böyük əməyi olan neft strategiyasının həyata keçirilməsi, beynəlxalq şirkətlərlə neft müqavilələrinin imzalanması nəticəsində 1994-2000-ci illərdə xarici şirkətlər Azərbaycana 800 milyon ABŞ dolları məbləğində bonus vermişlər. Azərbaycanın neft sektorunda 30 mindən artıq iş yeri açılmışdır.

Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda fəal iştirak edən İlham Əliyev, həm də görkəmli partiya xadimidir. **O, ölkənin aparıcı siyasi partiyası olan Yeni Azərbaycan Partiyasının (YAP) lideridir. İlham Əliyev YAP-ın I qurultayında (1999) partiya sədrinin müavini, II qurultayında (2001) isə birinci müavini seçilmişdir. Bu mühüm vəzifənin öhdəsindən layiqincə gələn İlham Əliyev əhalinin geniş kütlələrinin Yeni Azərbaycanın**

**quruculuğuna səfərbər olunmasında olduqca səmərəli fəaliyyət göstərir. 2000-ci ilin parlament seçkilərində YAP-ın seçki kampaniyasına İlham Əliyev başçılıq etmişdir. Məhz onun rəhbərliyi ilə YAP həmin seçkilərdə parlaq qələbə çalmış və Milli Məclisdə böyük əksəriyyəti qazanmışdır.**

İlham Əliyev Milli Məclisin deputatı olduğu dövrdə geniş və çoxşaxəli fəaliyyət göstərmişdir. O, daim xalqın içərisində olmuş, onun problemlərini öyrənmiş, əhalinin sosial müdafiəyə ehtiyacı olan təbəqələrinə müntəzəm qayğı göstərmişdir. Həmin dövrdə İlham Əliyevin əhalinin müxtəlif təbəqələrinin nümayəndələrinə, qaçqınlara, məcburi köçkünlərə və Qarabağ müharibəsinin əlillərinə qayğısı, Qaradağ rayonununda və ölkənin digər bölgələrində apardığı böyük quruculuq işləri doğma xalqa göstərilən bu qayğının parlaq təzahürləridir.

**Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının üzvü olmuş İlham Əliyevin Avropa Şurasının Parlament Assambleyasında (AŞPA) Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin rəhbəri kimi fəaliyyəti doğma xalqa qətiyyətlə və cəsarətlə xidmət etmək nümunəsidir. Onun AŞPA-dakı məqsədyönlü, qətiyyətli və cəsarətli çıxışları Azərbaycanın Avropa məkanında nüfuzunun daha da artmasına güclü təsir göstərmişdir. Məhz İlham Əliyevin yorulmaz fəaliyyəti, qətiyyətli çıxışları sayəsində erməni təcavüzkarları Avropa Şurasında ifşa olunmuş, Azərbaycanın ayrılmaz parçası olan Dağlıq Qarabağ haqqında, qondarma "Dağlıq Qarabağ problemi" barədə Qərb dünyasında obyektiv rəy formalaşmış, həmin münaqişəyə düzgün siyasi qiymət verilmiş, onun həlli yolunda mühüm addımlar atılmışdır. Avropa Şurasında Ermənistanın təcavüzkar,** işğalçı dövlət kimi tanınmasında, erməni terrorçuluğunun beynəlxalq terrorizmin tərkib hissəsi olmasının sübuta yetirilməsində, nəzarətdən kənarda qalan Dağlıq Qarabağın narkotiklərin ötürücü məntəqəsinə və terror yuvasına çevrilməsinin Avropa və dünya ictimaiyyətinə çatdırılmasında İlham Əliyevin böyük xidmətləri var. Avropa Şurasındakı fəaliyyəti, AŞPA-dakı obyektiv və konstruktiv çıxışları İlham Əliyevə qərb siyasətçiləri arasında böyük hörmət və nüfuz qazanmışdır. O, AŞPA-nın vitse-spikeri və Büro üzvü seçilmişdir (2003, yanvar).

**İlham Əliyev Prezident Heydər Əliyevin gənclər siyasətinin həyata keçirilməsində misilsiz fədakarlıq göstərmişdir və bu sahədə fəaliyyətini indi də uğurla davam etdirir. 1997-ci ildə Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin prezidenti təyin olunan İlham Əliyev az vaxt içərisində həmin sahədə də yüksək təşkilatçılıq istedadına malik olduğunu göstərmişdir. Onun yorulmaz və gərgin əməyi sayəsində, qısa müddət ərzində, Azərbaycan idmanı ayağa qaldırılmış, dünya şöhrətli qazanmışdır.** Azərbaycan idmançılarının beynəlxalq yarışlarda qazandığı parlaq uğurlar İlham Əliyevin başçılıq etdiyi idman hərəkatının, hər şeydən əvvəl, böyük siyasi qələbəsidir.

İlham Əliyev uzaqgörən dövlət xadimi və siyasətçi kimi **sağlam gənclik yetişdirmək, bununla da xalqımızın sağlam gələcəyini təmin etmək üçün idmanı ümumxalq hərəkatına çevirmək xətti yeridir. Onun təşəbbüsü ilə təkcə paytaxt Bakıda deyil, eyni zamanda regionlarda (Naxçıvan, Gəncə, Şəki, Lənkəran, Quba) da olimpiya idmanı-sağlamlıq komplekslərinin tikilib istifadəyə verilməsi, idmanın müxtəlif sahələrinin inkişafı üçün güclü maddi-texniki baza yaradılması xalqın sağlam gələcəyinə yönəlmiş müdrik siyasətin parlaq təzahürləridir.**

Hazırda Azərbaycanın beynəlxalq yarışlarda, idmanın müxtəlif sahələrində ön mövqelərə çıxması, Bakının dünya üzrə mühüm beynəlxalq yarışların keçirildiyi mərkəzə çevrilməsi Azərbaycanın şöhrətini daha da artırır, onun beynəlxalq nüfuzuna müsbət təsir göstərir. Bu, İlham Əliyevin gənclər siyasətinin ən böyük uğurlarından biridir.

**İlham Əliyev beynəlxalq münasibətlər tarixi sahəsində dərin biliyə malik olan peşəkar siyasətçi kimi dünya miqyasında böyük hörmət və nüfuz qazanmışdır. O, Azərbaycan nümayəndə heyətinin başçısı, yaxud üzvü kimi ABŞ, İngiltərə, Türkiyə, Fransa, Rusiya, Ukrayna, İsveçrə, Qazaxıstan, Özbəkistan, Slovakiya, Polşa, Gürcüstan və b. ölkələrdə rəsmi səfərlərdə, o cümlədən dövlət səfərlərində olmuş, bir çox beynəlxalq konfrans və konqreslərdə məruzələrlə çıxış etmişdir.**

İlham Əliyev Azərbaycan Respublikası Milli Məclisinin (1-2-ci çağırış) deputatı olmuş, AŞPA-da Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin başçısı və AŞPA-nın vitse-spikeri və Büro üzvü vəzifələrində səmərəli fəaliyyət göstərmişdir. Azərbaycan xalqı qarşısındakı xidmətləri nəzərə **alınaraq İlham Əliyev 2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri təyin olunmuşdur. O, 2003-cü ilin Prezident seçkilərində parlaq qələbə qazanaraq xalqın iradəsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.**

Prezident İlham Əliyev Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu siyasətini uğurla davam etdirir. Onun rəhbərliyi ilə ölkədə iqtisadi islahatlar daha da sürətlənmiş, xüsusi **prezident fərmanı ilə 2004-2008-ci illərdə regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramı qəbul olunmuşdur.** Prezident İlham Əliyev ölkədə İnsan haqları və azadlıqlarının daha dolğun təmin olunmasını daim diqqət mərkəzində saxlayır. **O, Heydər Əliyevin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi kursunu uğurla həyata keçirir. Onun "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamları (2004,12 yanvar), Milli Ensiklopediyanın nəşrinə rəhbərliyi şəxsən öz üzərinə götürməsi və bununla bağlı imzaladığı sərəncamlar, alimlərə elmi dərəcələrə görə verilən əlavə əmək haqqını, tələbələr, magistrlər və aspirantların təqaüdlərini dəfələrlə artırması milli-**

**mənəvi və ümumbəşəri dəyərlərə dövlət qayğısının parlaq təzahürləridir.** İlham Əliyev Azərbaycan xalqının tarixi keçmişinə xüsusi qayğı və diqqət göstərir. O, Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdəki roluna yüksək qiymət vermişdir: "Azərbaycan Xalq Cümhuriyyətinin yaranması tariximizdə çox əlamətdar və önəmli hadisə idi. İlk dəfə müsəlman aləmində demokratik respublika yaranırdı, Azərbaycan xalqı müstəqilliyə qovuşurdu. Ölkəmiz dünya birliyinə üzv olurdu. Bu, çox əlamətdar hadisə idi".

Prezident İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində Heydər Əliyevin xarici siyasət kursunun həyata keçirilməsində, o cümlədən Azərbaycanın ərazi bütövlüyünü pozmuş erməni işğalçılarının təcavüzkar mövqeyinin beynəlxalq aləmdə ifşa olunmasında mühüm uğurlar qazanılmaqdadır**. Geniş dünyagörüşünə, dərin və hərtərəfli biliyə, yüksək mədəniyyətə malik olan İlham Əliyev müasir və çevik siyasətçi kimi dünyada böyük hörmət və nüfuz qazanmışdır. O, sürətlə dəyişən çağdaş dünyada, qloballaşma və inteqrasiya proseslərində, bütün beynəlxalq görüşlərdə və apardığı yüksək səviyyəli danışıqlarda Azərbaycanın mənafelərini bütün sahələrdə uğurla müdafiə edir. İlham Əliyevin uğurlu xarici siyasəti sayəsində Azərbaycanın beynəlxalq və regional problemlərin həllində də rolu və nüfuzu getdikcə artır.**

Azərbaycan Prezidenti İlham Əliyev bir çox ölkənin və beynəlxalq təşkilatların fəxri adları və mükafatlarına layiq görülmüş, AŞPA-nın fəxri üzvü diplomu və medalı ilə təltif olunmuşdur.

Prezident İlham Əliyevin həyata keçirdiyi müdrik daxili islahatlar və uzaqgörən, məqsəqyönlü xarici siyasət sayəsində Azərbaycan Cənubi Qafqazda lider dövlətə çevrilməkdədir.

## Ölkə başçısının təltif  və fəxri adları

Prezident İlham Əliyevin təltif olunduğu orden, mükafat və fəxri adlar aşağıdakıları əhatə edir: Heydər Əliyev ordeni (Azərbaycan Respublikası), Beynəlxalq münasibətlər və sülh naminə İhsan Doğramacı mükafatı (Türkiyə), Rumıniya Ulduzu Ordeni (Rumıniya), Kral Əbdüləziz Ordeni (Səudiyyə Ərəbistanı Krallığı), Şərəf Ordeni (Gürcüstan), "Şərəf Legionunun Böyük Xaçı" Ordeni (Fransa), Şeyxülislam Ordeni (Azərbaycan Respublikası), Rusiya Pravoslav Kilsəsinin "Prepodobnıy Serqiy Radonejskiy" birinci dərəcəli Ordeni, "Böyük Kordon" Şərəf Ordeni (Beynəlxalq Hərbi-İdman Şurası), MDB ölkələrin İdman Təşkilatlarının Beynəlxalq Konfederasiyasının "Şərəf Ordeni", FİLA-nın Şərəf Zalının ən yüksək "İdman Əfsanəsi" ordeni, Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Xaç ordeni

(Polşa), I dərəcəli Knyaz Yaroslav Mudrı ordeni (Ukrayna), "Mübarək əl-Kəbir" ordeni (Küveyt Dövləti), Yunanıstan parlamentinin Qızıl medalı (Yunanıstan), Avropa Ədalətli Oyunlar Hərəkatının "Şərəf" nişanı, "Üç ulduz" ordeninin "Böyük xaç kavaleri" dərəcəsi, "Sadiq Xidmət" milli ordeninin Böyük Xaç ranqı (Rumıniya).

Linkoln Universitetinin Fəxri Doktoru (ABŞ), Moskva Dövlət Beynəlxalq Münasibətlər Universitetinin Fəxri Doktoru, L.N.Qumilyov – Avrasiya Milli Universitetin Professoru (Qazaxıstan), Bilkənt Universitetinin Fəxri Doktoru (Türkiyə), Vergilər üzrə Milli Akademiyanın Fəxri Doktoru (Ukrayna), Ploesti Neft və Qaz Universitetinin Fəxri Doktoru (Rumıniya), Milli və Dünya İqtisadiyyatı Universitetinin Fəxri Professoru (Bolqarıstan), Kyung Hee Universitetinin Fəxri Doktoru (Cənubi Koreya), İordaniya Universitetinin Fəxri Doktoru (İordaniya), Korvinus Universitetinin ictimai elmlər üzrə Fəxri doktoru (Macarıstan), M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Fəxri professoru (Rusiya Federasiyası), Taras Şevçenko adına Kiyev Milli Universitetinin Fəxri doktoru (Ukrayna), Məxdumqulu adına Türkmənistan Dövlət Universitetinin Fəxri professoru (Türkmənistan Respublikası), Bakı Dövlət Universitetinin Fəxri doktoru (Azərbaycan), Belarus Dövlət Universitetinin Fəxri professoru (Belarus Respublikası).

## AZƏRBAYCAN - 2020: GƏLƏCƏYƏ BAXIŞ" İNKİŞAF KONSEPSİYASI

Azərbaycan Prezidenti İlham Əliyev "**Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyasının** hazırlanması haqqında Sərəncam imzalamış,layihə hazirlanmiş, Prezident aparatı yanında Strateji araşdırmalar mərkəzi elmi konfrans keçirmişdir. Konfransın başlıca məqsədi movcud imkanları və resursları nəzərə almaqla Azərbaycanda davamlı iqtisadi artım və yuksək sosial rifah, səmərəli dovlət idarəetməsi və qanunun aliliyi, insanların butun huquq və azadlıqlarının tam şəkildə təmin olunması və vətəndaş cəmiyyətinin olkənin ictimai həyatında fəal statusu ilə səciyyələnən inkişaf mərhələsinə nail olmaqdır.

Konfransda Azərbaycanın 2020-ci il üçün əsas inkişaf prioritetləri kimi aşağıda qeyd olunanlar nəzərdə tutulmuşdur. ***Qeyri-neft sektorunun inkişafı,*** **nəqliyyat, tranzit və logistika infrastrukturu nun təkmilləşdirilməsi, İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı və informasiya cəmiyyətinə kecidin təmin olunması** ***,muasir təhsil sisteminin formalaşdırılması, sosial mudafiə sisteminin təkmilləşdirilməsi, Gender bərabərliyinin təmin olunması və ailənin inkişaf etdirilməsi,*** **vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi,mədəni irsin qorunması və səmərəli idarə edilməsi,ətraf muhitin qorunması və ekologiya məsələləri,** ***elmi potensialın və innovasiya fəaliyyətinin dəstəklənməsi*** **,insan kapitalının inkişafı və səmərəli sosial mudafiə sisteminin qurulması.**

## Ədəbiyyat

1.Azərbaycan tarixi 7 cilddə, VII-cild.B, 2003
2. Qaffarov T Azərbaycan Respublikası 1991-2001. Əsrə bərabər on il.Bakı 2001
3. Qaffarov T. Azərbaycanın ən yeni tarixi. XX əsrin sonları XXI əsrin əvvəlləri. Bakı: Gizo Enterprise, 2006
6.*Əliyev H.* Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət. "Respublika" qəzeti, 20 dekabr 2000-ci il.
7. *Nadirov A.* Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri. Bakı, 2001
8.Mahmudov Y. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı,2002
9.Ağamalı F. Dövlətçiliyimizin İlham Əliyev mərhələsi.Bakı,2003
10.Kazımlı X. Böyük siyasətin davamı.Bakı,2007
11.Зенкович Н. Ильхам Алиев.М, 2008

**Multikulturalizm Azərbaycanın həyat tərzidir.**

Plan: **1. Multikulturalizm anlayışı və meydana gəlməsi.**

**2.Azərbaycanda multikulturalizm həyat tərzi və dövlət siyasətidir.**

**3.Ölkə rəhbərliyinin Multikulturalizmin inkişafı ilə bağlı tədbirləri**.

4. **Qərb ölkələrində multikulturalizm siyasətinin iflasa uğramasının səbəbləri.**

1. Multikulturalizm (ingilis dilindən tərcümədə "çoxlu mədəniyyətlər" deməkdir). . Çoxmədəniyyətlilik dedikdə isə ilk növbədə etnik, irqi, dini və mədəni müxtəlifliklər, bu müxtəlifliklərin əsasını təşkil edən dəyərlər nəzərdə tutulur. Multikulturalizm – ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və dinlərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və harmonizasiyasına, azsaylı xalqların dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına yönəldilmişdir.

Müasir dövrdə dünya ölkələrinin əksəriyyətində etnik, irqi, dini və mədəni müxtəlifliklər mövcuddur. Bu müxtəlifliklər tarixi prosesin inkişafının nəticəsi kimi obyektiv xarakter daşıyır. Onlar xalqların etnik-mədəni dəyərlərini, mədəniyyətlərini xarakterizə etməklə onların dünyagörüşü və fəaliyyətlərinin əsasını təşkil edir və həyatında müsbət rol oynayır.

Multikulturalizm 1960-cı illərin sonunda Kanadada meydana gəlmişdir. Termin kimi o, 1970-ci illərdə ədəbiyyatda əks olunmuşdur. The Harper Colins sosiologiya lüğətində (1991) Multikulturalizmin belə bir tərifi verilir: "Multikulturalizm – bir çox cəmiyyətlərin xüsusiyyəti kimi plüralizmin mövcudluğunun etiraf olunması və inkişafı deməkdir. "Azərbaycan multikulturalizmi" – inteqrativ bir fəndir. O, fəlsəfə, politologiya, tarix, sosiologiya, kulturologiya və bu kimi bir sıra ictimai elmlərin müddəalarından istifadə edir. "Azərbaycan multikulturalizmi" fənninin qarşısında əsas məqsədə - tələbələrə Azərbaycan Respublikasınının

multikulturalizm siyasətinin mahiyyətini, onun xüsusiyyələrini və bu siyasətin ölkədə uğurla həyata keçirilməsinin səbəblərini izah etmək- nail olmaq üçün sadalanan ictimai elmlərə müraciət etmək vacibdir. “Azərbaycan multikulturalizmi” fənninin böyük idraki, praktiki, siyasi, ideoloji, mənəvi-tərbiyəvi əhəmiyyəti vardır.

2.Azərbaycanda multikulturalizm, tolerantlıq və dini dözümlü- lüyün dövlət siyasəti səviyyəsində inkişaf etdirilməsinin əsasları- nı ölkənin qədim dövlətçilik tarixi və bu ənənələrin inkişafı təşkil edir. Tarixi ənənələrə nəzər salsaq görərik ki, istər Səfəvilər dövləti, istər XIX-XX əsrlər maarifçilik dalğası, istərsə də Xalq Cümhuriyyəti dövründə Azərbaycan ərazisində yaşayan digər etnik xalqlar və dini qrupların nümayəndələrinin təmsilçiliyini özündə cəmləyən bu siyasi davranış XX əsrin sonlarında ulu öndər Heydər Əliyev tərəfindən dövlətçilik ideologiyası forması- na çevrilmışdir. Ümummilli liderimiz Heydər Əliyevin siyasətinəticəsində ötən əsrin 90-cı illərində Azərbaycanda tolerantlıq və multikulturalizm ənənələri bərpa edilmişdir. Müstəqilliyimizin ilk illərində yaranmış xaosdan ölkəni xilas edən və xalqın istəyi ilə hakimiyyətə gələn ulu öndər Heydər Əliyev respublikamızda dini etiqad azadlığının təminatçısı, milli-mənəvi dəyərlərin qoruyucusu olmuşdur. Heydər Əliyev Azərbaycanda yaşayan dini icmalara qarşı həmişə hörmət və ehtiramla yanaşmış, onların dini bayramlarını təbrik etmiş, adət-ənənələrinə qayğı göstərmişdir. İştirak etdiyi bütün beynəlxalq tədbirlərdə tolerantlıqla bağlı fikirlərini bildirmiş, indiki qloballaşma dövründə dinlərarası, mədəniyyətlərarası dialoqa həmişə üstünlük vermişdir. Müstəqil Azərbaycanda multikultural dəyərlərin formalaşmasında azərbaycançılıq ideologiyası əvəzsiz rol oynayır. 1993-cü ildə Azərbaycan dövlətini parçalanmadan qurtarmış ümummilli liderin uğurlarının kökündə məhz azərbaycançılıq ideyası dayanırdı. Həmin dövrdə respublikada milli-etnik ixtilaf, bölücülük tendensiyası ayrı-ayrı bölgələrdə özünü daha qabarıq göstərirdi. Belə bir zamanda xalq dinindən, etiqadından və etnik bölgüsündən asılı olmayaraq Heydər Əliyevin azərbaycançılıq ideyası ətrafında birləşdi və ölkəni parçalamaq istəyən qüvvələr zərərsizləşdirildi. Ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinin layiqli davamçısı olaraq Prezident İlham

Əliyevin uğurlu daxili siyasəti nəticəsində azərbaycançılıq ideyası ölkədə yaşayan bütün etnik qrupların vahid ideyasına çevrilmişdir. Azərbaycan Respublikası polietnik dövlətdir. Xalq, dövləti təşkil edən etnosdan – azərbaycanlılardan və bir sıra milli azlıqlardan: udinlər, ingiloylar, qrızlar, xınalıqlar, buduqlar, tatlar, talışlar, ləzgilər və digərlərindən təşkil olunmuşdur. Bu millətlə- rin tarixən Azərbaycandan başqa vətənləri olmamış və buna görə də vahid polietnik Azərbaycan vətəndaşları hesab olunurlar. Bu millətlərdən başqa respublikamızda öz tarixi vətənləri olan ruslar, ukraynalılar, belaruslar, kürdlər, yəhudilər, yunanlar, almanlar və tatarlar yaşayırlar. Təkcə Bakıda rusların, ukraynalıların, kürdlərin, lakların, ləzgilərin, slavyanların, tatların, tatarların, gürcülərin, ingiloyların, talışların, avarların, axıska türklərinin, Avropa və dağ yəhudilərinin, gürcü yəhudilərinin, alman və yunanların iyirmidən yuxarı cəmiyyətləri və mədəniyyət mərkəzləri vardır. Ümumiyyətlə, etnik azlıqların kompakt şəkildə yaşadıqları bütün rayonlarda belə icmalar mövcuddur. Məhz Azərbaycanda dağ yəhudilərinin məskəni – Qırmızı Sloboda, Molokan kəndi İvanovka, udin kəndi Nic, öz dili, özü- nəməxsus adət və ənənələri ilə məşhur olan Xınalıq kəndi və baş- qa milli azlıqların yaşadığı onlarla belə məskənlər mövcuddur. Etnik azlıqlar da yerli əhali ilə bərabər bütün hüquqlara malikdirlər. Azərbaycanda dinlərarası dialoq və tolerantlığın dünyanın bir çox polietnik regionları üçün nümunə olan xüsusi modeli formalaşmışdır. Ölkə vətəndaşlarının böyük əksəriyyətini təşkil edən müsəlmanların hüquqlarını təmin etməklə yanaşı, dövlət respublika ərazisində yayılan bütün ənənəvi dinlərə qayğı göstərir. Hazırda Azərbaycanda müsəlman icmaları ilə paralel şəkildə qeydə alınmış 21 qeyri müsəlman dini icmaların fəaliyyətini tə- min edən "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu və bu qanunun icrasını həyata keçirən Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi mövcuddur. Komitənin əsas vəzifəsi isə ölkədə müxtəlif din və konfessiyalara bərabər imkanlar və şərait yaratmaqdan ibarətdir. Milli azlıqların hüquq və azadlıqlarının qorunması Azərbaycan dövlətinin yürütdüyü siyasətin əsas istiqamətlərindən biridir və tolerantlıq baxımından örnək bir dövlət kimi özünü təsdiqlə- yən Azərbaycan

hazırda burada yaşayan bütün xalqların, bütün dinlərə etiqad edənlərin azad yaşadığı bir dövlətdir. İrqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən və mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşların hüquq və azadlıqlarının bərabərliyini təmin edən milli siyasətin əsas müddəaları Azərbaycan konstitusiyasında (maddə 25, 44.) göstərilmişdir. Azərbaycan Respublikasının milli siyasət konsepsiyası həmçinin aşağıdakı beynəlxalq sənədlərə əsaslanır: • BMT-nin İnsan hüquqları Haqqında Ümumi Bəyannaməsi; • İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyası; • BMT-nin "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktı; • Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Yekun aktı; • ATƏT-in insan meyarları üzrə Konfransının Kopenhagen sənədi; • Müstəqil Dövlətlər Birliyinin üzvləri tərəfindən qəbul edilmiş "Milli azlıqlara mənsub olan şəxslərin hüquqlarının təmin edilməsi haqqında" konvensiya. Azərbaycanda müxtəlif millətlərin nümayəndələri cəmiyyətin ayrı-ayrı sahələrində məhsuldar işləyərək ölkənin inkişafına layiqli töhfələr verir, dövlət strukturlarında çalışırlar. Milli Məclisdə ölkənin bir sıra etnik azlıqları, o cümlədən, rus, ləzgi, tat, talış və b. öz nümayəndələri ilə təmsil olunurlar.

3. Hazırda Prezident İlham Əliyevin uğurlu siyasətin nəticəsidir ki, Azərbaycanda multikulturalizm həyat tərzi və dövlət siyasətinə çevrilmişdir. 2014-cü ilin fevral ayının 28-də Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi xidməti yaradılmışdır. Azərbaycanda dini mədəniyyətin, tolerantlığın, dinlərarası və mədəniyyətlərarası dialoqun təbliğinin gücləndirilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan "Dini Mədəniyyətin İnkişafı" fonduna 3,0 (üç) milyon manat ayrılmışdır.15 may 2014-cü ildə "Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidenti Fərman imzalamışdır. Multikulturalizm Mərkəzininin qarşısında aşağıdakı vəzifələr qoyulmuşdur.

1. Multikulturalizmin və tolerantlığın həyat tərzinə çevrildiyi Azərbaycan gerçəkliyinin mədəni, sosial, siyasi mahiyyətini öyrənmək və təbliği mexanizmini hazırlamaq;
2. Azərbaycan Respublikasında mədəni-etnoqrafik müxtəlifliyin azərbaycançılığın inkişafına xidmət göstərməsi yollarını müəyyənləşdirib gerçəkləşdirmək;
.3. Azərbaycan Respublikasında mədəni, dini müxtəlifliyin tolerant əsaslarının elmi təhlilini aparmaq və qorunub saxlanması yollarını müəyyənləşdirmək;
4. müxtəlif bölgələrə aid mədəni irsi öyrənmək, onların müasir dövrdə ahəngdar inkişafının təmin edilməsinə, vətəndaş cəmiyyətinin potensialından istifadə edərək tarix, mədəniyyət və dini abidələrin qorunub saxlanması prosesinə dəstək vermək;
.5. multikultural həyatda müxtəlif bölgələrə aid mədəniyyətlərin bir-birinə təmas dərəcəsini öyrənmək və təşviq etmək;
6. aidiyyəti elmi qurumlarla əlaqəli şəkildə Azərbaycan Respublikasının müxtəlif bölgələrində qədim mədəniyyət izlərini axtarmaq (arxeoloji tədqiqatları "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraqtəşkil etmək), mədəni, etnoqrafik irsin toplanıb elmi şəkildə öyrənilməsini və qorunmasını həyata keçirmək;
7. təhsil, mədəniyyət, elm və digər sosial sahələrdə özünü göstərən, şəxsiyyətin mənəvi bütöv- lüyünün həmahəng inkişafına mane olan müəyyən çatışmazlıqların sistemli şəkildə aradan qaldırılması istiqamətində layihələr gerçəkləşdirmək;
.8. müxtəlif dinlərə mənsub gənc din xadimlərinin peşəkar dini, dünyəvi biliklərinin artırılması istiqamətində tədbirlər həyata keçirmək;
9. Azərbaycan Respublikasının multikultural nailiyyətlərinin beynəlxalq mütəxəssislər tərə- findən öyrənilərək xarici ölkələrdə təbliğini təmin etmək;
10. şəxsiyyətin saflaşmasında, xalqlararası, dinlərarası qarşılıqlı hörmət və etimad münasibətlərinin yaranmasında xüsusi xidməti olan görkəmli yerli və xarici ölkə vətəndaşlarının qiymətlən- dirilməsi, təşviq edilməsi mexanizmini hazırlayıb həyata keçirmək;

11. multikulturalizm üzrə dünya mütəxəssislərinin, eyni zamanda keçmiş və müasir siyasi, ictimai, elm, mədəniyyət, incəsənət xadimlərinin şəxsi təcrübələrini təhlil etmək və yaymaq

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması müasir dövrdə respublikamızda gerçəkləşdirilən siyasətin tolerantlıq prinsiplərinə bu gün də sadiq qalmasının bariz nümunəsidir. Respublikası Prezidentinin " 2016-cı il. 11 yanvar sərəncamı ilə 2016-cı il "Multikulturalizm ili" elan edilmişdir.

Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7- ci Qlobal Forumunun 2016-cı ildə Bakı şəhərində keçirilməsi barədə qərar qəbul edilməsi dünya ölkələrinin Azərbaycandakı multikultural mühitə olan münasibətinin real ifadəsidir.

Azərbaycanda mədəniyyətin, tolerantlığın, dinlərarası və mədəniyyətlərarası dialoqun təbliğinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında Azərbaycan Tarixdə ilk dəfə olaraq 2008-ci ildə Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin Bakıda keçirilən toplantısına İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədə- niyyət nazirləri də dəvət olunmuşdur. Həmin tədbirin hər iki qurumun fəal üzvü olan Azərbaycanda baş tutması isə, təbii ki, bö- yük siyasi məna daşıyırdı. Respublikamız bu məsələdə liderliyini ötən illərdə də qoruyub saxlamışdır. 2009-cu ildə Bakıda keçirilən İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərinin toplantısına isə Avropa Şurasından mədəniyyət nazirləri qatılmışdı. "Bakı prosesi" adlanan bu təşəbbüs sonradan Azərbaycanda dünya dini liderlərinin Zirvə görüşünün, mədəniyyətlərarası dialoq və Bakı Beynəlxalq Humanitar forumlarının keçirilməsinə təkan verdi. 2010-cu ilin aprelində Bakıda dünya dini liderlərinin sammitinin keçirilməsi, noyabrda isə "Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru" möv-zusunda tədbirin yüksək səviyyədə təşkili Azərbaycan dövlətinin və prezident İlham Əliyevin ölkədə dini tolerantlığa xüsusi önəm verməsindən irəli gəlirdi. 2011-ci

ilin aprel ayında Azərbaycanda növbəti möhtəşəm tədbir – Mədəniyyətlərarası Dialoq Forumu keçirildi. Prezident İlham Əliyevin təşəbbüsü ilə "Çoxmədəniyyətli dünyada sülh şəraitində birgə yaşamaq" devizi altında 2013- cü il may ayının 29-dan iyunun 1-dək Bakıda keçirilən II Dünya Mədəniyyətlərarası Dialoq Forumu və 2015-ci il 18-19 mayda III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu ölkəmizin siyasi-mədəni həyatında mühüm hadisə kimi yadda qalmışdır. Forumun əsas tərəfdaşları qismində UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub Mərkəzi, İSESCO, BMT-nin Dünya Turizm Təşkilatı kimi beynəlxalq qurumlar çıxış etmişlər. 9 BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Bakı şəhərində keçirilməsi Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun daha da artırılmasında, Azərbaycan xalqının tariximədəni irsinin geniş miqyasda tanıdılmasında əhəmiyyəti böyükdür. Bu isə dünya ölkələrinin Azərbaycandakı multikultural mü- hitə olan münasibətinin real ifadəsidir. Bir ölkədə yaşanan müsbət dəyərlərin dünyaya yayılması istiqamətində həmin dövlətdə təşkil olunan idman yarışlarının da böyük əhəmiyyəti var. İdman yarışları əslində, elə tolerantlığı, sülhü təbliğ edir. Azərbaycan ilk Avropa oyunlarını təşkil etməklə həm də özünün tolerantlıq, dözümlülük dəyərlərini dünyaya bəyan etdi. Bu baxımdan "Formula-1" avtoyarışları üzrə Avropa QranPrisi, Şahmat Olimpiadası və 2017-ci ildə keçiriləcək IV İslam Həmrəylik Oyunları da böyük əhəmiyyət kəsb edir. Azərbaycanda keçirilən beynəlxalq tədbirlər, forumlar, konfranslar, "Eurovision" mahnı yarışması, idman tədbirləri bir daha sübut edir ki, dünyanın aparıcı beyin, düşüncə mərkəzləri ölkəmizdəki bu maraqlı modeli qəbul edərək, dünyaya nümunə olaraq göstərirlər."Tolerantlığın ünvanı Azərbaycan" layihəsi çərçivəsində ölkədəki məscidlərdə, kilsələrdə, sinaqoqlarda təmir-bərpa işləri aparılır. Bakıda yəhudi uşaqları üçün təhsil kompleksinin istifadəyə verilməsi, Fransa regionlarında kilsə- lərin, müqəddəs Roma katakombalarının bərpası, Həştərxanda Müqəddəs Knyaz Vladimirə abidənin ucaldılması, Bakıda yaşayan yəhudi uşaqları üçün "Xabad-Or-Avner" Təhsil Mərkəzinin yaradılması, dünyanın müxtəlif ölkələrində dünya şöhrətli fotoqraf Reza Deqatinin ölkəmizdə dini tolerantlığı əks etdirən

fotoşə- killərinin sərgilənməsi məhz ayrı-ayrı xalqların və konfessiyaların qarşılıqlı hörmət və dostluq münasibətlərinin genişləndirilməsinə xidmət edir. Fondun digər bir xidməti Azərbaycanın Vatikanda sərgi təşkil edən ilk müsəlman ölkəsi kimi tarixə düşməsidir. Bu isə bəşəri multikulturalizmin ən ali nümunələrindən biri kimi dəyərləndirilə bilər.

4.İngiltərə baş naziri David Kameron və Almanya federal kansleri Angela Merkelin multikulturalizmin iflasa uğraması ilə bağlı bəyantları həm siyasət, həm də akademik mühitdə birmənalı qarşılanmadı. Artıq yeni dünya multikulturalizm anlayışında da reformlar aparılmasını labüd edir. Burada qeyd etmək lazımdır ki, nə yerli xalqlar, nə də milli azlıqlar üçün multikultural vətandaşlığa mənsub olmadan geriyə addım atılmamışdır. Əksinə torpaq mülkiyyəti hüquqları, muxtariyyətlilik və yerli xalqların ənənəvi hüquqi sistemləri Qərb demokratiyasında yeri vardır. BMT-də 2007-ci ildə Yerli Xalqların Hüquqları bəyannaməsi qəbul edilmişdir. Bugün Kataloniyada regional muxtariyyətin İspaniyada demokratiyanın inkişafında, yerli xalqlara tanınan hüquqların Latın Amerikada demokratik vətandaşlığın daha da dərinləşməsinə kömək etməsini heç kim inkar edə bilməz. Dünya kommunist sisteminin dağılması soyuq müharibə dövrünə son qoyaraq iki bir-birinə zidd olan siyasi sistemin hərbi, siyasi, iqtisadi və ideoloji qarşıdurmasına da son qoydu. Nəticədə xalqlar öz mədəni dəyərlərinə müraciət etməyə imkan əldə etdilər. Bu barədə Samuil Hantunqton "Sivilizasiyaların toqquşması və dünya düzəminin yenidən qurulması" adlı kitabında qeyd edir: "Yeni dünyada xalqlar arasında əsas fərqlər ideoloji, siyasi, iqtisadi deyil, mədəni xarakter daşıyır". Öz tarixinə, dininə, dilinə, mənəvi dəyərlərinə müraciət edən xalqlar, öz kimliklərini müəyyən edirlər". İnqlehart Ronald: "Dövlət başçıları və qanunlar dəyişə bilər, lakin mədəniyyətin əsas aspektlərii dəyişmək üçün çoxlu illər tələb olunacaqdır". Ralf Darendorf: "İnstitusional mühitin, yəni qanunların dəyişməsi üçün ay kifayətdir, iqtisadi şəraitin dəyişməsinə bir iki il tələb olunur, amma şüurun dəyişməsinə onilliklər tələb olunur." Pain: "Mədəniyyət siyasətdən daha vacibdir, çünki Mədəniyyət stereotipləri siyasi doktrinalardan əvvəl gəlir və onların əsasını təşkiil edir."

Mədəni müxtəliflik ölkələr arasında, dövlətlərin daxili siyasətində çox önəmli məsələ kimi daim diqqətdə saxlanılmalıdır. İSESCO-nun baş direktoru İrina Bokova millətlərarası münasibətlərin inkişafında Azərbaycanın tolerantlıq təcrübəsini yüksək qiymətləndirərək bildirir ki, Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində Azərbaycan çox vacib mövzulara həsr olunmuş beynəlxalq tədbirlərə ev sahibliyi edir: "Çox mürəkkəb, regional və beynəlxalq vəziyyətdə yaşadığımız bu dövrdə sülhün, mədəniyyətlərarası dialoqun təşviqi mədəniyyətlərin yaxınlaşması üçün başlıca amillərdən biridir ki, bu da dünya sivilizasiyasını xilas edə bilər

Göründüyü kimi bu gün ölkə rəhbərliyinin apardığı uğurlu siyasət nəticəsində Multikulturalizmin Azərbaycan modeli yaranmışdır və bu dünya xalqlarının yaxınlaşması, elmi.mədəni dəyərlər mübadiləsinə, tolerantlığın, sülh və tərəqqinin inkişafına xidmət edir.

## Ədəbiyyat


1. Kamal A. Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları. Bakı, 2016.
2. "Multikulturalizm" jurnalı, 2016, №1.
3. Həmidova İ. Azərbaycan multikulturalizmi milli sərvətimizdir. //Azərbaycan məktəbi, 2016, №2.
4. Azərbaycan multikulturalizmi fənni dünya universitetlərində uğurla tədris olunur. 525-ci qəzet, 20 iyun 2015.
5. Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi. 525-ci qəzet, 14 dekabr 2015.
6.Elmira Qasımova /multikulturalizm - həyat tərzimizdir/ "Azərbaycan məktəbi" 2016/4
7.Multikulturalizm Azərbaycanın həyat tərzidir/ Bakı - 2016
8.Rəna Mirzəzadə Multikulturalizm siyasəti.